

# AĞBABA VƏ ŞİRVAN FOLKLOR ÖRNƏKLƏRİ

# AĞBABA VƏ ŞİRVAN FOLKLOR ÖRNƏKLƏRİ

**Bakı – 2023**

**Toplayanı:** **Əhməd Cəfərzadə**

**Tərtib edəni və redaktoru:** **Tacir Səmimi**

**Texniki redaktoru:** **Aygül Cəfərzadə**

**Korrektoru:** **Vüsal Abiyev**

**Naşiri:** **Turan İbrahimov**

**AĞBABA VƏ ŞİRVAN FOLKLOR ÖRNƏKLƏRİ.**

Toplayanı Əhməd Cəfərzadə, tərtib edəni, redaktoru və
"Ön söz"ün müəllifi Tacir Səmimi.

*Bakı, SkyE, 2023, 340 s.*

Oxuculara təqdim edilən bu kitabda filologiya elmləri doktoru Əhməd Cəfərzadənin Ağbaba və Şirvan bölgəsindən yazıya alınan müxtəlif folklor nümunələri (nanaylar, bayatılar, ovsunlar, sayaçı və atalar sözləri, tapmacalar, yanıltmaclar, düzgülər, mərasim mahnıları) toplanmışdır. Bayatılar tərbiyə, nəsihət məzmununa, tarixi hadisələrə, ağılar isə yer adlarına və s. görə qruplaşdırılmışdır. Kitabda həmçinin Amasiyanın Qarapapaq tayfası haqqında qeydlər, Şirvanın Udulu bölgəsinə aid maraqlı məlumatlar var.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-440-39-1

© Turan İbrahimov, 2023

# ÖN SÖZ

Dünyada elə adamlar var ki, yaxşılığı insan işi, xeyirli əməl hesab edir, hər kəsə işinə, əməlinə görə dəyər verir, el-obada ağsaqqal, elm-ürfan adamı, hikmət sahibi kimi tanınırlar. Belələrindən biri də Kərim müəllimdi. Kərim Əskərov. Bu kişi olduqca zarafatcıl, baməzə olduğu qədər də ciddi, sözün-söhbətin yerini, sözün dəyər və qiymətini biləndi. Həmişə Əhməd əmidən (Əhməd Cəfərzadədən) söz düşəndə deyərdi:

– Bu Əhməd müəllimin zəngin bir xəzinəsi var, onun mətahını da xərcləməklə bitib-tükənən deyil – bunu da bil.

Kişi bunu Əhməd əminin yanında da deyirdi. O buna görə də dostuna bir söz deməz, sadəcə gülümsünərdi. O vaxtlar gəncdim, tələbəydim. Kərim müəllimin bu sözləri mənə qəribə gəlirdi. Bəzən də özüm özümə deyirdim ki, görəsən Kərim müəllim niyə belə deyir. Sonra da Kərim müəllimin ciddi çöhrəsi gəlib dururdu gözlərimin önündə. Öz-özümə deyirdim: "Yox, burada bir hikmət var, amma Əhməd əmi ilə bir az da yaxın olsam yəqin ki, Kərim müəllimin dediyi xəzinəyə sahib olmasam da ondan nəsə əldə etmiş olaram".

Neçə illərdən sonra anladım ki, Kərim müəllim düz deyirmiş. Əhməd əminin zəngin bir irsi, toplama materialları varmış... Nə yaxşı ki, mən də az-çox bunlardan bəhrələnə bildim.

Burada toplanan folklor örnəkləri əsasən 12-15 yaşlı şagirdlər tərəfindən toplanıb. Bunu "Söyləyicilər haqqında məlumat"dan görmək mümkündür. Yəni folklor örnəklərini toplayıb yazıya alanlar bunlardır: Rəhimov Gülağa (14 yaşında), Ağayev Kamil (15 yaşında), Əskərov Əmiraslan (13 yaşında), Rəcəbov Həsənxan (14 yaşında), Həsənova Bənövşə (5-ci sinif şagirdi), Babayeva Humay, Zeynalov Kamran (14 yaşında), Mirzəyeva Minarə, Məhərrəmov Abbas (14 yaşında), Şahnəzərov Məzahir (5-ci sinif şagirdi). Göründüyü kimi, burada toplayıcıların yaşları 12-15 arasında olan şagirdlərdir.

"Söyləyicilər haqqında məlumat"dan bəlli olur ki, Əhməd əmi (Əhməd Cəfərzadə) də bu işdə iki dəfə iştirak edib. Əzizə Cəfərzadənin Ev Arxivində qorunan bu materiallar əsasən 12 vərəqli

dəftərlərdə cəmlənib və “k-“, “AX-“ şəklində sıralanıb. Bu kitabda toplanan materiallarda imkan daxilində bu orijinal nömrələr saxlanıb, eləcə də “Söyləyicilər” sırasında da buna riayət olunub.

İstər-istəməz bu toplama materialları adamda heyrət və suallar doğurur. Bu materiallar necə toplanıb? Yaşı 12-15 arasında olan məktəblilər bu işi necə yerinə yetiriblər? Öncə onu qeyd etmək lazımdır ki, Əhməd əmi tanınmış pedaqoqdu, görünür, o, maraqlı bir eksperiment aparıb. Əvvəlcə şagirdlərə necə folklor toplayacaqlarını anladıb, nələrin mühüm olduğunu müəyyən edib, folklor materiallarını danışıldığı kimi yazılacağını deyib. Görkəmli pedaqoq həm də hər bir folklor örnəyinin əhəmiyyətini, janrını da şagirdlərə bəlli edib. Buna görə də bu şagirdlər topladıqları materialları növünə görə qruplaşdırıblar. Düzgülər, əfsunlar, atalar sözləri, bayatılar və digər növlər öz yerində verilib. Burada söyləyicilərin, yəni informatorların yaşları da xeyli fərqlidir. Onların ən yaşlısı 110 yaşlı Almasov Əsgərdi. Məsələn, 72 yaşlı Səmidova Gülnabat, 42 yaşlı Mədinə, 35 yaşlı Musayev Əlisa, 78 yaşlı Məhərrəmov Salı da var. Məsələ ondadır ki, toplanan folklor örnəkləri olduqca zəngin və müxtəlif janrlarda cəmlənmişdir. Mənə elə gəlir ki, Əhməd əminin tərtib etdiyi bu metod – şagirdlərin folklor örnəklərinin toplanmasına cəlb olunması işi təqdirəlayiqdir. İşin nəticəsi göz qabağındadır. Yəni zəngin folklor örnəkləri cəmlənən bir toplama kitabı Əhməd əminin, Əhməd Cəfərzadənin sayəsində şifahi xalq yaradıcılığı xəzinəsinə daxil olacaqdır.

Əhməd əmi dialekt sözlərə, onların məna-anlamlarına xüsusi fikir verərdi. Maraqlıdır ki, bu toplama işində də “Uduluda işlənən bəzi şivə sözlərin lüğəti”ni tərtib etmişdir. Burada qeyd olunan alxaseyib (qızdırıb), barantay (bərabər, eyni), dodduxan (yelbeyin), zağar (tərs), qaraçı (noxtanın növü), xaşal (böyük kisə), kallah (dəvə otaran) və digər sözlər xüsusi maraq doğurur. Qəribədir, bu lüğətdə verilən bəzi sözlərin qarşılığı Ağbaba dialektində bir az fərqli anlamlarda işlənməkdədir. Məsələn, “boz” Uduluda “utanmaz” anlamında olsa da, Ağbabada “sərt” mənasındadır. Məsələn, boz hava, boz üz göstərmək. Zağar (tərs), Ağbabada balaca, çoxbilmiş adam kimi işlənməkdədir. İlmaqı (ılıq) deməkdir.

Sinnik (kef, yemək) Ağbabada şenlik, yəni "ev", "ocaq" bildirməkdədir.

Bu sözlərin arasında "Qaraquzoy" sözü də maraqlı söz olub, iki hissədən ibarətdir (qara + quzey). Mənə elə gəlir ki, "quzoy" əslində "quzey"dir.

Bu da "şimal" anlamındadır, "qara" isə "böyük" mənasında olduğundan Uduluda bu söz "soyuq" anlamını almışdır.

Əhməd Cəfərzadə atalar sözlərini də müəyyən bölgü və dövrlərlə vermişdir ki, tədqiqatçılar üçün daha uyğun və anlaşılan alınsın. Elə bu yöndən tərəkəməçiliyə aid atalar sözləri daha çox qoyunçuluqla, köçəri həyatla bağlı kəlamlarla yaddaqalandır. Burada qoyunun tərəkəmə həyatında əhəmiyyəti, gətirdiyi gəlir əks olunmaqdadır. Bunlardan bir neçəsinə nəzər salmaqla bu dediklərimi görmək olar. Məsələn, "Qoyun deyib: məni sür xarabalığa, abadlığa çıxarmasam kəs başımı". Bu atalar sözünün hikməti odur ki, qoyun tez artan heyvandı, bəzən ildə iki bala verir, əti, südü, pendiri, yunu insanları barındırır. Təbii, digər bir atalar sözü də bunu təsdiq etməkdədir: "Pulunu ver qoyuna, başını sal oyuna".

Atalar sözləri arasında minik heyvanları ilə bağlı olanlar da var.

*Özün xər olasan, çulun məxmər.*

*Deyirsən İsfahanda eşşək nərdivana çıxır. İsfahan uzaqdır: bu eşşək, bu nərdivan.*

*Xiyarın pulu ilə alınan eşşəyin ölümü suda olar.*

*Dəvə nə qədər ölü olsa, dərisi bir eşşəyə yükdür.*

Burada birincidə nadan, adamlıqdan xəbəri olmayan birisinin mənsəbə çatması əks olunur. Onun eşşək qədər ağıl sahibi olduğu göstərilir. Digər nümunələrdə eşşəyin adı çəkilir. İkinci atalar sözündə ağ yalanın isbatı aydın verilib. Deyilir ki, yalan danışırsan, eşşək nərdivana çıxa bilməz.

Üçüncü bir rəvayətlə bağlıdır. Bu rəvayətdə göstərilir ki, bir nəfər satdığı xiyarın puluna bir eşşək alır, o da suda boğulub ölür. Atalar sözü də bununla bağlıdır.

Sonuncu atalar sözündə dəvə ilə eşşəyin fərqi göstərilir. Dəvə insan həyatında əhəmiyyəti çox olan heyvandı, bu mənada o, eşşəyə tay tutulmur.

Atalar sözləri arasında itlə bağlı olanlar da var:

*İtimiz də var, kütümüz də.*

*Onun günü – itin günü.*

Birincidə yaşayışın pis olmamasından söhbət gedir. Adətən, itə yalla bərabər küt də verərdilər. İkincidə pis şəraitdə yaşamaq, həyatı çətin keçənlər nəzərdə tutulmuşdur.

Qurdla bağlı bir kəlamda adamlar ehtiyatlandırılır, onun yırtıcılığı və kəmfürsətliliyi belə xatırladılır:

*Qurdun qonaqlığına get, köpəyi də yanında apar.*

Əhməd Cəfərzadə quşlarla bağlı atalar sözlərini də ayrıca vermişdir.

*Çox bilən quş dimdiyindən tora düşər.*

Bunun Ağbabadakı qarşılığı belədir:

*Sərçə çox bildiyindən dimdiyindən tora düşər.*

Təbii ki, toplayıcının bu toplama materiallarında maraqlı hikmətli sözlər çoxdur:

*Xalq qız verib quda qazandı,*
*Biz qız verib qada qazandıq.*

Burada ailə narazılığı əks olunub. Göstərilir ki, hikmət sahibi qohum olmaq arzusu ilə quda, qohum olmuş, amma qada (bəla) qazanmışdır, yəni bu qohumluq ona ziyan gətirmişdir.

Şirvan-Uduludan toplanan tapmacalar regional cəhətinə görə xeyli fərqlənir. Burada tapmacalar da verilib ki, adam xeyli düşünsün, yəni kifayət qədər dünyagörüşlü olmalıdır ki, bu verilən qeydlərə və əlamətlərə görə nədən söhbət getdiyini anlaya bilsin. Aşağıdakı tapmacalar bu dediklərimizi təkzib etmir:

*Bel sapı, balta sapı,*
*Bir budağı, beş yarpağı.*

Burada birinci misra sadəcə çaşdırıcıdır, amma ikinci misrada bilək budağa, barmaqlar yarpağa oxşadılmışdır.

Üzümlə, onun yarpağı, salxımı ilə bağlı tapmaca daha maraqlıdır:

*Atası misli qoca* (üzümün kötüyü),
*Anası yayma xatun* (üzüm yarpağı),
*Qızı ellər gözəli* (üzüm salxımı)
*Oğlu ellər dəlisi* (şərab).

Göründüyü kimi, üzümün insanlar üçün faydalılığı aydınca verilib. Yəni onun salxımından da, yarpağından da istifadə olunur. Amma ondan hazırlanan şərab adamlara çox vaxt ziyan gətirir, buna görə onu dədələrimiz "ellər dəlisi" adlandırır, eyni zamanda "oğul" deyə xatırlayırlar, çünki onu oğullar istifadə edirlər.

Nal-mıxla bağlı olan nümunə də diqqətçəkicidir:

*Ağ ayı ayda gördüm,*
*Çulun divarda gördüm.*
*İyirmi dörd ulduzu*
*Bir ayın altda gördüm.*

Burada mıx ulduz, nal ay kimi göstərilir. Qeyd edək ki, nalbəndlik sənəti də unudulmaqda olan sənətlərdəndir. Burada bir nala iyirmi dörd mıx vurulduğu göstərilir. Təbii ki, nalı, mıxı dəmirçi kəsir, hazırlayırdı.

Tapmacaların arasında qaşıqla bağlı nümunə də maraqlıdır:

*Bir öküzüm var: quyruğundan tutmasan dama girməz.*

Bu folklor örnəyinin başqa bir variantına, azca dəyişik formasına Zəngəzur folklorunda da rast gəlinir.

*Bir inəyim var quyruqlamasan içəri girmir*[1] .

Bu kitabda toplanan folklor örnəklərindən bayatılar çoxdur. Əhməd əmi, Əhməd Cəfərzadə onları məzmununa, dövrünə və digər əlamətlərinə görə bir neçə yerə bölmüş və buna uyğun nümunələri müəyyən ardıcıllıqla vermişdir. Məsələn, qadın hüquqsuzluğu və qadınların çətin vəziyyətləri aşağıdakı bir neçə örnəkdə əks olunub:

*Ağac başında qora,*
*Bilmədim düşdüm tora.*

---

[1] Zəngəzur folkloru. II cild. Toplayıb tərtib edən, ön söz, lüğət, izah və qeydlərin müəllifi: E.Talıblı, f.ü.f.d, dos. Bakı: Elm və təhsil, 2022, s. 163.

*Məni səndən eləyən*
*İmansız getsin gora.*

Burada vüsala çatmayan aşiqin dərd-səri aydın verilib. Buna bir namərd adam mane olub, onu aşiq qarğayır, beləsinin gora imansız gedəcəyini bildirir.

İkinci bayatı daha diqqətçəkicidir:

*Hacılar gedər haca,*
*Papağın qoyub uca.*
*Bu dərdi kimə deyim,*
*Arvad cavan, ər qoca.*

Burada cavan qızın qoca kişiyə verilməsi göstərilir. Çünki qızın ixtiyarı özündə yox, atasında idi. O, kimi münasib bilsə qızı ona da verirdi. Heç təsadüfi deyil ki, folklor örnəklərinin birində bir qız atasını "mənim imansız atam" deyə göstərir. Həmin bayatı belədir:

*Mən aşığam məstinə,*
*Kimlər durub qəsdinə?*
*Mənim imansız atam*
*Verdi günü üstünə.*

Göründüyü kimi, qızı yandıran odur ki, onun atası bilə-bilə qızını günü üstünə verib. Yəni atanı başlıq, pul maraqlandırıb, qızının taleyi ondan ötrü maraqlı deyil. Digər bir örnəkdə gənc qız ona kələk gəlindiyini, Fatma adlı kələkbaz bir qarının toruna düşdüyünü dilə gətirir:

*Dağlansın çatma qarı,*
*Bərk qarı, çatma qarı.*
*Yerimə "bəli" dedi*
*İmansız Fatma qarı.*

Bu dövrdə gözəl qız almaq istəyənlərin varı, halı olmalıdır – bunu qız ataları bildirir, elçi düşənlərin cavan olmasına deyil, varlı olmasına qiymət verirdilər:

*Vətəndə arı gərək,*
*Köynəyi sarı gərək.*
*Gözəl qız istəyənin*
*Dövləti, varı gərək.*

Könülsüz verilən qızların ər evində günləri ah-vayla keçir, onlar dərd-sərdən göz aça bilmirdilər. Üstəlik, qayınanalar da zalımlıqdan əl götürmürdülər. Məsələn:

*Bu görünən Barındır,*
*Yedikləri qarındır.*
*Qorxumdan səsim çıxmaz,*
*Qaynanam çox harındır.*

Bu nümunədən ailə başçısı elə də varlı-hallı deyil, amma qayınana zalımlığı ilə fərqlənir. Bəli, qadın hüquqsuzluğu dövründə kasıblıq da başa bəla sayılırdı. Belə cavanlar murada yetə bilmirdilər. Aşağıdakı bayatı bu qəbildəndir:

*Su gəlir axa-axa,*
*İçində iri talxa.*
*Yarı yada verdilər,*
*Mən qaldım baxa-baxa.*

Bir sözlə, hüquqsuzluq, kasıblıq, imkansızlıq və digər səbəblərdən dolayı dərd-sər, bəla tapanlar çoxdu – bunlar da bayatılara qəmli notlarla hopdurulub.

*Pirsaatın sənginə,*
*Heyran oldum rənginə.*
*Atam mənə zülm etdi,*
*Saldı itin cənginə.*

*Dağlara hünü gəldi,*
*Dolandı hünü gəldi.*
*Bədənimə od düşdü,*
*Üstümə günü gəldi.*

*Arxalığın butası,*
*Nəymiş işin xatası.*
*Sevdiyini vermirlər*
*Kəndxudadı atası.*

*Pəncərənin milin çək,*
*Milin yandır, milin çək.*
*Könülsüz qız verənin*
*Ağzın ayır, dilin çək.*

*Yük üstündə pərdəyəm,*
*Tamam dərdi-sərdəyəm.*
*Günüm itin günüdür,*
*Deməyin ki, ərdəyəm.*

Burada atanın bilə-bilə qızını zalım, it xasiyyətli birinə ərə verdiyi, ikincidə gənc qadının həyatından şikayəti, yəni üstünə günü gəlməsi verilib.

Hiss olunur ki, qadınların hüquqsuzluğu onlarda doğma atalarına da dərin nifrət yaratdığından könülsüz qız verənlərin dillərinin çəkilməsini, yəni onlara ağır cəza verilməsini arzulayırlar. Onlar "it günündə" yaşadıqlarını, ah-vayla ömür sürdüklərini göstərib haqsızlığa sözdə olsa da etiraz edirlər.

Toplanan bayatılar tarixi olaylara uyğun ardıcıllıqla da verilib. Toplayıcı bunu bayatını müəyyən əlamətlərinə görə sistemləşdirə bilmişdir. Həm də bu bayatılarda tarixi olaylara işarələr də vardır. Bunu aşağıdakı folklor örnəklərində görməmək mümkün deyil.

*Vermə xazara məni,*
*Çəkər bazara məni.*
*Yada kəniz verincə*
*Salla məzara məni.*

*Arab gəldi, hay verin,*
*Nə istəsə pay verin.*
*Aza duran deyillər,*
*Gətirin tay-tay verin.*

*Apardı tatar məni,*
*Qul edib satar məni.*
*Malı artıqlıq etsə*
*At kimi çatar məni.*

*Qarabağdı elimiz,*
*Xəzəl oldu gülümüz.*
*Xana, bəyə iş gördük,*
*Əyri bitdi belimiz.*

*Dağlarda lala qaldı,*
*Gül bitdi, lala qaldı.*
*Hitler biz yazıqlara*
*Allahdan bəla gəldi.*

Bu göstərilən nümunələrdə xəzərlərin, ərəblərin, tatarların işğalları xatırlanır. Onların zalımlığı, əhaliyə zülmü əks olunub. Burada ərəblərin acgözlüyü xüsusilə göstərilir. Sonuncu bayatı vətən müharibəsini xatırlatmaqdadır.

Burada verilən bayatıların bir hissəsi vəsfi-hallardan ibarətdir. Əsas motiv sevib-sevilmək, ailə qurmaq arzu-istəkləridir. Bunlar daha çox Ağbaba vəsfi-halları ilə səsləşir. Bunu daha aydın təsvir etmək üçün həmin folklor materiallarından bir neçəsini gözdən keçirməklə bunun həqiqət olduğunu görmək mümkündür. Məsələn:

*Kəkilin varaq-varaq,*
*Kəkilə vurma daraq.*
*Məndən sənə yar olmaz,*
*Aləmə salma soraq.*

*Bu yerdə kərə olmaz,*
*Ot bitməz, fərə olmaz.*
*Aşığı qınamayın,*
*Eşqdə bənd-bərə olmaz.*

*Yallı yallıya bənddi,*
*Yallı bürüdü kəndi.*
*Pul verim satın alım*
*Yarım oturan kəndi.*

Birinci vəsfi-hal daha çox Ağbabada qış hazırlıqları ilə bağlı müxtəlif qız-gəlin məclislərində (burda yarma, bulğur, əriştəkəsmə iməciliklərini nəzərdə tuturam) bacadan deyilən vəsfi-halları xatırladır. Burada kəkil həddi-buluğa çatmış oğlanların başının ortasında saxlanan topa saça deyirdilər, onun kənarları səliqə ilə təmizlənirdi. Kəklik daraqla daranıb, əllə tumarlanırdı. Bu qeyd olunan örnəkdən məlum olur ki, qızın bacadan onu səsləyən oğlana könlü yoxdu. Təbii ki, digər nümunədə eşqin özünəməxsusluğu göstərilir. Sonuncunun oxşarı (Ağbaba bölgəsindəki örnəkləri nəzərdə tuturam) belədir:

*Nanay nanayın bəndi,*
*Nanay büründü kəndi.*
*Pul verim, satın alım*
*Yarım oturan kəndi.*

Yeri gəlmişkən onu deyim ki, Ağbabada nanay oxumalar yallılarla müşayiət olunur. Nanay Ağbabada qədimlərdən el arasında yayılmış xalq nəğmələridir.

Bu nümunələrin içində adamı düşündürən materiallar az deyil. Məsələn:

*Əzizim mən də yetim,*
*Sən yetim, mən də yetim.*
*Sən yetdin mətləbinə,*
*Dua et, mən də yetim.*

Burada "yetim" cinas kimi verilmişdir. Digər tərəfdən söhbət iki yetimdən gedir. Biri murada yetib, o biri də ondan dua etməsini istəyir ki, o da mətləbinə çatsın, ailə qursun.

Buradakı bayatıların birində bir hal əhlinin başından keçən qəza-qədər ərz olunur, üstəlik, onun yeri, yurdu da göstərilir.

*Yerim Yeddiağıldı,*
*Qonşularım mağıldı.*
*Sevdim, ala bilmədim,*
*Qəziyyəm bir nağıldı.*

Burada "mağıl" "yaxşı" anlamında işlənmişdir.

Toplanan örnəklərin arasında didaktik ruhda olanlar da az deyil. Məsələn:

*Əlində şaqqası var,*
*Belində toqqası var.*
*Dul arvaddan uzaq dur,*
*Əlli cür hoqqası var.*

Burada dul arvadın bəzəkli-düzəkli, toqqalı olması əslində onun hoqqalı olduğunu göstərir. Yəni o, bununla istənilən cavanı toruna sala bilər, o, ərə gedib, təcrübəsi var, sadəlövh gənci ələ gətirməyi bacarır. Buna görə də burada bir ehtiyatlandırma var:

*Dul arvaddan uzaq dur.*

Materialları vərəqlədikcə adam bir-birindən maraqlı örnəklərlə qarşılaşır. Bunların arasında bir neçə dəfə Musa adı da diqqət çəkməkdədir. Düşünürəm, çox güman ki, bu örnəklər Musa adlı bir el şairinin yaradıcılığından qorunub eldən-elə, dildən-dilə keçə-keçə gələn bayatılardandır. Bunlardan bir neçəsini aşağıda verməyi özümə borc bildim:

*Aşıqdı ellər sənə,*
*Musa tək qullar sənə.*
*Ağzı nədi bağlarda*
*Tay ola güllər sənə.*

*Ələndim ələk kimi,*
*Nəzildim ipək kimi.*
*Musa, dolan dünyanı*
*Sərgərdan külək kimi.*

*Yolum Şirvan yoludu,*
*Bura karvan yoludu.*
*Musa, dərdli ürəyim*
*Qanlı yaşnan doludu.*

*Musanın sözü çoxdu,*
*Baxtı, taleyi yoxdu.*
*Ay qız, mənə çox baxma,*
*Hər kirpiyin bir oxdu.*

Ayrı-ayrı örnəklərdə, bayatılarda gənc qızların, gəlin olacaq gənclərin hiss-həyəcanları, gözəl duyğuları əks olunub:

*Dağ başı çiçəkləndi,*
*Gün vurdu göyçəkləndi.*
*Toy yuxası yapıldı,*
*Ayrılıq gerçəkləndi.*

*Xoruzlar quqq elədi,*
*Qapımız tıqq elədi.*
*Elə bildim yar gəldi,*
*Ürəyim çıqq elədi.*

*Ay qız, adın Bətindi,*
*Tumanlığın sətindi.*
*Sevgilinlə küsüşmə,*
*Barışmaq çox çətindi.*

Bu qeyd olunan nümunələrin birincisində toyu olacaq qızın düşüncələri əks olunub. O, bunu ikicə misra ilə bəlli edib:

*Toy yuxası yapıldı,*
*Ayrılıq gerçəkləndi.*

Bəli, qız ata evindən ayrılır, yeni bir ailənin başlanğıcı qoyulur. Təbii ki, digər nümunədə də gənc qızın sevgi hissləri, yarını həsrətlə gözləməsi verilib. Axırıncı bayatıda verilən "sətin" parça növüdür.

Adətən, bayatılarda dərd-kədər, hicran yükü az olmur. Bunu Əhməd əminin tərtibində də görməmək mümkün deyil:

*Ovun keçdi bərədən,*
*Ovçu çıxdı dərədən.*
*Çörəyim darı cadı,*
*Yavanlığı tərədən.*

*Bu oba Navahıdır,*
*Rəncbər yox, Navahıdır.*
*Burdakı duman deyil,*
*Mən yetimin ahıdır.*

*Gəlmişəm görəm səni,*
*Yıxmışam hörəm səni.*

*Nə qapın var, nə pəncərən,*
*Bəs hardan görəm səni?*

Əvvəlki bayatıda dövrdən şikayət motivi özünü göstərir, yəni adamların yediyi darı cadı (çörəyi) olub, tərədən də yavanlıq edirlər. Tərə də yabanı bitən vəzəriyə deyirlər. O biri nümunədə yetimin ah çəkməsi səbəbsiz deyil, yəni dolanışıq, dövr çətin dövrdür – bu qəmli notları yaradan zəmanədir. Üçüncü nümunədə kədər-qəm daha qara notlarla verilib, bunu "nə qapın var, nə pəncərən" şəklində ifadə etməklə bildirir. Maraqlıdır ki, bu kitabda yazıya alınan bayatılar sayca çox olması ilə bərabər, həm də müxtəlif motivlidir, eyni zamanda ayrı-ayrı məşğuliyyətləri də əks etdirməkdədir. Məsələn, toxuculuqla bağlı olanlar da az deyil.

*Palazı naxışlaram,*
*Göl sallam, naxışlaram.*
*Səndən bir xəbər çıxsa,*
*Canını bağışlaram.*

*Evimdə həsirim var,*
*Xəlçəm yox, həsirim var.*
*Əzrayıl, mənə dəymə,*
*Çox yetim-yesirim var.*

*İpimin boyağısan,*
*Rəngisən, boyağısan.*
*Amandı, köçüb getmə,*
*Bir evin dayağısan.*

Qoyunçuluqla bağlı olanlar da maraqlıdır. Burada qoyunun xeyri, insan həyatında faydalı olması, maddi nemətlər bolluğu yaratması müəyyən detallarla, işarələrlə əks olunmuşdur.

*Yurdum Qoşağıldır,*
*Qoyun gəldi, sağıldı.*

*Dərdim bir yekə dastan,*
*Qəziyyəm bir nağıldı.*

*Sürülər toz eləyir,*
*Od yanır, köz eləyir.*
*Ağanın kiçik qızı*
*Sərkara göz eləyir.*

*Ağ qoyun ətli olar,*
*Kababı dadlı olar.*
*Dul kişiyə gedən qız*
*Ölüncə dərdli olar.*

Bu folklor örnəklərində gəlin-qayınana münasibətləri ilə əlaqəli olan nümunələr də var. Hiss olunur ki, əzazil və zalım qayınana az olmadığından gəlinlərin bəziləri qayınana istəmirlər. Məsələn:

*Əzizim bişmiş ola,*
*Ağlayıb gülmüş ola.*
*Mən gedərəm o yara,*
*Anası ölmüş ola.*

*Yarımın babası var,*
*Çiynində əbası var.*
*Özü yaxşı oğlandı,*
*Bir yaman anası var.*

Az da olsa gəlinlərdən də şikayət dolu nümunələr, bayatılar yaranmışdır.

*Gəlindi bu, xandı bu,*
*Evləri yıxandı bu.*
*Əlində iti ülgüc,*
*Başları qırxandı bu.*

Bu bayatılarda naqisliklər, uyğunsuzluqlar da pislənir, haqq-ədalət, həqiqət hər kəsə xatırlanır.

*Oğlan, adın Paşadı,*
*Arvadların qoşadı.*
*Daha məni neynirsən?*
*İşin lap tamaşadı.*

Burada iki arvadlı bir kişinin üçüncüsünü də almaq cəhdi aydınca verilib. Təbii ki, tənbəl, işbilməz adamlar da tənqid olunur. Bunu aşağıdakı bayatıda görmək olar:

*Dağlarda sərinə bax,*
*Mehə bax, sərinə bax.*
*Arvad nər kimi işlər,*
*Avara ərinə bax.*

Bu toplama işində əks olunan bayatıların, daha doğrusu, vəsfi-halların bəzilərində el-oba arasındakı adət-ənənələr, sevmək-sevilmək münasibətləri və s. aydın verilmişdir. Məsələn:

*Quzum bulağa çıxıb,*
*Qalxıb bulağa çıxıb.*
*Siz Allah, xoş söz deyin,*
*Yarım qulağa çıxıb.*

Adətən, Novruz bayramından öncə niyyət günləri başlanardı. "Yarım qulağa çıxıb" ifadəsi burdandır. Yəni xeyirli sözlər deyin, qulağı xoş söz eşitsin ki, niyyəti qəbul olunsun. Çünki bu niyyət günləri doğru hesab edilirdi.

Digər bir vəsfi-hal ya bacadan deyilmiş, ya da bulaq başında söylənmişdir. Təbii ki, bu da mühafizəkarlıqla bağlıdır:

*Kəkliyim varaq-varaq,*
*Kəkilə vurma daraq.*

*Məndən sənə yar olmaz,*
*Aləmə salma soraq.*

Burada qızın narazılığı açıq verilib. Bu folklor örnəkləri arasında elələri var ki, orda işlənən məcaz ustalıqla verilmiş, həm də adamda heyrət doğurur. Məsələn:

*Əzizim, oda yandı,*
*Sinəmə ox dayandı.*
*Bağrımın alovundan*
*Atılan ox da yandı.*

Bəli, el hikməti, el sözü belə böyük gücə malikdir. Burada cəmi 4 misrada yaddaqalan bir təşbeh yaradılıb. "Sinəmə ox dayandı" ifadəsi ilə müəllif sinəsinə ox sancılmasını deyir. Amma qaraciyəri (burda o "bağır" kimi verilib) o qədər odlu, atəşlidir ki, onun atəşindən sinəsinə batan ox da od tutub yanır.

Folklor örnəklərinin bir cəhəti də onların çoxvariantlı olmasıdır. Bu cəhətdən burda cəmlənən vəsfi-hallarda da buna rast gəlinir:

*Əzizinəm bir də mən,*
*Doldur içim bir də mən.*
*Baş ağarıb, bel bükük,*
*Cavan olmam bir də mən.*

Bunun digər variantı belədir:

*Əzizinəm bir də mən,*
*Doldur içim bir də mən.*
*Ömür keçdi, gün keçdi,*
*Cavan olmam bir də mən.*

İndi də başqa bir vəsfi-hala baxaq:

*Ürəyimdə yaram var,*
*Üstə xal-xal yaram var.*

*Aç ürəyimin başını,*
*Gör yanmamış haram var.*

Bunun variantı belədir:

*Ürəyimdə qara var,*
*Üstündə xalvara var.*
*Gəl aç sinəmin üstün,*
*Gör yanmamış hara var.*

Maraqlıdır, bu vəsfi-halın digər bir variantı da mövcuddur:

*Ürəyimdə yara var,*
*Bənək-bənək qara var.*
*Aç sinəmin başını,*
*Gör yanmamış hara var.*

Bu nümunə Ağbaba folklor örnəklərindəndir, 80 yaşlı Xəstə Zərnişandan yazıya alınıb.

Burada 47 düzgü toplanıb, ancaq kiçik, həm də xeyli həcmli olanlar da var. Bu folklor materiallarının arasında digər variantla səsləşənlər də məlumdur. Məsələn, üçüncü nümunənin sonu belədir:

*Yırıl, yırtıl,*
*Qaç, qurtul.*

Ağbaba variantında bir az fərqlidir:

*Yırıl, yırtıl,*
*Su iç,*
*Qaç qurtul.*

15-ci nümunə də maraqlıdır:

*Fətir, fətir,*
*Məni mənzilə yetir.*

Bunun Ağbaba variantı belədir:

*Kələfətir, kələfətir,*
*Kəndə yetir.*

Bəs bunu niyə belə deyirlər? Kələfətir olduqca qidasızdı, ona görə də onu yeyəni tez acırdı, bir növ adamı yaxın məsafəyə qədər tox saxlayırdı.

Bu qeyd edilən nümunələrdən oxşamalara, nazlamalara oxşayan bir material da var. Burada qız "qızıl parçası", oğlan "köpək balası" kimi göstərilir:

*Qızım qızıl parçası.*
*Yerə düşər, parıldar.*
*Oğlan bir qara köpək,*
*Qapıda durar, mırıldar.*

Düzgülərin aşağıdakı da yaddaqalandır:

*Qəvəli çala-çala getdim bağa,*
*Bağdakı qızlar ilə oynamağa.*
*Əl atdım böyük qızın sinəsinə,*
*Kiçik qız dad elədi nənəsinə.*
*Nənəsi bir daş atdı təpəsinə.*
*Qazı da evdən çıxdı lov səsinə:*
*– Atıma kişmiş tökün, kişnəməsin,*
*Üstümə çadır qurun, gün düşməsin.*
*Qonaq eləyin halvaya,*
*Sonra baxım davaya.*
*(Saqqızım düşüb təndirə,*
*Qorxuram arvad öldürə).*

Nümunədən də göründüyü kimi, qazı oğlanı cəzalandırmalıdır, amma o, özünə qulluq elənməsini yada salır, yəni atına kişmiş, özünə də halva versinlər ki, qazının yadına cəza vermək

düşsün, təmənna olmasa qazı iş görən deyil. Düzgülər arasında bir oxşama da var.

*Ay Allah, bundan bir dənə var,*
*Üç dənə vermə, beş dənə ver,*
*Göydə gedən quşlara ver,*
*Caladakı gomuşlara ver,*
*Həsrətin çəkmişlərə ver,*
*Dərdindən ölmüşlərə,*
*Tamarzı qalmışlara ver.*

Bu oxşamanın xeyli fərqli variantları da məlumdur. Adətən, xırda janrların qarışdırılması halları xüsusilə atalar sözlərinin toplanıb tərtib olunmasında da az rast gəlinmir.

Mənə elə gəlir ki, 22-ci düzgü əslində iki düzgüdür, ola bilsin ki, birincidən, eləcə də ikincidən unudulan misralar olmuşdur. İndi həmin nümunəyə baxaq.

*Əşi, mənə bir cəhrə al, bər-bər bəyirdim,*
*İldə kələf, ayda şaqqa, gündə bir sap əyirdim.*
*Get naxıra, bir dana kəsdir gətir.*
*Mollaya ver, bir dua yazdır gətir,*
*Əşi, vallah, bədnəzərə gəlmişəm.*

Elə materialın özündən də bəllidir. Yəni ilk beyt toxuculuqla, sonrakı misralar göz dəyməsi ilə bağlıdır. Qadın kişisinə məsləhət edir ki, ona göz dəyib, mollaya dua yazdırmaq lazımdır, dua üçün də mollaya bir dana verilməlidir.

Burada öz əksini tapan örnəklərdən biri 14-cü materialla səsləşir, yəni keçəldən bəhs edir. Düzgülərdən "Lələ öldü acından" başlığı başlanan örnək bir az da qaravəllilərı xatırladır, təbii ki, burada da bir yalan toxunulmuşdur. Öncə düzgüyə diqqət yetirək:

*Lələ öldü acından,*
*Kül töküldü saçından.*
*Lələ bir ev tikmişdi*
*Əvəlik ağacından.*

*Lələ öldü, tez gətir,*
*Gətirirsən tez gətir.*
*Nə qonşuya söz apar,*
*Nə qonşudan söz gətir.*

Saçdan kül tökülərmi? Əvəliyin ağacı varmı? Hər ikisinin bir cavabı var: Xeyr. Deməli, bu, yalandır.

Başqa bir düzgü sorğu-sual, daha doğrusu, dialoq şəklində verilib. Sorğu-sualdan qızın işə yox, yeyib-içməyə yaxşı həvəsi var. Daha doğrusu, maraq göstərmir. Bununla belə tənbəl, iş bilməyən qız belə təriflənir: paltarın cırıqlarını yamamaq yerinə düyünləyir, qabı yumaq əvəzinə elə yalayır ki, tərtəmiz olur.

Maraqlıdır, düzgülərin arasında bir sanama da var:

*Bir, iki, bizimki,*
*Üç, dörd, qapını ört.*
*Beş, alı, daş alı.*
*Yeddi, səkkiz  Firəngiz,*
*Doqquz, on, qırmızı don.*

Toplanan materialların arasında bir Ağbaba düzgüsü də var.

*Ağbabanın buçağı,*
*Gümüşdəndi saçağı.*
*Vurun, sandıq açılsın,*
*İnci-mərcan seçilsin.*
*Gəl oxu bizim dili,*
*Çox çətin curum dili.*
*Urumdan gələn atlar*
*Ağzında yüyən çatlar.*
*Yeri, yeri, yetim oğlan,*
*Qolundan tutum, oğlan.*

Bu örnəyin sonuncu beyti təsadüfən buraya düşmüşdür. Əslində bu beyt bir nanayın nanayarasıdır, çünki birinci misrada bir söz (yeri) təkrarlanmış, misraların sonlarındakı sözlər də eyni

ilədir. Qeyd edək ki, xalq nəğmələri, xüsusilə də nanaylar nə qədər tədqiq olunsa da, yenə axtarışlara ehtiyacı olan zəngin bir xəzinədir, xalq bunu uzun illər boyunca yaradıb, eldən-elə, dildən-dilə yaymışdır.

Bu toplama kitabında toplanan mərasim mahnıları sayca çox olmasa da, istər regional baxımdan, istərsə də deyiminə görə maraqlı folklor örnəkləridir. Burada toyla, xeyir işlə bağlı olanlar həm də bu bölgənin adət-ənənələrini əks etdirməkdədir. Öncə toyla bağlı olan mahnılara baxaq. Bunların birində gəlinin dili ilə ona lazım olan paltarlar, lazım olanlar belə qeyd olunur:

*Gəlin üç köynək istəyir,*
*Bu mahalda tək istəyir.*
*Gəlin beş tuman istəyir,*
*Şaldan, kimxadan istəyir.*
*Gəlin bir örpək istəyir,*
*Tək güllü, xoşrəng istəyir.*
*Gəlin bir başmaq istəyir,*
*Tirmədən yaşmaq istəyir.*
*Gəlin arxalıq istəyir,*
*Bir güllü yaylıq istəyir.*
*Nə versəz öz adınıza,*
*Gətirin baxaq dadınıza.*

Göründüyü kimi, burada gəlinə lazım olan paltar, yaylıq, örpək, başmaq və s. istənilir. Bunların arasındakı “tirmə yaşmaq” elə-belə qeyd olunmayıb. Gəlin ailədəki yaşlılardan, qayınlarından pərdəli gəzməli, yaşmaqla dolanmalı idi. Təzə gəlinin onlarla danışması qadağandı, bu, böyüklərə sayğı və hörmət əlaməti sayılırdı. Digər bir nəğmədə qız adamının oğlan evindən istədikləri əks olunub. Maraqlıdır ki, burada qızın anası, atası, eləcə də digər qohumları (əmi, bibi, xala) öz istəklərini açıqca bildirirlər. Yəni qız anası süd pulunu, ata ipək köynək, xala Hacımənəbax, əmi arxalıq, bibi də iynəbatmaz istəyirlər.

Toyla bağlı üçüncü mahnı oğlan adamının qız qapısında oxumasından ibarətdir. Burada qız adamlarının istəklərinin yerinə yetirildiyi bildirilir və deyilir ki, gəlini aparmağa gəliblər:

*Çörəyimiz qılçıqlıdır,*
*Qapımız palçıqlıdır.*
*Verin aparaq gəlinimizi,*
*Aparmayın zəhləmizi.*

Toy zamanı qız adamının oxuması da maraqlıdır:

*Ay qız alan, evin abadan olsun,*
*Üstü dəmir, yanları daşdan olsun.*

Toy vaxtı dəlləyin əşyalarını da gizlədərdilər. Buna uyğun nəğmə də vardır:

*Çağırın gəlsin Qasımı,*
*Götürsün gəlsin tasımı.*
*Çağırın gəlsin Abını,*
*Götürsün gəlsin sabını.*
*Çağırın gəlsin ləzgini*
*Götürsün gəlsin güzgünü.*
*Çağırın gəlsin o ləci,*
*Götürsün gəlsin ülgücü.*

Təbii ki, o şeyləri gətirənlərə xələt verilirdi. Sonuncu nəğmədə dəlləyin tas, sabun, güzgü və ülgücü qeyd olunub. Təbii ki, bu, bölgədəki adət-ənənələrlə bağlıdır. Adətə görə, hər bir evlənən oğlan, bəy üz-başını qırxırmalı idi. Burada da sağdış, soldış bəyi müşayiət edirdilər. Buna Ağbaba bölgəsində "təraş olunma" (üz qırxma) deyirdilər.

Mərasim mahnılarından biri Qurban, digəri Novruz bayramı ilə bağlıdır. Məsələn, Novruz bayramı ilə əlaqəli mahnıda xeyir-dua əsas yer tutur:

*Əhvalımız çağ olsun,*
*Yediyimiz yağ olsun.*
*Azar-bezar çəkənlər*
*Şəfa tapsın, sağ olsun.*
*Yerdən təndir çapılsın,*
*Çırpma yuxa yapılsın.*
*Qovuşsun ayrılanlar,*
*İtən şeylər tapılsın.*

Əhməd əmimin, yəni Əhməd Cəfərzadənin Qarapapaq tayfasına, daha doğrusu, Ağbaba-Şörəyeldə yaşayan soydaşlarımızla bağlı folklor örnəklərinə yer ayırması təqdirəlayiqdir. Burada verilən atalar sözləri sayca az olsa da olduqca maraqlı və nadir rastlanan örnəklərdir.

Məsələn:

*Biz merinos qoyun kimiyik; isti olanda yığışır, soyuq olanda dağılışırıq.*

*İt quzu doğmaz.*

*Mürdəşir qiyamata zamin deyil.*

Burada verilən isdahan "istixan", yəni "isti otaq" anlamındadır. O da dəyirman (su dəyirmanı) kimi işləyərdi. Buna Ağbaba, Çıldır, Axılkələk tərəf ellərimizdə rast gəlinirdi.

Kikrə əslində "kirkirə"dir, danışıqda belə ifadə olunub.

Burada verilən məlumatlardan biri 124 yaşlı Şma qarı barəsindədir. Qeyd olunur ki, Şma "gəlin bacı" deməkdir. Bəli, Ağbaba-Şörəyeldə gəlini baldızlar "bacı" adlandırırdılar. Adətən, böyük gəlinə "şah bacı", ondan kiçiklərə "gül bacı" deyə müraciət edirdilər.

Burada Şma qarının harada yaşaması da verilib. Bəlli olur ki, bunların ailələri Ağüzümdə yaşayırmışlar. Maraqlıdır, burda Şma qarının adı, atasının adı, soyadı da verilib. Kəlbüseynova Səkinə Məşədi Abbas qızı.

Bu toplama kitabında həm də kifayət qədər toponimlər, yer-yurd adları (Şəki, Şirvan, Qazax, Şam, Qobustan, Bakı, Miyana, Xoy, Savalan, Ağdaş, Qarabağ, Şamaxı, Salyan, Xorasan, Cavad, Daşkəsən, Kərbəla, Təbriz, Araz, Bəsrə, Aşqabad, Sumqayıt, Naxçıvan, Dərbənd, Sibir, Zəngilan, Kürdəmir, Göylər, Şəmkir, Əhdahan, Udulu, Baxçasaray və s.) var. Əlbəttə, bir yazıda, bir kitabda bu folklor örnəkləri barədə ətraflı mülahizə söyləmək, bu toplama işinin dəyər və əhəmiyyətini incəliklərinə qədər göstərmək imkanım xaricindədir. Mən sadəcə bu təqdirəlayiq toplama işi barədə ürəyimdən keçənləri qeyd etdim. Zənn edirəm ki, dəyərli oxucular, folklorla bağlı olanlar, mütəxəssislər də öz sözlərini deyəcəklər.

Mən bu işdə mənə yaxından kömək edən dostum Turan İbrahimova, Aygül Cəfərzadəyə, bu kitabın araya-ərsəyə gəlməsində əməyi olan Vüsal Abiyevə təşəkkürümü bildirirəm.

**Tacir SƏMİMİ**
*filologiya üzrə fəsəfə doktoru, dosent*

# AĞBABA FOLKLOR ÖRNƏKLƏRİ

# NANAYLAR

*1948-ci ilin payızında Daşkəsən mədənlər idarəsinin klubunda işləyirdim. Bu vaxt Ermənistandan minlərlə azərbaycanlını zorla Azərbaycana köçürmüşdülər. Onlardan bir xeylisi Daşkəsəndə yerləşdirilmişdi. Bir axşam işıq söndüyü üçün kino tamaşası göstərilmədi. Köçkünlərdən bir neçə gənc səhnəyə çıxıb "nanay" deməyə başladı. Məlum oldu ki, bunlar Amasiya rayonunun Öksüzlü, Göllü, Quzukənd və b. kəndlərindən gələnlərdir. Sonralar[1] Amasiya rayonunun Oxçuoğlu kəndindən Əsəd Məhəmməd oğlu Həsənov, Əzizbəyov kəndindən Bayram Əsgərov, Güllübulaq kəndindən Nuru Hacıyev və b. ilə dostluq əlaqələrim yarandı.*

*1960-1986-cı illərdə Amasiya rayonunun əksər kəndlərinə, xüsusilə Oxçuloğluna dönə-dönə, müxtəlif hadisələrlə əlaqədar getdim. Özlərini "qaraqalpaq" qəbiləsindən hesab edən bu mahalın toxunulmamış adət və ənənələri, ədəbi dildən ciddi fərqlənən dialekti, geyimləri, xüsusilə də öyrənilməmiş şifahi xalq ədəbiyyatı məni çox maraqlandırdı. Bu yerlərdə qız-gəlinin yad kişi yanında nəinki yaşmaqsız görünməsi, hətta səsinin belə eşidilməsi ayıb hesab olunduğu üçün 1950-60-cı illərdə nanayları yazmaq çox müşkül məsələ idi və bunu 1957-ci ildə mənimlə birgə Oxçuoğluna gedən bacım, yazıçı-alim Əzizə xanım Cəfərzadə həll edə bildi. O, 35 nanay yazdı.*

*Bu nanaylar o qədər orijinal, o qədər koloritli və şirin idi ki, sonrakı 1958-70-ci illərdə mən müxtəlif üsullarla qız-gəlin yığıncaqlarına girib 372 nanay topladım.*

*Nanaylar toyla əlaqədar oxunmurdu. Onu uzun, qarlı-çovğunlu qış gecələrdə bir yerə toplaşanda, qonaqlıqda, yun darayıb əyirəndə, xalça-palaz toxuyanda, bayramlarda, qış üçün əriştə kəsiləndə, yuxa-lavaş yayılanda və s. vaxtlarda oxuyurdular. Özü də nanayları oğlanlar və cavan kişilər də ayrıca toplaşıb oxuyurdu.*

---

[1] Əhməd Cəfərzadə 1953-cü ildə Stalin əleyhinə yazdığı şeirlərə görə "xalq düşməni" kimi həbs edilmişdır. Siyasi məhbus olduğu 1953-56-cı illərdə Əsəd Həsənovla Sibirdə eyni yerdə həbs düşərgəsində olmuşdur. – T.İ.

*Nanay adətən çalğısız, tək-tək hallarda teşt, tabaq dınqıldatmaqla ifa olunurdu. Adamlar üz-üzə və ya dairə şəklində durur, hərə bir nanay deyir, çalanlar xorla nəqəratla cavab verirdi. Bir sıra hallarda bu nanayın avazı ilə aralığa girib oynayan da olurdu. Onda avaz dəyişdirilir, yavaş və ya sürətli olurdu. Nanay deyəndə nanayı eyni sözlə başlamalı idilər, eyni sözlə nanay deyə bilməyən dəstə uduzmuş hesab edilirdi. Amasiya (Ağbaba və Şürəyəl hissələrində) rayonunda nanayların böyük əksəriyyəti məhəbbət mövzusunda idi. Və bunlar "Əmim oğlu", "Oğlan, adın", "Ay qız, adın", "Bu gələn" və s. sözləri ilə başlanırdı:*

*Ağbaba yolu fərman,*
*Torpağı cana dərman.*
*Yardan bir kağız aldım,*
*Yarı dərd, yarı dərman.*

*Əmim oğlu bir idi,*
*Yaylığı çox kir idi.*
*Qazan asdım yumağa,*
*Axan sular qurudu.*

***Nəqərat:***
*Əmim oğlu gəleydi,*
*Danışeydi, güleydi.*

*Əmim oğlu Paşadı,*
*Küzləri qoşadı.*
*Ağılları yan-yana,*
*Damları baş-başadı.*

*Əmim oğlu bir dənə,*
*Kəkil töküb gərdənə.*
*Əmisi qızı qurban*
*O boya, o gərdənə.*

*Oğlan, adın Məhəmməd,*
*Ağzın gül, qoynun cənnət.*
*Sən ki, məni almadın,*
*Müxənnətsən, müxənnət.*

***Nəqərat:***
*Oğlan, amandı, getmə,*
*Yandım, amandı, getmə.*

*Oğlan, adın Qayıbdı,*
*Nənən yuxa yayıbdı.*
*Gəlirsən xəlvəti gəl,*
*Aşkar gəlmə, ayıbdı.*

*Nanaylar içərisində heyvandarlıq (qoyunçuluq) mövzusu da müəyyən yer tuturdu. Çobanların dolanacağı, qoyun-keçinin nəm-nişanı, otlaqlar, yaylaqlar və s. nanaylarda (əsasən oğlanlar oxuduğu) geniş yer tuturdu:*

*Bərabər otdar qoyun,*
*Otları qatlar qoyun.*
*Çobanı xəstə salıb,*
*Zəhrimar otlar qoyun.*

***Nəqərat:***
*Tut gətir ağ qoyunu,*
*Sərnicə sağ qoyunu.*

*Otağ otağa baxır,*
*Altından bulaq axar.*

*Çəkməli olan yerdə,*
*Çarıqlıya kim baxar.*

*Yaylağımız qoşadı,*
*Örüşü baş-başadı.*
*Qoyun südü bal kimi,*
*Qaymağı tamaşadı.*

*Nanaylar içərisində tərbiyə mövzusuna həsr olunmuşları da az deyildi:*

*Ətirə bax, ətirə,*
*Yarım ala, gətirə.*
*Dostun acı sözlərin,*
*Gərək dostu ötürə.*

*Su axdı samanlıqdan,*
*Otluqdan, samanlıqdan.*
*Çalış yaxşılıq eylə,*
*Nə çıxar yamanlıqdan.*

*Ağbabanın ilanı*
*Vurar yaxın olanı.*
*Mərd igidlər ölsə də,*
*Deməz bircə yalanı.*

*Bəzi nanaylarda əsrin əvvəllərində baş vermiş erməni-müsəlman qırğınları da öz əksini tapmışdı:*

*Oğlan, adın bəydi, gəl,*
*Dərdin məni əydi, gəl.*
*Bir cüt nar bəsləmişdim,*
*Kafir əli dəydi, gəl.*

*Nanayların nəqəratı müxtəlif olurdu: "Oğlan, amandı, getmə! Yandım, amandı, getmə!", "Ay qız, öldüm, amandı. Mənim halım yamandı.", "Əmim oğlu gəleydi, danışeydi, güleydi.", "Qurban olum sənin uca boyuna; Tezliknən gələk sənin toyuna.", "Tut gətir ağ qoyunu, Sərnicə sağ qoyunu." Və s. və i.*

*Nanaylar ifa olunarkən nəqərat bəzən hər sətirdən sonra, bəzən isə nanay bitəndən sonra deyilirdi.*

*1990-ci ilin yayında Iranda olarkən Məşhəd şəhəri yaxınlığındakı Şirvan və Qoçan qəsəbələrində də (burada əhalinin əksəriyyəti azərbaycanlı və türkmənlərdir) nanay deyilməsinin şahidi oldum. Burada da nanayları qız-gəlinlər (bəzən cavan oğlanlar) oxuyur, mövzu da, əsasən, məhəbbətdir. Lakin nəqəratlar çox azdır; əksər halda nanayın son sətri nəqərat kimi təkrar edilir.*

*Burada eşitdiyim nanayların bəzisi Amasiyada olduğu kimi "Oğlan, adın", "Ay qız, adın"la başlasa da, əksəriyyəti "Bu gələn", "Su gəldi", "Ay hirri-hirri", "Dağda gəzən" və s. ilə, bir qismi isə müxtəlif sözlərlə başlanır.*

*Bu gələn qazı deyil,*
*Yazdığı yazı deyil.*
*Anan bizə tərəfdir,*
*Atan irazı deyil.*
*Atan irazı deyil.*

*Bu gələn atam olsun,*
*Qolumdan tutan olsun.*
*Sən gəl bizə gəlin ol,*
*Atan qaynatam olsun,*
*Atan qaynatam olsun.*

*Su gəldi axa-axa,*
*Töküldü bizim arxa.*
*Sən getdin ayrısına,*
*Mən qaldım baxa-baxa,*
*Mən qaldım baxa-baxa.*
*Su gəldi, arxa nə var,*
*Töküldü, çarxa nə var.*
*Yarım məndən küsübdü,*
*Bilmirəm xalxa nə var,*
*Bilmirəm xalxa nə var.*

*Su gəldi pərli-pərli,*
*Qapısı qoşa pərli.*
*Gireydim yar qoynuna,*
*Çıxaydım tərli-tərli,*
*Çıxaydım tərli-tərli.*

*Buradakı nanayların bir qismi oğlan və qızların zarafatyana deyişməsi tərzindədir. Belə ki, nanayın birini qızlar birlikdə deyir, o birini isə oğlanlar birlikdə söyləyir – cavab verirlər:*

*A hirri-hirri qızlar,*
*Yaxası şirri qızlar.*
*Biz sizi bəyənmirik,*
*Üst-başı kirri qızlar.*

*A hirri-hirri oğlan,*
*Yaxası şirri oğlan.*
*Biz sizə gələrikmi,*
*Saqqalı kirri oğlan.*

*O tay-bu tay üzümdür,*
*Haqqıq düzüm-düzümdür.*
*Heç kəs qızın verməsə,*
*Əmi qızı bizimdir.*

*Kəndə töküldü naxır,*
*Buzovlar əmdi axır.*
*Çəkməliyə can qurban,*
*Çarıqlıya kim baxır.*
*Çıxdım aya baxmağa,*
*Evə kilid taxmağa.*
*Oğlan xına gətirib,*
*Qız əlinə yaxmağa.*
*Dəyirman üstü çiçək,*
*Oraq gətir, gəl biçək.*
*Sən kəkil qoy, mən birçək,*
*Görək hansımız göyçək.*

*Belə nanaylar deyildikdə əl çalmaqla takt tutulur. Bəzən teşt-tabaq çalınır, oynayanlar da olur. Bəzən oğlan və qızlar üz-üzə durur, bəzən ayrıca dövrə vurub nanay deyir-deyişirlər. Bu yerlərdə nanaylar toy, nişan, xınayaxdı, üzəçıxdı və s. şənliklərdə, habelə uzun qış gecələrində də ifa olunur. Onlar məclisdəkilərə sevinc, şadlıq, gənclik havası gətirir.*

*Şirvan və Qoçan qəsəbələrində yaşayan yaşlı adamlardan Məşədi Sərdar, Məşədi Ismayıl və Hacı Babanın deməsinə görə, nanaylar türk dilli (Azərbaycan türkü, türkmən, özbək və b.) xalqlarının sıx yaşadığı qonşu Mazandaran vilayətinin kəndlərində də ifa olunur.*

*Təəssüf ki, mən Iranda cəmi 47 nanay yaza bildim (qız-gəlin məclisinə girmək olmazdı, aralıdan eşitdiyimi yazdım.)*

*Azərbaycan nanayları itib-batır, yaşlı nəsil dünyadan getdikcə hərə bildiyini özü ilə torpağa aparır. İndiki şəraitdə bunları toplamaq üçün Vətən qeyrətli kişi lazımdır. 40 milyondan çox Azərbaycan türkünün arasında isə belə kişilər, zənnimcə çoxdur.*

**Əhməd Cəfərzadə**

## NANAYLAR

Əmim oğlu bir dənə,
Kəkil töküb gərdənə,
Əmisi qızı qurban
O boya, o gərdənə.

Əmim oğlu bir idi,
Yaylığı çox kir idi,
Qazan asdım yumağa,
Axan sular quridi.

Əmim oğlu olasan,
Mənə bir şal alasan,
Hörəm tökəm çiynimə,
Görəndə lal olasan.

Əmim oğlu əlinə,
Şal yaraşır belinə,
Əmisi qızı qurban
Qələm tutan əlinə.

Əmim oğlu, gəzmə gəl,
Gül bağçanı əzmə, gəl,
Məni bu yerdə qoyub
Yad elləri gəzmə, gəl.

Əmim oğlu Həsəndi,
Hirslənəndə əsəndi,
Özü gözəl-göyçəkdi,
Yamanca tez küsəndi.

Əmim oğlu Ağadı,
Sənə can sadağadı.
Qoynum cənnət bağıdı,
Əl vurmaq qadağadı.

Əmim oğlu Paşadı,
Öküzləri qoşadı,
Köynəyi darayıdı,
Çuxası tamaşadı.

Oğlan, adın Məhəmməd,
Ağzın gül, qoynun cənnət.
Sən ki, məni almadın,
Müxənnətsən, müxənnət.

Oğlan, adın bəydi, gəl,
Dərdin mənə dəydi, gəl.
Bir cüt nar bəsləmişdim,
Kafir əli dəydi, gəl.

Oğlan, adın Miridi,
Dağı duman bürüdü.
Səndən mənə yar olmaz,
Cavan canım çürüdü.

Oğlan, adın Həsəndi,
Sənətin daş kəsəndi,
Adaxlına söz demə,
Yerli-yersiz küsəndi.

Oğlan, adın Cavaddı,
Ev-eşiyin babatdı,
Sevgilin dağa gedir,
Deyən işin avanddı.

Qabımız bulaşıqdı,
Qapımız sarmaşıqdı,
Qız, qurbanın olum mən,
Oğlum sənə aşıqdı.

Oğlan, adın Temirdi,
Bu iş sənə əmirdi.
Üç ay keçdi, gəlmədin,
Ürəyin daş, dəmirdi?

Oğlan, adın Paşadı,
Eviniz baş-başadı.
Mən gedərəm o yara,
Ürgələri qoşadı.

Oğlan, adın Telişdi,
Toqqabağın gümüşdü,
Məndən uzaq gəzirsən,
Söylə görüm nə işdi?

Oğlan, adın Isadı,
Əlindəki əsadı,
Gəlirsən, axşamdan gəl,
Gecələr çox qısadı.

Bu dərə milli dərə,
Mixəkli, hilli dərə,
Açarın yar aparıb,
Qalıb qifilli dərə.

Otaq otağa baxır,
Altından bulaq axır,
Mənim bu şeytan yarım,
Dönüb qırağa baxır.

Bərabər otlar qoyun,
Otları qatlar qoyun,
Çobanı xəstə salıb,
Zəhrimar otlar qoyun.

Çıxdım dirək üstünə,
Baxdım yarın qəsdinə,
Əlində qızıl alma
Vurdu sinəm üstünə.

Kəndə töküldü naxır,
Buzovlar əmdi axır,
Çəkməliyə can qurban,
Çarığlıya kim baxır.

Corabın ağına bax,
Dəstələ, bağına bax,
Yar yadına düşəndə
Ələyəs dağına bax.

Ələyəs Ələmlidir,
Dörd yanı qələmlidir,
Ələyəsdən qız alanın
Ürəyi vərəmlidir.

O tay, bu tay üzümdür,
Haqqıq düzüm-düzümdür,
Heç kəs qızın verməsə,
Əmim qızı bizimdir.

Tüfəngi yağlayan yox,
Qayışın bağlayan yox,
Sonsuz getdin dünyadan,
Dalınca ağlayan yox.

Dağ başı çiçəkləndi,
Gün vurdu göyçəkləndi,
Toy yuxası yapıldı,
Ayrılıq gerçəkləndi.

Burdan bir atdı keçdi,
Atın oynatdı keçdi,
Qurban olum, a qızlar,
Yarım nə atdı, keçdi?

Bu yerdə xəzan olmaz,
Qab olmaz, qazan olmaz
Alırsan, dul alginan,
Qızdarnan bazar olmaz.

Tutubdu gavur məni,
Qoymur bir hovur məni,
Qış günü, mən yalavac,
Rəhmi yox, qovur məni.

Ağbaba yolu fərman,
Torpağı cana dərman,
Yardan bir məktub aldım,
Yarı dərd, yarı dərman.

Oğlan, adın Hacıdı,
Ətəyin qıyqacıdı,
Çox baxma o gəlinə,
Dili yaman acıdı.

Araqçının çətiri,
Özündədir ətiri,
O qaş, o göz səndədir,
Gündə bir yar gətiri.

Araqçının xarası,
Ipəyi, zərxarası,
Qızın ağı gözəldir,
Oğlanın da qarası.

Araqçının şallama,
Qayadan daş sallama.
Bir cüt öpüşdən ötrü
Ananı bizə yollama.

Qapımızda bel durub,
Sancılıbdı, bel durub.
Məni sevən oğlanın
Kəkili tel-tel durub.

Çay daşı, çaxmaq daşı,
Yandı ürəymin başı.
Adını deyə bilmərəm;
Güləndamın qardaşı.

Qızıl güllər soldu gəl,
Arpa çayı doldu, gəl.
Dolağsız gedən oğlan
Dolağ tamam oldu, gəl.

Əlində qızıl qənddan,
Elədin məni betdam,
Getdin uzaq ellərə,
Çıxartdın məni yaddan.

Arxalığı lənkədi,
Köynəyi sərfinkədi.
Mən istəyən gözəlin
Məməsi girvənkədi.

Sarı gilas rəngimdə,
Sapı var biləngimdə,
Allah məni öldürməz,
Arzum var ürəgimdə.

Sürü biyana gəlsin,
Yesin, biyana gəlsin.
Deyin o vəfasıza,
Dönsün, bu yana gəlsin.

Ərzurum talan oldu,
Talandan qalan oldu.
Dedilər, toyun olur,
Deyəsən yalan oldu.

Bulağın başı yarpız,
Qərarım tutmur yarsız,
Beş gün vədə vermişdin,
Dolandı gəldi novruz.

Sabah oldu, vaxt oldu,
Sinəm üstü taxt oldu.
Banlasana, ay xoruz,
Yarım gedən vaxt oldu.

Şürələyin düzü var,
Düzlərində quzu var,
Ata-anana görkünmə,
Bəlkə dəyən sözü var.

Quzumun rəngi ağdı,
Quyruğu dolu yağdı.
Çəkəcəyəm cəfanı
Nə qədər canım sağdı.

Çəkməsi cığ-cığ eylər,
Evmizi palçığ eylər.
Zəhləm gedir o yardan
Hər gecə acıq eylər.

Quzum bulağa çıxıb,
Qalxıb bulağa çıxıb.
Siz Allah, xoş söz deyin,
Yarım qulağa çıxıb.

Atlarda qula azdı,
Kəhər çox, qula azdı.
Nə ər-ər soruşursuz,
Çöllərdə tula azdı?

Meyvənin irisidi,
Xırdası, dirisidi.
Arvadı soruşmayın
Qancığın birisidi.

Yaylağımız dağ olsun,
Dörd tərəfi bağ olsun,
Məni yara yetirən,
Dünyalarca sağ olsun.

Dağlardan külək gəlir,
Meh gəlir, külək gəlir.
Bundan mənə yar olmaz,
Gündə bir kələk gəlir.

Dağların yağışı var,
Qarı var, yağışı var,
Yayı yarsız yatmışam,
Axı bunun qışı var.

Əlimdəki qaşıqdı,
Yollarım çalpaşıqdı.
Yarla qol-boyun olum,
Desinlər sarmaşıqdı.

Eyvanım həsir mənim,
Ürəyim əsir mənim.
Toyumu tez eləyin,
Yarım tələsir mənim.

Bağlı qapı aç, oğlan,
Ağ üzündən maç, oğlan,
Əyər atam verməsə,
Götür məni qaç, oğlan.

Yaylığın ucu qara,
Ürəyim oldu yara.
Atam versə gedərəm
Könlüm istəyə yara.

Yaylığın ucu sarı,
Gecəni etdim yarı.
Məni yardan edənin
Evini yıxsın tarı.

Sürülər toz eləyir,
Od yanır, köz eləyir,
Ağamın kiçik qızı
Sərkara göz eləyir.

Yaylığım düşdü yola,
Ilişdi qaldı kola.
Allah, bir yol yar ilə
Sarmaşaydıq qol-qola.

Quzunu alan olmaz,
Ağıla salan olmaz.
Deyirlər yarım gəlir,
Bu boyda yalan olmaz.

Süpürgə yumuşaqdı,
Yuxadı, yumuşaqdı.
Toy vaxtın soruşmayın,
Yarım hələ uşaqdı.

Ağ üzümün üzümü,
Yolda qoyub gözümü.
Yarı xəlvət görmədim,
Deyəm ürək sözümü.

Xarmanları uzağdı,
Getmək olmaz, duzağdı.
Ağ desəz yara deyin,
Kim deyir ki, duz ağdı?

Araz axır dərindən,
Dağların kəmərindən,
Kimdisə dərdli-qəmli,
Desin dərdi-sərindən.

Şürələyin bağları
Sirab edib dağları.
Bizi ağlar qoyanın
Ağlasın uşaqları.

Qoyunçu qoyun gördü,
Neçə cür oyun gördü.
Anan nə ağbaxt imiş,
Oğlunun toyun gördü.

İrəvanın balı var,
Yaşılı var, alı var,
Yar məndən öpüş istər,
Əcəb xam xəyalı var.

Araz axır düz ilə,
Gedir yerin üzilə,
Gözüm, niyə çıxmadın,
Yarı gördün qız ilə?

Anam qara bağladı,
Gecə-gündüz ağladı.
Gavur bizə zülm etdi,
Sinəmizi dağladı.

Baş darağım sürüşdü,
Xanlıq bağına düşdü.
Əyildim götürməyə,
Yarım gəldi yetişdi.

Ağbabanın düzü var,
Düzlərində quzu var,
Bozarsın, müstər olsun,
Kimin səndə gözü var.

Miz üstündə göy daraq,
Yarımı gördüm bayaq.
Yüyürdüm, yetişmədim,
Qırılsın belə ayaq.

Bu dərənin söyüdü,
Mən gedəndə göyüdü.
Oğlanda nə taxsır var,
Qıza verin öyüdü.

Su gəlir milə-milə,
Yar gəlir gülə-gülə.
Əlində ipək dəsmal,
Qan-tərin silə-silə.

Mənim əslim xocadı,
Nəslim, soyum ucadı.
Neynirəm var-dövləti,
Başı batmış qocadı.

Oğlan, adın Diləndi,
Dağlara şeh çiləndi.
Biz nə desək boş sözdü,
Yazı – Allah biləndi.

Yaylığın gülü ollam,
Ağzuvun dili ollam,
Hansı yolnan gələsən,
O yolun qulu ollam.

Əlimdəki məzədi,
Məzə lap təp-təzədi,
Bir az xəlvəti get-gəl,
Qonşular göz-gözədi.

Ay qız, adın Banıdı,
Əlindəki şanıdı.
Sənin ala gözlərin
Yarın din-imanıdı.

Bulaqda daşım qurban,
Gözümdə yaşım qurban.
Canım desəm, az olar,
Qohum-qardaşım qurban.

Ay qız, adın Nayıbdır,
Atan bizi sayıbdır,
Sevgilini xəlvət gör,
Aşkar görmək ayıbdır.

Dağların dar dərəsi,
Əskik olmaz tərəsi.
Qonşuda bir qız sevdim:
Boz kəkliyin fərəsi.

Ağbabadan aşaram,
Yara mahnı qoşaram,
Yarım mənə baxanda,
Yerişimi çaşaram.

Xurmeyi saşdı gəlin,
Çəpəri aşdı gəlin.
Iddəsi çıxan kimi,
Qoşuldu qaşdı gəlin.

Ay qız, adın Nərgizdi,
Əl-ayağın təmizdi.
Yar ildən bir gələrdi,
Lap onu da tərgizdi.

Sarıqamış qamışdı,
İçi dolu camışdı.
Qoy əmim dodaqların,
Desinlər, susamışdı.

Ay qız, adın Gülöyşə,
Yaxanda var bənöyşə.
Sən mənim ol, mən sənin,
Arzum budur həmişə.

Qapımız tayalıdı,
Nərlidi, mayalıdı.
Atamın gəlinləri
Əlləri payalıdı.

Bura gəlib erməni,
Hər yetənə der məni.
Üzüm necə pis imiş,
Aparmayır yer məni.

Köynəyin sarı-sarı,
Ipliyin sarı, sarı.
Can alırsan, bir yol al,
Can alma yarı-yarı.

Qəlyanın özü gəlsin,
Yanında közü gəlsin,
Sən mənimsən, mən sənin,
Kimin var sözü, gəlsin.

Arx içi lehməlidi,
Qızıl gül əkməlidi.
Mənim yarım ucdakı
Ayağı çəkməlidi.

Qızılgülün halı var,
Əcəb qalmaqalı var.
Yarımın yerin deyim;
Başında al şalı var.

Malını yada vermə,
Ömrünü bada vermə.
Qız verdin insana ver,
Dövlətə, ada vermə.

Qapıya qoyun gəldi,
Qoç gəldi, qoyun gəldi.
Mənim batmış başıma
Yenə bir oyun gəldi.

Quzular düzə döndü,
Dolandı, küzə döndü.
Bir yol üzünü gördüm,
Gecəm gündüzə döndü.

Oba olmaz aransız,
Yaylaq olmaz yaransız.
Ara vuran adamı,
Ölsün yasin-quransız.

Ay bu evin xanımı,
Üzmə mənim canımı.
Ərin malımı alıb,
Sən də din-imanımı.

Pətəkdə arı gərək,
Paltarı sarı gərək.
Gözəl qız istəyənin,
Dövləti-varı gərək.

Oğlan, dalın dağa ver,
Düşmənə qadağa ver.
Yarına qovuşdunmu,
Bir ye, min sadağa ver.

Arılar şan bağladı,
Bal yedi, can bağladı.
Məni düşmənə verib,
Qardaşım qan bağladı.

Bu çala balıqlıdı,
Cöngələr alıqlıdı.
Mən çobana getmərəm,
Ayağı çarıqlıdı.

Çobanlar sayaq olu,
Dostuna dayaq olu.
Qoyuna döl düşəndə,
Gecəni oyaq olu.

Qiblədən külək əsdi,
Soyuğu məni kəsdi.
Yar özü sənin olsun,
Bir adı mənə bəsdi.

Dam üstündə pərdi var,
Dirək yoxdu, pərdi var.
Ad mənim, yar özgənin,
Kimin belə dərdi var?

Sübhəcən işləyərəm,
Xəncər gümüşləyərəm,
Yarı xəlvətdə görsəm,
Yüz öpüb-dişləyərəm.

Armud ağacı haça,
Əlim dolaşdı saça.
Igid ona deyərəm,
Sevdiyin alıb qaça.

Qoyun otlar düzlərdə,
Əyrilərdə, düzlərdə.
İtirmişəm tərlanı,
Tapılarmı sizlərdə?

Dəsmalı kirri yarım,
Mənim fikirri yarım.
Gəlib mənə arxa dur,
Hamıdan girri yarım.

Qardaşım Təbrizdədi,
İlxıları düzdədi.
Qardaşa xəbər olsun,
Adaxlısı bizdədi.

Qardaşım yaylaqdadı,
Yükləri daylaqdadı,
Qardaşa xəbər olsun,
Yarı bu oylaqdadı.

Bu gələn Xanım ola,
Dinim-imanım ola.
Sənə qurban verərəm,
Əyər yüz canım ola.

Dağdan gəldi bir quzu,
Burma-burma buynuzu.
Görüm tezbazar olsun,
Bizi aldadan qızı.

Ay qız, adın Püstədi,
Adaxlın yol üstədi,
Həsrətini çəkməkdən,
Gecələri xəstədi.

Arxalığın sarıdı,
Qonşu səni darıdı,
Insaf elə, çölə çıx,
Axı gecə yarıdı.

Ülkər ucadı, oğlan,
Getmə, gecədi, oğlan.
Dedin başım ağrıyır,
İndi necədi, oğlan?

Zəli yer eşən olar,
Sovçaya düşən olar.
Öpürsən, xəlvətdə öp,
Umsunub şişən olar.

Boz atın boylamasın,
Cilov çək, oynamasın.
Gedirsən gecə yarı,
Ürəyin oynamasın.

Çayırı atdım düzə,
Göyərib çıxdı üzə.
Səndən bir diləyim var,
Şəklini göndər bizə.

Əriştə bəylər aşı,
Tutmac onun yoldaşı,
Umac, xəşil, qatmalı
Pinti arvadlar işi.

Oğlan, adın Talıbdı,
Atın burda qalıbdı.
Ürəyimin başını
Qara qanlar alıbdı.

Əmim oğlu Alıdı,
Boyu qarğıdalıdı.
Öldürsələr yüz kərə,
Könlüm ona sarıdı.

Ay qız, adın Nazlıdı,
Səsin çox avazlıdı.
Sizə necə gəlim mən,
Qardaşın çox qazlıdı.

Araz üstü bənd imiş,
Dörd tərəfi kənd imiş.
Yarı xəlvətdə öpdüm,
Dodaqları qənd imiş.

Gəlin, gəlin, gül gəlin,
Ətəkliyi pul gəlin.
Qardaşımın xətrinə
Ollam sənə qul, gəlin.

Yaylağımız dərindi,
Bulaqları sərindi.
Sevgilimin dodağı
Beçə baldan şirindi.

Süfrəmizə bal düşüb,
Dəymiş qalıb, kal düşüb.
Yarım özgəsin sevib,
Ürəyimə xal düşüb.

Ələyəsdə üzüm var,
Üzüm, səndə gözüm var.
Gedirsən, bəri qayıt,
Deyiləsi sözüm var.

Ay qız, adın Mələkdi,
Əlindəki ələkdi.
Vədə verdin, gəlmədin,
Bəs bu necə kələkdi.

Güzgü bayıra düşdü,
Şovqu çayıra düşdü.
Zəhmətini biz çəkdik,
Düşmən xeyirə düşdü.

Ay qız, adın Badamdı,
Müəllimin madamdı.
Məni oda yaxırsan,
Demirsən ki, adamdı.

Ay qız, adın Xanımdı,
Sənin yerin yanımdı,
Özün mənim gözümsən,
Bacın din-imanımdı.

Bu mahal Gilan deyil,
Təbrizdi, Gilan deyil.
Deyirlər, toyum olur,
Deyəsən, yalan deyil.

Qulam mənəm, qulam mən,
Ağa sənsən, qulam mən.
Üç gün gəlin olmuşam,
Deməyin ki, dulam mən.

Palaz yorğan olubdur,
Dərə yarğan olubdur,
Kül başına, qaynana,
Gəlin darğan olubdur.

Karvan keçər, toz eylər,
Paxıl gözü boz eylər,
Qonşunu qara geysin,
Yar gələndə söz eylər.

Qapımızın beçəsi,
Cırılıbdır keçəsi,
Gəl bir bulaq üstünə,
İntizardır neçəsi.

Gün batdı, sərin gəldi,
Sərin, sərvərin gəldi.
Davalar tamam olsun,
Desinlər, ərin gəldi.

Ay qız, adın Püstədi,
Qulaqların səsdədi.
Həsrətini çəkməkdən
Əmim oğlu xəstədir.

Bu dağların çili var,
Kəkliyi var, çili var.
Yarıma qurban olum,
Yarın şirin dili var.

Qurban boyuna sənin,
Yaxşı xoyuna sənin.
Allah qismət eləsin,
Gələk toyuna sənin.

Dağların alası var,
Gülü var, lalası var,
Gözəl-göyçək yarımın
Qancığ tək xalası var.

Oğlan, adın Bilaldı,
Qara qaşın hilaldır.
Məndən uzağ gəzirsən,
Söylə görək nə haldı.

Küləşi yığdım dama,
Ayranı tökdüm cama,
Yar ilə görüşməyim
Qaldı bu gün axşama.

Ay qız, adın Fatmadı,
Əlindəki qatmadı,
Gecə sizə gəlirdim,
Ancaq anan yatmadı.

Bu şəhər Gilan deyil,
Rəşt deyil, Gilan deyil,
Öpdün, qucdun, bəs eylər,
Zəhrimar talan deyil.

Ay qız, adın Müşgünaz,
Sevgilinə etmə naz,
Yarın gedib davaya,
Qələm götür, kağız yaz.

Ay qız, adın Gülzaman,
Ləbin bal, qaşın kaman,
Bir də səni görməyə
Məndə qalmayıb güman.

Ay qız, adın Saradı,
Tumanlığın xaradı,
Həsrətini çəkməkdən
Çoxları avaradı.

Çörək yapdım, küt oldu,
Qatığ çaldım, süt oldu,
Bəyəndim, gəlin aldım,
Bir heyvərə it oldu.

Oğlan, adın Piridi,
Çomağın çox iridi,
Sən sevdiyin o gəlin
Qancığ itin biridi.

Ay qız, adın Bikədi,
Qonşuların əkədi,
Toyunu tez elətdir,
Adaxlın çox yekədi.

Ay qız, adın Narındı,
Bişirdiyin qarındı,
Dilini şirin eylə,
Qaynanan çox harındı.

Ay qız, adın Zərlidi,
Qohumların fərlidi,
Niyə mənə getmirsən,
Tayın-tuşun ərlidi?!

Oğlan, adın Zamandı,
Qara qaşın kamandı,
Sən sevdiyin gözəlin,
Xasiyyəti yamandı.

Oğlan, adın Ayazdı,
Altındakı palazdı,
Sən sevdiyin o gəlin
Ağıldan çox dayazdı.

Dəyirmanı soydular,
Soyuban od qoydular,
Yengicə yar sevmişdim,
Təzə qanun qoydular.

Çıxdım aya baxmağa,
Evə kilid taxmağa,
Oğlan xına gətirib,
Qız əlinə yaxmağa.

Yallı yallıya bənddi,
Yallı bürüdü kəndi,
Pul verin, satın alım
Yarım oturan kəndi.

Yarı yolladım özüm,
Allah, mənə bir dözüm,
Yolda yoldaşı qurban,
Evə dönəndə özüm.

Su gəlməz bağa, neynim,
Bağa, yarpağa, neynim,
Küsdürmüşəm o yarı,
Gəlmir otağa, neynim.

Hitlerin gəmiləri,
Gah geri, gah irəli,
Evin yıxılsın, Hitler,
Ağlatdın gəlinləri.

Paltarım dar olubdu,
Tikdirən yar olubdu,
Yarım davaya gedib,
Qulağı kar olubdu.

Qızıl üzüyün yanı,
Durmur barmağım qanı,
Dünən görünən oğlan,
Bu gün görünmür, hanı?

Bu dağların Vanı var,
Qarsı, Ərdahanı var,
Sənin kimi igidin
Bir sürü ehsanı var.

Ay da ulduzun, pəri,
Xiyar, xırtızın pəri,
Gəl alım xan qardaşa,
Olum baldızın pəri.

Haftafa luğ-luğ eylər,
Yar işi şuluğ eylər,
Mənim balaca yarım
Hökümətə qulluğ eylər.

Baxçamızda kal qarpız,
Səni yanasan, baldız,
Söz gəzdirib, ev yıxdın,
Yar getdi, qaldım yalqız.

Haftafa burum-burum,
Gedim qapıda durum,
Desələr, qardaş gəlir,
Durum samovar qurum.

Yatıbdı qaram mənim,
Tapılmır çaram mənim,
Hər yara sağalsa da,
Sağalmır yaram mənim.

Dibçəkdə duz olaydım,
Göydə ulduz olaydım,
Yar qapıdan keçəndə,
Evdə yalqız olaydım.

Yandırdı maşa məni,
Od məni, maşa məni,
Mən əcəldən ölmədim,
Öldürdü paşa məni.

Ocaq yandı, sönmədi,
Quşum uçdu, enmədi,
Davadan danışmayın,
Yarım getdi, dönmədi.

Öksüzlünün barı yox,
Heyvası yox, narı yox,
Kül o kəsin başına,
Bir istəkli yarı yox.

Kəndə Sayalı gəldi,
Nərli-mayalı gəldi,
Dedik, hayalı aldıq,
Əli payalı gəldi.

Toxuyaram, çul, səni,
Bağışlaram, qul, səni.
Gör nə günə qalmısan,
Bəyənməyir dul səni.

Bu bağın arasınnan,
Üzüm ver qarasınnan,
Səndən öpüş istərəm,
Aşnalıq barasınnan.

Öküzlər şuma gəlsə,
Səpinçi tuma gəlsə.
Meyid olsam, qalxaram,
Iyin burnuma gəlsə.

Bu dərədə üzüm var,
Yaxına gəl, sözüm var,
Dayımın üç qızından
Kiçiyində gözüm var.

Çağır gəlsin Xalığı,
Bəri versin alığı,
Yarım mənə pay alıb,
Bir Ənzəli balığı.

Oğlan, adın Xalıqdı,
Gətirdiyin alıqdı,
Sizdən bizə gələn pay
Bir ipək arxalıqdı.

Gəlinin nazbalışı,
Get, axtar, gəz balışı,
Məməm balışdı sənə,
Çəngələ, əz balışı.

Bazara tərə gedər,
Süd gedər, kərə gedər,
Qonşun paxıl olmasa,
Kor qızın ərə gedər.

Bostanda yemişəm mən,
Zərəm mən, gümüşəm mən.
Ölənəcən səninəm,
Sözümü demişəm mən.

Pulsuzam, parasızam,
Ağsızam, qarasızam,
Dərmanım səndə gedib,
Qayıt gəl, çarasızam.

Döşəyi üzləyən var,
Üz çəkib üzləyən var,
Xoşbəxt o kimsənədir,
Yolunu gözləyən var.

Ocağı qalamaram,
Könüllər talamaram,
Söz verdim üstə durram,
Tüpürsəm yalamaram!

Toy eyləyən aşıqdı,
Işimiz çalpaşıqdı,
Gəl bir qolboyun olaq,
Desinlər sarmaşıqdı.

Bu sürü hara gedər,
Baş alar, hara gedər?
Deyingən dul gəlinlər,
Axtarar, kara gedər.

Süfrəmizə şor gəldi,
Ocaq yandı, qor gəldi,
"Yar" deyib ağlamaqdan,
Gözlərimə tor gəldi.

Dayanma, Mərəndə gəl,
Xoya gəl, Mərəndə gəl,
Gavurlar sinəm üstən,
Şamama dərəndə, gəl.

Ay qız, adın Havadı,
Əlindəki tavadı,
Qaşın, gözün can alır,
Ləbin dərdə davadı.

Oğlan, adın Vəkildi,
Başındakı kəkildi.
Sən sevdiyin o dilbər,
Qız deyil, bir şəkildi.

Ay qız, adın Nisədi,
Əlindəki kisədi.
Xəbərçi sizdən gəlib,
Bu necə umkisədi.

Soyuqdan əsdim, gəldim,
Əlimi kəsdim gəldim,
Bir cüt öpüşdən ötrü
Yarımdan küsdüm, gəldim.

Ay qız, adın Məsmədi,
Qaşındakı vəsmədi,
Pendirimiz cılxa yağ,
Qatığımız kəsmədi.

Qonşudan tava gəldi,
Teşt gəldi, tava gəldi,
Yar yolun gözləməkdən
Başıma hava gəldi.

Yaylağın bulağı var,
Atı var, ulağı var,
Sir sözü yavaşca de,
Yerin də qulağı var.

Veriblər təsbeh mənə,
Xoş gəlibdi meh mənə.
"Gəlləm" deyib, gedirsən,
Bir öpüş ver beh mənə.

Yarpızı, ay yarpızı,
Dəstə tutdum yarpızı.
Görüm tezbazar olsun,
Evlər yıxan baldızı.

Yük üstündə pişik var,
Yanında bir yeşik var.
Sən Allah, xəlvəti gəl,
Hər yanda bir keşik var.

Qatığın sütə dönsün,
Yapdığın kütə dönsün,
Sənin kimi gəlinin
Atası itə dönsün.

Oğlan, adın Alıdı,
Altındakı xalıdı,
Nişanlını tez apar,
Yoxsa özgə malıdı.

Arxalığım sarıdı,
Mətləb verən Tarıdı,
Niyə gəlib çıxmırsan,
Axı gecə yarıdı?

Ətirdim, ay ətirdim,
Canı cana yetirdim.
Qaçaqaç düşən zaman,
Bir cüt bala itirdim.

Oğlan, adın Kamaldı,
Yanındakı Camaldı.
Sən məni atıb getdin,
Düşmənlərim kam aldı.

Xoruzlar quqq elədi,
Qapımız şıqq elədi,
Elə bildim yar gəldi,
Ürəyim tıqq elədi.

Əlində qızıl sancaq,
Gətir yaxana sancaq,
Yar görüşə gəlmədi,
Soyuqdan əsdim ancaq.

Ağbabanın bəndi var,
Otuz para kəndi var.
Dul arvaddan gen dolan,
Əlli min cür fəndi var.

Köynəyi ağardaram,
Qolların daraldaram.
Özüm qarabuğdayı
Çoxların saraldaram.

İrəvanın qazı var,
Kamanı var, sazı var,
Burda bir dul sevmişəm,
Yüz qızcan nazı var.

Ay qız, adın Bəyazdı,
Sudan qorxma, dayazdı,
Gəl gir mənim qoynuma
Havalar çox ayazdı.

Əlimdə ələyim var,
Unum var, ələyim var.
Əzrayıl, yaxın gəlmə,
Allahdan diləyim var.

Ay qız, adın Tellidi,
Gözəlliyin bəllidi.
Sənə elçi düşənlər,
Beş-on deyil, əllidi.

Oğlan, adın Mayıldı,
Tayın-tuşun sayıldı.
Elçini göndər bizə,
Könül sənə mayıldı.

Bu şəhər Maşad olsun,
Get, yolun Maşad olsun,
Yardan üz döndərən yar
Nə gülsün, nə şad olsun.

Ay qız, adın Fatmadı,
Əlindəki qatmadı,
Gəldim səni istədim,
Amma gücüm çatmadı.

Naxçıvana yol gələr
Yol dolanar, yol gələr.
Şirin dilli gözəlin,
Elçisi bol-bol gələr.

Ağbabanın gədiyi,
Yaxşı olar hədiyi.
Igid özü mərd olsa,
Yalan olmaz dediyi.

Ay qız, adın Bətindir,
Tumanlığın sətindir.
Sevgilinlə küsüşmə,
Barışmaq çox çətindir.

Oğlan, adın Nəzərdi,
Dağları gül bəzərdi.
Sevgilinlə cüt gəzmə
Qonşumuz bədnəzərdi.

Erməni, ay erməni,
Vətənimə ver məni,
Sənə kəniz olunca
Aparaydı yer məni.

Əlində şoqqası var,
Belində toqqası var.
Dul arvaddan uzaq gəz,
Əlli cür hoqqası var.

Ağac, səndə qoz ollam,
Fındıq ollam, qoz ollam,
Yarım bizə gələndə
Ayağına toz ollam.

Dağların araları,
Yanları, araları,
Yüz adam saya bilməz
Məndəki yaraları.

Oğlan, adın Kərəmdi,
Düşmən yanım, yörəmdi,
Həsrətüvü çəkməkdən
Cavan canım vərəmdi.

Dağlarda qaralan var,
Yaxşı bax, qaralan var.
Rəhm eylə, bəri qayıt,
Dərdindən saralan var.

Qızıl üzük taxmanam,
Ildırım tək çaxmanam,
Durmuşam sözüm üstə,
Hər tərəfə axmanam.

Çəpərdən aşdı gəlin,
Xurmeyi saşdı gəlin,
Zornan ərə verdilər,
Qoşuldu qaşdı gəlin.

Bulaq üstə toz olar,
Dəstə-dəstə qız olar,
Alırsan qız alginan,
Gəlin hiyləbaz olar.

Dizligin oyma-oyma,
Yaramın qaysağın soyma,
Alırsan canımı al,
Məni yaralı qoyma.

Verən yoxdu pul mənə,
Qızıl mənə, pul mənə.
Sevgilim yada getdi,
Qismət oldu dul mənə.

Su gəldi axa-axa,
İçində iri qaxa,
Yarı yada verdilər,
Mən qaldım baxa-baxa.

Qoyunun düzdə qaldı,
Quzusu küzdə qaldı,
Uçulun, ay şiş dağlar,
Sevgilim sizdə qaldı.

Arpanı ələrəm mən,
Daş olsa, dələrəm mən.
Gəl məni qoyub getmə,
Dalunca mələrəm mən.

Əyməni əgən mənəm,
Ucuna dəgən mənəm.
Mənə öz yarım gərək
Özgəni bəgənmənəm.

Sürüdə dəli qoyun,
Sağına gəli qoyun,
Yarından ayrılanın,
Adını dəli qoyun.

Gecə keçir yarıdan,
Yar boylanır barıdan,
Dədəm də bir söz demir,
Nişana, toy sarıdan.

Ağbaba çiçəkdimi?
Çiçəyi göyçəkdimi?
Deyirlər, yarın gəlir,
Siz Allah, gerçəkdimi?

Qaz gələr düşər arxa,
Boynunda qızıl halğa,
Itirmişəm yarımı,
Gəzirəm qorxa-qorxa.

Gəl, ey ağappaq oğlan,
Dodağı yarpaq oğlan.
Sevdin, ala bilmədin,
Gözünə torpaq, oğlan.

Arpa çayı daşıbdı,
Suyu bəndi aşıbdı,
Bəxtəvər olsun o qız,
Yarla qucaqlaşıbdı.

Bərabər otlar qoyun,
Otları qatlar qoyun,
Çobanı naşı olsa,
Tez köpüb çatlar qoyun.

Armud ağacı suda,
Birin kəs, birin buda,
Yarım məniynən olsa,
Neynəyər qayın-quda?

Çatını düz bağladım,
Düz tutdum, düz bağladım,
Yarın boyuna baxdım,
Üzümə üz bağladım.

Sürüdən quzu getdi,
Quzunun yüzü getdi,
Sən getdin, mən lal oldum,
Ağzımın sözü getdi.

Buzovçu cələ qurdu,
Quş tutdu, cələ qurdu,
Yar məndən dönməz idi,
Özgəsi tələ qurdu.

Qaya altdan qaz gedər,
Qaqqıldaşar, qaz gedər,
Ilqarı düz olanın,
Hər işi taraz gedər.

Güllübulaq obamız,
Yox fəsimiz, Obamız,
Yara qurban olaydı,
Cəmi cəddi-abamız.

Gümrü eli bizimdi,
Həyətləri üzümdü,
Mən gəldim sizə qonaq,
İndi növbə sizindi.

Əmim oğlu Məmişdi,
Boyu qarğı-qəmişdi,
Öpür, qucur, doymayır,
Yamanca görməmişdi.

Qarapapaq elimiz,
Türk dilidir dilimiz.
Türkdən ayrı düşmüşük,
Əyilibdi belimiz.

Qoyun gələr quzuynan,
Ayağının tozuynan,
Erməni yüz illərdi
Düşmən olub biziynən.

Bilərzikli biləyin,
Bizə düşməz diləyin,
Yavaşca keç, Qızpəri,
Bizi yıxar küləyin.

Arxalığın narışdı,
Ətəyi bir qarışdı,
Sən aranda, mən dağda,
Bu necə ismarışdı?

Arxalığın qumaşdı,
Al-yaşıla culaşdı.
Baxmasaydım, ölərdim,
Baxdım, gözüm qamaşdı.

Gedin deyin o qıza,
Köynəyi qanovuza,
Bu il toyu olmadı,
Qaldı gələn payıza.

Çutqubağın sarıdı,
Ucları mirvarıdı,
Insaf elə, çölə çıx,
Axı gecə yarıdı.

Gözün aladı sənin,
Qaşın qaradı sənin,
Gətir yeyim dilini,
Başına bəladı sənin.

Boyun ucadı sənin,
Əslin xocadı sənin,
Özün cavan, növrəstə,
Ərin qocadı sənin.

Arxalığı naxışla,
Naxış vurub naxışla.
Gündüz yar sənin olsun,
Gecə mənə bağışla.

Kibrit çəkən yar olur,
Getməsən, zinhar olur,
Anası yol göstərər,
Qarılar pərgar olur.

Su küfülü dar olur,
Keçməyi azar olur.
Gözləmə darvazanı,
Dal qapı bekar olur.

Əmim oğlu Misirdi,
Toya çox tələsirdi,
Lüt kasıbın biridi:
Bir həsir, bir yesirdi.

Əlində şana oğlan,
Çox baxma yana, oğlan.
Məni yada verdilər,
Qal yana-yana oğlan.

Atı bu yana döndər,
Üzün bu yana çöndər.
Əyər məni sevirsən,
Bizə nişana göndər.

Qoyun-quzu tən gedər,
Tən otlayar, tən gedər,
Qiyamət o gün qopar
Yar yarından gen gedər.

O dediyin dəh nədi?
Yügən nədi, dəhnədi?
Cinsi bədoy olana
Qırmanc nədi, "dəh" nədi?

Daşdan gil iyi gəlir,
Sudan lil iyi gəlir.
Yarıma qurban olum,
Ondan gül iyi gəlir.

Dağların biyanı var,
Gənsizi, biyanı var,
Barı gəl yuxuma gir,
Desinlər hayanı var.

Məxmərəm, qabım yoxdu,
Yaşılam, abım yoxdu.
Küsmüsən, gəl barışaq,
Küsüyə tabım yoxdu.

Enibdi düzə ceyran,
Çıxıbdı üzə ceyran.
Görünüb qan elərsən,
Görünmə gözə, ceyran.

Kişisən, ara sözü,
Söyləmə para sözü.
Yar ilən özün danış,
Ev yıxar ara sözü.

Boz at, nallaram səni,
Yaxşı yallaram səni,
Məni yara yetirsən,
Məxmər çullaram səni.

Alaçığın dəyirmi,
Çubuqları iyirmi.
Köçüb hara gedirsən,
Bu yurd sənin deyilmi?

Üzərriyim əldədi,
Qurşaqdadı, beldədi.
Siz Allah, xoş söz deyin:
Yarım uzaq eldədi.

Bu qıza zor olubdu,
Yatağı qor olubdu.
"Yar" deyib ağlamaqdan,
Gözləri kor olubdu.

Qayadan öküz baxar,
Buynuzun daşa çaxar.
Xas igidlər var ikən,
Saqqallıya kim baxar?

Yük üstə sarı kömbə,
Ağ kömbə, sarı kömbə.
Qul oldum, yavan yedim,
Yarı cad, yarı kömbə.

Sovuqbulaq süzüldü,
Su axarı pozuldu.
Beş gündü yarım gəlməz,
Elə billəm yüz ildi.

Alginan çətir mənə,
Onu tez gətir mənə.
Əzrayılım gəlməmiş,
Yarımı yetir mənə.

O dağ Parağ dağıdı,
Üstündəki yağıdı.
Yarın məndən umduğu
Bir cüt çarığ bağıdı.

Sancdı cığcığa məni,
Saldı sandığa məni.
Kafirə yesir düşdüm,
İncitdi dığa məni.

Çobanam, qoç almaram,
Sataram, qoç almaram.
İldə bir yol yar görsəm,
Yüz yaşar, qocalmaram.

Ay qız, adın Sələmə,
Gətir bizə dələmə.
Üzün bir təzə aydı,
Qaşın oxşar qələmə.

Qız demə, qız qızıldı,
Al dodaq, üz qızıldı.
Üzündə bir xalı var,
Qiyməti yüz qızıldı.

Get bazara incil al,
Saatına zincir al.
Uzaq yoldan gəlmisən,
Gir qoynuma, dincin al.

Əmim oğlu atlıdı,
Atlıdı, qanadlıdı.
Mənim yarım ucdakı,
Qolları saatlıdı.

Əmim oğlu dağlıdı,
Qolludu, budağlıdı.
Mənim yarım ortada,
Xurmeyi papaqlıdı.

Əmim oğlu Mayıldı,
Aləm ona hayıldı.
Yarıma qurban olum,
Hər nə desəm, qayıldı.

Əmim oğlu zirəkdi,
El-obayaköməkdi.
Boyuna qurban olum,
Uçuq evə dirəkdi.

Əmim oğlu ƏlƏmdi,
Qara qaşı qələmdi.
Mən ona qurban olum,
Həm yarım, həm lələmdi.

Əmim oğlu Azaydı,
Kövşənləri quzaydı.
Yarım yazı biləydi,
Mənə kağız yazaydı.

Əmim oğlu Əlidi,
Hər nə desə "bəli"di,
Bir az ərkəsöyündü,
Deyirlər ki, dəlidi.

Əmim oğlu Niyazdı,
Nohurları dayazdı.
Gəl gir mənim qoynuma
Gecələr çox ayazdı.

Əmim oğlu Zamandı,
Qara qaşı kamandı.
Gecələri bizdə qal,
Gündüz getmə, amandı.

Əmim oğlu Qayıbdı,
Anan yuxa yayıbdı,
Gəlirsən, xəlvəti gəl,
Aşkar gəlmə, ayıbdı.

Əmim oğlu Şalandı,
Danışdığı yalandı.
Öpür, qucur, dişləyir,
Elə bil ki, talandı.

Əmim oğlu Sarıdı,
Becərdiyi darıdı,
Adı mənim adaxlım,
Özü özgə yarıdı.

Əmim oğlu Abıdı,
Ürəyimin tabıdı,
Qonum-qonşu bəyənmir,
Mənciyəzin babıdı.

Əmim oğlu Şəkərdi,
Dağda bostan əkərdi.
Allah bir iş işləyib,
Özgələrə nökərdi.

Əmim oğlu zayıfdı,
Gözlərindən mayıfdı.
Məni ona verirlər,
Deyən yoxdu "hayıfdı".

Əmim qızı Qəribdi,
Ipə paltar səribdi.
Atan səni aldadıb,
Ağsaqqala veribdi.

Su gəldi samanlıqdan,
Otluqdan, samanlıqdan.
Çalış, yaxşılıq elə,
Nə çıxar yamanlıqdan.

Xınanı yaxanların,
Həmayil taxanların.
Gəlsin öpüm gözündən,
Yarıma baxanların.

Xalın qara deyiblər,
Zülfün dara, deyiblər,
Yarın gül dodaqların,
Mənə çara deyiblər.

Bazara üzüm gəlməz,
Tut gələr, üzüm gəlməz.
Yara xeyli sözüm var,
Deməyə üzüm gəlməz.

Corabının ağına,
Gülü saldım bağına,
Əyər məni sevirsən,
Gəl qonşunun bağına.

Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı.
Dərd çəkmə, çoban bala,
Qız sənindi axırı.

Dəyirmanın pəri var,
Qapısında pəri var.
Günülər qan-qan deyir,
Özgə deyir “əri var”.

Sürüdə quzum mənim,
Yoldadır gözüm mənim.
Yüz il dərdimi desəm,
Qurtarmaz sözüm mənim.

Dağ başında qaz olmaz,
Ördək olmaz, qaz olmaz.
Nazın öldürdü məni,
Belə ərkinaz olmaz.

Qoyun gəldi, yan gəldi,
Əmcəyindən qan gəldi.
Üstümə sən gələndə,
Bədənimə can gəldi.

Otlaqdan quzum gəlməz,
Dayanar, quzum gəlməz.
Dərdim bir müşgül işdi,
Deməyə üzüm gəlməz.

Qaramığı dərdilər,
Kölgəliyə sərdilər.
O qızı mən deyirdim,
Dövlətliyə verdilər.

Ay qız adın Hürüdü,
Dağı duman bürüdü.
Həsrətini çəkməkdən,
Cavan canım çürüdü.

Oğlan, adın Yağubdu,
Dağlara qar yağıbdı.
Sən verdiyin nişanə,
Barmağımı boğubdu.

Oğlan, adın Əlidi,
İşin lap gülməlidi.
Gündə birin sevirsən,
Hamı deyir, dəlidi.

Oğlan, adın Paşadı,
Arvadların qoşadı.
Daha məni neynirsən,
Işin lap tamaşadı.

Oğlan, adın Cümşüddü,
Dağlara gün düşübdü.
Sən verdiyin nişanə
Barmağımdan düşübdü.

Ay qız, adın Mələkdi,
Əlindəki ələkdi.
Vədə verib gəlmirsən,
Söylə, bu nə kələkdi?

Ay qız, adın Sayaddı,
Bu xörəklər boyatdı.
Sevgi nədir bilməzdim,
Məni anan oyatdı.

Oğlan, adın Piridi,
Dam-daşınız iridi.
Anana qurban olum,
Bacın itin biridi.

Naxçıvanda duz qalıb,
Çıxardılıb, duz qalıb.
Sənin işin bin tutmaz,
Dalınca çox göz qalıb.

Ovum keçdi bərədən,
Ovçu çıxdı dərədən.
Çörəyim darı cadı,
Yavanlığı tərədən.

Çobanam, sürü məndə,
Sürünü tökdüm kəndə.
Ay qız, bir cüt şamamam,
Əmanət qaldı səndə.

Yaylığımı naxışla,
Naxış vurub naxışla.
Qoynunda şamama var,
Onu mənə bağışla.

Ocağı qalamışam,
Həyəti sulamışam.
Yarım arandan gəlib,
Duz kimi yalamışam.

Tut ağacı oyuqdu,
Oyuqdakı toyuqdu.
Gəl ikimiz bir yataq,
Yerim yaman soyuqdu.

Su gəlir aşa-aşa,
Tökülür dağa-daşa.
Istərəm yarı görəm,
Qorxuram ağlım çaşa.

Araxçının badamı,
Kal yeməzlər badamı.
Anan olsun qurbanım,
Bacın alsın qadamı.

Pis oğul ata bilməz,
Yaxşıya çata bilməz.
Yüz min namərd yığılsa,
Bir mərdə bata bilməz.

Nəzrim var, at paylaram,
Vallah, on qat paylaram.
Yar dönsə bizə tərəf,
Fitrə-zəkat paylaram.

Saxlaram, toyuq, səni,
Elərəm sayıq səni.
Gəl gir mənim qoynuma,
Vurmasın soyuq səni.

Ağuşgəmiz açıqdı,
Süfrə dolu qaşıqdı.
Dayı, incimə məndən,
Qızın mənə aşıqdı.

Göydə ulduz beş olar,
Beş görünər, beş olar.
Səni mənə versələr,
Iki könül xoş olar.

Göydə ulduz yüz olar,
Yüz dövr edər, yüz olar.
Əqli dürüst olanın
İlqarı da düz olar.

Sandıq üstə toz nədi?
Sandıq nədi, boz nədi?
Əyər məni sevirsən,
Yanındakı qız nədi?

Dağı oya bilmərəm,
Quzu soya bilmərəm.
Yüz il üzbəüz olam,
Yardan doya bilmərəm.

Palaza yaşıl gərək,
Al gərək, yaşıl gərək.
Cahıla şiş kababı,
Qocaya xaşıl gərək.

Dağda ceyran duraydı,
Təkə boynun buraydı.
Baldızım qan-qan deyir,
Onu ilan vuraydı.

Əlimdə şalımdı, gəl,
Bir yaman halımdı, gəl.
Günüm cəlladlıq eylər,
Qaynanam zalımdı, gəl.

Quş qondu dalanlara,
Ağu ver ilanlara.
Quran qismət olmasın
Bivəfa olanlara.

Qapımızın söyüdü,
İki ilə böyüdü.
Uşaq bələkdə olsa
Ona başla öyüdü.

Əkərəm, soğan, səni,
Kim olar yığan səni.
Belə gözəl tapılmaz,
Var olsun doğan səni.

Gün düşdü damımıza,
Su tökdüm camımıza,
Sizdən bir yar sevirəm,
Duam var hamınıza.

Bu dərənin uzunu,
Oğlan, qaytar quzunu,
Get dayına çoban ol,
Bəlkə verə qızını.

Kotanım ola, ola,
Mac tutan qaynım ola,
Yanıldım, qayın dedim,
Bəlkə də yarım ola.

Bu gələn arabadı,
Ağ otaq tarabadı,
Üç aydır yarım gedib,
Kəndimiz xarabadı.

Ağ çuxa, qara çuxa,
Çuxanın yolu yuxa,
Üç gündür yarım gedib,
Az qalıb canım çıxa.

Bulaq başı pıtıraq
Yarım gəlsin, oturaq,
Bir o desin, bir də mən,
Bəlkə günü batıraq.

Bulağın başı qara,
Dibinin daşı qara,
O yara qurban olum,
Gözü göy, qaşı qara.

A hirri, hirri qızlar,
Yaxası şirri qızlar,
Biz sizi alarıqmı,
Üst-başı kirri qızlar.

A hirri, hirri oğlan,
Yaxası şirri oğlan,
Biz sizə gələrikmi,
Saqqalı kirri oğlan.

Qar yağır kəpək kimi,
Oğlan var ipək kimi,
Qızlar daldadan baxar
Yal içmiş köpək kimi.

Damdan dama gəzərlər,
Damda qurut əzərlər,
Hansı yerdə toy olsa,
Koru-şili bəzərlər.

Oğlan, adın Nağıdı,
Dağa getmə, yağıdı.
Yarın zülfü bənövşə,
Qoynu cənnət bağıdı.

O tayda qoç yatıbdı,
Qoç buynuzun çatıbdı,
Hayıf qoç əməyinə,
Quru yerdə yatıbdı.

Dəyirman üstü çiçək,
Oraq gətir, gəl biçək,
Sən kəkil qoy, mən birçək
Görək hansımız göyçək.

Gözəl qızlar döndərin,
Gülü bizə göndərin,
Sovqatı sizin olsun,
Yarı bizə göndərin.

Oğlan, adın Bəysəfa,
Ağzın gül, qoynun şəfa,
Sən ki, mənim olmadın,
Bivəfasan, bivəfa.

Ay da ulduz olarmı,
Şəkər də duz olarmı,
It oğlu, köpək oğlu,
Gəlinnən qız olarmı?

Ay da ulduz kimidir,
Gəlin də qız kimidir,
Mən necə yalqız yatım,
Yorğanım buz kimidir.

Aylar ulduza dönüb,
Gəlinlər qıza dönüb,
Oğlanlar əsgər gedib,
Yorğanlar buza dönüb.

Gəlin gedək Xanlara,
Yalvaraq imamlara,
Su səpək, çadır quraq
Qardaş gələn yollara.

Yarın üzünə qurban,
Şirin sözünə qurban,
Yarın özü gəlməsə,
Onun özünə qurban.

Yaylağın arıları,
Qanadı sarıları,
Istədim yarı görəm,
Ucadır barıları.

Yarım gedib üş günə,
Vədə verib beş günə,
On gün də ona qurban,
Qoy gəlsin on beş günə.

Evləri dağa gedir,
Qar yağa-yağa gedir,
Mənim istəkli yarım
Hər ildə dağa gedir.

Evləri barı, neynim,
Qoçları sarı, neynim,
Yaz gedər, payız gələr,
Mən belə yarı neynim?!

İrəvan yolu bazar,
Nabələd olsa, azar,
Fələk yıxmayan evi
Tez yıxar mərdümazar.

Ağ çuxa ağlı qalsın,
Boğçada bağlı qalsın,
Məndən qeyri yar sevən,
Ciyərin dağlı qalsın.

Ağbabaya yağdı qar,
Amandı, pərvərdigar,
Bir yanımda qar yağır,
Bir yanımdan köçdü yar.

Hər tərəf oldu bazar,
Əl vurma, dərdim azar,
Yarı yardan ayıran
Bir gün də yolun azar.

Şürəyəldir elimiz,
Qızılgüldür gülümüz,
Nə dedik, yara dəydi,
Lal olaydı dilimiz.

Sevdim əzəldən səni,
Seçdim gözəldən səni,
Baxdım bivəfa çıxdın,
Tez qoydum əldən səni.

Oxçuoğlu obamız,
Qoyunçudur babamız,
Yara qurban olaydı
Bizim cəddü abamız.

Dəyirman üstü yarpız,
Yarpız içində qarpız,
Yarım gecədən gedib,
Məni qoyubdu yalqız.

## QARAPAPAQ TAYFASI

**1958-ci il, iyul**
**N-8**

Bu tayfa Ermənistan SSR Amasiya rayonu ərazisində yaşayır. (bir qismi 1920-ci il sərhəd bölgüsündə Türkiyə ərazisində qalıb).

Azərbaycanlılar yaşayan kəndlər bunlardır:

1. Amasiya
2. Daşkörpü
3. Düzkənd
4. İlanlı
5. Qaranamaz
6. Göllü
7. Ellər oyuğu
8. Təpə koyü
9. Balıqlı
10. Öksüz
11. Güllü
12. Civinli
13. Xozu(Quzu)
14. İbiş
15. Sultanabad
16. Qonçalı
17. Sınıq
18. Mumuxan
19. Qarabulaq
20. Oxçuoğlu
21. Bacıoğlu
22. Mollamusa
23. Qarakilsə
24. Güllübulağ
25. Çaxmaq
26. Mağaracıq
27. Qaraçəntey

1-19-cu kəndlərə Ağbaba kəndləri deyilir (keçmişdə Ağbaba mahalına baxırmışlar).

20-27-ci kəndlərə Şürəyal kəndləri deyilir (keçmişdə Şürəyal mahalına baxırmışlar).

Hamısı birlikdə 1920-ci ilə kimi Qars vilayətinin Qızılçakçax qəzasına aid imiş.

Bu ərazidən aşağıdakı kəndlər 1925-37-ci illərdə bütünlüklə köçüb Türkiyəyə qaçıb:

1. Qizilkilsə
2. Mustuxlu
3. Baxçəli
4. Ördəkli
5. Seldağılan
6. Vartanlı

Əhalinin az qismi şiə (Şürəyəl kəndləri), çox qismi sünnü təriqətinə mənsubdur.

**Dil.**

Əlbəttə, az müddətdə çox fərq tutmaq mümkün deyil. Lakin leksikada xeyli fərq var:

1. bulğur – sıyıq
2. isdahan – buğdanın qabığını çıxartmaq üçün əl daşı
3. kikrə – əl daşı
4. iprəmiş (qarı) – həddən artıq qocalmış
5. qantar – su gətirmək üçün ağac əşya (kəromısla)
6. tabağ – nəlbəki
7. kaşı, çini – saxsı qaba deyirlər
8. çanaq – küpə
9. ladok – çal-çuxur yer
10. kilar – kiçik anbar
11. saqırtqa – gənə
12. peşgir – dəsmal
13. peşğun – taxtadan təkərli (araba kimi) süfrə
14. yayax – piyada
15. çərəkə – təsbeh
16. Cınqır – vedrə

17. kəfrəm – mitil
18. bulul – qotman
19. loda – 20 qotman
21. azad gün – istirahət günü
22. saqqat – şikəst
23. çoban döşəyi – qambalağ
24. dən-dən – əmənkomənci
25. düngür – quda
26. əməlkan – bez
27. lastik – sətin
28. pürçüklü – kök(tərəvəz)
29. püsgül (qarğıdalıda) – saçaq
30. pencər – göyərti
31. xirpik – vələmir
32. kilim – palaz
33. qurna – kran
34. çəki – çərtmə
35. qıdanı – kasınka
36. heyratı – kalağayı
37. örtük-döşlük
38. eyi – yaxşı
39. ufaq –kiçik, üyüdülmüş
40. dənəm – dəfə
41. mama – bibi
42. qoca – böyük
43. yayla – yaylaq
44. tava – qazan
45. qazan – iri, su qızdırılan
46. zeşt – teşt
47. dam – ev
48. pazı – çuğundur
49. mərtək – pərdi
50. böcük – milçək
51. sovurğan – zəmi
52. qəməlti – bıçaq

53. şalğam – qırmızı turp
54. potur – tuman balağına qoyulan aborka
55. havar – xəbər
56. yengə – qardaş arvadı
57. rəfətə – üstündə lavaş yayılan yastarca
58. boylum – bu dəfə
59. haraba – araba
60. sivə – ev peçi
61. fırın – rus peçinə oxşar bir növ peç
62. gəbər – öl
63. xışdadı – əzişdirdi
64. anarı – o yana.

Vəziyyət belə ikin belə.
Deyif, gedif, kiriyif
Aqa – ata (müraciət forması)
Kiridiyin yox idi.
Vəli bir-bir bizə gələrdi.

Bu şivədə bütün səslər tam və qalın deyilir, fonetik cəhətdən bu qismən Naxçıvan-Yerevan şivəsini xatırladır.

**Xörək adları**

Aş – quru əvəlik və düyüdən daşma bişirilir
Şorba – bozbaş
Ayranaşı – dovğa
Xaşıl – xəşil
Xəngəl – xingal
Şirat – alt südü
Çeçil – üzsüz pendir.

**Qab adları**

Dərin çini – dərin boşqab
Yuxa çini – dayaz boşqab.
Tava – xörək bişən qazan.
Qazan – su qızdırılan qazan.

Sərniş – sərnic
Avtaxa – abtava
Bayda – mis qab
Güzə – sovça
Sənək – sənək
Cürdək – kiçik sovça
Tabaq – nəlbəki

**Bitki adları**
Xoruz mimiyi ("pipiyi" anlamındadır) – yeməli ot
Buğa tikanı (yeməli ot) – bizdəki göz tikanı
Xirnik – vələmir.
Basma otu – (boyaq otudur)
Mədik – uzunsov yeməli meyvə verir (yazda). Sonra kobuğ adlı yumru meyvə verir (yayda). vəhşi bitkidir.
Xardal – uzun yarpaqlı, turşuya qoyurlar.

**Qoyun növləri**
Herik – yerli cins
Mazıx – metis ilə yerlinin qarışığı
Qamışqulağ – lağlı qoyun.

**Qadınlar**
Məparis
Torun
Üreyzə
Nənə
Əcəbnaz
**Atalar sözü**
1. Biz merinos qoyun kimiyik; isti olanda yığılır, soyuq olanda dağılırıq.
2. Qonaqdan saldıran yağıdan saldırar.
3. İt quzu doğmaz.
4. Mərək yandı,yamanlıq siçana qaldı.
5. Qoy Yaqubu yağ öldürsün.

6. Ağlayanın malı gülənə xeyir deyil.
7. Qoyun quzu doğanda qurbanlıq doğur.
8. Allahsız yerdə otur, böyüksüz yerdə oturma.
9. Xörəyi yeyəndən sonra 40 tikə pendir-çörək, dürmək eləsən çox savabdır.
10. Mürdəşir qiyamata zamin deyil.

124 yaşlı Kəlbəhüseynova Səkinə Meşədi Abbas qızının dediklərindən:

“Urus bıranı alıf yerrəşəndə bizim aylə Ağüzümdə yaşayırdı. Oranı qazısı Zülfüqar ağa idi. Mənim o ili qardaşım Kazım anadan olub. Onnan sonura mənim iki bacım olub, hərəsi 3 yaşında ölüb. Mən o iki bacımnan sonra anadan olmuşam.

Gələn urusun böyiginin adı Lorus imiş. Dədəm evinin tayfası Xilalı iydi. Sünnüdən ayrıldı. Mənim millətim tayfam Xılalı idi.

Qızıldaş kəndindən biz keçif gedərdik. Sünni şiyə yol getmiyib, ayrılıblar. Sünnü o yanda qaldı,şiyə bı yanda. Kəndimizdə üş tayfa vardı: Xılalı, Başmaxçı, Söyləməz.

Mən bu kəndin hamısının şmasıyam[1]”.

Həsənov Əsəd Məmməd oğlu (59 yaşlı) danışığından nümunə:

“Qış vaxtı bizdə də soyuq olar. Sivəyi bərk qalarıx,yığşıb damda kiriyif eləcə oturarıx. Bir adam gələndə bir-bir (bir az) deyif, gülüf durardıx.”

**Nanaylar**

Bu dərə lilli dərə,
Mixəkli, hilli dərə.
Açarın yar aparıb,
Qalıb qıfıllı dərə.
Otağ atağa baxır,

[1] Şma – gəlin bacı deməkdir.

Altından bulağ axır.
Çəkməliyə can qurban,
Çarıqlıya kim baxır?
(Mənim bu şeytan yarım,
Dönüb çırağa baxır).

Çıxdım tiray üstünə,
Baxdım yarın qəsdinə,
Əlində qızıl alma,
Vurdu sinəm üstünə.

O tay bu tay üzümdü,
Haqqıx düzüm-düzümdü.
Heç kəs qızın verməsə,
Əmim qızı bizimdi.

Əmim oğlu elinə,
Şal yaraşır belinə.
Əmisi qızı qurban
Qələm tutan əlinə.

Dağ başı çiçəkləndi,
Kim vurdu göyçəkləndi.
Toy yuxası yapıldı (Başdandı toy yuxası)
Ayrılıq gerçəkləndi.

Kotanım ola-ola,
Məc tutan qaynım ola.
Yanıldım qayın dedim,
Bəlkə də yarım ola.

Bu gələn haravadı,
Ağ otaq taravadı,
Üç aydır yarım gedif,
Kəndimiz xaravadı.

Ağ çuxa qara çuxa,
Çuxanın qolu yuxa,
Üç gündü yarım gedif,
Az qala canım çıxa.

Qar yağır kərək kimi,
Oğlan var, ipək kimi,
Qızdar daldadan baxar,
Yal içmiş köpək kimi.

Ay da ulduz olarmı,
Şəkər də duz olarmı.
İt oğlu köpək oğlu.
Gəlinnən qız olarmı.

Ay da ulduz kimidi,
Gəlin də qız kimidi,
Mən necə yalquz yatım,
Yorğanım buz kimidi.

Aylar ildıza dönər,
Gəlinlər qıza dönər.
Oğlanlar əsgər gedif
Yorğanlar buza dönüf.

Gəlin gedək Xanlara,
Yalvaraq imamlara,
Su səpək çadır quraq,
Qardaş gələn yollara.

Yarın özünə qurban,
Söylər sözünə qurban,
Yarın özü gəlməsə,
Onun özünə qurban.

Yarım gedib üş günə,
Vədə verib beş günə,
On gün də ona qurban,
Qoy gəlsin on beş günə.

Evləri dağa gedir,
Qar yağa-yağa gedir,
Mənim istəkli yarım.
Hər ildə dağa gedir.

Evləri harı neynim,
Qoçdarı sarı neynim,
Yay gedr payız gələr,
Mən belə yarı neynim.

Ağ çuxa ağlı qalsın,
Bağçada bağlı qalsın.
Mənnən qeyri yar sevən,
Ciyərin dağlı qalsın.

Hər tərəf oldu bazar,
Əl vurma dərdim azar,
Yarı yardan ayıran,
Bir gündə yolun azar.

Sevdim əzəldən səni,
Seçdim gözəldən səni,
Baxdım bivəfa çıxdın,
Tez qoydum əldən səni.

Dəyirman üstü yarpız,
Yarpız içində qarpız,
Yarım gecədən gedib,
Məni qoyubdu yalqız.

Dəyirmanı soydular,
Soydular od qoydular.
Yengicə yar sevmişdim,
Təzə qanun qoydular.

Yarı yolladım özüm,
Allah mənə bir dözüm,
Yolda yolçusu qurban,
Evə dönəndə özüm.

Su gəlmir bağa neynim,
Bağa yarpağa neynim.
Küsdürmüşəm o yarı
Gəlmir otağa neynim.

Ay da ildızın pəri,
Xiyar xırtızın pəri.
Gəl alım xan qardaşa,
Olum baldızın, pəri.

Qapımızda kal qarpız,
Səni yanasan, baldız,
Söz gəzdirdin ev yıxdın,
Yar getdi,qaldım yalqız.

Aftaxa burum-burum,
Gedim qapıda durum,
Desələr qardaş gəlir,
Durum simavar qurum.

Dibəkdə duz olaydım,
Göydə ulduz olaydım.
Yar qapıdan keçəndə,
Evdə yalqız olaydım.

# MAHNILAR[1]

## NANAYLAR

### 1. ƏLİYAR

Oğlan qaytar quzunu,
Əli yar, Əli yar.
Görüm qara gözünü
Qolları düyməli yar
Əli yar, Əli yar.

Ülkər ucadı oğlan,
Əli yar, Əli yar.
Getmə, gecədi oğlan,
Qolları düyməli yar,
Əli yar, Əli yar.

Dedin başım ağrıyır,
Əli yar, Əli yar.
İndi necədi oğlan,
Qolları düyməli yar,
Əli yar, Əli yar.

Su gəldi yarpızdığa,
Əli yar, Əli yar.
Töküldü yarpızdığa,
Əli yar, Əli yar.

Gördün işin fənadı,
Özün vur arsızdığa
Qolları düyməli yar,
Əl yar, Əli yar.

[1] Ağbaba xalq nəğmələri. Sadəcə əsl adı nanaylardır.

## 2. GÜLƏNDAM[1]

Güləndam saxlar quzunu,
Özüm görmüşəm özümü,
Niyə örtürsən üzünü,
Üzünə qurban Güləndam, Güləndam, Güləndam,
Sözünə qurban Güləndam, Güləndam, Güləndam.

Güləndam saxlar keçini,
Özüm görmüşəm saçını,
Niyə örtürsən qaşını
Qaşdara qurban Güləndam,
Saşdara qurban Güləndam.

Güləndam sağar inəyi,
Əlində var süd çörəyi,
Süddən də ağdır biləyi,
Biləyə qurban Güləndam,
Kürəyə qurban Güləndam.

Güləndam sağar qoyunu,
Sevib seçmişəm boyunu,
Özüm tutaram toyunu
Toyuna qurban Güləndam,
Boyuna qurban Güləndam.

Çoban-bayatı üstündə oxuyarlar.

1.
Yarmanı səribsən xarmana,düzə,
Yedirirsən göydə ördəyə,qaza.
Bu cür bəzənmisən,dur gedək bizə,
Anam sənə qurban can sarı köynək.

---

[1] Xalq nəğməsidir.

2.
Yar da öz yarına beləmi baxar,
Bərk çıxıbsan ağ əllərdən qan axar,
Xurşud bəyim yada düşüb ağlaram,
Qoca elim yada düşüb ağlaram.

3.
Qarğayaram, bənövşələr bitməsin,
Gülüm gəlib xal dibinə yetməsin,
Yarı mənnən,məni yardan ayıran
Muraz alıb,mətləbinə çatmasın.

**Qəbir daşlarına yazılmış şeirlər.**

Bunları Oxçuoğlu kənd sakini, 60 yaşlı Məhəmməd Rəhim yazıb. Əvvəllər müəllim olmuş, sonra əsirlik, həbs çəkmiş, nəhayət, kənddə bekardır. Geniş məlumatlı, savadlı, münasib təbi olan şəxsdir.

1.Anam hər gün qara salıb başına,
Dolanırmı məzarımın daşına,
Min keçiddə ölüm kəsdi yolumu,
Fələk itirdi ata ilə oğlunu.

2. Biçdi həyati-əcəl qəddimə bir qanlı kəfən,
Mənə bu dəhridə bir toy otağı layiq ikən
Fələyin gəlmədi rəhmi anamın göz yaşına,
Qara xətt ilə yazın məzarımın baş daşına.

3. Şirin canım incə, zərif bir çiçək,
Bu torpaqda əbədi çürüyəcək

Bir məhzun tifilim, həsrətim qaldı,
Məni əcəl seli yuyub apardı.

**Saat**

Allahverdi müəllim dedi:
– Saat 5-i keçib igirmi (6-ya 20 dəqiqə işləyib)
İrza dedi:
– Səkgizin tamamına on altı (8-ə 16 dəq qalıb).
Yasin dedi:
– On biri yarı (on birin yarısıdır).

**Adətlər**

1. Hər zaman görüşəndə əl verib "salam əleyküm" deyər, "əleyküm əssəlam" eşidərlər.

"Sabahın xeyir", "aqibətin xeyir" və s. yoxdur.

2. Süddən ancaq yağ hasil edərlər.

Doğramac, südgözü, südlü sıyıq, südlü plov, südlü çay və s. yoxdur.

3. Ölünü sabınsız yuyarlar.
4. Ölünün başını və yançaqlarını pambığa bürüyərlər.
5. Ölünün üzünü açıb torpağa qoymazlar.
6. Ölü namazını qəbirstanda qılarlar.
7. Oğlan evi 1-2 dəst paltar, 1 üzük və 1-2 qoyunla qız alar.
8. Evin yeri torpaq olur, döşənəcək salınmaz.
9. Evin bir tərəfində taxt düzəldərlər. Onun üstündə yeyər, oturar və yatarlar.
10. Qadınların kişi ilə danışması (səsinin eşidilməsi) indi də ciddi yasaqdır (tabu).
11. Qadınlar qonağın əlini əvvəl öpür, sonra gözləri üstə qoyurlar.

# ŞİRVAN-UDULU FOLKLOR ÖRNƏKLƏRİ

# OVSUNLAR

1. Tabağ gəldi, dabağ qaç.
(heyvanatda dabağ xəstəliyi olanda tabağı döyüb deyərdilər)

2. Dodu, dodu gördünmü?
Doduya salam verdinmi?
Dodu gedəndən bəri
Qırmızı günü gördünmü?
(Yağış çox yağanda dodu gəzdirib oxuyardılar).

3. Ələk verməz evinə, çörək verməz evinə, qonaq sevməz evinə. (Bərk toz boğanaq olanda deyərdilər).

4. Tüstü baba, o yana get, əppək baba, bəri gəl.
(Çörək bişirilən vaxt tüstü olanda deyərdilər).

5. Samansan sovrul çıx, qumsan qovrul çıx.
(Gözə çöp və s. düşəndə deyərdilər).

6. Təzə ay, səni xoş gördük,
Zigilin yerin boş gerdük.
(Əldə zigil olanda təzə aya tərəfə tutub deyərdilər).

7. Anam Mədinə, bacım Səkinə,
Qardaşım Abbas, it məni qapmaz.
(İt gələndə deyərdilər).

8. Tapıl, tapıl axça verim,
Tapılmasan mıxça verim .
(Yemlik axtaranda deyərdilər).

9. Göbələk, göbələk, yerdən çıx,
Ucunda qara palçıq.
(göbələk axtaranda deyərdilər).

10. Ley, ley, bizdə cücə yoxdur,
Mollagildə çoxdur,
(Ley quşu kəndə gələndə deyərdilər).

11. Dağda dana böyüdü,
Sən də burda böyüginən.
(heyvan qovuğunu üfürür, vura-vura deyirdilər).

12. Ya bundadır, ya bunda,
halvaçı dükanında.
Allah deyər: ver bunda!
(Əldə şey gizlədəndə tapmaq istəyən adam deyərdi).

13. Atıl-batıl, dağdan-atıl, vedrə-satıl,
cadı, piti, olsun batıl.
(Novruzğabağı çərşənbələrdə atıl-batıl toxumunu tonğala atıb üstündən atılıb deyərdilər).

14. – Salam əleykim sucuğaz.
– Əleyküməssəlam ocuğaz.
– Kilsəyə od düşüb.
– Dərmanıdır bucuğaz!
(Uşağın ağzına yara düşəndə ağzına bir qaşıq çirkli su töküb deyərdilər).

15. – Hara gedirsən?
– Soltan savalana.
– Neycin gedirsən?
– Uşağın çöpün çıxartdırmağa.
– Çöpü çıxdı, qayıt dala.
(Uşağın boğazında çöp qalanda 2 nəfər deyərdi).

16. Anası Mina, qızı Sona,
Nəzər dəyməsin buna,
(Göyçək uşağa deyərlər).

## SAYAÇI SÖZLƏRİ

1.
Nənəmin səkil qoyunu,
Su iç, çəkil qoyunu.
Çobanı do vurubduru
Yatağa çəkir qoyunu.

2.
Nənəm qarala qoyun,
Oxşar marala qoyun.
Çoban yununu qırxıb,
Yığar xarala, qoyun.

3.
Nənəmin əbrəş qoynu,
Dağlara dırmaş, qoynu,
Aran örən olubdur,
Yaylağa dırmaş, qoynu.

4.
Nənəm ay şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez yetir,
Qırıldı uşaq, qoyun.

5.
Nənəm qoyunun gəlini,
Ovşara gəlməz yelini.
Səni sağan qız-gəlinin,
Qucaydım incə belini.

6.
Nənəm a qara qoyun,
Gedirsən hara, qoyun?
Patava yox, çuxa yox,
Səndədir çara, qoyun.

7.
Nənəm qoyunun ağı,
Dolanıb gəzər dağı.
Çobana çarıq bağı,
Gəlinlərə ip ağı.

8.
Qoyunun yüzü gəldi
Dolandı düzü, gəldi.
Çobanın qucağında
Bir ekiz quzu gəldi.

9.
Qoyunun üçü gəldi,
Dolandı köçü, gəldi.
Sürünün qabağında,
Bir yekə keçi gəldi.

10.
Qoyunun beşi gəldi,
Dolandı keşi gəldi.
Çobanın bizlər ilə
Var idi işi, gəldi.

11.
Qoyuna bax, qoyuna,
Saldı məni oyuna.
Oğlum haçan böyüyər,
Kəsəm onun toyuna.

12.
Nənəm ay gəlin qoyun,
Bəzəkli gəlin qoyun.

Cəhd elə ekiz olsun,
Qızarıb yelin, qoyun.

13.
Nənəm ay qızıl qoyun,
Gəl yola düzül, qoyun.
Sənin kimi heyvanı
Saxlaram yüz il, qoyun.

14.
Nənəm ay sarı qoyun,
Ağamın varı qoyun.
Sən bir tükənməz şeysən
Yaradıb tarı, qoyun.

15.
Nənəm ay qoçaq qoyun,
Sürüdən qaçaq qoyun.
Sənə gözü dəyənin,
Gözünə bıçaq, qoyun.

16.
Nənəm ay nazdı qoyun,
Boynu qotazdı qoyun .
Qışın fikrin eləmə,
Ağıllar sazdı, qoyun.

17.
Nənəm az çəmli qoyun,
Boynu mərcəmli qoyun.
Səndən nacı olubdur
Arab, Cəmcəmli, qoyun.

18.
Nənəm ay mağıl qoyun,
Düzlərə dağıl, qoyun.
Südünün tayı olmaz,
Həmişə sağıl, qoyun.

19.
Nənəm az nazdı qoyun,
Şirin avazdı qoyun
Döl də doğ, dıbara da
Quzumuz azdı, qoyun.

20.
Nənəmin çal qoyunu,
Məməsi bal qoyunu.
Qadan-balan olmasın,
Artıb çoxal, qoyunu.

21.
Nənəm ay qəşəng qoyun,
Yunu bir döşək qoyun.
Dağdan evə dönəndə,
Gətirir göşək qoyun.

22.
Nənəm ay nazlı qoyun,
Ay maral gözlü qoyun.
Pişdağı baldan artıq,
Qatığı üzlü qoyun.

23.
Nənəm ay ağbaş qoyun,
Dağlara dırmaş, qoyun.
Yağından döyməc olar,
Quyruğundan aş, qoyun.

24.
Sürünün gözü qoyun,
Dolan gəz düzü, qoyun.

Ekiz doğ, üçəmə doğ,
Sevindir bizi, qoyun.

25.
Nənəm qoyunun ağı,
Dolanıb gəlir dağı,
Acı olur dırnağı,
Şirin olur qaymağı.

26.
Nənəm ay əbrəş qoyun,
Dağlara dırmaş, qoyun.
Çovğunlu gecələrdə,
Çobana yoldaş qoyun.

27.
Nənəm qurban çal qoyun,
Yağı, süzü bal qoyun.
Yazlaqda çox kef çəkdin,
Gəl aranda qal, qoyun.

28.
Nənəmin boz qoyunu,
Ayağı toz qoyunu.
Balanı yaxşı saxla,
Açılıb yaz, qoyunu.

29.
Nənəm ay dəli qoyun,
Dolanıb gəli qoyun.
Gəlinlər güzəmindən,
Toxuyar xəli, qoyun.

30.
Ağ qoyun aya oxşar,
Qurulmuş yaya oxşar.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya oxşar.

31.
Ağ qoyun gələr gedər,
Dağları dələr gedər.
Sürünün tərxam qoçu,
Dalıycan mələr gedər.

32.
Nənəmin tərxam qoyunu,
Qurddan qorxan qoyunu.
Səhər otlağa gedər,
Qayıdar axşam qoynu.

33.
Yeri dağdır çobanın,
Kefi çağdır çobanın.
Qoyunları tərxamdır,
Üzü ağdır çobanın.

34.
Nənəm bozala qoyun,
Cumar gazala qoyun.
Yeyən sənin ucundan,
Gedə qız ala, qoyun.

35.
Nənəm ay xallı qoyun
Məməsi ballı qoyun.
Çobanı kamil olsa,
Gəlir ifallı qoyun.

36.
Nənəm ay nazdı qoyun,
Qırqovul gözdü qoyun.

Çilənin fikrin çəkmə
Qabağı yazdı, qoyun.

37.
Nənəm qoyunun qarası,
Qırxılığı ay parası.
Yaz günü dələməsi,
Qış günü bulaması.

38.
Nənəm bozala qoyun,
Yolda sozala qoyun.
Çoban sənin sayəndə,
Bəlkə qız ala, qoyun.

39.
Qoyun gələr, toz olar,
Ağac altda qoz olar.
Qoyuna kəm baxanın
İki gözü boz olar.

40.
Nənəmin yay quzusu,
Quruyub çay, quzusu.
Payıza çox qalıbdır,
Günləri say, quzusu.

41.
Nənəmin qış quzusu,
Güzdə qalmış quzusu.
Gözün aydın, yaz gəldi
Qurtardı qış, quzusu.

42.
Nənəmin əl quzusu,
Alnı təpəl quzusu.
Qış çıxdı, novruz gəldi
Otla, kökəl, quzusu.

43.
Nənəmin yaz quzusu
Eləmə naz, quzusu.
Hər güldən bir gül iylə,
Elə pərvaz, quzusu.

44.
Nənəmin döl quzusu,
Quruyub göl, quzusu.
Yağış yağdı, ot bitdi,
Göyərdi çöl, quzusu.

45.
Nənəm ay əmlik quzu,
Gəl yemə yemlik, quzu.
Kökəlsən olacaqsan
Qonağa yemlik, quzu.

46.
Nənəm dıbara quzu,
Qalxar divara quzu.
Çoban sənin ucundan
Qalıb avara, quzu.

47.
Nənəm dölardı quzu,
Hər tərəf qardı, quzu.
Ananı soyuq kəsdi,
Südün qurtardı, quzu.

48.
Nənəm qarbasan quzu
Olmusan pasan, quzu

Belə qışdan sağ çıxmaq,
Deyildir asan, quzu.

49.
Nənəm xırda çəpişlər,
Anasının əmcəyin dişlər.
Yayı yaylaqda oynar,
Qışı aranda qışlar.

50.
Nənəm ay ala keçi,
Çıxıbsan yala, keçi.
Qoyun-quzu azalıb,
Doğ iki bala, keçi.

51.
Nənəm ay qara keçi,
Gedirsən hara, keçi.
Çoban sənin əlindən,
Gəlibdir zara, keçi.

52.
Nənəm ay xallı keçi,
Məməsi ballı keçi.
Şiş qayalar üstündə
Gedirsən yallı, keçi.

53.
Qara təkə tək durar,
Buynuzları şək durar.
Sürünün qabağında,
Hamıdan göyçək durar.

54.
Ay mənim güzdək quzum,
Kənd içində tək quzum.
Dağlarda ot bitmədi,
Bəs biz neynəyək, quzum?

55.
Qabıstanın qoyunu,
Çoban edək toyunu.
Çobanlarda qaydadır
Çıxardar hər oyunu.

56.
Qabıstanda taya yox,
Pərdisi var, paya yox.
Qabıstan çobanında,
Zərrə abır, haya yox.

57.
Qabıstanın tərəsi
Boz kəkliyin fərəsi.
Bol südlü, yunlu olar,
Ağ qoyunun kərəsi.

58.
Qabıstanın çobanı,
Çatdaq olar dabanı.
Çobana söz deməyin,
Söyər eli, obanı.

59.
Qabıstanın baharı,
Çoban elər naharı.
Sürülərdə tək olar,
Qoyunların çaharı.

60.
Qabıstanın lalası,
Düzənliyi, alası.

Güzdük doğan qoyunun,
Tez böyüyər balası.

61.
Qabıstanın alağı,
Çoban gətir yalağı.
Qabıstanın çobanı,
Yaxşı saxlar ulağı.

62.
Qoyun girdi qəmişə,
Çoban getdi yemişə,
Gəlin yerdən durmamış
Qoyun gəldi əmişə.

63.
Qabıstanın çobanı
Gəzər eli, obanı.
Çoban dava eləsə,
Qapar beli, yabanı.

64.
Çoban tapdı yumağı,
Çölə atdı sumağı.
Çoban dava eləsə,
Qapar şoplu çomağı.

65.
Kaftaranda kol olar,
Qırğqında yol olar.
Ətli, yunlu qoyunun
Mənsili də bol olar.

66.
Bərabər otlar qoyun,
Otları qatlar qoyun.
Çobanı xəstə salıb,
Zəhirmar otlar qoyun.

67.
Saya gəlir sayadan,
Yovşan yığıb qayadan.
Çöldə yeyib dələmə,
İncik olub mayadan.

68.
Səfa yurdu düşmüsən,
Qaim olsun yurdunuz,
Yoxsa bizdən küsmüsən,
Ulamasın qurdunuz.

69.
Yurdun daşdı, qayadır,
Tox olsun çobanınız.
Palazınız sayadır,
Kor olsun düşmanınız.

70.
Dərvişə pay verəndə,
Bollu olsun əliniz.
Məhşər vaxtı gələndə,
Açıq olsun diliniz.

k-007. Sayaçı sözləri

1.
Nənəm qoyunun gəlini,
Oşara gəlməz yelini,

Onu sağan qız-gəlin,
Sağ olsun balalı gəlin
Qaş-gözü alalı gəlin.
Qızıl kəmərnəndə bağlayıb
belini

2.
Göydə gedən alabaxta,
Qanad çalar taxta-taxta.
Iki gözəl bir otaqda,
Gedir sallana-sallana.

k-018.Sayaçı sözləri.

Yastı yastı qayalar, yastığıdır
çobanın,
Yumru yumru qayalar,
yumruğudur çobanın,
Yanındakı boz köpək,
yoldaşıdır çobanın.

Bulaq üstə süz, qoyun,
Ay güdək buynuz qoyun,
Arxaca səni salar,
Bir qara göz qoyun.

Nənəm a narış qoyun,
Yunu bir qarış qoyun,
Çoban səndən küsübdür,
Bol süd ver, barış qoyun.

# BAYATILAR

## A) Keçmişdə qadınların hüquqsuz vəziyyəti

1.
Yaylığın uçu qara,
Ürəyim oldu zara.
Atam versə gedərəm
Könlüm istəyən yara.

2.
Ağac başında qora,
Bilmədim düşdüm tora.
Məni səndən eləyən
İmansız getsin gora.

3.
Hacılar gedir haca,
Papağın qoyub uca.
Bu dərdi kimə deyim,
Arvad cavan, ər qoca.

4.
Mən aşığam məstinə,
Kimlər durub qəsdinə?
Məni imansız atam
Verdi günü üstünə.

5.
Su gəldi axa-axa,
İçində iri qaxa.
Yarı yada verdilər,
Mən qaldım baxa-baxa.

6.
Nöyüt tökdüm üstümə,
Gələn yoxdur tüstümə.
Ərimi zəlil olsun,
Günü aldı üstümə.

7.
İlana bax, ilana,
Getdi girdi dalana.
İmansız qaynanalar
Tez inanar yalana.

8.
Pirsaatın zənginə,
Heyran olduq rənginə.
Atam mənə zülm etdi,
Saldı itin cənginə.

9.
Mən aşıq iri-iri,
Xalların iri-iri.
Məni yardan ayıran
Odlansın diri-diri.

10.
Əzizim bulut məni,
Sər yerə, qurut məni.
Məni yada verdilər,
Cəhd elə unut məni.

11.
Dağlara hünü gəldi,
Dolandı hünü gəldi.
Bədənimə od düşdü,
Üstümə günü gəldi.

12.
Mənim elim Gilandı,
Ərdəbildi, Gilandı.
Günümü soruşmayın,
Günü deyil, ilandı.

13.
Əzizim sürmə yaxşı,
Vəsmə pis, sürmə yaxşı.
Günülü ev-eşikdən
Sibirdə türmə yaxşı.

14.
Mən aşıq duz verəni,
Duz alıb, duz verəni.
Dünyada diri yansın
Könülsüz qız verəni.

15.
Arxalığın putası,
Zəncirəm, putası.
Sevdiyimi vermirlər,
Kəndxudadır atası.

16.
Dağlasın çatma qarı,
Bərk qarı, çatma qarı.
Yerimə "bəli" dedi
İmansız Fatma qarı.

17.
Dağda ceyran duraydı,
Təkə boynun buraydı.
Baldızım qan-qan deyir,
Onu ilan vuraydı.

18.
Kisə tikdim olmadı,
Suya saldım, dolmadı.
Qazı, dilin qurusun,
Özüm deyən olmadı.

19.
Yaylığın ucu sarı
Gecəni etdim yarı.
Məni zorla verənin
Evini yıxsın tarı.

20.
Qarpızı, ay qarpızı,
Dəstə tutdum yarpızı.
Görüm tezbazar olsun
Evlər yıxan baldızı.

21.
Aranda hünü yansın,
Hününüm mini yansın.
Məni ərdən eylədi,
Odlansın, günü yansın.

22.
Pəncərənin milin çək,
Milin yandır, milin çək.
Könülsüz qız verənin
Ağzın ayır, dilin çək.

23.
Qanını açdı gəlin,
Xurmayı saçdı gəlin.
Zorla ərə verdilər,
Qoşuldu, qaçdı gəlin.

24.
Pətəkdə arı gərək,
Köynəyi sarı gərək.
Gözəl qız istəyənin
Dövləti, varı gərək.

25.
Qonaq gəl, piti bizdən,
Noxudu, əti bizdən.
Qız deyil, qalmaqaldır,
Gəl apar iti bizdən.

26.
Əlimdə şalımdı, gəl!
Bir yaman halımdı, gəl!
Günüm cəlladlıq elər,
Qaynanam zalımdı, gəl!

27.
Mən aşıq mazı deyil,
Ləkədir, yazı deyil.
Görməmiş kəbin kəsən
Lotudur, qazı deyil.

28.
Araz üstə sonasan,
Göldən-gölə qonasan.
Məni yardan ayıran,
Odlanasan, yanasan.

29.
Yük üzündə pərdəyəm,
Tamam dərdi-sərdəyəm.
Günüm itin günüdür,
Deməyin ki, ərdəyəm.

30.
Qızılgülü dərdilər,
Pünhan yerə sərdilər.
Mən on bir yaşındaydım,
Ağsaqqala verdilər.

31.
Dağların hünüsü var,
Milçeyi, hünüsü var.
Ölənəcən ah çəkər,
Hər kimin günüsü var.

32.
Kəndxudanın qulu var,
Atlarının çulu var.
Atam qızını verər,
Hər kimin ki, pulu var.

33.
Bu sürü hara gedər,
Ban alıb Cara gedər.
Sevdiyinə getməyən
Cavankən gora gedər.

34.
Bu görünən Barındır,
Yedikləri qarındır.
Qorxudan səsim çıxmaz,
Qaynanam çox harındır.

35.
Qaramığı derdilər,
Dalan üstə sərdilər.
O qızı mən deyirdim,
Dövlətliyə verdilər.

36.
Dəyirmanın pəri var,
Qarşısında nəri var.
Günülər qan-qan eylər,
Özgə deyir, əri var.

37.
Mən aşığam daş tökər,
Torpaq tökər, daş tökər.
Könülsüz ərə gedən
Ölüncə qan-yaş tökər.

38.
İpliyin sarısı var,
Alı var, sarısı var.
Zorla qız ərə verməz,
Hər kimin tarısı var.

39.
Şorbaçının şoru var,
Axsağı var, koru var.
Gözəl o kişinindir,
Hər kimin ki, zoru var.

40.
Bazara fərə gedər,
Yağ gedər, kərə gedər.
Gəlin ölər, o qız ki,
Könülsüz ərə gedər.

41.
Bostan əkdim tağ oldu,
Böyüdü, yarpaq oldu.
Yarıma qovuşmadım,
Ürəyimdə dağ oldu.

42.
Bu gələn dayım oldu,
Əlimdə payım oldu.
Yerimə vəkil duran
Axrətsiz dayım oldu.

43.
Qarabağın üzümü,
Yolda qoyma gözümü.
Qazı kəbin kəsəndə
Eşitmədi sözümü.

44.
Evimin barısı yox,
Uçulub, barısı yox.
Günüdən nə danışım
Üstündə tarısı yox?!

## B) Tarixi hadisələr

### *I Xəzəri işğalı*

1.
Vermə xəzara məni,
Çəkər bazara məni.
Yada kəniz verincə,
Salla məzara məni.

2.
Apardı xəzar məni,
Gözləyir bazar məni.
Sərdəftərin başında
Qul deyib yazar məni.

### *II Tatar-Monqol yürüşü*

1.
Apardı tatar məni,
Qul edib satar məni.
Vəfalı zarım olsa,
Axtarar, tapar məni.

2.
Tatara bax, tatara,
Düzdü eli qatara.
Xuda, bir igid yetir,
Gəlib bizi qutara.

3.
Apardı Batı məni,
Kənizə qatı məni.
Yollar uzun, mən yorğun,
Doğrayır çatı məni.

4.
Aman tatar, ay tatar,
Soltan tatar, bay tatar.
Bizim bu el-obanı,
Gəl eləmə zay, tatar.

5.
Bu yerdə çətər olmaz,
Olsa da xətər olmaz.
Əzrayıl özü gəlsə,
Tatardan betər olmaz.

6.
Apardı tatar səni,
Qul elər, satar səni.
Malı artıqlıq etsə,
At kimi çatar səni.

7.
Bağlarda xəzələ bax,
Oxunan qəzələ bax.
Baş açıq, ayaq yalın,
Qul olan gözələ bax.

8.
Dəvələr qatar imiş,
Yükünü atar imiş.
Əzrayılın adı var
Can alan tatar imiş.

9.
Tatarlar, ay tatarlar,
Yaxşı kəmənd atarlar.
Harda gözəl görsələr,
Kənizlərə qatarlar.

### *III. Ərəb istilası*

1.
Araba bax, araba,
Məhəl qoymaz coraba.
Arabın başı batsın,
Qoydu eli xaraba.

2.
Arabın üzü yansın,
Od tutsun, üzü yansın.
Bizi saldığı odda
Alışsın özü yansın.

3.
Arab gəldi, hay verin,
Nə istəsə pay verin.
Aza duran deyillər,
Gətirin tay-tay verin.

4.
Ay ərəb, atdın məni,
Bazarda satdın məni.
Nə günah eləmişdim,
Kənizə qatdın məni.

***IV. İran istilası***

1.
Mən aşığam xan eylər,
Xanlar nahaq qan eylər.
Bu zülmü ki, sən etdin
Ərdəbildə xan eylər.

2.
Əzizim Qarsa haray!
İzmirə, Qarsa haray!
Yarımı qul eləyib,
Satdılar farsa, haray!

***V. Xanlıqlar dövrü***

1.
Bu sürü haralıdır,
Ağlıdır, qaralıdır.
Xanın, bəyin əlindən,
Ürəyim yaralıdır.

2.
Qaradağdır elimiz,
Xəzəl oldu gülümüz.
Xana, bəyə iş gördük,
Əyri bitdi belimiz.

3.
Əzizizəm qan mənim,
Nahaq çıxan can mənim.
Buna Allah neynəsin,
Evim yıxdı xan mənim.

5.
Mən aşığam zəy məni,
Dikəlt məni, əy məni.
Mən qocalan deyildim,
Qocaldıbdır bəy məni.

6.
Qarabağın üzümü,
Bağladılar gözümü.
Məclisdə bir söz dedim,
Hampa kəsdi sözümü.

7.
Əzizim qarğa məni,
Qu məni, qarğa məni.
Fələkdə bir taxsır yox,
Öldürdü darğa məni.

8.
Yatıram, yanım ağrır,
Dururam, canım ağrır.
Xan çubuğu dəyməkdən
Tamam əndamım ağrır.

k-011.18
Qaşlarını əy mənə,
Hərdən-hərdən dəy mənə.
Allahın xəbəri yox
Zülm elədi bəy mənə.

## *VI. Şeyx Şamil hərəkatı*

1.
Şamıla qoşun getdi,
Bilmirəm nöşün getdi.
Aləmdən bircə-bircə,
Bizdən bir qoşun getdi.

2.
Şamıl cahad eləyir,
Eli şahad, eləyir.
Urusdan bir ziyan yox,
Nöş inahat eləyir.

3.
Mən aşığam şıx Şamıl,
İmam Şamıl, şıx Şamıl.
Götür bizi dəstənə
Urus şahını yıx, Şamıl.

4.
Şamıla can verərəm,
Ürəkdən qan verərəm.
Cəmi bir oğlum olsa,
Ona qurban verərəm.

## *VII. Türkiyə*

1.
Mən aşıq Ərzuruma,
Namə yaz Ərzuruma.
İnsan üzü pis olur,
Dözərmiş hər zuluma.

2.
Paşalar atdı məni,
Hələbdə satdı məni.
Bir günahım yox idi,
Kənizə qatdı məni.

3.
Yandırdı maşa məni,
Od məni, maşa məni.
Mən əcəlnən ölmədim,
Öldürdü paşa məni.

4.
Toybəyi noğul versin,
Qənd versin, noğul versin
Şamılın qoşununa
Hərə bir oğul versin.

## *VIII. Rus çarizmi və ruslar*

1.
Mən aşığam gavalı,
Yemək olmaz gavalı.
Krımda dava düşdü,
Bizə dəydi zavalı.

2.
Tutubdur gavur məni,
Qoymur bir hovur məni.
Qış günü mən yalavac,
Rəhmi yox, qovur məni.

3.
Aşıq, ay da yıxıldı,
Uçdu, tay da yıxıldı.
Gözün aydın, ay bacı,
Nikolay da yıxıldı.

k-011.83
Mən aşıq daşa qurban,
Torpağa, daşa qurban,
Mənə savad öyrədən
Urus qardaşa qurban.

### *IX. Erməni-müsəlman münasibəti*

1.
Əzizim Qarsa nə var,
Samsuna, Qarsa nə var.
Daşnak bizi taladı
Bilmirəm farsa nə var?

2.
Qəliti alana bax,
Tinə bax, dalana bax.
Yalan vədəni eşit,
Edilən talana bax.

3.
Ətirdim, ay ətirdim,
Canı cana yetirdim.
Qaça-qaç düşən zaman
Bir cüt bala itirdim.

k-011.35
Erməni ay erməni,
Vətənimə ver məni.
Sənə kəniz olunca,
Aparaydı yer məni.

### *X. Böyük Vətən Müharibəsi*

1.
Tutdu bir zənci məni,
Kəsdi qılıncı məni.
Hitleri zarıl qalsın,
Qoydu zarıncı məni.

2.
Dağlara lala gəldi,
Gül gəldi, lala gəldi.
Hitler biz yazıqlara
Allahdan bəla gəldi.

3.
Saçları külləsənə,
Gül vurub külləsənə.
Sən igidlər nəslisən,
Dəyməz heç güllə sənə.

4.
Yandı, dərd yanım yandı
Dinim, imanım yandı.
Hitleri od tutaydı,
Alışdı, canım yandı.

5.
Mən aşıq əl-ayağım,
Çək başa, ələ yağın.
Sən səlamət getmişdin
Bəs hanı əl-ayağın?

k-004.64
Qoyunlar düzdə qaldı,
Quzusu küzdə qaldı.
Oğlum davada öldü,
Meyidi düzdə qaldı.

7.
Əzizinəm şirəm, gəl
Pələngəm gəl, şirəm gəl
Vətəndən uzaq yerdə
Düşmənə əsirəm, gəl.

8.
Mixək əkdim gördülər,
Tər vaxtında dərdilər.
Təzəcə yar sevmişdim,
Davaya göndərdilər.

k-003.74
Mixək əkdim gördülər,
Gül vaxtında dərdilər.
Təzəcə yar sevmişdim
Əskərə göndərdilər.

9.
Əzizim Gəncə haray!
Qax haray, Gəncə haray!
Düşdük faşist əlinə
Verdi işgəncə haray!

10.
Oxuram kəlamı mən,
Verərəm salamı mən.
Davadan yüz il keçsə,
Gözlərəm balamı mən.

11.
Mən aşıq Qızqayıta,
Namə yaz Qızqayıta.
Dava qan dəryasıdır
Kim ölə, kim qayıda.

12.
Hitlerin gəmiləri,
Gah geri, gah irəli.
Evin yıxılsın Hitler,
Ağlatdın gəlinləri.

13.
İrəfdən tava düşdü,
Qab sındı, tava düşdü.
Qırx biri qara gəlsin
Qırx birdə dava düşdü.

14.
Paltarım dar olubdur,
Tikdirən yar olubdur.
Yarım davaya gedib,
Qulağı kar olubdur.

15.
Qapını bağlamışam,
Cəftəsin yağlamışam.
Yarım əsgər gedəli,
Hər gecə ağlamışam.

16.
Oba məndən gen düşüb,
Duman gəlib, çən düşüb.
Yarım əsgər gedəli
Saçlarıma dən düşüb.

17.
Hana qurulu qaldı,
Qurdum, qurulu qaldı.
Yarı əsgər gedənin
Boynu burulu qaldı.

18.
Dağlarda lalam getdi,
Nərgizim, lalam getdi.
Hitler dava elədi
Əlimdən balam getdi.

19.
Qafqazın dağları var,
Meyvəli bağları var.
Əcəl, əsgərə dəymə,
Dalınca ağları var.

20.
Karxanada daş qalmaz,
Siyal qalar, daş qalmaz.
Yarı əsgər gedənin
Gözlərində yaş qalmaz.

21.
Bostanda nava oldu,
Su axdı, nava oldu.
Hitleri qara geysin.
O dedi, dava oldu.

22.
Gəzdim Şamı, Misiri
Gördüm Məmmədnəsiri.
Yaralandım sinəmdən,
Oldum düşmən əsiri.

23.
Aylar ulduza dönüb,
Gəlinlər qıza dönüb.
Oğlanlar əsgər gedib,
Yorğanlar buza dönüb.

24.
Bazara dəvə gəldi,
Nər gəldi, dəvə gəldi.
Şükür, dava qurtardı,
Əsgərlər evə gəldi.

25.
Qabları silməmişəm,
Yumuşam, silməmişəm.
Yarım əsgər gedəndən,
Bir dəfə gülməmişəm.

26.
Otum var, böldürürəm,
Bölərəm, böldürərəm.
Hitler əlimə düşsə
Qanlımdır, öldürərəm.

27.
Su gəldi, arxı aldı,
Dolandı çarxı aldı.
Beş il yolun gözlədim,
Qayıtdı xalxı aldı.

28.
Ocaq yandı sönmədi,
Quşum uçdu, enmədi.
Davadan danışmayın,
Yarım getdi, dönmədi.

k-011.42
Yedigimiz samandı,
Günüm gündən yamandı.
Qərib eldə əsirəm,
Xilas eylə, amandı.

k-011.50
Mən aşıq Qara dəniz,
Ay üzü qara dəniz,
Neçə igid öldürdün,
Etmədin çara, dəniz.

k-011.65
Kerçdə araba qaldı,
Batdı, araba qaldı.
Nemesin bombasından.
Krım xaraba qaldı.

k-011.69
Rostovun küçələri,
Qırılıb beçələri,
Davada çöldə yatdıq,
Şaxtalı gecələri.

k-011.71
Mən aşığam, gen düşüb,
Uzaq düşüb, gen düşüb.
Mənim igid sevgilim.
Deyirlər plen düşüb.

k-011.74
Bağ əkdim, gilas oldu,
Tut oldu, gilas oldu.
Məhv oldu Almaniya,
Əsirlər xilas oldu.

k-011.75
Əzizim, Krım mənə,
Kerç mənə, Krım mənə.
Düşmana əsir düşdüm
Verdi çox cürüm mənə.

k-011.78
Ay qız, adın Müşgünaz,
Sevgilinə etmə naz.
Yarın gedib davaya,
Qələm götür, kağız yaz.

k-011.79
Mən aşığam Milana,
Tarantoya, Milana
Nemes bizə zülm edir,
Dönür şahmar ilana.

***XI. Sovet hökuməti.***

**C) Tərbiyə və nəsihət**

1.
Aşıq tənə götürməz,
Gülşən tikan bitirməz.
Yaxşı o adamdır ki,
Yaxşılığı itirməz.

2.
Bazara tərə gedər,
Süd gedər, kərə gedər.
Qonşun paxıl olmasa,
Kor qızın ərə gedər.

3.
Bu sözü Nəhməd deyər,
Çəkərək zəhmət deyər.
Halal olsun o kəsə,
Ustada rəhmət deyər.

4.
Şirvanın gədiyindən,
Doymadıq hədiyindən.
İgid bir ölmək üçün,
Dönərmi dediyindən.

5.
Köynəyi oyma oğul,
Elm oxu, doyma, oğul.
Bu gününün işini
Sabaha qoyma, oğul.

6.
Dağların bulağı var,
Atı var, ulağı var,
Sirr sözün yavaşca de,
Yerin də qulağı var.

7.
Aşığın söhbəti var,
Sözü var, söhbəti var.
Ağıllı o adamdır,
Böyüyə hörməti var.

8.
Meşəmiz söyüd verər,
Şam verər, söyüd verər.
Ata çörək verəndir,
Müəllim öyüd verər.

9.
Şamaxı abad olmaz,
Uçubdur, abad olmaz.
Bir könül sözdən sına,
Heç nəylə abad olmaz.

10.
Əzizinəm Xatman gəl,
Ələ götür qotman, gəl,
Hansı məclisə getsən,
Ağır otur, batman gəl.

11.
Kamanı çalmaq olmaz,
Torpağa salmaq olmaz.
Məhəbbət elə şeydir,
Pul ilə almaq olmaz.

12.
Ocağı qalamaram,
Könüllər talamaram,

Söz verdim, üstə durram
Tüpürsəm, yalamaram.

13.
Həştərxanda buz olar,
Ördək olar, qaz olar.
Hamıya etibar yox,
Vəfalı dost az olar.

14.
Mən aşıq açar gedər,
Qıfılı açar, gedər.
Vəfasıza dost demə,
Bəd gündə qaçar, gedər.

15.
Bu oba Nabırlıdır,
Çağan yox, Nabırlıdır.
Binamus yaşamaqdan,
Ölmək çox abırlıdır.

16.
Əzizim nağaranı,
Qavalı, nağaranı,
Ağsaqqal eləməzlər,
Hər tükü ağaranı.

17.
Dükana xara gəlməz,
Mo gəlməz, xara gəlməz.
Uzaq gəz xəsis dostdan,
Pis gündə kara gəlməz.

18.
Su axır samanlıqdan,
Yol keçir dumanlıqdan.
Çalış, yaxşılıq eylə,
Nə çıxar yamanlıqdan.

19.
Əzizim, başa çalar,
Kipriyə, qaşa çalar.
Yemə namərd çörəyin,
Vaxt olar başa çalar.

20.
Əkərəm, taxıl, səni,
Yığaram axır səni.
Odlanıb od tutasan,
Yanasan paxıl, səni.

21.
Belə dərddən dərd olmaz,
Heç darmansız dərd olmaz,
Əvvəli mərd olanın,
Axırı namərd olmaz.

22.
Əzizinəm bel səni,
Şana səni, tel səni.
Keçmə namərd körpüsün,
Qoy aparsın sel səni.

23.
Bu yerlərə sel gələr,
Dönər, dönər sel gələr.
İgid mərd iş tutanda,
Arxasıycan el gələr.

24.
Pis oğul ata bilməz,
Yaxşıya çata bilməz.

Yüz min namərd yığılsa,
Bir mərdə çata bilməz.

25.
Qapımızın söyüdü,
Qabağımda böyüdü.
Uşaq bələkdə olsa,
Ona başla öyüdü.

26.
Təbriz üstü Marağa,
Zülfünü çək darağa.
Mənim yarım uşaqdır,
Öyrətməyin arağa.

27.
Mən aşıq paya nədir,
Dağ nədir, qaya nədir.
Bədəsillər nə bilər,
Abır nə, həya nədir.

28.
Mən aşıq bəla çəkər,
Bal çəkər, bəla çəkər.
Namərd dost olanın
Başı çox bəla çəkər.

29.
Mən aşıq səri saxlar,
Göndərər bəri saxlar.
Pendiri dəri saxlar,
Arvadı əri saxlar.

30.
Əzizim Təklə məni,
Tat məni, təklə məni.
Mən dedim, gəl dost olaq,
Demədim təklə məni.

31.
Aşıq qədimi yollar,
Xalın qədimi yollar.
İlqarından dönənə,
Qənim qədimi yollar.

32.
Əzizim yaram, yaram,
Sızlayır yaram, yaram.
Dili dost, qəlbi düşmən,
Söyləyir: yaram, yaram.

33.
İrəvan yolu bazar,
Nabələd olsa, azar.
Fələk yıxmayan evi,
Tez yıxar mərdümazar.

34.
Məni bir ilan vurdu,
Üzümə gülən vurdu.
Yadlar vura bilmədi,
Sirrimi bilən vurdu.

35.
Mən aşığam Qazana,
Hörmət elə ozana.
İgid o adamdır ki,
Halal çörək qazana.

36.
Ləpədöyənə getmə,
Göyə, göyənə getmə.

Aca, yalavaca get,
Özün öyənə getmə.

37.
Bu dağın qarı olmaz,
Meyvəsi, barı olmaz.
Tamahkar adamların
Namusu, arı olmaz.

38.
Dağların barı olmaz,
Heyvası, narı olmaz.
Yalançının, xəsisin
Bir dostu, yarı olmaz.

39.
Fətirə bax, fətirə,
Anam mənə gətirə.
Dostun acı sözlərin
Gərək dostu ötürə.

40.
Mən aşıq Nəzəralı,
Dağları gəzər Alı,
Vecsiz oğlu olmağın
Nə xeyri, nə zəralı.

41.
Pirsaatın ilanı,
Vurar yaxın olanı,
Mərd igidlər ölsə də,
Deməz bircə yalanı.

42.
Malını yada vermə,
Ömrünü bada vermə.
Qız verdin insana ver,
Dövlətə, ada vermə.

43.
İpliyin sarısından,
Alından, sarısından.
Qayıtsan, qazanc olur
Ziyanın yarısından.

44.
Pirsaatda qar olmaz,
Bağlarında nar olmaz.
Müxənnətdə, nakəsdə
Namus olmaz, ar olmaz.

45.
Mən aşığam nərgizə,
Qərənfilə, nərgizə.
Yaxşı o oğuldur ki,
Pis əməlin tərgizə.

46.
Pirsaatda yurd olar,
Quzu əmər, xurd olar.
Bədəsilin, bədyolun,
Ürəyində qurd olar.

47.
Qabıstanda pir olar,
Pələng olar, şir olar.
Üz aşnası yüz ilə,
Ürək dostu bir olar.

48.
Eşitdim əzənləri,
Dodağın büzənləri.

Gəlin biz barışdıraq,
Küsülü gəzənləri.

**Ç) Məhəbbət**

1.
Saçların qarasına,
Gül hörüm arasına.
Deyin: kim dərman elər
Məhəbbət yarasına?

2.
Sərkarın bucağında,
Od yanar oçağında.
Allah mətləbin versin,
Ağ oğlan qucağında.

3.
Gülü sancdım divara,
Bağban onu suvara.
Qışı sənlə qışladım,
Yazı qaldım avara.

4.
Mən aşığam Şıxlara,
Zülfü dolaşıqlara.
Eşqim bir dastan olub,
Yayılıb aşıqlara.

5.
Təbriz üstü Urmuya,
Karvan gedər xurmuya.
Can qurbandır o yara,
Yarla ara vurmuya.

6.
Bulağın başı qara,
Dibinin daşı qara.
O yara qurban olum,
Gözü göy, qaşı qara.

7.
Udulunun yolunda
Tuğayında, kolunda.
Nə müddətdir getmisən
Dözüm qalıb yolunda.

8.
Su gəlir aşa-aşa,
Tökülür dağa-daşa.
İstərəm yarı görəm,
Qorxuram ağlım çaşa.

9.
Yaylığın düşdü yola,
İlişdi qaldı kola.
Allah bir yol yar ilə,
Sarmaşaydıq qol-qola.

10.
Mən aşığam arana,
İmarətlər qurana.
Ölüncə səninləyəm,
And içirəm Qurana.

11.
Zümrüdün yuvasına,
Yurduna, yuvasına.
Heç hava çata bilməz,
Məhəbbət havasına.

12.
Quzumun rəngi qara,
Ağam kəsdi nahara.
Özün ev-eşik oldun,
Məni qoydun avara.

13.
Şirvanın yollarında,
Bənd oldum kollarında.
Bir cüt qolbaq olaydım,
Yarımın qollarında.

14.
Gün getdi dağ başına,
Kölgəsi bağ başına.
Yarım şamama istər,
Dolanır tağ başına.

15.
Mən aşıq atanlara,
Dəstə gül tutanlara.
Quran qismət olmasın,
Yarını atanlara.

16.
Mən aşığam düz qaba,
Çək xörəyi düz qaba.
Gəl oturaq üzbəüz,
Əl uzadaq biz qaba.

17.
Quş uçdu dalanlara,
Ağu ver ilanlara.
Quran qismət olmasın,
Bivəfa olanlara.

18.
Əzizim, alma qala,
Novruza alma qala.
Mən səni gizli sevdim,
Kim saldı qalmaqala.

19.
Su gəlir aşa-aşa,
Tökülür dağa-daşa.
Getdiyin bir il oldu,
Niyə dönmüsən daşa?

20.
Gəl yola, bir gəl yola,
Qolun boynuma dola.
Ağzı nədir bağlarda
Lalə sənə tay ola?

21.
Musa der yaralana,
Dililə yar alana.
Qorxuram bir şeh düşə,
Gül uzun yaralana.

22.
Molla Musa, xan Musa,
Yar oduna yan, Musa.
Yar nə qədər çor desə,
Sən deginən can, Musa.

23.
Mən aşıq Pirsaata,
Pir evli, pir saata.
Mən yarımdan küsmüşəm,
Nə düşüb camaata?

24.
Pirsaatın başına,
Qayasına, daşına.
Bir də yarımı görsəm,
Dolanaram başına.

26.
Mən aşıq Talış handa,
Kür handa, Talış handa.
Qəmli könlüm şad olar
Səninlə danışanda.

26.
Mən aşıq gözdə qara,
Kababım közdə qara.
Yollarına baxmaqdan,
Qalmayıb gözdə qara.

27.
Uduluda duz qalıb,
Çıxardılıb duz qalıb.
Sənin işin bin tutmaz,
Dalınca çox göz qalıb.

28.
Quzum bulağa çıxıb,
Qalxıb bulağa çıxıb.
Siz Allah, xoş söz deyin,
Yarım qulağa çıxıb.

29.
Qapımızda bel durub,
Sancılıbdır, bel durub.
Məni sevən oğlanın,
Kəkili tel-tel durub.

30.
Süfrəmizə bal düşüb,
Dəymiş qalıb, kal düşüb.
Yarım özgəsin sevib,
Ürəyimə xal düşüb.

31.
Yaylaqda quzum qalıb,
Səhv olub, quzum qalıb.
Yar özgəyə yar olub,
Dalınca gözüm qalıb.

32.
Süfrəmizə bal düşüb,
Dəymiş qalıb, kal düşüb.
Yarım küsüb gedibdir,
Ürəyimə xal düşüb.

33.
Oba məndən gen düşüb,
Duman gəlib, çən düşüb.
Yar yolun gözləməkdən,
Saçlarıma dən düşüb.

34.
Kəkilin varaq-varaq
Kəkilə vurma daraq.
Məndən sənə yar olmaz,
Aləmə salma soraq.

35.
Əlində qızıl sancaq,
Gətir yaxana sancaq.
Yar görüşə gəlmədi,
Soyuqdan əsdim ancaq.

36.
Əlində sarı sancaq,
Ağ sancaq, sarı sancaq.
Hamıdan bu yamandır,
Yar uşaq, mən utancaq.

37.
Mən aşığam ay mədəd,
Ulduz mədəd, ay mədəd.
Dan ulduzu baş verdi,
Ayrılıqdır, ay mədəd.

38.
Yolum düşdü Garısa,
Sözün söylə, varısa.
Beş günü sənə qurban,
On  gün ömrüm var isə.

39.
Köynəyin micə-micə,
De görüm halın necə.
On iki qurban kəsim,
Yar bizə gələn gecə.

40.
Əzizim birdən-birə,
Qar yağar birdən-birə.
Az-az yandırmaq neyçin,
Gəl yandır birdən-birə.

41.
Əzizinəm göz sənə,
Niyə dəydi söz sənə.
Çox bəzənib düzənmə,
Dəyər yaman göz sənə.

42.
Gözlərin qara mənə,
Vurubdur yara mənə.
Salmısan eşq oduna,
Gəl elə çara mənə.

43.
Bu dərə narın dərə,
Getdikcə narın dərə.
Burda bir bağ salmışam,
Yar gələ narın dərə.

44.
Əzizim sinə-sinə,
Ovçu gəz sinə-sinə.
Öləydim yar yanında,
Düşəydim sinəsinə.

45.
Əzizim təsbeh mənə,
Xoş gəlibdir meh mənə.
Gəlləm deyib gedirsən,
Bir öpüş ver beh mənə.

46.
Quzuçu quzu bəndə,
Quzunu tökmə kəndə.
Səndən yar olan deyil,
Salmısan bizi bəndə.

47.
Mən aşıq püstə səndə,
Nar səndə, püstə səndə.
Ölüncə səninləyəm,
Sən məni pisləsən də.

48.
Mən aşıq qara məndə,
Ağ məndə, qara məndə.
Yar ezgəyə yar olub,
Qalıb çox yara məndə.

49.
Əzizim yüz il belə,
Nimçəyə düzül belə.
Yolunu gözləyərəm,
Gəlməsən yüz il belə.

50.
Su gəldi süzə-süzə,
Töküldü çərhövüzə.
Qonşuda bir yar sevdim,
Canımı üzə-üzə.

55.
Aşıqdır ellər sənə,
Musa tək qullar sənə.
Ağzı nədir bağlarda,
Tay ola güllər sənə.

52.
Quranım dizim üstə
Oxuram dizim üstə.
Yarım öpüş istəsə,
Deyərəm gözüm üstə.

53.
Mixək əkdim daş üstə,
Qələm olar qaş üstə.
Yardan bir xəbər gətir,
Hər nə desən, baş üstə.

54.
Sarı gilas rəngimdə,
Sapı var biləngimdə.
Allah məni öldürməz,
Arzum var ürəyimdə.

55.
Karvan gedər kənd ilə,
Yükün tutar qənd ilə,
Mən yardan ayrılmazdım,
Ayırdılar fənd ilə.

56.
Mən aşığam çay sənə,
Kimlər deyər vay sənə.
Gəzdim cümlə cahanı,
Bir tapmadım tay sənə.

57.
Əzizim görənlərə,
Zülfünü hörənlərə.
Durub qurban kəsilləm,
Yarımı görənlərə.

58.
Aşıq işləməyin nə?
Toyuq kişləməyin nə?
Öpürsən xoşum gəlir,
Bəs bu dişləməyin nə?

59.
Quranım dizim üstə,
Saxlaram gözüm üstə.
Yüz il keçsə, gəlməsən
Durmuşam sözüm üstə.

60.
Getmişdim Bozum üstə,
Yatmışdım üzüm üstə.
Yar məndən nə istəsə,
Deyərəm gözüm üstə.

AD-008.438
Dağlara çən gələndə.
Dumanla çən gələndə.
Loğmanı neyləyirəm
Üstümə sən gələndə.

62.
Uduludur obamız,
Qoyunçudur babamız.
Yara qurban olaydı,
Bizim cəddi abamız.

63.
Uduludur elimiz,
Qızıl güldür gülümüz.
Nə dedik yara dəydi,
Lal olaydı dilimiz.

64.
Bazarda xurma mənsiz,
Gül sənsiz, xurma mənsiz.
Gedirəm, qayıdaram,
Boynunu burma mənsiz.

65.
Uduluda xan qalmaz,
Gələr gedər, xan qalmaz.
Yardan ayrı düşənin,
Bədənində can qalmaz.

66.
Bu yerdə kərə olmaz,
Ot olmaz, tərə olmaz.
Aşiqi qınamayın,
Eşqə bənd-bərə olmaz.

67.
Qıyağı çalmaz olmaz,
Xarmana salmaq olmaz.
Məhəbbət elə şeydir,
Pul ilə almaq olmaz.

68.
Uduluda qar olmaz,
Çovğun olmaz, qar olmaz.
Tez-tez küsən gözəldən
Etibarlı yar olmaz.

69.
Pirsaatda qaz olmaz,
Ördək olmaz, qaz olmaz.
Deyən yoxdur yarıma,
Bir bu qədər vaz olmaz.

70.
Quzunu alan olmaz,
Ağıla salan olmaz.
Deyirlər yarım gəlir,
Bu boyda yalan olmaz.

71.
Dəyirman üstü yarpız,
Yarpız içində qarpız.
Yarım gecədən gedib,
Məni qoyubdur yalqız.

72.
Bazara üzüm gəlməz,
Tut gəlməz, üzüm gəlməz.
Yara xeyli sözüm var,
Deməyə üzüm gəlməz.

73.
Uduluda qış olmaz,
Kotan olmaz, xış olmaz.
Vədə verdin, gəlmədin,
Axı belə iş olmaz.

74.
Uduluda qar olmaz,
Meyvə olmaz, bar olmaz.
Sən etibarlı olsan,
Etibarsız yar olmaz.

76.
Pirsaatın selləri,
Doldurubdur gölləri.
Yardan xəbər gətirsin,
Əsən sabah yelleri.

76.
Dağ başı çiçəkləndi,
Gün vurdu göyçəkləndi.
Toy yuxası yapıldı,
Ayrılıq gerçəkləndi.

77.
Mən aşıq göndələni,
Enişi, göndələni.
Barı bir hesaba al,
Həsrətindən öləni.

78.
Əkərəm püstə səni,
Düzərəm süstə səni.
İstəsən saxlayaram,
İki göz üstə səni.

81.
Əzizim alma məni,
Al məni, alma məni.
Sözündə mötəbər ol,
Çöllərə salma məni.

82.
Əzizim molla məni,
Şıx məni, molla məni.
Bir dəstə gül eyləyib,
Yarıma yolla məni.

83.
Mən aşıq Paşa getdi,
Əlində xaşa getdi.
Bir ceyrana ox atdım,
Heyif ki, boşa getdi.

84.
Əzizim əzən yeri,
Gəl geyin, bəzən, yeri.
Gündə yüz yol öpərəm,
Sevgilim gəzən yeri.

85.
Mən aşıq taxta yeri,
Dolan gəl taxta yeri.
Gəl ikimiz bir yataq,
Qovurur şaxta yeri.

86.
Tikdim qarakeçəni,
Tutub kəsdim beçəni.
Gündüz bir təhər keçdi,
Necə dözüm gecəni?

87.
Neştərlə oydun məni,
Yemiş tək soydun məni.
Səndən yar olan deyil,
Sərkərdan qoydun məni.

88.
Əkərəm xiyar səni,
İşlərəm biyar səni.
Gecə keçdi, ay batdı
Gözləyirəm yar, səni.

89.
Qapıya quş gələrmi,
Qayıdıb quş gələrmi.
Həmişə çəp gedən yar
Bu sabah tuş gələrmi?

90.
Araxçının çətiri,
Özündədir ətiri.
O göz, o qaş səndədir,
Gündə bir yar gətiri.

91.
Əkərəm soğan səni,
Kim olar yığan səni.
Belə gözəl tapılmaz,
Var olsun doğan səni.

92.
Əkərəm yonca səni
Saxlaram bunca səni.
Allahdan arzum budur,
Görəm doyunca səni.

93.
Mən aşığam Kür məni,
Araz məni, Kür məni.
Yarımı əlimə ver,
Bu dünyadan sür məni.

94.
Yallı yallıya bənddi,
Yallı bürüdü kəndi.
Pul verim, satım alım
Yarım oturan kəndi.

95.
Əlimdən quşum getdi,
Qəfil uçmuşum getdi.
Yarı xəlvətdə gördüm,
Başımdan huşum getdi.

96.
Xoruzlar quqq elədi,
Qapımız tıqq elədi.
Elə bildim yar gəldi,
Ürəyim çıqq elədi.

97.
Uduluya qar gəldi,
Soyuq gəldi, qar gəldi.
İnkir-minkir dur dedi,
Elə bildim yar gəldi.

98.
Qonşudan tava gəldi,
Teşt gəldi, tava gəldi.
Yar yolun gözləməkdən,
Başıma hava gəldi.

99.
Əzizim kəndə məni,
Şəhərə, kəndə məni.
Səndən yar olan deyil,
Salmısan bəndə məni.

100.
Şirvana bəbir gəldi,
Pələng yox, bəbir gəldi.
Anan elçi gedəndə,
Deyəsən səbir gəldi.

101.
Obaya aşıq gəldi,
Toy gəldi, aşıq gəldi.
Kor idim, səni gördüm,
Gözümə işıq gəldi.

102.
Aparma pirə məni,
Yedirtmə şirə məni.
Mən yardan ayrılmazdım,
Qoydular girə məni.

103.
Əzizim aldı məni,
Əfi tək çaldı məni.
Bir gözələ tuş oldum,
Çöllərə saldı məni.

104.
Gördü bir təklə məni,
Kürd məni, təklə məni.
Səndən özgə yar sevməm,
Ölüncə bəklə məni.

105.
Mən aşıq Qaya kəndi,
Dərbəndi, Qayakəndi.
Mən yara qovuşmuşam,
Çağırın toya kəndi.

106.
Saxlaram yemiş səni,
Alaram gümüş səni.
Səndən yaxşısı olmaz,
Kimlər pis demiş səni.

107.
Qoyun gəldi yan gəldi.
Əmcəyindən qan gəldi.
Üstümə sən gələndə,
Bədənimə can gəldi.

108.
Əlimdən quşum getdi,
Qəfil qonmuşum getdi.
Yarı xəlvətdə gördüm,
Başımdan huşum getdi.

109.
Bulağın qumu kimi,
Çayırı, qumu kimi.
Dərdindən dəli oldum,
Saraldım lumu kimi.

110.
Aşıq Aşğabad səni,
Yıxa bilməz bad səni.
Mənim canım sən idin,
Kim eylədi yad səni?

111.
Arpanın nə bafası,
Nə dərzi, nə bafası.
Yar mənə vəfa qılmaz,
Yadların nə vəfası?

112.
Yar yolun düzə saldı,
Qoyunu küzə saldı.
Mən yardan ayrılmazdım,
El məni üzə saldı.

113.
Bu yerdə oba hanı,
Yurd hanı, oba hanı?
Canım al, bir busə var,
Kim verər bu bahanı.

114.
Dağda gəzər haramı,
Mənzili də haramı.
Mənə loğman nə lazım,
Sən eləsən çaramı?

115.
Bostan əkili qaldı,
Çəpər çəkili qaldı.
Səndən mənə yar olmaz,
Başım sərkili qaldı.

116.
Dağların yatan qarı,
Ərşinə çatan qarı.
Xudam tezbazar etsin,
Axşamdan yatan yarı.

117.
Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı.
Dərd çəkmə, çoban bala,
Qız sənindir axırı.

118.
Gözlərin balxı-balxı,
Qaşların bostan arxı.
Səndən yar olan deyil,
İntizar qoyma xalxı.

119.
Bağçada barım qaldı,
Armudum, narım qaldı.
Fələk ayrılıq saldı,
Mən getdim, yarım qaldı.

120.
Bostanımız çayırdı,
Yerim daşdı, qayırdı.
Güclə yara yetmişdim.
Fələk vurdu ayırdı.

121.
Mən aşıq nəz balışı,
Get axtar gəz balışı.
Məmələrim nəzbalış,
Çəngelə, əz balışı.

122.
Biz getdik düzə sarı,
Yaş gəldi üzə sarı.
Yarı qürbətdə görsəz,
Göndərin bizə sarı.

123.
Mən aşıq ağ olaydı,
Boz yerlər dağ olaydı.
Mən həsrətli ölsəm də,
Sevgilim sağ olaydı.

124.
Meynədə üzüm qaldı,
Dərmədim, üzüm qaldı.
Sevdiyim yada getdi,
Dalınca gözüm qaldı.

125.
Gedin, tapın Saranı,
Bağlamasın yaranı.
Təbib sağalda bilməz,
Yar vurduğu yaranı.

126.
Qızıl gülün putası,
Əskik olmaz xatası.
Yarla Leyli-Məcnunuq,
Razı deyil atası.

127.
Ortada payım batdı.
At uçdu, tayım batdı.
Yarım bivəfa çıxdı,
Çox haqqı-sayım batdı.

128.
Ocaqda gözün hanı?
Saxladın özün, hanı?
Vədə verdin, gəlmədin,
Verdiyin sözün hanı?

129.
Mən aşıq kəndə saldı,
Meylini qəndə saldı.
Vədə verdin, gəlmədin
Kim səni bəndə saldı.

130.
Qabıstanda çay hanı,
Dərya hanı, çay hanı?
Sənə kimlər ay deyib,
Sənin kimi ay hanı?

131.
Dəryada ada qaldı,
Su getdi, ada qaldı.
Cəfa çəkdim, yar sevdim,
Mən öldüm, yada qaldı.

132.
Yaylaqda sürüm qaldı,
Gəlmədi, sürüm qaldı.
Yar sevdim, yad apardı,
Mənə boş cürüm qaldı.

133.
Araxçının xarası,
İpəyi, zərxarası.
Qızın ağı gözəldir,
Oğlanın da qarası.

134.
Qara qazan daşmazmı,
Şirvana yol aşmazmı?
Darıxma, əmioğlu,
Ayrılan qovuşmazmı?

135.
Çay daşı, çaxmaq daşı,
Yandı ürəyimin başı.
Adını deyə bilmirəm,
Mirəlinin qardaşı.

136.
Mən aşıq Pirsaatı,
Rəncbəri, Pirsaatı.
Yüz ilin ibadəti,
Sevginin bir saatı.

137.
Göz gördü bu Salmanı,
Bağban sən bus almanı.
Saçından öyrənmişəm,
Üzündən bus almanı.

138.
Sabahın azan vaxtı,
Xoş xəbər yazan vaxtı.
Fələyi şil olaydı,
Talehim pozan vaxtı.

139.
Ay bu evin xanımı,
Üzmə mənim canımı.
Ərin malımı alıb,
Özün din-imanımı.

140.
Bu yer Miyanadırmı,
Xoymu, Miyanadırmı?
Deyirlər yarım gəlir
Yolu bu yanadırmı ?

141.
Şirvanın beçə balı,
Yaz balı, beçə balı.
Sənin bal dodaqların,
Çıxardıb heçə balı.

142.
Bulaq üstü yelpənək,
Köynəyin bənək-bənək.
Gəl ikimiz tutuşaq,
Dalaşaq hənək-hənək.

143.
Xarmanda şana gərək,
Vəl gərək, şana gərək.
Yar-yardan ayrılanda,
Versin nişana gərək.

144.
Aşığın sözünə gəl,
Sürmə çək gözünə gəl.
Məni görmək istəsən,
Udulu düzünə gəl.

145.
Uma gəl, ay Uma gəl,
Öküz gətir, şuma gəl.
Aşkarada gəlmirsən,
Barı bir yuxuma gəl.

146.
Kababı közlərəm, gəl,
Kömürü üzlərəm, gəl.
Nə qədər canım sağdır,
Yolunu gözlərəm gəl.

147.
Bu mahal Gilan deyil,
Şirvandır, Gilan deyil.
Deyirlər toyum olur,
Deyəsən yalan deyil.

148.
Ocağam, tüstümə gəl,
Durmusan qəsdimə gəl.
Dərdindən od tutmuşam,
Yanıram, üstümə gəl.

149.
Qızıl güləm, qızıl gül,
Gəl budaqdan üzül, gül.
Yarla bir yerdə olsan,
Yüz il danış, yüz il gül.

150.
Soyuqdan əsdim gəldim,
Əlimi kəsdim, gəldim.
Bir cüt öpüşdən ötrü
Yarımdan küsdüm gəldim.

151.
Eyvana süfrə sallam,
Gəlib yanında qallam.
Küsmüsən, qayıt bəri,
Qada-balanı allam.

152.
Yaylağın gülü ollam,
Ağzının dili ollam.
Hansın yolla gələsən,
O yolun qulu ollam.

153.
Qabıstandan qoç aldım,
Ermənidən xaç aldım.
Yarı xəlvətdə tutdum,
Ağ üzündən maç aldım.

154.
Başımda cunam mənim,
Göylərdə sonam mənim.
Dul deməyin, getməyib
Əlimdən xınam mənim.

155.
Qızıl güləm, dəstəyəm,
Çoxdandır yol üstəyəm.
Uzaqda dayanma, gəl,
Həsrətindən xəstəyəm.

156.
Evləri barı neynim,
Qoçları sarı neynim.
Yaz gedər, payız gələr,
Mən belə yarı neynim.

157.
Xoruzam, ban verərəm,
Gəlməsən, can verərəm.
Bizə qonaq gələsən,
Canım qurban verərəm.

158.
Qapını süpürmüşəm,
Silmişəm, süpürmüşəm.
Yar yolunda can qoyub,
Dövlətə tüpürmüşəm.

159.
Dalımı dağa verrəm,
Dağa qadağa verrəm.
Bilsəm ki, sən gəlirsən,
Canım sadağa verrəm.

160.
Ocağı qalamışam,
Həyəti sulamışam.
Yarım arandan gəlib,
Duz kimi yalamışam.

161.
Köynəyi bez tikmərəm,
Tez kəsib, tez tikmərəm.
Mənə öz yarım gərək,
Özgəyə göz tikmərəm.

162.
Əzizim, mən də yetim,
Sən yetim, mən də yetim.
Sən yetdin mətləbinə,
Dua et, mən də yetim.

163.
Köynəyi ağardaram,
Qolların daraldaram.
Özüm qarabuğdayı,
Çoxların saraldaram.

164.
Su üzündə həsirəm,
Şəlpə deyil həsirəm.
Qayıt bir yanıma gəl,
Sənsiz çox tələsirəm.

165.
Savalanı aşaram,
Yara mahnı qoşaram.
Yarım mənə baxanda,
Yerişimi çaşaram.

166.
Bulaq, səndə daş ollam,
İslanaram yaş ollam.
Səni qəfil görəndə,
Dolaşıb çaş-baş ollam.

167.
Ağac, səndə qoz ollam,
Fındıq ollam, qoz ollam.
Yarım bizə gələndə,
Ayağında toz ollam.

168.
Bulaq, səndə mil ollam,
Çayır ollam, gil ollam.
Yar həsrətin çəkməkdən
Yanıb-yanıb kül ollam.

169.
Mən aşıq, şam elərəm,
Günü axşam elərəm.
Hansı gün sən gələsən,
O gün bayram elərəm.

170.
Çalanın nəmişiyəm,
Lığıyam, qəmişiyəm.
Yarla hər gün görüşsəm,
Yenə görməmişiyəm.

171.
Qabında tütün ollam,
Nas ollam, tütün ollam.
Qovma məni evindən,
Qapında itin ollam.

172.
Eyvanım həsir mənim,
Ürəyim əsir mənim.
Toyumu tez eləyin,
Yarım tələsir mənim.

173.
Dəryada inci mənəm,
Dürr mənəm, inci mənəm.
Gəl mənim canımı al,
Vallahı incimənəm.

174.
Dağlarda bostan oldum,
Bağ oldum, bostan oldum.
Bivəfa yar ucundan
Dillərdə dastan oldum.

175.
Yorğanı üzləmişəm,
Yumuşam, üzləmişəm.
Sevgilim əsgər gedib,
Yolunu gözləmişəm.

176.
Çərçidən daraq aldım,
Sap aldım, daraq aldım.
Yarım səfərə gedib,
Bu sabah soraq aldım.

177.
Qapıda işləyəydim,
Toyuğu kişləyəydim.
Yarı xəlvətdə tutub,
Tez öpüb dişləyəydim.

178.
Fayton gəlir göndələn,
Qolum yoxdur, döndərəm.
Yazı-pozu bilmirəm,
Məktub yazıb göndərəm.

179.
Barmağında üzüyəm,
Candan, başdan beziyəm.
Musa, yarın dodağın,
Nazik iylə, nazik əm.

180.
Yarı yolladım özüm,
Allah, mənə bir dözum
Yolda yoldaşı qurban,
Evə dönəndə özüm.

181.
Su gəlməz bağa, neynim,
Bağa, yarpağa neynim.
Küsdürmüşəm o yarı
Gəlmir otağa, neynim?

182.
Dibəkdə duz olaydım,
Göydə ulduz olaydım.
Yar qapıdan keçəndə,
Evdə yalqız olaydım.

183.
Aşıq, oya bilmirəm,
Quzu soya bilmirəm.
Yüz il üzbəüz olam,
Yardan doya bilmirəm.

184.
Palazı naxışlaram,
Göl sallam, naxışlaram.
Səndən bir xəbər çıxsa,
Canımı bağışlaram.

185.
Udulunu bəzərəm,
Eniş-arğaç gəzərəm.
Yar yolunda ölüncə
Cəfalara dözərəm.

186.
Əyməni əyən mənəm,
Ucuna dəyən mənəm.
Mənə öz yarım gərək,
Özgəni bəyənmənəm.

187.
Çobanam, qoç almaram,
Sataram, qoç almaram.
İldə bir yarı görsəm,
Yüz yaşar, qocalmaram.

188.
Əzizim şəkər ollam,
Qənd ollam, şəkər ollam
İldə bir yol dindirsən,
Qapında nökər ollam.

189.
Qərənfili üzmüsən,
Saçbağına düzmüsən.
Söz verib, xilaf çıxıb,
Cavan canım üzmüsən.

190.
Qulam mən, ay qulam mən,
Ağa sənsən, qulam mən.
Üç gün gəlin olmuşam,
Deməyin ki, dulam mən.

191.
Qurban boyuna sənin,
Yaxşı xoyuna sənin.
Allah qismət eləsin,
Gələk toyuna sənin.

192.
Qərənfilsən, putasan,
Məni saldın oda sən.
Mən o güldən deyiləm,
İyləyəsən, atasan.

193.
Hənanı yaxanların,
Həmayil taxanların.
Gəlsin öpüm gözündən,
Yarıma baxanların.

194.
Xəbər ver yara məndən,
Gözləsin çara məndən.
Nə ondan ox qurtarmaz,
Nə bitər yara məndən.

195.
İpliyi bozaram mən,
Boyayıb doyaram mən.
Hər kim yarıma baxsa,
Gözlərin oyaram mən.

196.
Gəl getmə, tanıram mən,
İşarə qanıram mən.
Səni bikef görəndə,
Alışıb yanıram mən.

197.
Tüfəng sındı çaxmaqdan,
Sular doydu axmaqdan.
Nə sən yoldan yığıldın,
Nə mən yola baxmaqdan.

198.
Gəl getmə bu il bizdən,
Qar yağar, olar dizdən.
Qar yağar, girvə bağlar,
Sizi yad elər bizdən.

199.
Bulağın başındasan,
Dibinin daşındasan.
Hansı yerə gedəsən,
Ürəyimin başındasan.

200.
Mən aşığam yaza sən,
Nöş durmadın aza sən.
Hansı eldən gəlmisən?
Oxşayırsan qaza sən.

201.
Quzumu soymaram mən,
Əlimdən qoymaram mən.
Ölüncə sənlə olsam,
Yenə də doymaram mən.

202.
Udulu yolu fərman,
Torpağı gözə dərman.
Yardan bir məktub aldım,
Yarı dərd, yarı dərman.

203.
Bostanda yemişəm mən,
Zərəm mən, gümüşəm mən.
Ölənəcən səninəm,
Sözümü demişəm mən.

204.
Üzərriksən, havasan,
Bədnəzəri qovasan.
Gəl bir görüm üzünü,
Hər dərdimə davasan.

205.
Ocaq qurdum samıynan,
Aş bişirdim vamıynan,
Bivəfa yardan ötrü,
Düşmən oldum hamıynan.

206.
Ay oğlan, ağa oğlan,
Dolan, gəl bağa, oğlan.
Sən gəldiyin yollara
Canım sadağa, oğlan.

207.
Oba gəlir biyardan,
Xəbər verin o yardan.
Səndən mənə yar olmaz,
Qoydun məni sərkərdan.

208.
Dağı aşıb gedənin,
Qanı coşub gedənin.
Bəxtəvər başı olsun,
Halallaşıb gedənin.

209.
Mən aşığam bıyından,
Ənbərindən muyundan.
Özgələr  yaxın oldu,
Baxdım dağlar qıyından.

210.
Xarmanı kürüdüm mən,
Saldım mən, kürüdüm mən.
Bivəfa yar yolunda
Diriykən çürüdüm mən.

211.
Bu yerlərin xanıynan,
Soltanıynan xanıynan.
Sənə namə yazaram
Ürəyimin qanıynan.

212.
Əziziyəm xına mən,
Basma mənəm, xına mən.
Xalça ollam, sərilləm,
Ayağın altına mən.

213.
Ay gedən, şəkilisən,
Ellərin vəkilisən.
Sənə necə yar deyim,
Bəd gündə əkilisən.

214.
Bağlarda xəzələm mən,
Solmuşam, xəzələm mən.
Aləmə çirkin olsam,
Yarıma gözələm mən.

215.
Saçını daramısan,
Yumusan, daramısan.
Çox da gözəl deyilsən,
Könlümə yaramısan.

216.
Yaylığı bəzəmisən,
Çəkmisan, bəzəmisən.
Niyə gendə durmusan?
Adımı bəzəmisən!

217.
Evlərin yaxın yarın,
Boyuna baxın yarın.
Kənddə bədnəzər çoxdur,
Heykəlin taxın yarın.

218.
Göy üzündə pərdə mən,
Qəfil düşdüm dərdə mən.
Öyrətdin sinən üstə,
Necə yatım yerdə mən.

219.
Mən aşıq başa qurban,
Kipriyə, qaşa qurban,
Nə zaman bizə gəlsən,
Kəsərəm qoşa qurban.

220.
Sürü bu yana gəlsin,
Yesin, biyana gəlsin.
Deyin o vəfasıza,
Dönsün bu yana gəlsin.

221.
Çalada zəliyəm mən,
Əcəb gülməliyəm mən.
Dağa-daşa düşmüşəm,
Dərdindən dəliyəm mən.

222.
Qabıstan yolu fərman,
Torpağı gözə dərman.
İldə bir kağız yazsan,
Götürrəm gözə dərman.

223.
Aşıq yaxşıya məndən,
Xalın yaxşıya məndən.
Gedirsən salam-dua
Apar yaxşıya məndən.

224.
Su gəldi çarhovuzdan,
Saraldım təhnənizdən.
Gündə bir xəbər gəlir
Xaraba məhlənizdən.

225.
Aşıq özündən olsun,
Kabab közündən olsun.
Səni məndən eyləyən,
İki gözündən olsun.

226.
Əlində qızıl qənddan,
Elədin məni bədnam.
Getdin uzaq yerlərə,
Çıxartdın məni yaddan.

227.
Evləri həsir oğlan,
Gör nə tələsir oğlan.
Sən səfərə gedəndə
Ürəyim əsir, oğlan.

228.
Çıxartma nalı yaddan,
Üzündə xalı zaddan.
Yüz il keçsə çıxarmı,
Məmənin balı yaddan?

229.
Bu bağın arasından,
Üzüm ver, qarasından.
Səndən öpüş istərəm,
Aşnalıq barasından.

230.
Ocaq yanar, od verər,
Bacalıqdan xod verər.
Yar məndən üz döndərib,
Hər gün bir cür dod verər.

231.
Çörəyə nan dedilər,
Nökərə xan dedilər.
Yarın bal dodaqların
Mənə dərman dedilər.

232.
Qabıstanın küzü var,
Küzlərində quzu var.
Gözlərinə su ensin,
Kimin səndə gözü var.

233.
Qabıstan yol üstədir,
Arxalıq qol üstədir.
Siz Allah, gendə durun
Sevgilim yol üstədir.

234.
Göyərçin qanatlanır,
Damdan-dama atlanır.
Yarından bir üz görən,
Hər zəhmətə qatlanar.

235.
Yerim Yeddiağıldır,
Qonşularım mağıldır.
Sevdim, ala bilmədim,
Qəziyyəm bir nağıldır.

236.
Təbriz üstü Əhərdir,
Bakı böyük şəhərdir.
Yardan ayrı düşəni,
Hər nə yesəm, zəhərdir.

237.
Sonam gəlda beş gedər,
Beş dövr elər, beş gedər.
Tiksən könlüm evini,
Allaha da xoş gedər.

238.
Mən aşıq kəndə deyər,
Kəklik kəməndə dəyər,
Burdan bir yar sevmişəm,
Ellik bu kəndə dəyər.

239.
Narıncı dağladılar,
Dəsmala bağladılar.
Bu yar mənim deyildi,
Boynuma bağladılar.

240.
Mixəx əkdim gördülər,
Tər vaxtında dərdilər.
Təzəcə yar sevmişdim,
Davaya göndərdilər.

241.
Yorğunam, yaram sızlar,
Heç verməz aram, sızlar.
Eşqin ayrılığına,
Dözərmi aramsızlar?

242.
Mən aşıq qara gözlər,
Eləməz çara gözlər.
Kor olsam, işıq gələr.
Baxarsa yara gözlər.

243.
Evləri dağa gedir,
Qar yağa-yağa gedir.
Mənim istəkli yarım,
Hər il yaylağa gedir.

244.
Bu dağlar, uca dağlar,
Dayanıb necə dağlar.
Eşqin dərdini çəksən
Gör səni necə dağlar.

245.
Bu kollar qarağandır,
Yovşandır, qarağandır.
Öldürmüsən aşiqi
Əllərin qara qandır.

246.
Mən aşıq Nəzər eylər,
Zər eylər, nəzər eylər.
Gözünə yaman çıxsın,
Kim yara nəzər eylər.

247.
Arxalığın çimi zər,
Çimi barta, çimi zər.
Əl məndən, ətək səndən,
Görək əlin kim üzər.

248.
Bu dərədə üzüm var,
Yaxına gəl, sözüm var.
Dayımın üç qızından,
Kiçiyində gözüm var.

249.
Mən aşığam zərin var,
Zərin var, mənzərin var.
Hansı bağın gülüsən?
Yarıma bənzərin var.

250.
Şüşədə şərab olar,
Şərab çox xarab olar.
Bir gün səni görməsəm,
Ürəyim xarab olar.

251.
Udulunun düzü var,
Düzlərində quzu var.
Ata-anana görkünmə,
Bəlkə dəyən gözü var.

252.
Tut ağacı oyuqdur,
Oyuqdakı toyuqdur.
Gəl ikimiz bir yataq,
Yerim yaman soyuqdur.

253.
Quzumun rəngi ağdır,
Quyruğu dolu yağdır.
Çəkəcəyəm cəfanı,
Nə qədər canım sağdır.

254.
Dağlardakı dəmirdir,
Taxta deyil, dəmirdir.
Sən mənimsən, mən sənin,
Şahdan gələn əmirdir.

255.
Udulu ələmlidir,
Dörd yanı qələmlidir.
Uduluda sevənin,
Ürəyi vərəmlidir.

256.
Qoy mənə kür desinlər,
Kürdən də kür desinlər.
Əlini mənə versinlər,
Şirvandan sür desinlər.

257.
Əzizim süzülən var,
Yollara düzülən var.
Bir gəlib görünsənə
Dərdindən üzülən var.

258.
Döşəyi üzləyən var,
Üz çəkib üzləyən var.
Xoşbəxt o kimsənədir,
Yolunu gözləyən var.

259.
Toy eləyən aşıqdır,
İşimiz çalpaşıqdır.
Gəl bir qolboyun olaq,
Desinlər sarmaşıqdır.

260.
Əlimdə səzənim var,
Dilimdə əzənim var.
Dayanın ay qar-yağış,
Çöllərdə gəzənim var.

261.
Su üzündə qəmiş var,
Saç bağımda gümüş var.
Vədə verdin, gəlmədin,
Yoxsa burda bir iş var?

262.
Yük üstündə pişik var,
Yanında bir yeşik var.
Sən Allah xəlvəti gəl,
Hər yanda bir keşik var.

263.
Tumanlığım sarıdır,
Mətləb verən Tarıdır.
Niyə gəlib çıxmırsan?
Axi gecə yarıdır.

264.
Oğlan, adın Alıdır,
Altındakı xalıdır.
Tez apar nişanlını,
Yoxsa özgə malıdır.

265.
Oğlan, adın Ağadır,
Sənə can sadağadır.
Qoynum cənnət bağıdır,
Əl vurmaq qadağadır.

266.
Süfrədəki məzədir,
Məzələr təp-təzədir.
Bir az xəlvəti gəl-get,
Qonşular göz-gözədir.

267.
Mən aşıq yalxı gedər,
Dolanar yalxı gedər.
Bir yol üzünü öpsəm,
Ağzımın talxı gedər.

268.
Aşıq tez eylədilər,
Odu köz eylədilər.
Mən səni gizli sevdim,
Aşkar söz eylədilər.

269.
Uduluda xan yoxdur,
Paşa yoxdur, xan yoxdur.
Həsrətini çəkməkdən,
Bədənimdə can yoxdur.

270.
Mən aşıq sarı ağlar,
Ağ ağlar, sarı ağlar.
Xoşbəxt o kimsənədir,
Dalıycan yarı ağlar.

271.
Bulaq üstü dağ olar,
Dörd çevrəsi bağ olar.
Sevdiyin almayanın
Ürəyində dağ olar.

272.
Mən aşıq Xilə eylər,
Xil eylər, Xilə eylər.
Yar yıxıb atam evin,
Yenə də gilə eylər.

273.
Ay qız, adın Bətindir,
Tumanlığın sətindir.
Sevgilinlə küsüşmə,
Barışmaq çox çətindir.

274.
Əzizim Tərki eylər,
Tər eylər, Tərki eylər.
Yarım bivəfa çıxıb,
El mənə sərki eylər.

275.
Bulaq üstü gül olar,
Bülbül olar, gül olar.
Özü kasıb olanın,
Sevgisi müşkül olar.

276.
Albalılar al olar,
Vaxtı deyil, kal olar.
Yarından ayrılanın,
Ürəyi xal-xal olar.

277.
Kür üstünə xan gedər,
Paşa gedər, xan gedər.
Bir gün səni görməsəm,
Ürəyimdən qan gedər.

278.
Bu oba Cəbirlidir,
Arabdır, Cəbirlidir.
Yüz il yolun gözlərəm,
Kim belə səbirlidir.

279.
Bulaq üstə daş olar,
Su tökülər, yaş olar.
Bulaq üstə görüşmək
Hər görüşdən xoş olar.

280.
Uduluda darı var,
Yağışı var, qarı var.
Xoşbəxt o kimsənədir,
Etibarlı yarı var.

281.
Əlində şoqqası var,
Belində toqqası var.
Dul arvaddan uzaq gəz,
Əlli cür hoqqası var.

282.
Bura Şirvan dedilər,
Neçə qurban dedilər.
Yarım gəzən torpağı,
Mənə dərman dedilər.

283.
Şirvan üstü dağ olar,
Meşə olar, bağ olar.
Sevdiyinə getməyənin
Ürəyində dağ olar.

284.
Əlimdəki qaşıqdır,
Yollarım çalpaşıqdır.
Yarla qolboyum olum,
Desinlər sarmaşıqdır.

285.
Çalada zəli olar,
Qurd olar, zəli olar.
Yarı bivəfa çıxan
Ağlayar, dəli olar.

286.
Dağların yağışı var,
Qarı var, yağışı var.
Yayı yarsız yatmışam,
Axı bunun qışı var?

287.
Dükanında bezi var,
Kətanı var, bezi var.
Yarım bizə gələcək,
Bir az geci-tezi var.

288.
Dağlardan külək gəlir,
Meh gəlir, külək gəlir.
Bundan mənə yar olmaz,
Gündə bir kələk gəlir.

289.
Ovçu maralı gəzir,
Güdür, maralı gəzir.
Mən yara neyləmişəm,
Məndən aralı gəzir.

290.
Şamama tağda dəyər,
Saralıb tağda dəyər.
Bir yol üzünü görmək,
Min tümən nağda dəyər.

291.
Sandıq üstə kücü var,
Gügünün qırx ucu var.
İki könül bir olsa,
Ona kimin sözü var?

292.
Göydə ulduz əllidir,
Əllisi də bəllidir.
Aşnabazlıq edənin,
Gözlərindən bəllidir.

293.
Göydə ulduz beş olar,
Beş görünər, beş olar.
Səni mənə versələr
İki könül xoş olar.

294.
Sandıq üstə toz nədir,
Sandıq nədir, boz nədir?
Əyər məni sevirsən,
Yanındakı qız nədir?

295.
Udulu mahalımdır,
Elimdir, mahalımdır.
Dindirmə, yarım gedib,
İndi yaman halımdır.

296.
Dağda haramı gəzir,
Getmə, haramı gəzir.
Eşq dərdindən ölürəm,
Təbib yaramı gəzir.

297.
Dəvələr Cara gedər,
Yüklənər, Cara gedər.
Yarı bivəfa çıxan
Üz tutub hara gedər?

298.
Xaradan tumanım var,
Şalım var, tumanım var.
Deyirlər yarın gəlir,
Görüşmək gümanım var.

299.
Musa deyər qanım var,
Ölməmişam canım var.
Mən məlhəmi neynirəm,
Ləbin tək dərmanım var.

300.
Qoyunum mələr gələr,
Ağılı dələr gələr.
Bəy qızı istəyənin,
Başına nələr gələr.

301.
Quzuma göz dəyibdir,
Ocağa köz dəyibdir.
Yar məndən kənar gəzir,
Deyəsən söz dəyibdir.

302.
Qapımız sarmaşıqdır,
Yoncadır, sarmaşıqdır.
Getmə, qurbanın olum,
Könlüm sənə aşıqdır.

303.
Palaza narıncı var,
Abı var, narıncı var.
Hardasan, ay insafsız?
Dalınca zarıncı var.

304.
Dağ başında yonca var,
Əngüran var, yonca var.
Boyuna qurban olum,
Yarımın boyunca var.

305.
Dəyirmanı soydular,
Soyuban od qoydular.
Yengicə yar sevmişdim,
Təzə qanun qoydular.

306.
Bu yerlər səfalıdır,
Suları şəfalıdır.
Şirvana qonaq gəlin,
Qızları vəfalıdır.

307.
Qarənfil üzə gedər,
Sürmələr gözə gedər.
Bu düzdə çapan oğlan,
Güman var bizə gələr.

308.
Uduluda üzüm var,
Üzüm, səndə gözüm var.
Gedirsən, bəri qayıt,
Deyiləsi sözüm var.

309.
Bu yollar, haça yollar,
Ha yana qaça yollar.
Yol elə, bəlkə gəlin
Baxtını aça, yollar.

310.
Pirsaatın piri var,
Qapısında tiri var.
Sizin evdə ay üzlü,
Daş ürəkli biri var.

311.
Qərənfil üzə gəlir,
Dolanır, düzə gəlir.
Yar yolunu çaşdırıb,
Deyəsən bizə gəlir.

312.
Arx içi lehməlidir,
Qızıl gül əkməlidir.
Mənim yarım ucdakı
Ayağı çəkməlidir.

313.
Bu dağlar, qoşa dağlar,
Verib baş-başa dağlar.
Sevgilim sizdə qaldı,
Dönəsiz daşa, dağlar.

314.
Su üzündə qayıq var,
Gəmi yoxdur, qayıq var.
Gecələr xəlvəti gəl,
Bəlkə evdə ayığ var,

315.
Karvan keçər toz eylər,
Qaxıl gözü boz eylər.
Qonşunu qara geysin,
Yar gələndə söz eylər.

316.
Aşıq biyana dağlar,
Suyu miyana dağlar.
Yarım yanına gəlsə,
Göndər bu yana, dağlar.

317.
Qız demə, qız qızıldır,
Al dodaq, üz qızıldır.
Üzündə bir xalı var,
Qiyməti yüz qızıldır.

318.
Qızıl gül dəstə olar,
Tək olar, dəstə olar.
Yardan ayrı düşənlər,
Hər zaman xəstə olar.

319.
Bu oba Şərədildir,
Talış yox, Şərədildir.
Çox sözü ürək deyir,
Düşən hər şərə dildir.

320.
Pirsaatda balıq var,
Naqqa yoxdur, balıq var.
Yar mənə sitəm eylər,
Bir deməz ki, xalıq var.

321.
Araxçının qaradır,
Köbəsi zərxaradır.
Məni sən küsdürmüsən,
Niyə qanın qaradır.

322.
Pirsaatda quş olar,
Qırğı ona tuş olar.
Yar verdiyi zəhəri
İçsəm əyər, nuş olar.

323.
Dağlar başı hünüdür,
Gülü reyhan gülüdür.
Tez gəl, qolboyun olaq,
Ayrılığın günüdür.

324.
Pirsaatda qəmiş var,
Qarğu yoxdur, qəmiş var.
Yarla xəlvətdə görüş,
Bəlkə bir görməmiş var.

325.
Ovçu məni atıbdır,
Qollarımı çatıbdır.
Yarım uzun gecəni,
Qucağımda yatıbdır.

326.
Şirvana gələn yoxdur,
Gedən çox, gələn yoxdur.
Düşdüm naşı əlinə,
Qədrimi bilən yoxdur.

327.
Şirvana karvan gedər,
Üstündə sarvan gedər.
Bir gün səni görməsəm,
Ürəyimdən qan gedər.

328.
Mən aşığam daş bağlar,
Yuyar başın, yaş bağlar.
Yarı yardan ayıran,
Ürəyinə daş bağlar

329.
Uduluda quzay var,
Güney yoxdur, quzay var.
Sən gedən bircə gündür,
Elə billəm yüz ay var.

330.
Oğlan, adın Niyazdır,
Nohurunuz dayazdır.
Gəl, gir mənim qoynuma,
Gecələr çox ayazdır.

331.
Xalın qara deyiblər,
Zülfün dara deyiblər.
Yarın gül dodaqların,
Mənə çara deyiblər.

332.
Sən gedən bir il oldu,
Viran bağlar gül oldu.
Demişdin tez gələrəm,
Nə yalancı dil oldu?

333.
Udumu, ay udumu,
Gətirdiyin südümü?
Vədə verdin, gəlmədin,
Etibarın budumu?

334.
Bu gələn arab oldu,
Mənzili qarab oldu.
Yarı yuxuda gördüm,
Ürəyim xarab oldu.

335.
Mən aşıq ağıl oldu,
Dam oldu, ağıl oldu.
Xalq sevdi, kamın aldı,
Mən sevdim nağıl oldu.

336.
Udulu talan oldu,
Talandan qalan oldu.
Dedilər toyun olur,
Deyəsən yalan oldu.

337.
Əlində bıçaq oldu,
Dəstəsi saçaq oldu.
Fələk bir iş işlədi,
Yar məndən qaçaq oldu.

338.
Qabıstanın örüşü,
Otdacağı, örüşü.
Bir illik ayrılığın,
Şirin olar görüşü.

339.
Yolumuz Mərvə düşdü,
Cərcoya, Mərvə düşdü.
Təkə-türkmən elində
Gözüm bir sərvə düşdü.

340.
Yaylağa dolu düşdü,
Qar yağdı, dolu düşdü.
Qəbrimi yol üstə qaz,
Bəlkə yar yolu düşdü.

341.
Güzgü bayıra düşdü,
Şövqü çayıra düşdü.
Zəhmətini biz çəkdik,
Düşmən xeyirə düşdü.

342.
Ay doğdu, üzə düşdü,
Sürmələr gözə düşdü.
Yar məndən ayrılmazdı.
Zor oldu, üzə düşdü.

343.
Mən aşıq üzəngini,
Yerə bas üzəngini.
Allah məni öldürsün,
Yardan əl üzən günü.

344.
Quzular düzə döndü,
Dolandı, küzə döndü,
Bir yol üzünü gördüm,
Gecəm gündüzə döndü.

345.
Danışmağa heyim yox,
Əlifim yox, beyim yox
Canım sənə qurbandır,
Candan əziz şeyim yox.

346.
Şorbaçının dağı yox,
Dağlarında bağı yox.
Nə ahüzar çəkirsən,
Sinəndə yar dağı yox?

347.
Udulunun barı yox,
Heyvası yox, narı yox.
Kül o kəsin başına
Bir istəkli yarı yox.

348.
Corabın ağına bax,
Dəstələ, bağına bax.
Yar yadına düşəndə,
Haramı dağına bax.

349.
Göydə gedən hola quş,
Qanad saxla, kola düş.
Axşamdan qonağım ol,
Obaşdan da yola düş.

350.
Bakıda duz olarmış,
Dağları düz olarmış.
Elə bildim gün çıxıb,
Gül üzdü qız olarmış.

**D) Ağılar**

1.
Əziziyəm bu daşa,
Bu qayaya, bu daşa.
Neçə igidin adı
Yazılıbdır bu daşa.

2.
Gəl gedək Hun dağına,
Gün düşüb Hun dağına.
Səni doğan ananın
Od düşüb qundağına.

3.
Əzizim, daldasına,
Dal verib daldasına.
Əlini dalda elə,
Mən girim daldasına.

4.
Dəvələr qatarmı ola,
Mənzilə çatarmı ola,
Ana baladan ayrı
Dincəlib yatarmı ola?

5.
Dağlara bax, dağlara,
Baş qoyub ayağlara.
Dağlar da bizim kimi
Qulaq verir ağlara.

6.
Mən aşığam aşına,
Sürməni çək qaşına.
Heç kafərin balası,
Qalmasın qardaşına.

7.Mənim anam, az ağla,
Çox bilirsən, az ağla
De mənim çox dərdimi,
Bir kağıza yaz, ağla.

8.
Nökər məndim, ağa sən,
Niyə çıxdın dağa sən.
Dünyaya hökm elərdin,
Düşmüsən torpağa sən.

10.
Mən aşıq bu dağına,
Quş qonmaz budağına.
Ölərəm, torpaq ollam,
Dözmərəm bu dağına.

11.
Mən aşıq yarısında,
Ağ yaylıq qarısında.
Səni kimlər qarğadı,
Qaldın yol yarısında.

12.
Əzizim qucaqlarda,
Od yanar ocaqlarda.

Sən öldün, rahat oldun,
Mən qaldım bucaqlarda.

13.
Arazın qırağında,
Yanında, qırağında.
İtirdim bir maralı,
Gəzirəm sorağında.

14.
Mən aşığam zindana,
Çəkici vur zindana.
Dərdi-qəm çəkən canım,
Yenə düşdüm zindana.

15.
Dizliyin oyma-oyma,
Yaram qaysağın soyma.
Alırsan canımı al,
Məni yaralı qoyma.

16.
Gedərəm yaylaqlara,
Baxmaram ovlaqlara.
Sənsiz yaxın durmaram,
O sərin bulaqlara.

17.
Mən aşıq sarayıma,
Od düşdü darayıma.
Odlanıram, yanıram,
Gələn yox harayıma.

18.
Arazın qırağında,
Əkin var irağında.
Bir tərlanım uçubdur,
Gəzirəm sorağında.

19.
Od düşdü damınıza,
Su tökdüm camınıza.
Mənim zillətli canım,
Qurbandır hamınıza.

21.
Dəyirmanın novuna,
Çaxmağına, qovuna.
Yıxılsın düşmən evi,
Biz də gedək lovuna.

22.
Tüfəngində bir güllə,
Min bir barıt, bir güllə.
Dəysin mənim canıma,
Sənə dəyən bir güllə.

23.
Palazın qarasına,
Naxış sal arasına.
Anan qurban olaydı
Sinənin yarasına.

25.
Atı verdim Qoşuna,
Gəldi onun xoşuna.
Mənim başıma gələn,
Gəlsin düşmən başına.

26.
Mən aşığam yağışa,
Ya payıza, ya qışa.

Yağmurdan çıxan canım,
Yenə düşdün yağışa.

27.
Anam ağla, xub ağla,
Şirin söylə, xub ağla.
De dərdimi birbəbir,
Quru arxa su bağla.

28.
Aşın haradan gəlib?
Zülfü daradan gəlib.
Nə yağış vardı, nə duman
Bu sel haradan gəlib?

29.
Mən aşığam təzə dağ,
Təzə ovçu, təzə dağ.
Çoxlu yaram üstünə,
Düşmən çəkdi təzə dağ.

30.
Su gəlib axıb, bala,
Çəpəri yıxıb, bala.
Dur bircə yanıma gəl,
Anan darıxıb, bala.

31.
Kəkilin iki yana,
Dara tök iki yana.
Aləm bir yana yansa,
Mən yandım iki yana.

32.
Mən aşığam bağ gedib,
Bostan gedib, tağ gedib.
Gəlim girim qəbrinə,
Desinlər qonaq gedib.

33.
Ay gedən, dayan, getmə!
Dərdi et bəyan, getmə!
Hamı getdi, dinmədim
Məni kor qoyan, getmə!

34.
Mən aşığam baş məndə,
Kiprik məndə, qaş məndə.
O qədər qan ağladım,
Qalmayıbdı yaş məndə.

35.
Dərya bulandı yenə,
Dibin qum aldı yenə.
Bir başa iki yumruq,
Beynim bulandı yenə.

36.
Mən aşığam ellərdə,
Qızıl kəmər bellərdə.
Özün öldün qurtardın,
Məni qoydun çöllərdə.

37.
Xoruzun ban səsinə,
Oyannam dan səsinə.
Eşitsəm səsin gəlir,
Deyərəm “can” səsinə.

38.
Mən aşığam daş sənə,
Bişirmədim aş sənə.

Ölərəm, qəbrə girrəm,
Olaram yoldaş sənə.

39.
Bağça məndə, bar məndə,
Heyva məndə, nar məndə.
Sinəm qəm yığnağıdır,
Nə dərd desən, var məndə.

40.
Mən aşığam bülbülə,
Nə sarmaşıb gül-gülə.
Bir dilli bacın gərək,
Ağız aça, dil bilə.

41.
Sarıya bürünsənə,
Ətəklərin dürsənə.
Əziz qonaqlar gəlib,
Bir gəlib görünsənə.

42.
İtirdim quşu çöldə,
Gördüm tay-tuşu çöldə.
Sənə baş daşı olub,
Qalam yay-qışı çöldə.

k006.1
Tüfəngüvün pası var,
Silməmisən pası var,
Belə tərxam igidin
İlləricən yazı var.

k006.2
Payız gedər yaz gələr,
Ördək gedər, qaz gələr,
Belə tərxam igidlər
Dünyaya az-az gələr.

k006.7
Mən aşığam bağlara,
Bağçalara, bağlara,
Hayıf sənin canundan,
Qarışdı torpaqlara.

k006.8
Dəgirmanın noruna,
Çaxmağına, qoruna.
Əzrayıl ova çıxdı,
Balam düşdü toruna.

k006.10
Mələ ceyranım, mələ,
Mələrtün dağı dələ,
Mən məl追dim gəlmədi,
Sən mələ bəlkə gələ.

k-019.5
Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl,
Sağlığmda gəlmədin,
Barı can verəndə gəl.

k006.12
Aşıq haradan gəlib.
Zülfü daradan gəlib.
Nə yağış vardı, nə duman,
Bu sel haradan gəlib?!

k006.13
Aşıq neymə gərəksüz.
Şana telimə gərəksüz,

Sağ günümdə gəlmədüz,
İndi neyimə gərəksüz.

k006.14
Mən aşıq bilməmişük,
Danışıb gülməmişük.
Sizin bu dərdüvüzü
Buracan bilməmişük.

k006.15
Bağa girmərəm sənsiz,
Gülün dərmərəm sənsiz,
Dağda quzu mələsə,
Bil ki, o, mənəm sənsiz.

k006.16
Bağa girdim bağmansız,
Dəvə gördüm sarvansız,
Aləmə dərman canım,
Özüm öldüm dərmansız.

k006.17
Bənövşə çiçək oldu,
Hər güldən göyçək oldu.
Yatmağı yalan olsa,
Ölməyi gerçək oldu.

k006.18
Burdan bir atlı ketdi.
Atın oynatdı ketdi,
Ay kimi para verdi,
Gün kimi batdı getdi.

k006.19
Yığılıb oturanlar,
Az dərdim artıranlar,
Mənə bir yol görkəzün,
Bu dərddən qurtulanlar.

k006.20
Arxaluğun badamı,
Gün yandırır adamı.
Əzəl sənə mən qurban,
Sonra kəndin adamı.

k006.21
Kitabı oxusana,
Dərs alıb oxusana,
Sən bir körpə maraldun,
Kim vurdu oxu sənə?

k006.22
Qapıda şana durub,
Durub yan-yana durub.
Burda bir igid ölüb,
Boyanıb qana durub.

k006.23
Mən aşığam Daşkəndə,
Ayağ götür aş kəndə,
Belə bir igid ölüb,
Nöşün yağmır daş kəndə.

k006.25
Aşıq gəlir neyiynın,
Ulduz gəlir ay iynən,
Fələk səni qarğadı.
Can verdün ah vay iynən.

k006.26
Mən aşıq tikən gülə,
Dolanıb tikan gülə.

Əzrayıl göz tikibmiş,
Mən gözüm tikən gülə.

k006.27
İstərəm əkim dərdi.
Donnuğa töküm dərdi,
Nə anam var, nə bacım,
Kimiynən çəkim dərdi.

k006.29
Yaralıyam yatmanam,
Dərdi batman-batmanam,
Sənin umman dərdivü,
Mən heç dərdə qatmanam.

k006.30
Mən aşığam baxtı kəm,
Bağmanı mən, baxtı kəm.
Sən fələgə neynəmişdün,
Fələk sənə baxdı kəm?!

k006.32
Dağların narı mənəm,
Gün dəysə əyimərəm.
Qəbrimi quzaydan qaz,
Cavanam, çürümərəm.

k006.34
Arab götdü fəsimi,
Lap kəsdi nəfəsimi.
Çağurun anam gəlsin,
Tutsun mənim yasımı.

k006.35
Əzizim yasa məni,
Kim dərdi yasəməni.
Cavan getdün dünyadan,
Batırdun yasa məni.

k006.37
Gün getdi dağ altına,
Kölgəsi bağ altına.
Düşman adam öldürməz,
Salar ayaq altına.

k006.38
Əzizim yasəməni,
Dərmədim yasəməni.
İstədim yasdan çıxam,
Sən saldun yasa məni.

k006.39
Mixək əkdim, dərz oldu,
Sözüm şaha ərz oldu.
Belə-belə dərdlərdən
Ölüm mənə fərz oldu.

k006.40
Mən aşıq azan yeri,
Qəbrimi qazan yeri,
Bir də görsəm kor ollam,
Oğul, sən gəzən yeri.

k006.41
Mən aşıq ala dağı
Bürüyüb lala dağı,
Hər yara sağalsa da,
Sağalmaz bala dağı.

k006.42
Kənddə qazılar gördüm,
Yazıb yazılar gördüm.

Anasınnan ayrılmış
Körpə quzular gördüm.

k006.43
Yayluğuvu ağ saxlaram,
Yuyaram ağ saxlaram.
Hansı yerdən gələsən,
Səni qonağ saxlaram.

k006.44
Bulağın daşı mənəm.
Dibinin daşı mənəm.
Kim bu öydə ağlaya,
Gözünün yaşı mənəm.

k006.45
Mixək əkdim talxındı,
Qəmli könlüm qalx indi.
Mən ki bu günə düşdüm.
Sakit olsun xalx indi.

k006.46
Qızıl gül həşəm oldu,
Dərmədim həşəm oldu.
Səndən ayrılanı bəri,
Ağlamaq peşəm oldu.

k006.48
Yaylığı yaş bağlaram.
Yuyaram yaş bağlaram.
Adaxluvu görəndə.
Bağrıma daş bağlaram.

k006.50
Sən məni öldürmüsən,
Düşmana güldürmüsən.
Yıxıb atam öyünü,
Belimi sındırmısan.

k006.51
Yaralandım yanımdan,
Qurd-quş doymaz qanımdan.
Dərmanım yox, dərdim çox,
Bezar oldum canımdan.

k006.53
Araz axır milinən,
Dəstə-dəstə gülünən.
Səni necə oxşeyim,
Bu qurumuş dilinən.

k006.54
Sonam, səsəmi gəldün,
Dabanbasamı gəldün?
Sağlığında gəlmədün,
İndi yasamı gəldün?!

k006.55
Mən aşıq kəndə gəldim,
Su tutmaz bəndə gəldim,
Qapuvu açıq gördüm
El gəldi, mən də gəldim.

k006.56
Paltarım ağlı qaldı,
Boxçada bağlı qaldı,
Istəkli balam getdi.
Ürəgim dağlı qaldı.

k006.57
O da yandırdı məni,
Bu da yandırdı məni.

Dərd əlindən su içdim,
Su da yandırdı məni.

k006.58
Əzizim qarağanı,
Yovşanı, qarağanı.
Ürəgim yaralıdır,
Tökülür qara qanı.

k006.59
Bu dağın dalı əkin,
Aldılar əlimdəkin.
Heç kafər, heç müsəlman
Olmasun mənim təkin.

k006.60
Dağlarım dağlı qaldı,
Qaralı, ağlı qaldı.
Mənim neçə öylərim
Qapısı bağlı qaldı.

k006.61
Ağacın budaqları,
Qolları, budaqları,
Məni ağlar qoyanın
Ağlasun balaları.

k006.62
Əzrayıl ovdu məni,
Qovduqca qovdu məni.
Bir güllü bostan idim,
Gül vaxtı sövdu məni.

k006.63
Şamaxı bazarımış,
Oxuyan yazarımış.
Loğman əlac etmədi,
Nə yaman azarımış.

k006.64
Qərənfil haça bənddi,
Sana gör neçə bənddi.
Düşəsən mən düşən dərdə,
Görəsən necə dərddi.

k006.66
Ağlayan başdan ağlar,
Kirikdən, qaşdan ağlar,
Oğlu ölən analar,
Durar obaşdan ağlar.

k-019.3
Ağlayan başdan ağlar,
Kiprikdən, qaşdan ağlar.
Qardaşı ölən bacı
Durub obaşdan ağlar.

389.
Udulunun dağı var,
Dağlarında yağı var.
Dindirsəz qan ağlaram.
Məndə bala dağı var.

k006.68
Güzdə bir quzu mələr,
Tükü qırmızı mələr.
Ana baladan ayrı
Gecə gündüzü mələr.

k006.69
Bu dağlar təzə dağlar,
Gülləri təzə dağlar.

Köhnə yaram üstündən,
Çəkildi təzə dağlar.

k006.73
Aşıq haralı bilər,
Ağı, qaralı bilər.
Sənin təzə dərdüvü
Köhnə yaralı bilər.

k006.74
Dillərin əzbəriydün,
Cannarın cövhəriydün.
Əzrayıl necə qıydı,
Bir elinləngəriydün.

**E) Dövrdən şikayət**

1.
Dağların bu yanına,
Od düşüb biyanına.
Dərdi alan olsaydı,
Satardım ziyanına.

2.
Əziziyəm boyana,
Dəstə tutdum boyana,
Çəkərəm pünhan-pünhan,
Sirr verməərəm bəyana.

3.
Narınca bax, narınca,
Saxlaram saralınca.
Öləydim qurtaraydım,
Bu günlərə qalınca.

4.
Palazı mıxçalama,
Mıxlama, mıxçalama.
Dərdim yaz bulududur,
Çox məni sıxçalama.

5.
Mən aşığam, ay ağa,
Atım getmir ayağa.
Sən məni salmasaydın,
El salmazdı ayağa.

6.
Quzayın qarı buna,
Yağışı, qarı buna.
Bizə bəndə eləyir,
Neyləsin Tarı buna?!

7.
Mən aşığam Tiflisə,
Kutaisə, Tiflisə.
Fələk karvanım vurdu,
Saldı məni müflisə.

8.
Mən aşıq lampa məndə,
Şam məndə, lampa məndə.
Nə bir dövlət, nə bir can,
Qoymadı hampa məndə.

9.
Qoyun gəlir quzuyla,
Ayağının tozuyla.
Fələyə neyləmişdik,
Düşmən oldu biziylə?!

10.
Qəmişə bax, qəmişə,
Başını əyməmişə.
Məni kimlər qarğadı,
Ah çəkirəm həmişə.

11.
Fələk durub qəsdimə,
Dərdi tökür üstümə.
Od içində yanıram,
Gələn yoxdur üstümə.

12.
Mən aşıq qara söylə,
Ağ üstə qara söylə.
Halımı soruşsalar,
Günümü qara söylə.

13.
Kəlim girdi qəmişə,
Düşdü şehə, nəmişə.
Fələkdə nə qaydadır,
Zülm eləyir həmişə.

14.
Mən aşığam Daşkəndə,
Ayaq götür aş kəndə.
Bu zülüm ki, burdadır,
Neyçün yağmır daş kəndə?

15.
Əzizim gücü mənə,
Kücünün ucu mənə.
Fələyi qan ağlasın,
Çatırmış gücü mənə.

16.
Yıxıldım yanım üstə,
Quş gəldi qanım üstə.
Çalışdım, qurtarmadım,
Bir şirin canım üstə.

17.
Dağdan ceyranım gəlməz,
Otlar, ceyranım gəlməz.
Saxlaram qarğa səni,
Mənim dərmanım gəlməz.

18.
Dağlarda ağıl olmaz,
Dam olar, ağıl olmaz.
Nə dərd var, məni tapar
Bir belə nağıl olmaz.

19.
Xoşlamaram mis səni,
Tez bürüyər his səni.
Yaxşı, nə günə qaldın,
Bəyənməyir pis səni.

20.
Aşıq, pis günüm, yeri,
Duman, çisginim yeri.
Yaxşı günlər keçirtdim,
Bu da pis günüm, yeri.

21.
Saxlaram, qarğa, səni,
Quş, səni, qarğa, səni.
Biz yazığın üstünə
Kim qoydu darğa səni?!

22.
Taxıla bağa gəldi,
Qurd gəldi, bağa gəldi.
Dünən nökərim olan
Üstümə ağa gəldi.

23.
Mən aşıq, yarı bölək,
Yağışı, qarı bölək.
Dərdi tək çəkə bilməm,
Barı gəl, yarı bölək.

24.
Aman fələk, dad fələk,
Batmanı oldu çərək.
Aləmə yemiş, qarpız,
Bizə qurdlu yelpənək.

25.
Qızılgülü aldım gəl,
Qəfil yerə saldım, gəl.
Sən görən yaxşı gündü,
Yaman günə qaldım, gəl.

26.
Dağlarda duran mənəm,
Boynunu buran mənəm.
Günü ah-vayla keçən,
Dizinə vuran mənəm.

27.
Ürəyi qan olmuşam,
Bağrı şan-şan olmuşam.
Xanimanım dağılıb,
Yerlə yeksan olmuşam.

28.
Mən aşıq, nağılsızam,
Sözsüzəm, nağılsızam.
Dərddən dəli olmuşam,
Deyirlər ağılsızam.

29.
Dəmiri əyən mənəm,
Hər şeyi bəyənmənəm.
Bənövşə tək bükülən,
Boynumu əyən mənəm.

30.
Əzizim, bağa dostum,
Dolan gəl bağa, dostum.
Sən dumansan, mən çiskin,
Çöknüyək dağa, dostum.

31.
Yoxdur amanım mənim,
Yaxşım, yamanım mənim.
Fələyi müstər olsun,
Kəsdi gümanım mənim.

32.
Dağlarda çərən mənəm,
Yovşan mən, gərən mənəm.
Cavan canı çürüyüb
Pis günlər görən mənəm.

33.
Əzizim, qoyun mənim,
Qoç mənim, qoyun mənim.
Fələk açdı başıma,
Min cürə oyun mənim.

34.
Bu yolda qalan mənəm,
Gülşəni solan mənəm.
Elindən qaçaq düşüb,
Dərbədər olan mənəm.

35.
Aşıq miyana dərdim,
Səndən oyana dərdim.
El bilər, dərman deməz,
Yazım hayana dərdim.

36.
Altımda at gedərəm,
Üstündə mat gedərəm.
Əvvəli sərdar canım,
İndi saldat gedərəm.

37.
Dağlarda qalan mənəm,
Yuvası talan mənəm.
Dərdi tüğyan eyləyib,
Divanə olan mənəm.

39.
Sözümü Kürdən desəm,
Sədəfdən, dürdən desəm.
Uçular Baba dağı,
Dərdimi birdən desəm.

40.
Dağları gəzən mənəm,
Əhdim var, bəzənmənəm.
Cavan ikən dünyadan
Əlini üzən mənəm.

41.
Əzizim şəhəri mən,
Kəndi mən, şəhəri mən.
Damcı-damcı içirəm,
Qurtarmaz zəhəri mən.

42.
Quşum uçdu darıdan,
Yolum düşdü barıdan.
Mənə el kömək etsin,
Kömək olmaz Tarıdan.

43.
Xəstə mənəm, xəstə mən,
Düşmüşəm şikəstə mən.
Yüküm dərdi-qəm yükü,
Çəkim asta-asta mən.

44.
Götürdüm gücünü mən,
Bilmişəm gücünü mən.
Dərd əlindən itirdim,
Kələfin ucunu mən.

45.
Dağda dağım var idi,
Bağda bağım var idi.
Pis günlərə qalmışam,
Yaxşı çağım var idi.

46.
Aşıq azana gəldi,
Yazı yazana gəldi.
Dərdin, qəmin əlindən,
Canım cəzana gəldi.

47.
Bazara darı gəldi,
Un gəldi, darı gəldi.
Başım ağrır, eşitcək,
Məsnə begarı gəldi.

48.
Apardı axar məni,
Daşlara çaxar məni.
Sinəm od tutub yanır,
Yandırıb  yaxar məni.

49.
Əlləndim ələk kimi,
Nəzildim ipək kimi.
Musa, dolan dünyanı,
Sərgərdan külək kimi.

50.
Əzizim sarı-sarı,
Gün çıxar sarı-sarı.
Can alırsan bir yol al,
Gəl alma yarı-yarı.

51.
Əlimdə gülüm yaxşı,
Gülüm, bülbülüm yaxşı.
Belə gün keçirtməkdən,
Yüz dəfə ölüm yaxşı.

52.
Mən aşıq qara yazdı,
Novruzdu, qara yazdı.
Fələyi gün görməsin,
Günümü qara yazdı.

53.
Əzizim hara qaldı,
Ürəkdə yara qaldı.
Zalım məni qul etdi,
Sürməmiş hara qaldı.

54.
Mən aşıq Qiyas atı,
Xas atı, Qiyas atı.
Heç kimsə çəkə bilməz,
Mən çəkən siyasatı.

56.
Əzizim qarağanı,
Yovşanı, qarağanı.
Ürəyim yaralıdır,
Tökülür qara qanı.

57.
Ovum keçdi bərədən,
Ovçu çıxdı dərədən.
Çörəyim darı cadı,
Yavanlığı tərədən.

58.
Bürünmərəm ağa mən,
Baxmaram bu dağa mən.
Şah taxtında durmuşdum,
Düşmüşəm torpağa mən.

59.
Maralın ucasından,
Xəbər al xocasından.
Od çıxmaz, tüstü çıxmaz,
Yetimin bacasından.

60.
Lələ mənəm, lələ mən,
Dinməyirəm hələ mən.
Yüküm qəmdən hicrandan,
Yükləmişəm şələ mən.

61.
Bir yaralı qoçam mən,
Haram var ki, qaçam mən.
Sinəm sufrə deyil ki,
Hər gələnə açam mən.

62.
Quşumun dimdiyi qan,
Ayağı, dimdiyi qan.
Dövlətli qan bağlayır,
Kasıbın dindiyi qan.

63.
Su gələr asta gedər,
Dolanar, dosta gedər.
Viran qalsın o eli,
Sağ gələn xəstə gedər.

64.
Bu dağlar çarpaz dağlar,
Çar dağlaru çarpaz dağlar.
Savalsa müşkül dərdlər,
Sağalmaz çarpaz dağlar.

65.
Bu oba Navahıdır,
Rəncbər yox, Navahıdır.
Burdakı duman deyil,
Mən yetimin ahıdır.

66.
Bu günün adı nədir,
Şənbədir, adınadır?
Nə qədər ömür sürdüm,
Bilmədim dadı nədir.

67.
Mənim dərdim uludur,
Çeşməlidir, suludur.
Durub dərdimi desəm,
Dərdli dərdin unudur.

68.
Bacamı hörən yoxdur,
Uçubdur, hörən yoxdur.
Odlanıram, yanıram,
Tüstümü görən yoxdur.

69.
Əkinin arası var,
Biçinin xarası var.
Dərdimin nə həkimi,
Nə də ki çarası var.

70.
Yatıram, yanım ağrır,
Dururam, canım ağrır.
Qəm çubuğu çəkməkdən
Tamam əndamım ağrır.

71.
Uduluda qoyun var,
Keçi yoxdur, qoyun var.
Fələk başıma açır,
Nə bildiyi oyun var.

72.
Qışda yeri qar alar,
Dinmə, qanım qaralar.
Lənət gəlsin fələyə,
Yazar, pozar, qaralar.

73.
Bu gələn Mahizardı,
Özgə yox, Mahizardı.
Cəhənnəmdə səs olmaz,
Mən çəkən ahü zardı.

74.
Yurdum Qoşaağıldır,
Qoyun gəldi, sağaldı.
Dərdim bir yekə dastan,
Qəziyyəm bir nağıldır.

75.
Aşıq gülüm eləyir,
Xalın gülüm eləyir.
Düşmən evimi yıxıb,
Mənə zülüm eləyir.

76.
Ovçu dağ başındadır.
Bülbül bağ başındadır.
Nə dərdə taqətim var,
Nə ağım başımdadır.

77.
Qəlyanı çəkənə ver,
Doldur, bir çəkənə ver.
Bu dərd mənə ağırdır.
Apar bir çəkənə ver.

78.
Qapımızda çəkil var,
Söyüd yoxdur, çəkil var.
Xana, bəyə, darğaya.
Molla kimi vəkil var.

79.
Şirvanın aşığı var,
Sazı var, aşığı var.
Belə qara günlərin,
Həlbət bir işığı var.

80.
Qəssabda bağır olur,
Bağır çox ağır olur.
Qəm yükünü çəkməkdən
Kürəyim yağır olur.

81.
Köynəyim xara oldu,
Ürəyim yara oldu.
Fələyə neynəmişdim,
Taleyim qara oldu?!

82.
Ülümü, ay ülümü.
Gəl eləmə zülümü.
Vədəsiz külək əsdi,
Tökdü mənim gülümü.

83.
Uduluya köç düşdü,
Nöş qalxındı, nöş düşdü.
Bu zillət, bu müsibət,
Mən yazığa nöş düşdü.

84.
Mən aşıq Zərəngülü,
Zər gülü, zərən gülü.
Fələk əlimdən aldı,
Mən yazıq dərən gülü.

85.
Yazımın zəbəri yox,
Ziri yox, zəbəri yox.
Bunu bəndə eyləyir,
Allahın xəbəri yox.

86.
Palazımın alı yox,
Qarası var, alı yox.
Aşkar cəhənnəm çəkər,
Hər kimin ki, malı yox.

87.
Əzizim qaraya bax,
Ağa bax, qaraya bax.
Aç sinəmin başını,
Vurduğun yaraya bax.

88.
Dəryada balığa bax,
Rəhm elə, balığa bax.
Bu zülmünü az elə,
Göydəki Xalığa bax.

89.
Bu necə qəmiş imiş,
Yeməli yemiş imiş.
Özümdən xəbərim yox,
Qəm məni yemiş imiş!

90.
Qaralmış, ay qaralmış,
Dağlar başın qar almış.
Hanı bir mənim kimi
Dərd əlindən qaralmış.

91.
Dağların təpəsinə,
Qozuna, ləpəsinə.
Dağıldı atam evi,
Kül oldu təpəsinə.

92.
Əlində yekə gəzə,
Amandır, vurma gözə.
İtirmişəm tərlanı,
Qalmışam gəzə-gəzə.

93.
Mən aşıq sarı məndə,
Al məndə, sarı məndə.
Qohum-qardaş qoymadı,
İnsafsız tarı məndə.

94.
Mən aşığam bir güllə,
Min bir güllə, bir güllə.
Sənə dəyən güllədən,
Mənə dəyə bir güllə.

95.
Narıncı qoyub getmə,
Qabığın soyub getmə.
Rəhm elə, apar məni,
Zarıncı qoyub getmə.

96.
Alıq gələr hay ilə,
Ulduz ilə, ay ilə.
Fələk səni qarğadı,
Can verdin ah-vay ilə.

97.
Mən aşığam xış sənə,
Kotan sənə, xış sənə.
Ölüncə yas saxlaram,
Payız sənə, qış sənə.

98.
Mən aşıq bircə-bircə,
Şeh düşər bircə-bircə.
Sənin umman dərdini,
Deyəydim bircə-bircə.

99.
Öküzlər şuma gəlsə,
Səninçin tuma gəlsə,
Meyid olsam, qalxaram,
İyin burnuma gəlsə.

100.
Yığmaram təzək sənsiz,
Vurmaram bəzək sənsiz.
Sən yatdın torpaq altda,
Biz neçə gəzək sənsiz?

101.
Verdilər gücü mənə,
İp mənə, gücü mənə.
Fələyə nə deyim mən,
Çatırmış gücü mənə.

102.
Saralıban solan göz,
Boşalıban dolan göz.
Varmı bir mənimki tək,
Əzizindən olan göz.

103.
Mən aşıq Dərbənddə biz,
Sözdə biz, söhbətdə biz.
Gəlim qəbrinə girim,
Danışaq xəlvətdə biz.

104.
Çıxmışam dala mən də,
Gəlmşəm yola mən də.
Gözləyirəm, gəlmirsən,
Çəkirəm nala mən də.

105.
Mən aşıq, gəlmə-gəlmə,
Gedirsən, gəlmə-gəlmə.
Sənin ümman dərdini
Deyərəm kəlmə-kəlmə.

106.
Gedirdim yurda mən də,
Rast gəldim qurda mən də.
Yarım bu yerdə yatır,
Qalaram burda mən də.

107.
Əlinizdə kasa siz,
Söz qoşursuz xasa siz.
Siz toya gəlməliydiz,
Niyə gəldiz yasa siz?!

108.
Bu yerdə qəmim olmaz,
Lığ olmaz, qəmiş olmaz.
Oğlu ölmüş analar
Heç vaxtı xəmiş olmaz.

109.
Çalada zəli olmaz,
Qurd olmaz, zəli olmaz
İgid oğlu ölənlər
Kim deyir dəli olmaz.

110.
Dükanda xara qalmaz,
Çit qalar, xara qalmaz.
Səninçin ağlamaqdan,
Gözümdə qara qalmaz.

111.
Ceyranım çaya gəlməz,
Dərdlərim saya gəlməz.
Oğlumu hara qoyduz?
Çağırram haya gəlməz.

112.
Bu yerdə nəmək olmaz,
Nəməyi yemək olmaz.
Sənin ümman dərdini
Heç yerdə demək olmaz.

113.
Qaradağ vətənimiz,
Durmayır yatanımız.
Əl-ələ tutdu, getdi
Dili söz tutanımız.

114.
Dağlarda nana sənsiz,
Gül sənsiz, nana sənsiz.
Necə dözüm bu dərdə?
Dilləndi hana sənsiz.

115.
Dərə, təpə düzləndi,
Əyriləndi, düzləndi.
Çox yalvardım Allaha,
Ölənlər də gizləndi.

116.
Dam üstədir damımız,
Qoşadır eyvanımız.
Sənin bircə canına
Qurban olsun hamımız.

117.
Aşbazın aşı qalmaz,
Od yanar, qaşı qalmaz.
Səninçin ağlamaqdan
Gözünün yaşı qalmaz.

118.
Ceyranım düzə gəlməz,
Bir daha süzə bilməz.
Bu dərdə mən dözürəm,
Heç kimsə dözə bilməz.

119.
Aşıq ellik ilə biz,
Ceyran çöllük ilə biz.
Xəzəl olduq, töküldük,
Tamam ellik ilə biz.

120.
Oxşaram, səsim gəlməz,
Səsim, nəfəsim gəlməz.
Hamıya hayan gəldi,
Mənim bir kəsim gəlməz.

121.
Göydə buludum səni,
Sərim, qurudum səni.
Ölüb torpağa getsəm,
Bəlkə unudum səni.

122.
Aşıq haralı gəldi,
Ağlı, qaralı gəldi.
Sənə qulaq hayanı,
Köhnə yaralı gəldi.

123.
Əkərəm qarpız, səni,
Bəslərəm yarpız, səni.
Qəbirdən baş qaldırram,
Qoymaram yalqız səni.

124.
Uçub getdin quş kimi,
Yuxu kimi, quş kimi.
Sənsiz qan-yaş tökərəm,
Ularam bayquş kimi.

125.
O tayda mal mələdi,
Bu tayda mal mələdi.
Aşıq düşmən əlində
Başımda şal mələdi.

126.
Ələndim ələk kimi,
Yelləndim pilək kimi.
Çöllərdə avarayam,
Sərkərdan külək kimi.

127.
Gəlmişəm görəm səni,
Yıxmışam, hörəm səni.
Nə qapın var, nə pəncərən,
Bəs hardan görəm səni?

128.
Mən aşıq xırda səni,
Xırdadan xırda səni.
Düşmənin ölməyibmiş,
Yıxdı axırda səni.

129.
Gəl məni apar indi,
Düşmanım tapar indi.
Bir gəlib görünməsən,
Qiyamət qopar indi.

130.
Dağdan bir maya gəldi,
Üstündə paya gəldi.
Tay-tuşun dəstə-dəstə,
Yığıldı vaya gəldi.

131.
Mən aşıq ağır məni,
İncidir bağır məni.
Gor evində olsam da,
Gələrəm, çağır məni.

132.
Dəryalar atdı bizi,
Naqqalar uddu bizi.
Fələk üzün döndərdi,
Qarğışlar tutdu bizi.

133.
Gözlərəm gələnləri,
Sirrimi bilənləri.
Qəbrə necə qoyarlar,
Həsrətli ölənləri.

134.
Mən aşıq gül elədi,
Gül verdi, gül elədi.
Düşmən evimi yıxdı,
Başıma kül elədi.

135.
Al məni, apar məni,
Yarpızam, qopar məni.
Sənsiz çox darıxmışam,
Yanına apar məni.

136.
Sarvan aralı getdi,
Səbri, qaralı getdi.
Cavan vaxtı ölsə də,
Çoxlu yaralı getdi.

137.
Bu yerə nava gəldi,
Arx gəldi, nava gəldi.
Bayquş tək ulamaqdan
Başıma hava gəldi.

138.
Xörəyin əriştəsi,
Lobyası, əriştəsi.
Gəlsin bu dərdi alsın,
Kimin var səriştəsi.

139.
Yaralarım üzdəndi,
Əllidəndi, yüzdəndi,
Getdim loğman yanına,
Həkimim də gizləndi.

140.
Əzizinəm Kür məni,
Qul eyləyib sür məni.
Dərdindən öldüm burda,
Gəl yerdən götür məni

141.
Quşum, oxlaram səni,
Tutub saxlaram səni.
Qəbr evində olasan,
Gəlib yoxlaram səni.

142.
Aşıq qadalar kimi,
Qanlı qadalar kimi.
Öldürdüm, yola saldım,
İmamzadalar kimi.

143.
Mən aşıq bəndə səni,
Aparram kəndə səni.
Allahın xəbəri yox,
Öldürdü bəndə səni.

144.
Şirvana talan gəldi,
Qarat mal olan gəldi,
Meyid olsam, dirilləm,
Desələr balan gəldi.

145.
Yer olmaz Gilan kimi,
Rəşt kimi, Gilan kimi.
Məni qəfil çaldılar,
Bir əfi ilan kimi.

146.
Apar arana məni,
Dağa, arana məni.
Fələk düşmənim oldu,
Saldı borana məni.

147.
Əzizim, bağır məni,
Bağ məni, bağır məni.
Ölüb torpağa getsəm,
Gələrəm, çağır məni.

148.
Apardı qızlar səni,
Hayanda gizlər səni?
Nə tez aldı qoynuna
Bu qanlı düzlər səni?

149.
Bazara keçi gəldi,
Keçinin üçü gəldi.
Gedin deyin anama,
Bədbəxtin köçü gəldi.

150.
Su gəldi, tirim getdi,
Pələngim, şirim getdi.
Xalq çoxdan birin verdi,
Mənim də birim getdi.

151.
Apardılar gülümü,
İtirdim bülbülümü.
Gəlin dağlar başına,
Deyim dərdi-dilimi.

152.
Çalağan aldı səni,
Torpağa saldı səni.
Əzrayıl ilan oldu,
Qəfildən çaldı səni.

153.
İtgini, ay itgini,
Gözüm yollar itgini.
Gəzib hardan taparam,
Sizin kimi itgini?

154.
Əzizim hərəm səni,
Yıxmışam, hörəm səni.
Nə açar var, nə kilid,
Bir açam görəm səni.

155.
Sellər apardı səni,
Kimlər tapardı səni.
Bir ətirli gül idin,
Fələk qopardı səni.

156.
Görürdüm gedənləri,
Bizə zülm edənləri.
Döysün, dolu qaytarsın,
Qabaqca gedənləri.

157.
Saxlaram palaz səni,
Sərərəm az-az səni.
Açam dərin qəbrini,
Görəm hər qış-yaz səni.

158.
Əzizim ovun məni,
Ovduqca ovun məni.
Dərd-qəm yığnağıyam,
Obadan qovun məni.

159.
Karvana maya getdi,
Sel gəldi, çaya getdi.
Mən qazanc gözləyirdim,
Əlimdən maya getdi.

160.
İtirdim biçaq səni,
Bilmirəm haçaq səni.
Bu yerin tərlanıydın,
Kim saldı qaçaq səni?

161.
Mənə fələk elədi,
Oxun lələk elədi.
Vurdu güllü baxçamı,
Ələk-vələk elədi.

162.
Əzizim, bu dağ məni,
Şax məni, budağ məni.
Qocalmazdım, ölməzdim,
Öldürdü bu dağ məni.

163.
Bazara kasa gəldi,
Teşt gəldi, kasa gəldi.
Aşıq gəlməli evə,
El durdu yasa gəldi.

164.
Yığaram boyaq səni,
Görmədim oyaq səni.
Dərd əlindən əyildim,
Çağırram dayaq səni.

165.
Dağların göy çiməni,
Arxacı, göy çiməni.
Ya mələyib taparam,
Ya vurar ovçu məni.

166.
Əzizim, bu da məni,
O məni, bu da məni.
Dərd əlindən su içdim,
Yandırdı su da məni.

167.
Qabıstanın çalası,
Kövrək olur lalası.
Bizi yesir edənin,
Yesir olsun balası.

168.
Dağlarda biyan sarı,
Yovşan boz, biyan sarı.
Həsrətin çəkdiklərim
Gələydi bu yan sarı.

169.
Mən aşıq qaraları,
Ağları, qaraları.
Oğlu ölmüş ananın
Sağalmaz yaraları.

170.
Əzrayıl qovdu məni,
Qovduqca qovdu məni.
Bir yaxşı bostan idim,
Gül vaxtı sovdu məni.

171.
Udulunun yolları,
Seyrək olar kolları.
Sənə qıyan ovçunun
Qələm olsun qolları.

172.
Mən aşıq alma barı,
Al barı, alma barı.
Əzrayıl, canımı al,
Yar canın alma barı.

173.
Zəminin araları,
Mərzləri, araları.
Yüz adam saya bilməz,
Məndəki yaraları.

174.
Bağa girdim olmadı,
Dərdim qoynum dolmadı.
Yazdım qanlı kağızın,
Aparanım olmadı.

175.
El köçdü, dağlar qaldı,
Meyvəli bağlar qaldı.
Mənim igid balamın
Balası ağlar qaldı.

176.
Yük çatdım, əlim sındı,
Başımda telim sındı.
Qardaş yanımdan getdi,
Elə bil belim sındı.

177.
Əzizim Qaraqaşlı,
Sığırlı, Qaraqaşlı.
Sən öldün, borcu verdin,
Biz qaldıq gözü yaşlı.

178.
Gəlinlər pərdə saldı,
İp tutdu, pərdə saldı.
Fələyə neyləmişdim
Məni bu dərdə saldı.

179.
Aşıq, tağlarım qaldı,
Yandı tağlarım qaldı.
Əzrayıl, necə qıydın,
Evdə ağlarım qaldı.

180.
Gözlərin göz dərmanı,
Kababa köz dərmanı.
Ayağın dəyən yerdən,
Götürrəm göz dərmanı.

181.
Evə çəkdim suvağı,
Kəsib yıxdım quvağı.
Gəlin təzə gəlmişdi,
Qara oldu duvağı.

182.
Çobanların yapısı,
Yapıncası, yapısı.
Qapımı bağlayanın
Bağlı qalsın qapısı.

183.
Mən aşıq sar ovladı,
Sar tutdu, sar ovladı.
Tülək tərlanım uçdu,
Yad yerdə sar ovladı.

184.
Bulaqda gil olaydı,
Gil qalıb, gil olaydı.
Səni vuran cəlladın
Əlləri şil olaydı.

185.
Mən aşıq Pirsaatı,
Rəncbəri, Pirsaatı.
Sənə qurban verərəm,
Tamam el-camaatı.

186.
Mən aşığam yasını,
Çağır elin xasını.
Ömrünə bir gün qala,
Alaram qisasını.

187.
Qaba qoydum narıncı,
Bağban ondan barıncı.
Aləmə sultan canım,
İndi oldum zarıncı.

188.
Qoyunum düzdə qaldı,
Quzusu küzdə qaldı.
Uçulun, ay şiş dağlar,
Sevgilim sizdə qaldı.

189.
Maral hasara qaldı,
Saldım hasara, qaldı.
Gözün çıxsın, ay ovçu,
Ovlağın sara qaldı.

190.
Tumanlığın xarası,
Üstünün zərxarası.
Sənin kimi igidin,
Yüz il gedər yarası.

191.
Mən aşıq aran tayı,
Dağ tayı, aran tayı.
Bir tərlan itirmişəm,
Tapılmaz barantayı.

192.
Bu yerdə bağ olarmı,
Meşə var, bağ olarmı,
İgid oğlu ölənin
Anası sağ olarmı.

193.
Yer sürdüm, ala qaldı,
Suladım, çala qaldı.
Öldü gəlin anası,
Həsrətli bala qaldı.

194.
Əzizim xanım hanı?
Bəyim, soltanım hanı?
Hamıya dərman oldu,
Mənim dərmanım hanı?

195.
Yaylığın qaradımı,
Ağdımı, qaradımı?
Belə ki, yaş tökürsən,
Ürəyin yaradımı?

196.
Əzizim məzə qanlı,
Mey qanlı, məzə qanlı.
Biz fələkə neynədik,
Olubdu bizə qanlı.

197.
Oğlan, adın Bağırdı,
İşin yaman ağırdı.
Dünyadan cavan getdin,
Səni kimlər çağırdı.

198.
Cəllad tökdü qanımı,
Nahaq aldı canımı.
Bircə bəhər dərməmiş
Sovdular bostanımı.

199.
Yaralıyam, yaralı,
İlan vuran qaralı.
Yoxlasan məni yoxla,
Mənəm burda yaralı.

k006.72
Dağda araba qaldı,
Sındı araba qaldı,
Fələk mənə kəm baxdı.
Öyüm xaraba qaldı.

200.
Sovça bulaqda qaldı,
Sındı, bulaqda qaldı.
Sən getdin yer altına,
Bacın qıraqda qaldı.

201.
Karvanda kirə qaldı,
Çuvalda zirə qaldı.
Bir yol evimi yıxdın,
Dişində şirə qaldı.

AD-008.74
Evində birə qaldı,
Divarda şirə qaldı,
Bir yol evimi yıxdın.
Dişində şirə qaldı.

202.
Küdrünün alaları,
Doludur çalaları.
Məni mələr qoyanın
Mələsin balaları.

203.
Mən öldüm, bacım qaldı,
Başımda tacım qaldı.
Yar öldü, mən də öldüm,
Ta nə əlacım qaldı?

204.
Bağçada gülüm yandı,
Gülüm, bülbüdüm yandı.
Sənə ağı deməkdən
Ağzımda dilim yandı.

205.
Yaşıl üzüm ağacı,
Çoxdu üzüm ağacı.
Bağa baltaçı girdi,
Kəsdi bizim ağacı,

206.
Müştağı, ay müştağı
Kamil gördüm qışlağı.
Gəlsin baxsın, qayıtsın,
Hər kimin var müştağı.

207.
Halayın tiri haray,
Öldürdü şiri, haray.
Leşgər qoşunum vardı
Tapılmaz biri, haray.

208.
Mən aşıq xala laylay,
Buründüm şala laylay.
Qol-budaqsız ağacam,
Demədim bala laylay.

209.
Palaza abı gərək,
Al gərək, abı gərək.
Bu dərdləri çəkməyə,
Adamın tabı gərək.

210.
O gələn bacım deyil,
Başımda tacım deyil.
Mənə qardaşım gərək,
Heç kim ehtiyacım deyil.

211.
Mən aşıq qanlıları,
Qan tutsun qanlıları.
Qudurmuş it olaram,
Tutaram qanlıları.

212.
Əzizim Bərdə haray,
Gəncə vay, Bərdə haray,
Sənin belə günündən
Düşmüşəm dərdə, haray.

213.
Get bazara yaşıl al,
Abı alma, yaşıl al.
Bir dəryaya qeyb oldun,
Suyu gövhər, daşı lal.

214.
Ceyranım gəl, çölə gəl,
Sonam qayıt, gölə gəl.
Altın torpaq, üstün daş,
İnciyərsən, evə gəl.

215.
Geydiyin abı deyil,
Qaradır, abı deyil.
Sənin bu cavan canın,
Qara yer babı deyil.

216.
Mən aşığam dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərd bilən özü gəlsin,
Dərd bilməzə demə, gəl.

217.
Dəyirman arxı gərək,
Çilləmə çarxı gərək.
Belə dərdi olanın,
Qələmə xalxı gərək.

218.
Bu axan axın deyil,
Durmadır, axın deyil.
İstərəm yanına gələm,
Mənzilin yaxın deyil.

219.
Qardaşım gəl, qoşa gəl,
Qarlı dağlar aşa gəl.
Mənim bu pis günümdə,
Ağlaşa-ağlaşa gəl.

220.
Mən aşıq düzlərə gəl,
Dağdan en, düzlərə gəl.
Bəsdir qəbirdə yatdın,
Qayıt bir bizlərə gəl.

221.
Əzizim daş olaram,
Hamıdan baş olaram.
Səninçin kim ağlasa,
Gözündə yaş olaram.

222.
Çalada qutan mənəm,
Buyurub tutan mənəm.
Qoşunu basqına gedib,
Ləşkəri batan mənəm.

223.
Sürüdə quzum mənim,
Yoldadır gözüm mənim.
Yüz il dərdimi desəm,
Qurtarmaz sözüm mənim.

224.
Qara atı çaparam,
Xəmir olsa, yaparam.
Qəbr evində olasan,
Axtararam, taparam.

225.
Anan da mən olaydım,
Baxın da mən olaydım.
Əzrayıl sinən üstə,
Yanında mən olaydım.

226.
Aşıq açа bilmədim,
Qoyub qaça bilmədim.
İstədim ora gələm,
Qəbrin aça bilmədim.

227.
Genişdir düzüm mənim
Ağılım, küzüm mənim.
Yar deyib ağlamaqdan,
Kor olub gözüm mənim.

228.
Savalanı aşaram,
Duman gəlsə, çaşaram.
Dərdindən ozan olub,
Neçə sözlər qoşaram.

229.
Mən aşıq alma zarım,
Al yarım, alma yarım.
Alırsan, canımı al,
Rəhm elə, alma yarım.

230.
Əzizim ağa yandım,
Dolandım tağa yandım.
Hamı bir azca yansa,
Başdan-ayağa yandım.

231.
Ömür mənəm, bəxt mənəm,
Dərdli desən, bax mənəm.
Səndən sonra dünyaya,
Bir də dönüb baxmanam.

232.
Boynuna qol salaram,
Yalvarram, qol salaram.
Hansı yerdə olasan,
O yerə yol salaram.

233.
Əldə səməyim mənim,
Evdə nəməyim mənim.
Yığıldı birdən getdi,
Arxam-köməyim mənim.

234.
Yozdadım, ay yozdadım,
Üst-başımı tozladım.
Əzrayilim gəlincə
Durdum səni gözlədim.

235.
Saraldı gülüm mənim,
Sarı sünbülüm mənim.
Qəfil uçdu əlimdən,
Şeyda bülbülüm mənim.

236.
Yolunu azan mənəm,
Yazılar yazan mənəm.
Gözündən qan-yaş töküb,
Qəbrini qazan mənəm.

237.
Bağı narınclı mənəm,
Narınc-turunclu mənəm.
Balalarım qırılıb
Başı qaxınclı mənəm.

238.
İnciyəm, düzülərəm,
Su ollam, süzülərəm.
Məni tək qoyub getmə,
Dərdindən üzülərəm.

239.
Əzizim inci mənəm,
Dürr mənəm inci mənəm.
Mənə Allah eləyib
Heç kimdən incimərəm.

240.
Yaylığımı bəzərəm,
Hər dərdinə dözərəm.
Səni burda tapmasam,
Qəbir evin gəzərəm.

241.
Qarğı çətən toxudum,
Altda qaldı noxudum.
Yara mahnı demədim,
Gəlib quran oxudum.

242.
Aşıq bulana bilməm,
Deyib sulana bilməm.
Gəl mənə havadar ol,
Sənsiz dolana bilməm.

243.
Yatıbdır qaram mənim,
Tapılmır çaram mənim.
Hər yara sağalsa da,
Sağalmır yaram mənim.

244.
Dağ başında da yannam,
Al qanıma boyannam.
Əgər qəbirdə olsam,
Sən çağırsan oyannam.

245.
Ümudum, ay umudum,
Su dibində qum idim.
Umudum sənə gəlir,
Sən de kəsdin umudum.

k-012.9
Umudum, ay umudum,
Su dubundə qumudum.
Umudum sənə gəlir,
Kəsməginən umudum.

246.
Bu dağlar dağım mənim,
Oldu ovlağım mənim.
Xəzan vurdu dağıdı,
Meyvəli bağım mənim.

247.
Qaladan dönən mənəm,
Enişdən enən mənəm.
Leşkəri bada gedib,
Çırağı sönən mənəm.

248.
Mən səni Leyli gördüm,
Leyli gileyli gördüm.
Altın torpaq, üstün daş,
Torpaqdan öylü gördüm.

249.
Bağlarda üzüm mənim,
Qurtardı sözüm mənim.
Belə dərd görəcəkmiş.
Nə pismiş üzüm mənim.

250.
Ölənəcən ağlaram,
İtənəcən ağlaram.
Gözümü qara torpaq
Örtənəcən ağlaram.

251.
Su ollam, axa bilməm,
Şimşəyəm, çaxa bilməm.
Qəbrinə necə baxım,
Kor ollam, baxa bilməm.

252.
Ay gedən, səniynənəm,
Gəl getmə, səniynənəm.
Aləm gül ilə olsa,
Mən elə səniynənəm.

253.
Dağlarda geyik mənəm,
Buynuzu böyük mənəm.
Bu dərdlər ki, məndə var
Nə yaxşı döyükmənəm.

254.
Pulsuzam, parasızam,
Ağzızam, qarasızam.
Dərmanım səndə gedib,
Qayıt gəl, çarasızam.

255.
Qaraya bürünərəm,
Gələrəm, görünərəm.
Hansı yerə gedəsən,
Dalınca sürünərəm.

256.
Haray dəli olmuşam,
Dərddən dəli olmuşam.
Çək qılıncı vur boynum,
Öldürməli olmuşam.

257.
Mən aşıq Həsənsizəm,
Hüseynsiz, Həsənsizəm.
Yeddi qardaş bacısı
Ölürəm, kəfənsizəm.

258.
Yoxuşdan enən mənəm,
Yolunu dönən mənəm.
Qapısı bağlı qalıb,
Çırağı sönən mənəm.

259.
Saçları kürən mənəm,
Kür mənəm, kürən mənəm.
Dərdindən dəli olub
İt kimi hürən mənəm.

260.
Bu dağlar dağım mənim,
Günlü yaylağım mənim.
Fələyə neyləmişdim,
Soldurdu bağım mənim?

261.
Quzunu saxlayaram,
Bəslərəm, saxlayaram.
Qəbr evində olasan,
Gələrəm, yoxlayaram.

262.
Bağça mənəm, bağ mənəm,
Heyva mənəm, nar mənəm.
Bu qədər söz mənimdir,
Qulaqları kar mənəm.

263.
Yandım Şahəziz yandım,
Qaldım kimsəsiz, yandım.
Canıma bir od düşdü,
Yağsız, piltəsiz yandım.

264.
Yaralıyam, yatmanam,
Dərdi batman-batmanam.
Sənin ümman dərdini
Heç bir dərdə qatmanam.

265.
Əzizim qınc olmuşam,
Rəngi narınc olmuşam.
Oğlum-qızım qırılıb,
Dili qısğanc olmuşam.

266.
Kitabı varaqlaram,
Oxuram, varaqlaram.
Deyib sənin dərdini,
Ölənəcən ağlaram.

267.
Bulaq, səndə daş ollam,
Qayır ollam, daş ollam.
Balamçın kim ağlasa,
Gözlərində yaş ollam.

268.
Boşqaba aş tökürəm,
Tökdükcə aş tökürəm.
Xalqın yaşı qurudu,
Mən indi yaş tökürəm.

269.
Ocağın gözü mənəm,
Odu mən, közü mənəm.
Balamı kim oxşasa,
Ağzının sözü mənəm.

270.
Əsdi küləyim mənim,
Kəsdi kələyim mənim.
Yığıldı birdən getdi,
Arxam, köməyim mənim.

271.
Yanıram, ay yanıram,
Od tutub odlanıram.
Piltəmi quru çəkdin,
Korun-korun yanıram.

272.
Mən aşığam, çal quzum,
Çal, qoyunum, çal, quzum.
Duman gəldi, itirdim,
Duman getdi, gəl, quzum.

273.
Əzizim Tavalıyam,
Hər dərdə davalıyam.
Mənə ağıllı demə,
Dərdindən havalıyam.

274.
Enişdən enən mənəm,
Dolaydan dönən mənəm.
Leşkəri əldən gedib,
Çırağı sönən mənəm.

275.
Mən aşıq yay verərəm,
Çağırsan, hay verərəm.
Əzrayıl qonağımdır,
İldə bir pay verərəm.

276.
Dağ başında qıyağam,
Quşlar kimi sayağam.
Banlaşmayın xoruzlar,
Yatmamışam, oyağam.

277.
Aşıq, haralı ollam,
Göylü, qaralı ollam.
Yanında bir yer elə,
Mən də oralı ollam.

278.
Əzizim sağ gələrəm,
Sağ gedib, sağ gələrəm.
Ölüb qəbirə getsən,
Sənə qonaq gələrəm.

279.
Maralı oxlamışam,
Ox vurub, oxlamışam.
Sənin qanlı köynəyin,
Yadigar saxlamışam.

280.
Yoxumdur xalım mənim,
Qırıldı malım mənim.
Leşkərim əldən getdi,
Pis oldu halım mənim.

281.
Yolum ala ucundan,
Gedir tala ucundan.
Başa min bəla gələr,
Bircə bala ucundan.

282.
Əzizim can buların,
İri mərcan buların.
Mən ki, getməli oldum,
Can sizin, can buların.

283.
Mən bir parça bağıram,
Yerə qoyma, yağıram.
Qulağın bərdə olsun,
Mənəm səni çağıran.

284.
Şirvanın dağlarıynan,
Meyvəli bağlarıynan.
Sənin qurbanın olum
Yanımın ağlarıynan.

285.
Bağçanı sularam mən,
Su vurram, sularam mən.
Xərabələr küncündə
Bayquş tək ularam mən.

286.
Oxam mən, təkərəm mən,
Cüt qoşub əkərəm mən.
Belə igid dağını,
Yüz illər çəkərəm mən.

287.
Uca boy, mina gərdən,
Ağ buxaq, mina gərdən.
Məzarımı gen qazın,
Qorxuram sına gərdən.

288.
Çağırram oyanasan,
Getməyib dayanasan.
Sənə bir laylay çallam.
Əhləddən oyanasan.

289.
Otağı bəzərəm mən,
Yığaram, bəzərəm mən.
Qarlı dağlar aşasan,
Dalınca gəzərəm mən.

290.
Unum var, ələrəm mən,
Gedərəm, gələrəm mən.
Cavan getdin dünyadan,
Dərdindən ölərəm mən.

291.
Qəlyanın özü gəlsin,
Qanında gözü gəlsin.
Dərd bilməzə demərəm,
Dərd bilən özü gəlsin.

292.
Aşıq, ozanın sənin,
Qabın, qazanın sənin.
Əlbət belə yazıbmış,
Yazı yazanın sənin.

293.
Su üzündə sonasan,
Gəlib bura qonasan.
Fələk, bir od tutasan,
Məhşərəcən yanasan.

294.
Oba köçdü arandan,
Dərsi aldım Qurandan.
Barı bir kəlmə söylə,
Sinəndəki yarandan.

295.
Tas qurdum, tasa gəlin,
Durun, Səlmasa gəlin.
Ümidim bir oğuldur,
Ölübdür, yasa gəlin.

296.
Oydun, yaramı oydun,
Yarama məlhəm qoydun,
Qaysaqlanmış yaramın,
Yenə qaysağın soydun.

297.
Dərd-qəmi çoxdur bunun,
Sinəsi oxdur bunun.
Həzar dərdə düşübdür,
Çarəsi yoxdur bunun.

298.
Alması aldır bunun,
Heyvası kaldır bunun.
Hərə bir ağız desin,
Anası laldır bunun.

299.
Ağlaram, gülmərəm mən,
Göz yaşım silmərəm mən.
Çalışma, ay Əzrayıl,
Həsrətəm, ölmərəm mən.

300.
Əzizim ellər bütün,
Saralıb çöllər bütün.
Mənim ahi-naləmdən,
Quruyub göllər bütün.

301.
Aşıq sözünü sənin,
Xumar gözünü sənin.
Düşəm qəbrinə bəlkə
Görəm üzünü sənin.

302.
Atın qoşuna gəlsin,
Səslə, qoşuna gəlsin.
Mənim başıma gələn
Düşmən başına gəlsin.

303.
Anam bulağa gəlsin,
Minsin ulağa gəlsin.
Bala, hardasan desin,
Səsi qulağa gəlsin.

304.
Gəlsin, qardaş ağlasın,
Qursun bardaş, ağlasın.
Sənin bu əhvalına
Tamam dağ-daş ağlasın.

305.
Əzizinəm küsmə sən,
Gülməyini kəsmə sən.
Neçə tərlanım gedib,
Ayaq saxla, küsmə sən.

306.
Əziziyəm, baş məndən,
Kiprik məndən, qaş məndən.
Nə sulu bulağammış,
Qurtarmayır yaş məndən.

307.
Çalada qamışam mən,
Kələm mən, camışam mən.
Qıraram qanlıları,
Qana susamışam mən.

308.
Aşıq, neyimə gərəksən,
Şana, telimə gərəksən.
Sağ günümdə gəlmədin,
İndi neyimə gərəksən?

309.
Sonsuzun vay əlindən,
Düşməz ox-yay əlindən.
Cənnətdə valideyni,
Almaz bir pay əlindən.

310.
Yarmanı ələrəm mən,
Daş olsa, dələrəm mən.
Gəl məni qoyub getmə,
Dalınca mələrəm mən.

311.
İpimin boyağısan,
Rəngisən, boyağısan.
Amandır, köçüb getmə,
Bir elin dayağısan.

312.
Ceyranam, mələrəm mən,
Dağ-daşı dələrəm mən.
Yüz il qəbirdə yatsam,
Çağırsan, gələrəm mən.

313.
Bacılar çaya gəlsin,
Hay versin, haya gəlsin.
Bir tərlanım ölübdür,
El-oba vaya gəlsin.

314.
Qoy məni el götürsün,
El yusun, el götürsün.
Qəbrimi qardaş qazsın,
Əlinə bel götürsün.

315.
Mən aşığam Həsənsən,
Yollarımı kəsənsən.
Bəsdir aldın canımı,
Əzrayılsan, nəsən sən?

316.
Bulaqda daşım qurban,
Gözümdə yaşım qurban.
Canım desəm, az olar,
Qohum-qardaşım qurban.

317.
Dağlarda gəzərəm mən,
Hər yeri bəzərəm mən.
Dərdini ver mən çəkim,
Hər dərdə dözərəm mən.

318.
Mən aşıq az ağlasın,
Az desin, az ağlasın.
Dərdimi anam desin,
Tamam qış-yaz ağlasın.

319.
Mən aşıq abam qurban,
Sarı kəhrabam qurban.
Sənin zəlil canına,
Qohum-əqrabam qurban.

320.
Mən aşığam, başdan mən,
İçmərəm hər aşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

321.
Mən aşıq ox elədin,
Ox vurdun, ox elədin.
Yıxdın atam evini,
Az dərdim çox elədin.

322.
Dağlarda mələrəm mən,
Dağ-daşı dilərəm mən.
Qəbr evində olsan da,
Dalınca gələrəm mən.

323.
Sənə gələnim qurban,
Deyib gülənim qurban,
Təzəni necə deyim?
Köhnə ölənim qurban.

324.
Yaralandım yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Dərman gəlsə, sağ olmaz,
Yaram vardır yüz yerdən.

325.
Çırağam, sönərəm mən,
Gedərəm, dönərəm mən.
Amandır, qəbrə getmə,
Qəbrinə enərəm mən.

326.
Aşıq, arana qurban,
Dağa, arana qurban.
Mənim nisgilli canım,
Sənin yarana qurban.

327.
Dillərin əzbəriydin,
Canların cövhəriydin.
Əzrayıl necə qıydı,
Bir elin ləşkəriydin.

328.
Mən aşıq ay deyilsən,
Gün deyil, ay deyilsən.
Səni neçə oxşayım?
Heç kimə tay deyilsən.

329.
Gedərəm karvana mən,
Minərəm arvana mən.
Yükümü yolda qoydu,
Neynədim sarvana mən.

330.
Qapıdan keçdin, getdin,
İpləri seçdin, getdin.
Məni saldın pis günə,
Qanımı içdin, getdin.

331.
Zərbafın libası sən,
Zəri sən, zibası sən.
Nə tez belə geyindin,
Kəfəndən libası sən?

332.
Sənə güllər ağlasın,
Şirin dillər ağlasın.
Matəmi el saxlasın,
Şux bülbüllər ağlasın.

333.
Şəki, Şirvan, Dağıstan,
Bülbül ötməz bağ üstən.
Fələyin qaydasıdır,
Dağı çəkər dağ üstən.

334.
Əzizim quzusan sən,
Quzunun yüzüsən, sən.
Harda bir məclis olsa,
Dilimin sözüsən sən.

335.
Zülfünü hörən gəlsin,
Siyah zülf görən gəlsin.
Dərdbilməz gərək deyil,
Belə dərd görən gəlsin.

336.
Aşıq ala gözlərin,
Ala-bula gözlərin.
Divardan torpaq qopar,
Dolar ala gözlərin.

337.
Mən aşıq al eylədin,
Az dərdim bol eylədin.
Yıxdın atam çəpərin,
Düşmənə yol eylədin.

338.
Dağlarda qiyağam mən,
Yovşanam, qiyağam mən.
Çağırsan, çətin gündə
Gələrəm, oyağam mən.

339.
Mən aşığam talx ilan,
Götür başın, qalx ilan.
Bizə Allah eləyib,
Neyişimiz var xalxınan.

340.
Qadan canıma gəlsin,
Balan canıma gəlsin.
Hər kimin dərdi çoxdur,
Dursun yanıma gəlsin.

341.
Dağların başındasan,
Kəpində, qaşındasan.
Gündə yüz yol ağlasam,
Gözümün yaşındasan.

342.
O tayda xarmanım var,
Xarmanda fərmanım var.
Aç yaranın üstünü,
Ovçumda dərmanım var.

343.
Ay burdan yürüyənlər,
Gül üzün bürüyənlər.
Sizə qurban kəsilsin,
Yar deyib çürüyənlər.

344.
Dağlar başı dumandır,
Getmə, halım yamandır.
Gedirsən, apar məni,
Qoyub getmə, amandır.

345.
Mən aşıq aş tökübdür,
Aş çəkib, aş tökübdür.
Fələk evimi yıxıb,
Başıma daş tökübdür.

346.
Quşuma ünnə gəlsin,
Dəni ver gündə gəlsin.
Başqa vaxtı gəlmədi,
Barı bu gündə gəlsin.

347.
Bu şəhər Miyanadır,
Xoy deyil, Miyanadır.
Gedirsən, tez bəri gəl,
Karvanım o yanadır.

348.
Biçinçi biçib gələr,
Dağ suyun içib gələr.
Ana, bala yanına
Quş kimi uçub gələr.

349.
Dənizdə ada durar,
Çağırar dada, durar.
Tay-tuşunu görəndə
Anan daldada durar.

350.
Dağlarda qaralan var,
Yaxşı bax, qaralan var.
Rəhm elə, bəri qayıt,
Dərdindən saralan var.

351.
Bu yerdə dağlarım var,
Meyvəli bağlarım var.
Rəhmə gəl, ay Əzrayıl,
Bir sürü ağlarım var.

352.
Göydə dolu durubdur,
Dolu boynun burubdur.
Mən doludan qorxuram,
Dolu məni vurubdur.

353.
Bu yollar Qazağadır,
Şəmkirə, Qazağadır.
Bircə gəl halallaşaq,
Mənzilim uzağadır.

354.
Mən aşıq özü bir-bir,
Çəkərəm gözü bir-bir.
Səninçin ağız açıb,
Deyərəm sözü bir-bir.

355.
Evimdə həsirim var,
Xəlçəm yox, həsirim var.
Əzrayıl, mənə dəymə.
Çox yetim-esirim var.

356.
Mən aşıq aylar gedər,
Həftələr, aylar gedər.
Siz buna yaş deməçyin,
Gözümdən çaylar gedər.

357.
Mən aşığam üzdəndir,
Əllidəndir, yüzdəndir.
Sevinsin qarı düşmən,
Ölən igid bizdəndir.

358.
Yastı-yastı təpələr,
Yağış yağar, səpələr.
Sağımdan güllə dəydi,
Solumdan qan səpələr.

359.
Qəflətində xara var,
İpək var, zərxara var.
Ölər, qəbirə gedər,
Kimdə belə yara var.

360.
Yaylağa dolu yağır,
Çobanı bəri çağır.
Od düşüb əndamıma,
Yanıram ağır-ağır.

361.
Mən aşığam, sağ gələr,
Sayru gələr, sağ gələr.
Mənim batmış başıma,
Dağ üstündən dağ gələr.

362.
Mən aşıq diyar-diyar,
Xalların diyar-diyar.
Sən getdin gəlməz yerə,
Düşmüşəm diyar-diyar.

363.
Aşıq üzülüb gəlir,
Gözü süzülüb gəlir.
Mənim dərdim, möhnətim,
İpə düzülüb gəlir.

364.
Mən aşıq buyan əllər,
Bu əllər, buyan əllər.
Sizi şikəst olasız,
Balama qıyan əllər.

365.
Dəvələr Şama gedər,
Yüklənər, Şama gedər.
Kəsilib Hüseyn başı,
Qan dama-dama gedər.

366.
Dağlarda duman olur,
Qar olur, duman olur.
Dünyada hər bəladan,
Ayrılıq yaman olur.

367.
Bu paltar, xasa paltar,
Xasa sər, xasa paltar.
Bəlkə yiyən ölübdür,
Batmısan yasa, paltar.

368.
Anam ağlar dəlidir,
Bacım ağlar dəlidir,
Hamı bağlar bar verdi,
Bizim bağlar dəlidir.

369.
Ev yanında hana var,
Yanında bərxana var.
Gedirsən çıraq götür,
Orda zülmətxana var.

370.
Əlimdə ələyim var,
Teştim var, ələyim var.
Əzrayıl, mənə dəymə,
Allahdan diləyim var.

371.
Dağların biyanı var,
Otu var, biyanı var.
Barı gəl yuxuma gir,
Desinlər hayanı var.

372.
Ala göz qaş altdadır,
Dolanır, qaş altdadır.
Durub gələ bilmirəm,
Qollarım daş altdadır.

373.
Dağların lalası var,
Gülü var, lalası var.
Öləndə rahat ölər,
Hər kimin balası var.

374.
Əlimdə ələyim var,
Unum var, ələyim var.
Əzrayıl, yaxın gəlmə,
Allahdan diləyim var.

375.
Qayada laçın ağlar,
Ov ağlar, laçın ağlar.
Atın düşmən altında,
Başımda saçım ağlar.

376.
Dağların hulusu var,
Eli var, ulusu var.
Göydə parça buludun
Nə yaman dolusu var!?

377.
Belində qətəri var,
Qayışı, qətəri var.
Ağlama, yazıq ana,
Bundan da betəri var.

378.
Qapımızda üzüm var,
Üzüm, səndə gözüm var.
Əhləddən bir baş qaldır,
Sənə xeyli sözüm var.

379.
Mən aşığam, xan gəlir,
Paşa gəlir, xan gəlir.
Tay-tuşunu görəndə
Gözlərimdən qan gəlir.

380.
Xoş gəlmisiz, qonaqlar,
Xoşnişinik, qonaqlar.
Qurbanam o gözlərə,
Bizim üçün qan ağlar.

381.
Dağlarda hünü də var,
Milçək var, hünü də var.
Hacı ilə qardaşın
Gərəkli günü də var.

382.
Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Sağkən özüm ağlaram,
Ölsəm, torpağım ağlar.

383.
Mən aşıq maya bozdar,
Ner çəkər, maya bozdar.
Qətərdən üzülüb qalıb,
Gör hansı maya bozdar.

384.
Biçinçi xara bağlar,
Dərz bağlar, xara bağlar.
Çağırın anam gəlsin,
Özgəsi xarab ağlar.

385.
Aşıq ellərdə də var,
Sonam göllərdə də var.
Sizdəki igidlərdən
Bizim ellərdə də var.

386.
Qapıya daş qoyublar,
Üstünə baş qoyublar.
Gözümdən axan qandır,
Adını yaş qoyublar.

387.
Aşıq yadına bağlar,
Tərsə yadına bağlar.
Düşüb qoca bülbülün
Yenə yadına bağlar.

388.
Payız gedər, yaz gələr,
Ördək gedər, qaz gələr.
Belə tərxan igidlər
Dünyaya az-az gələr.

389.
Dağ başından el gəlir,
Əllərində bel gəlir.
Neylədik, üstümüzə
Dönür, dönür, sel gəlir?

390.
Dağlarda bostanım var,
Bağım var, bostanım var
Dərdimin hansın deyim,
Bir yekə dastanım var.

391.
Mən aşıq dərir bir-bir,
Kölgəyə sərir bir-bir.
Əzrayıl oğru olub,
Meyvəmi dərir bir-bir.

392.
Qabıstanda ilan var,
Koramal var, ilan var,
Böyük leşkərim batdı,
Harda belə talan var.

393.
Belində kəmərin var,
Əlində nəmərin var.
Belə ki, qan ağlarsan,
Bu dərddən xəbərin var.

394.
Mən aşığam bu güllər,
Bu bülbüllər, bu güllər.
Mənim bülbülüm gedib,
Nöş açılıb bu güllər?

395.
Nə çoxdur qarın, dağlar,
Bayquşun, sarın, dağlar.
Zəhmət çəkdim, bağ saldım,
Dərmədim barın, dağlar.

396.
Bakının badamı var,
Püstəsi, badamı var.
Qəbrimin üstünə gəl,
Desinlər: adamı var.

397.
Dağlar, haramı dağlar,
Təbib yaramı bağlar.
İstədim sizə gəlim,
Kəsib aramı dağlar.

398.
Balıqlardan kütümdür,
Dünya ölüm-itimdir.
Rəhm elə, ay Əzrayıl.
Bir kimsəsiz yetimdir.

399.
Dağ başında bağım var,
Bostanım var, tağım var.
Bir dağ üçün ağlama,
Sinəmdə yüz dağım var.

400.
Əynimdə aba ağlar,
Əlimdə yaba ağlar.
Sənin bu əhvalına,
Tamam el-oba ağlar.

401.
Yaylağım Savalandır,
Quş göydə havalandı.
Nə dərdim qurtarandır,
Nə yaram sağalandır.

402.
Karxanada daş olar,
Çınqıl olar, daş olar.
Oğlu ölmüş ananın
Gözlərində yaş olar.

403.
Bağça barsızdır, gülüm,
Heyva narsızdır, gülüm,
Ürəyim qan ağlayır,
Dilim arsızdır, gülüm.

404.
Mən aşıq gözləməm var,
Kababa közləməm var.
Çox yalvardım fələyə,
Rəhm elə, gözləməm var.

405.
Yerim uca saldılar,
Ucdan uca saldılar,
Mən səndən ayrılmazdım,
Məni gücə saldılar.

406.
Tüfənginin pası var,
Atmamısan, pası var.
Sənin kimi igidin,
İllərcən yası var.

407.
Telli sazda simim var,
Pərdəm yoxdur, simim var.
Gəl, bir görüm üzünü,
Səndən başqa, kimim var?

408.
Aşıq haralı gedər,
Ağlı-qaralı gedər.
Oğlu ölən analar,
Gora yaralı gedər.

409.
Çalada qəmişim var,
Lığım var, qəmişim var.
Mənə Allah eləyib,
Bəndəylə nə işim var?

410.
Bakıdan gələn yoxdu,
Danışıb gülən yoxdu.
Dərdim tüğyan eləyir,
Göz yaşım silən yoxdu.

411.
Apardılar, qoydular,
Ağladılar, doydular.
Sənin nazik bədənin
Qəbrə necə qoydular.

412.
Aşıq gələr, hay gələr,
Bulud gedər, ay gələr.
Aləmə toy gələndə,
Mən yazığa vay gələr.

413.
Yatanlar, ay yatanlar,
Əli haqqa çatanlar.
Gəlsin yoldaşım olsun,
Haqqı-sayı batanlar.

414.
Şəkinin dağları var,
Meyvəli bağları var.
Əzrayıl, dəymə buna,
Dalınca ağları var.

415.
Süfrəmizdə bal olu,
Qaymaq olu, bal olu.
Səninçin ağlamaqdan,
Anan-bacın lal olu.

416.
Mən aşığam çal quzu,
Nə versələr al, quzu.
Sən yetim, mən kimsəsiz,
Gəl yanımda qal, quzu.

417.
Maral, yerin şam oldu,
Otla yerin şam oldu.
Yollarına baxmaqdan
Gün gəldi, axşam oldu.

418.
Məni bir yağı vurdu,
Dolandı bağı vurdu.
Günorta dolusuydu,
Axşamın çağı vurdu.

419.
Mən aşığam, dan üzü,
Quşlar oxur dan üzü.
Burdan bir səda çəksəm,
Sənə gedər dan üzü.

420.
Dağların talası yox,
Suyu yox, çalası yox.
Ölənəcən ah çəkər,
Hər kimin balası yox.

421.
Bu gələn bəbir oldu,
Qurd oldu, bəbir oldu.
Cavan getdin dünyadan,
Mənzilin qəbir oldu.

422.
Qarabağın üzümü,
Eşidən yox sözümü.
Belə zülüm çəkənə,
Allah verir dözümü.

423.
Mən aşığam, bu günü,
Bu gecəni, bu günü.
Çıxaydı anan gözü,
Görməyəydi bu günü.

424.
Dağların qışına bax,
Yuvada quşuna bax.
Səni məndən ayırdı,
Fələyin işinə bax!

425.
Sürünüzdə quzu yox,
Qoyun çoxdur, quzu yox.
Batıb atam leşgəri,
Bircə oğlu, qızı yox.

426.
Şamaxı bazar imiş,
Mirzələr yazar imiş.
Yatanlar ayılmadı,
Bu necə azar imiş.

427.
Ay qardaş, Əli qardaş,
Altında xəli, qardaş.
Dar gündə çağırasan,
Qəbirdən gəli qardaş.

428.
Ay qardaş, xasa qardaş,
Əlində hasa qardaş.
Toyun matəmə döndü,
Gəldilər yasa, qardaş.

429.
Dağların nanəsi yox,
Yarpızı, nanəsi yox.
Burda bir gəlin ölüb,
Bircə nişanəsi yox.

430.
Tüfəngi yağlayan yox,
Qayışın bağlayan yox.
Sonsuz getdi dünyadan,
Dalınca ağlayan yox.

431.
Qabıstanın çayı yox,
Ulduzu yox, ayı yox.
Bir sona uçurtmuşam,
Yerdə-göydə tayı yox.

432.
Mən aşığam abı yox,
İrəngi var, qabı yox.
Dərdim başımdan aşır,
Sayı yox, hesabı yox.

433.
Şirvan yolu bu imiş,
Arxı dolu su imiş.
Cəfa çəkdim, yurd saldım,
Axır günüm bu imiş.

## Ə) Yer adlarına aid olan bayatılar

*1. Şirvan*

AX-112.1
Şirvanın yastı yolu,
Su gəldi, basdı yolu,
Gedirdim səni görəm,
Əzrayıl kəsdi yolu.

AX-112.2
Şirvanın talx üzümü,
Yeyilməz talx üzümü.
Səndən mənə yar olmaz,
Danladı xalx üzümü.

AX-112.3
Şirvana paşa gəldi,
Gör nə tamaşa gəldi.
Yolunu gözləməkdən,
Ömürüm başa gəldi.

AX-112.4
Şirvanın gədikləri,
Xurmadır yedikləri.
Yadıma bir-bir düşər,
Yarımın dedikləri.

*2. Qarabağ*
AX-112.5
Qarabağın yolları,
Qara tikan kolları,
Eşitsəm sən gəlirsən,
Göşətdirrəm yolları.

AX-112.6
Qarabağda bağ olmaz,
Qara salxım ağ omaz.

Yarından ayrılanın,
Ürəyində yağ olmaz.

AX-112.7
Əzizim Qarabağı,
Qar basdı Qarabağı.
Burdan bir cavan keçdi,
Boynunda qara bağı.

AX-112.8
Qarabağda talan var,
Zülfün üzə salan var,
Dağılasan ay Qarabağ
Gözü yolda qalan var.

AX-112.9
Əslim qarabağlıdır,
Sinəm çarpaz dağlıdır.
Nə gedən var, nə gələn
Məgər yollar bağlıdır.

AX-112.10
Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

*3. Səlyan*

AX-112.11
Əziziyəm Səlyana,
Dara zülfün sal yana,
Necəsən bir ah çəkim
Kür quruya, sal yana.

*4. Ağdaş*

AX-112.12
Bir quş gəlir Ağdaşdan,
Xəbər verir qardaşdan
Yağış yağar, yer doyar.
Bacı doymaz qardaşdan.

*5. Daşkənd*

AX-112.13
Mən aşığam Daşkəndə,
Ayağ götür aş kəndə.
Mən ki, bu dərdə düşdüm,
Neyçin yağmır daş kəndə.

*6. Ərdəbil*

AX-112.15
Ərdəbil xana döndü,
Xana, soltana döndü.
Vallah gəlib çıxmadın,
Ürəyim qana döndü.

AX-112.16
Ərdəbil bucağında,
Od yansın ocağında,
Canım necə can verir
Yadların qucağında

AX-112.17
Əzizim Ləngəbizi,
Qəşədi, Ləngəbizi,
Ondan bizə yar olmaz.
Salıbdı ləngə bizi.

8.Cavad (Salyan rayonu).

AX-112.18
Bu yol Cavada gedər,
Aşar Cavada gedər.
Uçub könlümün quşu,
Gör nə havada gedər.

*9. Daşkəsən*

AX-112.19
Mənim adım Həsəndir,
Mənzilim Daşkəsəndir.
Fələyə bel bağlama.
Fələk zəncir kəsəndir.

*10. Qaraman*

AX-112.20
Aşıq Qaramanlıdır,
Zülfün qra manlıdır.
Yarın soyuq üzündən,
Yerə qan amanlıdır.

*11. Xorasan*

AX-112.21
Mən aşiq Xorasanı,
Kim saldı tora səni.
Yalvarram bir Allaha.
Tez salsın yola səni.

*12. Kərbəla*

AX-112.22
Mən aşıq Kərbəlanı,
Bəsrəni, Kərbəlanı.
Heç kafər də çəkməsin,
Mən çəkdiyim bəlanı.

k006.49
Mən aşiq Kərbəlanı,
Bəsrəni, Kərbəlanı,
Nər gəlsə çəkə bilməz,
Mən çəkdiyim bəlanı.

*13. Ağdam*

AX-112.23
Ağdamın yollarında,
Bənd olum kollarında,
Bir cüt qolbaq olaydım
Yarımın qollarında.

*14. Təbriz*

AX-112.24
Təbrizin küçələri,
Banlaşır beçələri,
Mənsiz necə yatırsan,
Bu uzun gecələri.

*15. Savalan*

AX-112.26
Savalan altı göllər,
Sallanıb gedən ellər.
Yenə yadıma düşdü
Uca boy, incə bellər.

AX-112.27
Savalan buz bağladı,
Dibi yarpız bağladı.
Bir sonsuz qonağam.
Atımı qız bağladı.

*16. Araz*

AX-112.28
Araz olam bulannam,
Gur oluban dolannam.
Eşitsəm sən gəlirsən,
Durub başuva dolannam.

AX-112.29
Arazı ayırdılar,
Qum ilə qayırdılar.
Mən səndən ayrılmazdım
Zülm ilə ayırdılar.

AX-112.30
Araz deyiləm daşam,
Kür deyiləm qaynaşam.
Apar zərgər yanına,
Gör nə qiymətli daşam.

AX-112.31
Araz axır qıyqacı,
Budur gəlir cüt bacı,
Biri mənim öz yarım,
Biri başımın tacı.

AX-112.32
Araz qırağı ləklər,
Çırmanıb ağ biləklər.
Mən ki, bu günə düşdüm
Hasil olsun diləklər.

AX-112.33
Araz axır mil ilə,
Dəstə-dəstə gül ilə,
Mən yarımı sevirəm,
Şirin-şirin dil ilə.

AX-112.34
Araz aşanda mələr,
Kür qovuşanda mələr,
Analar balasından,
Ayrı düşəndə mələr.

AX-112.35
Araz üstə, buz üstə.
Kabab yanar köz üstə,
Qoy məni öldürsünlər,
Bir alagöz qız üstə.

AX-112.36
Araz, Araz xan Araz,
Soltan Araz, xan Araz.
Yarın əlindən getsin,
Sən də mən tək yan Araz.

*17. Kaşan*

AX-112.37
Bu yol Kaşana gedər,
Aşar, Kaşana gedər.
Oğlanın əl yaylığı
Qıza nişana gedər.

*18. Aşqabad*

AX-112.38
Mən aşıq Aşqabada,
Kim gedər Aşqabada.
Aləm əcəlnən getsə,
Biz getdük başqa bada.

*19. Dərbənd*

AX-112.39
Mən aşığam Dərbəndə,
Dəmir qapı Dərbəndə.
Əli tək ağası olan,
Qalmaz heç vaxt şərməndə.

*20. Sumqayıt*

k-011.63
Mən aşıq Sumqayıta.
Su gələr Sumqayıta.
Dava qan davasıdır
Kim ölə, kim qayıda.

*21. Van, Urmiyə*

AD-008.501
Əzizim Vana göndər,
Urmiyə, Vana göndər,
Ay qız, əl yaylığıvu,
Yara nişanə göndər.

*22. Naxçıvan*

AD-008.402
Naxçıvanda duz qalıb,
Çıxarılıb duz qalıb,
Sənin işin baş tutmaz,
Dalıncan çox göz qalıb.

*23. Qazan*

AD-008.365
Bu yol Qazana gedər,
Getsən Qazana gedər.
Mənim bu ahu zarım,
Yazı yazana gedər.

**F) Müxtəlif mövzulu bayatılar**

AX-112.40
Süfrələrdə qaşıq yox,
Məclislərdə aşıq yox.
Sevdim amma neyləyim,
Sevgidə anlaşıq yox.

AX-112.41
Heç mənə yönəlməyir,
Gəl deyirəm, gəlməyir.
Bir yara könül verdim,
Sevgi nədir bilməyir.

AX-112.42
Gözəllərin adı var,
Quşların qanadı var,
Yar yanında deyilsə,
Həyatın nə dadı var.

AX-112.43
Yar nə etsə az olar,
Sevgilidə naz olar.
Səbr elə dəli könül.
Qış tez keçir, yaz olar.

AX-112.44
Alırlar paramızı,
Deşirlər yaramızı.
Rəqib vurmağa gəlir,
Yar ilə aramızı.

AX-112.45
Doyurdum aclığımı,
İtirdim dincliyimi,
Bir bivəfa yolunda,
Məhv etdim gəncliyimi.

AX-112.46
Rahatla ye aşını,
Çevir göyə başını,
Yarımdan xəbər gəldi,
Sil gözünün yaşını.

AX-112.47
Könlümün sultanısan,
Vücudumun canısan,
Çarəsiz dərdə düşdüm,
Dərdimin əlacısan.

AX-112.48
Burda güllü bağlar var,
Hər diyarda ağlar var.
Qovuşmaq çətin şeydir,
Aramızda dağlar var.

AX-112.49
Dönmərəm fərmanından,
Acizəm dərmanından,
Göz-gözü görməz oldu,
Ahının dumanından,

AX-112.50
Dünyanı gəzən mənəm,
Əhdim var, bəzənmənəm.
Sızıldayıb ölməyən,
Hər dərdə dözən mənəm.

AD-008.2
Bu yerin qazı olmaz,
Ördəyi-qazı olmaz,
Mənim bu əhvalıma,
Kafər də razı olmaz.

AD-008.7
İsganı sındırmısan,
Salmısan, sındırmısan.
Bir içim su verməyib,
Canımı yandırmısan.

AD-008.8
Əzizim vətən sarı,
Ötməyə vətən sarı.
Bəxtəvərsən, ay kağız
Gedirsən vətən sarı.

AD-008.9
Qızılgüllər soldu, gəl,
Çaylara su doldu, gəl.
Dolağsız gedən oğlan,
Dolağ tamam oldu, gəl.

AD-008.11
Olmadı suçu məndən,
Su məndən, suçu məndən.
Qorxmaqdan çəmən sudan,
Qorxubdu su çəməndən.

AD-008.13
Əziziyəm bu daşa,
Bu qayaya, bu daşa.
Neçə igidin adı
Yazılıbdı bu daşa.

AD-008.14
Gedəsən, gəlmiyəsən,
Yaman gün bilmiyəsən.
Səni kim qarğadı ki,
Evində ölmiyəsən.

AD-008.15
Su gətdim çarhovuzdan,
Saraldım təhnöüzdən.
Gündə bir xəbər gətir
Xaraba məhlöüzdən.

AD-008.17
Əzizim xırdalama,
İri et, xırdalama.
Alırsan, al canımı,
Yaramı qurdalama.

AD-008.18
Ovsarı, ay ovsarı,
Çəkin gəlsin ovsarı.
Kor olasan dəvəçi,
Dəvə qırdı ovsarı.

AD-008.22
Dağlarda əkin olmaz,
Əkməsən əkin olmaz.
Bala ana qoynunda,
Yatmasa sənin olmaz.

AD-008.28
Arxalığın ləngədi,
Köynəyin sərfəngədi,
Qonşuda bir qız sevdim,
Məməsi girvənkədi.

AD-008.29
Duman dağı bürüdü,
Yazıq canım çürüdü.
Tale mənə kəm baxdı,
Hər diyara sürüdü.

AD-008.30
Sibirin yollarında,
Qarı var kollarında.
Dustağı kim tanımaz,
Zəncir var qollarında.

AD-008.32
Qapımızda quyu var,
İçində bol suyu var.
Yarımı kim tanımır,
Sərv kimi bir boyu var.

AD-008.33
Uzaq ölkə Sibirdi
Orda olmaq cəbirdi.
Gedən çox, qayıdan yox,
Yoxsa ora qəbirdi?

AD-008.34
Dağlara Xamman gələr
Ot yığar, qotman gələr.
Mən istəyən gəlinin
Sinəsi batman gələr.

AD-008.35
Dağlarda qoyun qaldı,
Tapmadım, qoyun qaldı.
Başıma açmadığın,
Bəs hansı oyun qaldı?!

AD-008.36
Sibir mənə yağıdır,
Dərdin tüğyan çağındır.
Sibiri viran qalsın,
Sibir qəm oylağıdır.

AD-008.40
Bostanın tağı oldu,
Böyüdü tağı oldu,
Sənin bəylik otağın
Qasim otağı oldu.

AD-008.42
Sibiri qar alıbdı,
Nöş qanın qaralıbdı.
Qan ağla, qəmli könlüm,
Baxçanı sar alıbdı.

AD-008.43
Ağlaram, ay ağlaram,
Dərdli könlüm dağlaram.
Gözlərim nöş kor olmur,
Ömrüm boyu ağlaram.

AD-008.45
Dağlara duman gəldi,
Qayıtdı duman gəldi,
Mənim qara taleyim
Gün-gündən yaman gəldi.

AD-008.46
Tərlan sara yetmədi,
Dərdə çara yetmədi.
Günüm qürbətdə keçdi,
Əlim yara yetmədi.

AD-008.49
Qəriblik yaman olar,
Sovrulub saman olar.
Baş yastığa yetəndə,
Əhvalı yaman olar.

AD-008.50
Aşıq durmaqdan öldüm,
Boyun burmaqdan öldüm.
Yanında bir yer elə.
Burda durmaqdan öldüm.

AD-008.51
Burdan bir maya getdi,
Endirdim, çaya getdi.
Çoxlu zəhmət çəkmişdim,
Zəhmətim zaya getdi.

AD-008.55
Dağ başında qağdanam,
Külək vurub dağdanam.
Bostançıdan xəbər al,
Görüm hansı tağdanam.

AD-008.58
Mən bu bağa gəlmişəm,
Yağa-yağa gəlmişəm,
Alıbdı dərd canımı,
Ağlamağa gəlmişəm.

AD-008.59
Bu dağlar örən dağlar,
Gülü yox, dərəm dağlar.
Belə dərdlər əlindən,
Ürəyim vərəm bağlar.

AD-008.61
Bu yollardan yol düşdü,
Budaq sındı qol düşdü.
Bizim yollar bağlandı,
Ayrı yandan yol düşdü.

AD-008.62
Yol üstə kor bulağam,
Bağrı sulağ-sulağam.
Hansı yoldan gələsən,
O yola göz qulağam.

AD-008.65
Gəlin, gəl çıx pərdədən,
Qara gey, çıx pərdədən.
Sənə al yaraşmadı,
Qara gey, çıx pərdədən.

AD-008.66
Əzizinəm, can dayı,
Can sənə qurban, dayı.
Anam quzu kəsibdi,
Gəl bizə mehman, dayı.

AD-008.67
Ələgdə var barama,
Oxu vurdun yarama,
Deyən üzümə desin,
Nöş danışır qarama.

AD-008.70
Gəlindi bu, xandı bu,
Evləri yıxandı bu,
Əlində iti ülgüc,
Başları qırxandı bu.

AD-008.72
Əlin xına tutmasın,
Qoysan günə tutasın.
Məndən sonra yar sevsən,
İşin binə tutmasın.

AD-008.75
Aşıq, hara gəlmişəm,
Günü qara gəlmişəm.
Canım ah-vaynan çıxdı,
Dərddən zara gəlmişəm.

AD-008.77
Əlimdə səməyim var,
Səməyi yeməyim var.
Daha bəydən nöş qorxum,
El kimi köməyim var.

AD-008.82
Aşıq ellik ilə biz,
Ceyran çöllük ilə biz.
Vaxtsız solduq, töküldük,
Bütün ellik ilə biz.

AD-008.83
Qaynana dəmir kimi,
Səs verir, gömür kimi.
Yaxşısı ana olar,
Yamanı Şümür kimi.

AD-008.87
Oxuram yasını mən,
Yasının xasını mən.
Ölənəcən tutaram
Qardaşın yasını mən.

AD-008.90
Şirinim acım oldu,
Başımda tacım oldu,
Nemesə əsir vaxtı
Rus qızı bacım oldu.

AD-008.91
Yulğunu, ay yulğunu,
Yığıb gətdim yulğunu,
Varmı bir mənim kimi,
Çoxlu dərdlər yorğunu?!

AD-008.94
Arabın atı yaxşı,
Saxlayır çatı yaxşı,
Rusun əfsərindən,
Türkün soldatı yaxşı.

AD-008.95
Xarmanında şanam var,
Qoymuşam, nişanam var,
Burdakı anam sənsən,
Sibirdə bir anam var.

AD-008.97
Palçıq məni buladı.
Buladıqca buladı,
Fələk bir bayquş oldu,
Yurd-yuvamda uladı.

AD-008.101
Mən aşiq odu getdi,
O cənnət odu getdi,
Cənnətin külbəsindən
Cəhənnəm odu getdi.

AD-008.107
Kəhər atı bağlaram,
Sol qolunnan dağlaram.
Mən səninçün, ay bala,
Ömrüm boyu ağlaram.

AD-008.108
Əzizim quş apardı,
Vətənə tuş apardı,
Qolumu qandal kəsdi,
Ağlımı duş apardı.

109
Mən aşiq nərdivanı,
Nər eylər nərdivanı,
Qızıldan taxtın olsun,
Gümüşdən nərdivanı.

AD-008.110
Kəklik daşda nə gəzər,
Qələm qaşda nə gəzər.
Sən tək yarı olanın
Ağlı başda nə gəzər.

AD-008.111
Evləri o tindədi,
Həyətin dibindədi.
Bacımın qolbağısı
Yeznəmin cibindədi.

AD-008.113
Dağ başı dəmirdəndir,
Keçən gün ömürdəndir.
Fələyin bir quşu var,
Dırnağı dəmirdəndir.

AD-008.116
Müştağı, ay müştağı,
Kamil gördüm qışdağı.
Gəlsin baxsın qayıtsın,
Hər kəsin var müştağı.

AD-008.120
Aşıq.ozan olmuşam,
Yoldan azan olmuşam.
Sənin namərd dərdindən,
Dərdə dözən olmuşam.

AD-008.122
Mən aşıq əllisində,
Yüzündə, əllisində.
Dərdli tək sən deyilsən,
Xəbər al əllisində.

AD-008.124
Əzrayıl bostançıdır,
Aləmə dastançıdır.
Dəymiş qoyub kal dərir,
Gör necə bostançıdır!

AD-008.125
Anam olmayacaqsan,
Bacım olmayacaqsan.
Bu qədər dərd səndədir,
Kərəm olmayacaqsan?!

AD-008.128
Görünən bağ bizimdir,
İçi dolu üzümdür.
Hara göz gəzdirirəm,
Dağılan ev bizimdir.

AD-008.129
Umudum, ay umudum,
Su dibində qum idim.
Umudum sənə gəlir,
Sən də kəsdin umudum.

AD-008.130
Əzizim adı, qardaş,
Ağzımın dadı, qardaş.
Vallah, gəlib çıxmasan,
Götürrəm yadı qardaş.

AD-008.132
Bulağın başı yarpız,
Qaralım tutmur yarpız.
Beş gün vədə vermişdin,
Dolandı gəldi novruz.

AD-008.135
Aşığam oyununuza,
Çobanam qoynunuza.
Ya məni evləndirin,
Ya salın qoynunuza.

AD-008.137
Çoban, qoyun kimindir,
Sana gör neçə mindir.
Mənim sevdiyim sənsən,
Sənin sevdiyin kimdir?

AD-008.139
Yük altdan zəli çıxdı,
Zəlinin dili çıxdı.
Bacın ölsün, ay qardaş,
Arvadın dəli çıxdı.

AD-008.141
Araqçının şallama,
Qayadan daş sallama.
Bir cüt öpüşdən ötrü
Ana bizə yollama.

AD-008.143
Araqçının dərmişəm,
Yuyub günə sərmişəm.
İstəkli sevgilimə
Nişanə göndərmişəm.

AD-008.321
Haftaha bizim oleydi,
Lüləyi qızıl oleydi.
Gireydim yar qoynuna,
Gecə uzun oleydi.

AD-008.322
Haftafanı götdü yar,
Gör hayana getdi yar.
Hasar hündür, boy bəstə,
Bəs hayanda itdi yar?!

AD-008.323
Çəkməsi cıq-cıq eylər,
Evmizi palçıq eylər.
Zəhləm gedir o yardan
Hər gecə acıq eylər.

AD-008.324
Əzizim bilmiş ola,
Ağlayıb gülmüş ola.
Mən gedərəm o yara,
Anası ölmüş ola.

AD-008.325
Düşmən bizi haxladı,
Zirzəmidə saxladı.
Bəd gündə, bəd ayaqda
Məni ruslar saxladı.

AD-008.326
Çıxdım dağın tənginə,
Baxdım suyun rənginə.
Sən bir quzu ceylandın,
Düşdün itin cənginə.

AD-008.330
Aşiq mənim əmim var,
Su üzündə gəmim var.
Xeyli zəhmət çəkmişəm,
Bol məhsullu zəmim var.

AD-008.331
Başını qoydun ciğa,
Taxılı vurdun tığa.
Zəhmət sevən qız-gəlin
Erkən gedir pambığa.

AD-008.334
Atlarda qula azdır,
Kəhər çox, qula azdır.
Nə ər-ər soruşursuz,
Çöllərdə tula azdır?

AD-008.335
Mən aşıq irisidir,
Xırda yox irisidir.
Arvadı soruşmayın,
Qancığın birisidir.

AD-008.336
Dağlarda sərinə bax,
Mehə bax, sərinə bax.
Arvad nər kimi işlər,
Avara ərinə bax.

AD-008.339
Mən aşiq, az ağlasın,
Az desin, az ağlasın.
Dərdimi anam desin,
Tamam qış-yaz ağlasın.

AD-008.340
Mən aşiq, Zəngilana,
Gedən yox Zəngilana,
Sabah olcaq qaynana,
Dönür bədrəng ilana.

AD-008.341
Zülm elədi şahımız,
Ərşə çıxdı ahımız.
Ömür boyu bilmədik
Nə oldu günahımız.

AD-008.346
Buğdaları tığ yığır,
Təmizləyir, tığ yığır,
Kəndimizin qızları
Maşınla pambıq yığır.

AD-008.353
Gedirdim yurda mən də,
Rast gəldim qurda mən də.
Yerim-yurdum buralar,
Qalaram burada mən də.

AD-008.358
Sular axdı duruldu,
Burma-burma buruldu.
Mənim leytenant balam
Hansı yerdə vuruldu?

AD-008.362
Namə yaz Qazan xana,
Leşkəri pozan xana.
Məni qul eylədilər,
Satdılar Qazan xana.

AD-008.366
Bağımda badamım yox,
Püstəm yox, badamım yox.
Qərib eldən gəlmişəm,
Bu yerdə adamım yox.

AD-008.367
Yağı saxladı məni,
Döndü yoxladı məni.
Gedirdim yar yanına,
Əcəl haxladı məni.

AD-008.368
Əzizinəm ay deyil,
Ulduz deyil, ay deyil.
Nemesin yüz zabiti
Birimizə tay deyil.

AD-008.370
Əzizinəm, şirəm, gəl,
Pələngəm gəl, şirəm, gəl.
Vətəndən uzaq yerdə
Düşmənə əsirəm gəl.

AD-008.374
Neştərnən oydun məni,
Yemiş tək soydun məni,
Səndən yar olan deyil,
Sərgərdan qoydun məni.

AD-008.375
Gözəl yoxdur mislində,
Şübhə yoxdur əslində.
Yarla qolboyun olam
İlin dörd bir fəslində.

AD-008.377
Əzizim, gülə qarşı,
Bülbüləm gülə qarşı,
Mənki çoxdan heyranam
Səndəki dilə qarşı.

AD-008.379
Su üzündə qayığam,
Yatmamışam, ayığam.
Vətənin keşiyində
Bir quş kimi sayığam.

AD-008.380
Əlimdəki qaşıqdı,
Yollarım çalğaşıqdı.
Yarla qolboyun olum,
Desinlər sarmaşıqdı.

AD-008.381
Ay qız, adın Hürüdü,
Dağı duman bürüdü.
Həsrətini çəkməkdən
Cavan canım çürüdü.

AD-008.382
Oğlan, adın Yaqubdur,
Dağlara qar yağıbdır.
Sən verdiyin nişanə
Barmağımı boğubdur.

AD-008.383
Oğlan, adın Həsəndir,
Sənətin daş kəsəndir.
Sənin sevdiyin gözəl
Yerli-yersiz küsəndir.

AD-008.384
Oğlan, adın Cümşüddür,
Dağlara gün düşübdür.
Sən verdiyin nişanə
Barmağımdan düşübdür.

AD-008.385
Ay qız, adın Firuzə,
Buğdanı ver xoruza.
Sevirsən, xəlvət elə,
Sirri vermə büruza.

AD-008.386
Ay qız, adın Mələkdir,
Əlindəki ələkdir,
Vədə verib gəlmirsən,
Söylə, bu nə kələkdir?

AD-008.387
Oğlan, adın Əlidir,
Əlindəki zəlidir.
Gündə birin sevirsən,
İşin lap gülməlidir.

AD-008.388
Oğlan, adın Paşadır,
Arvadların qoşadır.
Daha məni neynirsən?
İşin lap tamaşadır.

AD-008.389
Oğlan, adın Piridir,
İgidlərin biridir.
Atana qurban olum,
Anan itin biridir.

AD-008.390
Ay qız, adın Sayaddı,
Bu xörəklər bayatdı.
Sevgi nədir bilməzdim,
Məni anan oyatdı.

AD-008.393
Atlı çapar, ay dayı,
Ürəyim qopar, ay dayı.
Burdan gəlib gedəndə
Məni də apar, ay dayı.

AD-008.395
Dağların çatma qarı,
Bərk qarı, çatma qarı.
Yerimə "bəli" dedi
İmansız Fatma qarı.

AD-008.396
Əzizim, ayım oldu,
Ulduzum, ayım oldu.
Yerimə şahid duran
Axrətsiz dayım oldu.

AD-008.397
Atlı gedər, ay nənə,
Tap-tup edər, ay nənə.
Yarım burdan keçəndə
Ürəyim gedər, ay nənə.

AD-008.401
Mən aşiq, Kürdəmirə,
Yol gedər Kürdəmirə.
Dərdindən ah çəkmişəm,
Kür dönübdü dəmirə.

AD-008.403
Gəlmişəm, görəm səni,
Yıxmışam, hörəm səni.
Nə qapın var, nə pencərən,
Bəs hardan görəm səni?!

AD-008.404
Sarı sarını tutsun,
Boya sarını tutsun.
Sən tarıya neyləmişdin,
Ahın tarını tutsun.

AD-008.405
Aşığam, Əli bağlar,
Döşənib xəli bağlar.
Sidqi dürüst olanın
Kəmərin Əli bağlar.

AD-008.406
Aman əlindən, aman,
Acı dilindən aman.
Həsrət Musa dərmədi,
Qonça gülündən haray.

AD-008.407
Apardı xəzər məni,
Gözləyir yazar məni.
Sərdəftərin başında
Qul edib yazar məni.

AD-008.411
Qışda yeri qar alar,
Dinlə, könlüm qaralar.
Lənət gəlsin fələyə,
Yazar, pozar, qaralar.

AD-008.412
Qərənfilsən, putasan,
Məni saldın oda sən.
Mən o güldən döyüləm,
İyliyəsən, atasan.

AD-008.414
Kisə tikdim, olmadın,
Suya saldım, solmadın.
Qazı, dilin qurusun,
Özüm deyən olmadın.

AD-008.416
Bu gələn Şəkər olsun,
Kəklik tək səkər olsun.
Atsın hicran odunu,
Şirin can səpər olsun.

AD-008.417
Yolum Şirvan yoludu,
Dəvə karvan yoludu.
Musa, dərdli ürəyim
Qannan, yaşnan doludu.

AD-008.418
Arazam, Kür üstündən,
Min atı sür üstümdən,
Bu tər şəfa təridi,
Ölmərəm, dur üstümdən.

AD-008.419
Bu yollar haça yollar,
Ha yana qaça yollar.
Yol eylə, bəlkə gəlin,
Baxtuvu aça yollar.

AD-008.420
Musa, elədi, bəsdi,
Tərlan pülədi, bəsdir.
Mənə bu zalım fələk
Hər nə elədi, bəsdi.

AD-008.421
Əlləndim ələk kimi,
Nazildim ipək kimi.
Musa, dolaş dünyanı
Sərgərdan külək kimi.

AD-008.425
Üzərliyi tər saxla,
Yarıma göndər, saxla.
Musa, igid oğuldan,
Mərd igidsən, nər saxla.

AD-008.427
Mən aşığam göylərə,
Namə yazdım Göylərə.
Çəkdiyim ah-nalələr
Yetişərmi göylərə?!

AD-008.428
Aşıq, Tavalı mənəm,
Sənlə davalı mənəm.
Düşmən çox öyünməsin,
Onun zavalı mənəm.

AD-008.429
Mən aşıq, özü şirin,
Söhbəti, sözü şirin.
Musa qurban o yara,
Ağzının sözü şirin.

AD-008.430
Musanın sözü çoxdur,
Baxtı, taleyi yoxdur.
Ay qız, mənə çox baxma,
Hər kipriyin bir oxdur.

AD-008.431
Əzizim, Qəfərliyəm,
Yaxşı bax, təhərliyəm.
Obadakı qızların
Hamısından fərliyəm.

AD-008.433
Əkərəm xiyar səni,
İşlərəm biyar səni,
Ağızdan can çıxıncan,
Gözləyirəm, yar, səni.

AD-008.434
Bu sürü hara gedər,
Baş alıb hara gedər.
Sevdiyinə getmiyən,
Qız vaxtı gora gedər.

AD-008.435
Üzərliyi saxlaram,
Böyüdərəm saxlaram.
Gor evində olasan,
Gəlib səni yoxlaram.

AD-008.439
Biçərəm, taxıl, səni,
Yığaram ağır səni.
Odlanıb od tutasan,
Yanasan, paxıl, səni.

AD-008.440
Bağlı qapı aç, oğlan,
Ağ üzünnən maç, oğlan.
Atam sənə verməsə,
Məni götür qaç, oğlan.

AD-008.441
Əzizinəm, baş mənə,
Kiprik mənə, qaş mənə.
Çətin gündə uruslar
Oldular qardaş mənə.

AD-008.442
İrəfə düzdüm qabı,
Əynimə geydim abı.
Bala dərdi çəkməkçün
Kimlərdən alım tabı?!

AD-008.443
Şirvan üstü dağ olar,
Meşə olar, dağ olar.
Sevdiyinə getmiyənin,
Ürəyində dağ olar.

AD-008.452
Bu yerdə dağ görmədim,
Üstündə bağ görmədim.
Günüm zülmətdə keçdi,
Birisin ağ görmədim.

AD-008.454
Aşıq Kolanı verər,
İstə, Kolanı verər.
Dövlətli simic olar,
Kasıb olanı verər.

AD-008.457
Əzizim, Qazağa məni,
Şəmkirə, Qazağa məni.
Əzrayıl ayırmasa,
Getmənəm uzağa mən.

AD-008.460
Zərbafın zibası sən,
Zəri sən, zibası sən.
Nə tez belə geyindün
Kəfəndən libası sən.

AD-008.461
Saralmışam, solmuşam,
Zülfü üzə salmışam.
Bir elin ləngəriydim,
Yaman günə qalmışam.

AD-008.462
Əzizim eldən ayrı,
Bülbüldən, güldən ayrı,
Elə bil zindandayam
Gəzəndə eldən ayrı.

AD-008.464
Su üzündə yarpağam,
Vətənimdən uzağam.
Ömür keçir, gün keçir,
Ömrüm boyu dustağam.

AD-008.465
İylədin, atdın məni,
Bazarda satdın məni.
Nə günah eləmişdim,
Kənizə qatdın məni.

AD-008.467
Anam ahü-vaydadı,
Ağlamağı qaydadı.
Qəssab piyi axtarır,
Gör keçi nə haydadı.

AD-008.468
Mən aşığam, Dərbəndə.
Gedən yoxdur Dərbəndə.
Mətləb verən İlahi,
Qoymaz məni şərməndə.

AD-008.472
Yaylığın ucu micə,
Dəvəmiz gedir Nicə.
Mən yardan ayrılmazdım,
Məni saldılar gücə.

AD-008.474
Aşıq Kolanı mənəm,
Tanı, Kolanı mənəm.
Sonsuz ata-anamın
Bircə olanı mənəm.

AD-008.476
Atını bağlamışam,
Ot qoyub bağlamışam.
Sənin bu əhvalına
Bir elcən ağlamışam.

AD-008.478
Yaylığı bəzəmisən,
Çəkmisən, bəzəmisən.
Niyə gendə durmusan,
Adımı bəzəmisən.

AD-008.479
Bağçada ular məni,
Qu məni, ular məni.
Əzrayıl yalan oldu,
Öldürdü bular məni.

AD-008.486
Mən aşiq, Ərdahanı,
İzmiri, Ərdahanı.
Bilmirəm haqq, ədalət
Bizim bu yerdə hanı.

AD-008.487
Quzumun rəngi çaldı,
Yatdı, çökəkdə qaldı.
Yarımın dodaqları
Ətirli beçə baldı.

AD-008.488
Quzuma göz dəyibdi,
Ocağa köz dəyibdi.
Yar məndən kənar gəzir,
Deyəsən söz dəyibdi.

AD-008.495
Quşum uçdu havaya,
Qayıtmadı yuvaya.
Var olsun sülh deyənlər,
Lənət gəlsin davaya.

AD-008.496
Ocaqda tiyan yaxşı,
Yanmağa biyan yaxşı.
Fərasətsiz övladdan
Min tümən ziyan yaxşı.

AD-008.497
Ağac atdım qoyuna,
Getdim özgə toyuna.
Məni kimlər qarğadı,
Düşdüm belə oyuna.

AD-008.498
Aranda nərim qaldı,
Saxladım, nərim qaldı.
Oğul-qız üz döndərdi,
Yenə də ərim qaldı.

AD-008.504
Ələndim ələk kimi,
Yelləndim pilək kimi.
Çöldə avara qaldım
Sərgərdan külək kimi.

AD-008.506.
Qaraqumda mayam var,
Arvanam var, mayam var.
Yüz ilin arvadıyam,
Min gəlindən hayam var.

AD-008.507
Süpürgə yumuşaqdı,
Yuxadı, yumuşaqdı.
Toy vaxtın soruşmayın,
Yarım hələ uşaqdı.

AD-008.508
Qapıdan karvan gedər,
Yanıycan sarvan gedər.
Qara nərin üstündə
Sevdiyim oğlan gedər.

AD-008.514
Aşıq harayı gəlsin,
Xalın qarayı gəlsin.
Gözəl qız axtaranlar
Bağçasaraya gəlsin.

AD-008.517
Arazın başı qardı,
Qırağı heyva, nardı.
Ağlı, huşu aparır,
Bu gələn nazlı yardı.

AD-008.518
Xamırı özləyən var,
Su vurub özləyən var.
Qərib yerdə ölmərəm,
Yolumu gözləyən var.

AD-008.520
Bu gələn İncəlimi?
Göyçaylı, İncəlimi?
Yar üçün ağlayanlar
Dayanıb dincəlimi?

k-021.2745
Şirvanda dağlar gördüm,
Meyvəli bağlar gördüm.
Gəldim gülşən bağına,
Bağbanı ağlar gördüm.

k-021.2746
Əzizinəm, gülüm mən,
Bağbanınam, gülüm mən.
Ağlamağı bilirəm,
Öyrət məni, gülüm mən.

k-021.2747
Kababı köz öldürər,
Sürməni göz öldürər.
Kişini qılınc kəsməz,
Tənəli söz öldürər.

k-021.2748
Bu dağlar uca dağlar,
Duruldu necə dağlar.
Yetim yanağı bilir,
Göz yaşı necə dağlar.

k-021.2749
Ərişim oxda yandı,
Sinəmə ox dayandı.
Bağrımın alovundan,
Atılan ox da yandı.

k-021.2750
Dağlarım qardan doymaz,
Atım tumardan doymaz.
Mənim bu ac gözlərim,
Baxdıqca yerdən doymaz.

k-021.2751
Şamaxıda talan var,
Qəmzəsi can alan var.
Mən burda çox əyləndim,
Gözü yolda qalan qalan var.

k-021.2752
Udulu düzən yeri,
Düz yeri, düzən yerı.
Yarın yaylaqdan gəlib,
Geyinib bəzən, yeri.

k-021.2753
Bu sağlar qoca dağlar,
Çox dağdan uca dağlar.
Sən dağlayan sinəmi
Gör fələk necə dağlar.

k-021.2754
Yastığım qola saldım,
Bilmədim, nola saldım.
Bir bala böyütmüşdüm,
Davaya yola saldım.

k-021.2755
Şirvanın dağı hanı,
Meyvəli bağı hanı.
Barın Allah aparıb
Bəs bunun tağı hanı?

k-021.2756
Evlərində xalı var,
Dodağında balı var,
Mən yarımı tanıram,
Yanağında xalı var.

k-021.2757
Yağış yağar, göl olar,
Karvan keçər.yol olar,
Gözüm yarı görəndə
Dilim tutmaz, lal olar.

k-021.2758
Evləri su başında,
Gözüm qaldı yaşında.
Bir tərsa gözəl sevdim,
On üç, on dörd yaşında.

k-021.2759
Kətan köynək dizdən, yar,
Həya aldın üzdən, yar.
Uyma yadlar sözünə,
Ayaq kəsmə bizdən yar.

k-021.2760
Baxçaya bax, bara bax,
Heyvaya bax, nara bax!
Üzün bürüyüb keçir,
Bu vəfasız yara bax.

k-021.2761
Ağlar ağladı məni,
Çarpaz dağladı məni.
Dəmir zincir kar etməz.
Zülfün bağladı məni.

k-021.2762
Bağça bağ üçün ağlar,
Heyva nar üçün ağlar,
Qarlı dağ günəş üçün,
Aşiq yar üçün ağlar.

k-021.2763
Gecələr, zar gecələr,
Mənə zinhar gecələr.
Ay batdı, ülkər çıxdı,
Gəlmədi yar, gecələr.

k-021.2764
Portağal dilim-dilim,
Gəl otur, mənim gülüm.
Nə dedim, yar incidi,
Lal olsun ağzım, dilim.

k-021.2765
Uzun zülf üzə dəyər,
Əyilsə, dizə dəyər.
Zülfün əcəm ipəyi,
Teli Təbrizə dəyər.

k-021.2766
Qızıldı dişin sənin,
Xubdu yerişin sənin.
İçməmiş sərxoş eylər
Bircə öpüşün sənin.

k-021.2767
Zülfün qara, zil kimi,
Titrər gözəl gül kimi.
Qarşında boyun əydin,
Alıb-satma qul kimi.

k-021.2768
Əlində saza yannam,
Etdiyin naza yannam.
Baş qoyam dizin üstə,
Qış yatıb, yaz oyannam.

k-021.2769
Dağda durana qurban,
Zülfün hörənə qurban.
Mən səni görməmişəm,
Səni görənə qurban.

k-021.2770
Almanın alına bax,
Əyilib dalına bax.
Yar özü kef-damaqda,
Gəl mənim halıma bax.

k-021.2771
Qəfil qopdu tozanaq,
Yorğan gətir uzanaq.
Zalım anan gəlməmiş
İki öpüş qazanaq.

k-021.2772
Qaşların qarasına,
Xal bitib arasına.
Əlüvi məlhəm elə,
Sürt sinəm yarasına.

k-021.2773
Ay dolandı batmağa,
Yarım getdi yatmağa.
Çox dolandım başına,
Qıymadım oyatmağa.

k-021.2774
Ata minən ağadı,
Yolu qarlı dağadı.
Yar qoynu cənnət başı
Əl vurmaq qadağadı.

k-021.2775
Suyu saxla, bəndə vur,
Zülfünü kəməndə vur.
Onsuz da yaram çoxdu,
Çək oxunu, sən də vur.

k-021.2776
Evimizə nar gəlməz,
Heyva gəlməz, nar gəlməz.
Baş yastıqda, göz yolda,
Əcəl gəldi, yar gəlməz.

k-021.2777
Yarımın babası var,
Çiynində əbası var.
Özü yaxşı oğlandır,
Bir yaman anası var.

k-021.2778
Əlində şanası var,
Əcəb nişanası var.
Yar özü çox əcəbdir
Bədasil anası var.

k-021.2779
Ağ qoyun ətli olar,
Kababı dadlı olar.
Dul kişiyə gedən qız
Ölüncə dərdli olar.

k-021.278
Bu qoyun dəli qoyun,
Örüşdən gəli qoyun.
Yarından ayrılanın
Adını dəli qoyun.

k-021.2781
Muğanım, Bəkim ağlar,
Şirvanım, Şəkim ağlar.
Sən öldün, mən ağladım,
Mən ölsəm bə kim ağlar?

k-021.2782
Gəlin gedək o taya,
Bu xarmandı, o taya.
Zülfünü kəmənd eylə,
Adlat məni o taya.

k-021.2783
Bağında yonca varmı?
Yarpağı bunca varmı?
Sevməyinə sözüm yox,
Sevdiyin məncə varmı?

k-021.2784
Yükü yığdım düzünə,
Tirmə çəkdim üzünə.
Yar deyil, nakəs imiş,
Söz veribmiş yüzünə.

k-021.2785
Yarım toxuyub dolaq,
Ona bir nəmər alaq.
Anasına demişik,
Atasına yalvaraq.

k-021.2786
Xalçanı yığdım yükə,
Səkkiz qat bükə-bükə.
Sevgilimə getməsəm,
Doğrannam tikə-tikə.

k-021.2787
Oğlan, adın Əlidi,
Köynəyin düyməlidir.
Çox gəzib, çox danışma,
Qızlar deyər: dəlidi...

k-021.2788
Kimsəsizəm, naçaram,
Bağlı qapı açaram.
Atan-anan verməsə,
Alıb səni qaçaram.

k-021.2789
Əmim oğlu Ziyada,
Məni veriblər yada.
Bir at göndər, bir qamçı,
Gələmmirəm piyada.

k-021.2790
Qış qolunu yaz kəsdi,
Qranı bəyaz kəsdi.
Gecə qapıda durdum,
Əlimi ayaz kəsdi.

k-021.2791
Qarşıda dolama dağ,
El gələr salama, dağ.
Sənə əmanət verdim,
Pənah ol balama, dağ.

k-021.2792
Maral meşəli yerdə,
Gül bənövşəli yerdə.
Bala, sənə kim qıydı,
Qaldın döşəli yerdə?

k-021.2793
Ay başı dumanlı dağ,
Qovğalı dağ, qanlı dağ.
Mən sənə neyləmişdim,
Niyə oldun qanlı, dağ.

k-021.2794
Bazara kilim gəlməz,
Yun gələr, kilim gəlməz.
“Balam ölüb” deməyə
Lal ollam, dilim gəlməz.

k-021.2795
Gözlərin süzmə barı,
Canımı üzmə barı.
Üzünə həsrət qaldım,
Məktubun üzmə barı.

k-021.2796
Mən bu gecə uymuşam,
Ağlamışam, doymuşam.
Küsdürüb gözəl yarı,
Gözü yaşlı qoymuşam.

k-021.2799
Xoruzam, ban verərəm,
Qan alıb, qan verərəm.
Başım sənə qurbandır,
İstəsən, can verərəm.

k-021.2800
Bu Canqu meşəsidir,
İyli, bənövşəsidir.
Oğlu ölmüş ananın
Ağlamaq peşəsidir.

k-021.2801
Bu dərədə yonca var,
Şahtərə yox, yonca var,
Boyuva qurban olum,
Yarımın boyunca var.

k-021.2802
Qoy görüm gül balamı,
Saçı sünbül balamı.
Ay gəlin, insaf eylə,
Tərlətmə gül balamı.

k-021.2803
Küdrünün düzən yeri,
Düz yeri, düzən yeri.
Toyundur, ay bəxtəvər,
Dur geyin, bəzən, yeri.

k-021.2804
Dağlara yağış gəlir,
Çən gəlir, yağış gəlir.
Üzü dönük adaxlım
Nə payız, nə qış gəlir.

k-021.2805
Küdrünün qoyunu var,
Quzusu-qoyunu var.
Fələk başıma açmış
Nə qədər oyunu var.

k-021.2806
Yağtikan qalın oldu,
Ayağım yalın oldu.
Vətəndən ayrılmazdım,
Düşmənim zalım oldu.

k-021.2807
Çəkilə bax, çəkilə,
Çəkil bağda əkilə.
Məhşərün o gün qopar,
Gəlin evdən əkilə.

k-021.2808
Dam üstü davalıdı,
Əl vurma, dualıdı.
Məcnun Leylidən ötrü
Divanə, havalıdı.

k-021.2809
Mən aşiq yeddisində,
5 sində, 7 sində.
Sağlığında gəlmədin,
Gəlmisən yeddisidə.

k-021.2810
Maral kimi mələrəm,
Dağı-daşı dələrəm.
Ölüb qəbirə getsəm,
Sən çağırsan gələrəm.

k-021.2811
Durnalar nə ünlüdür,
Dərdlidir, düyünlüdür.
Səslərindən duyuram
Onlar da mən günlüdü.

k-021.2812
Bizlərdə ağlamazlar,
Ağa göy bağlamazlar.
Cavan igid öləndə,
Astadan ağlamazlar.

k-021.2813
Dərdlilər aram ağlar,
Sızıldan yaram ağlar.
O qədər yaram var ki,
Bilmirəm haram ağlar.

k-021.2814
Bir əzabkeş ürəyəm,
Ox dağıtmış kürəyəm.
Can gedib, cəsəd qalıb,
İndi kimə gərəyəm?

k-021.2815
Ucadı basin, dağlar,
Qarlıdı qaşın, dağlar.
Qoynunda qalmaq üçün
Oleydim daşın, dağlar.

k-021.2816
Çəmənlik dolu yonca,
At yeyir xınca-xınca.
Bir ağı deyəydilər,
Ağlayaydım doyunca.

k-021.2817
Necə deyim acımı,
Dərdimi-əlacımı.
Qoyun-quzu bəslədim,
Böş gördüm arxacımı.

k-021.2818
Dağda əl daşı gördüm,
Üstə göz yaşı gördüm.
Kimə dedim dərdimi,
Təbibi naşı gördüm.

k-021.2819
Dağlar, lalama dəymə.
Gözü alama dəymə.
Əzrayıl, al canımı,
Ancaq balama dəymə.

k-021.2820
Duman, get dağ başından,
Od qalxacaq daşından.
Ağlasam göl düzələr,
Gözlərimin yaşından.

k-021.2821
Bu bağlar sərilidi,
Gülləri sərilidi.
Ürəyimə toxunma,
Telləri gərilidi.

k-021.2822
Bilsəm izin, gələrəm,
Versən izin, gələrəm.
Ayaqlarım bağlansa,
Dizin-dizin gələrəm.

k-021.2823
Yorğana ağ çəkərəm,
Ağ çəkib, ağ çəkərəm.
Fələk, əlimə düşsən,
Sinənə dağ çəkərəm.

k-021.2824
Dünya aha qalıbdır,
Qurda kaha qalıbdı.
Yar ilə görüşməyim
Bir Allaha qalıbdır.

k-021.2825
Çadırlar qurulunca,
Axar su durulunca,
Gəl oturaq üz-üzə,
Ağlayaq yorulunca.

k-021.2826
Çən var dağın başında,
Təpəsində, daşında.
Məzarımı qazarsız
Həmin dağın başında.

k-021.2827
Bu gələn Umudumu?
Qovdu qəm buludumu.
Canım çıxınca səndən,
Kəsmişəm umudumu.

k-021.2828
Yolları daşlı mənəm,
Qəlbi təlaşlı mənəm.
Ölüncə "yar-yar" deyən
Gözləri yaşlı mənəm.

k-021.2829
Dərdim daşını, dağlar,
Tökmə yaşını, dağlar.
Qov başından dumanı,
Görüm başını, dağlar.

k-021.2830
Göylər tufan qopardı.
Buludları qopardı.
Bu sel necə sel idi,
Seçdi, məni apardı.

k-021.2831
Od düşdü, kilim yandı,
Boynunda hilim yandı.
Dərdim elə ağırdı,
Danışdım, dilim yandı.

k-021.2832
Bu dağın çayı yoxdu,
Qışı var, yayı yoxdu.
Dərdimi necə deyim,
Hesabı, sayı yoxdu.

k-021.2833
Bu bağça əncirlidi,
Meyvəsi min cürlüdü.
Yarım, gələ bilmirəm,
Ayağım zəncirlidi.

k-021.2834
Bağda həmərsim qalıb,
Güllərim əsim qalıb.
Sən nəyimi görmüsən,
Quru nəfəsim qalıb.

k-021.2835
Çənlidir mənim dağım,
Altından atdım lağım.
Hərənin bir dağı var,
Sayılmaz mənim dağım.

k-021.2836
Bizim yaylaq satıldı,
Yad torpağa qatıldı.
Bircə bunu bilmədim.
Bu daş hardan atıldı.

k-021.2837
Yelin yellətdi dağlar,
Daşın hellətdi dağlar.
Bağladın yar yolunu,
Bu nə zillətdi, dağlar?!

k-021.2838
Bu dağlar uca dağlar,
Hamıdan qoca dağlar.
Mənim cavan ömrümü
Döndərdin puça, dağlar.

k-021.2839
Döşün sürüdü, dağlar,
Çeşmən durudu, dağlar.
Səni kimlər qarğadı,
Otun qurudu, dağlar.

k-021.2840
Başıma güllər mənim,
Sarı sünbüllər mənim.
Tamam gəldi gözümdən,
Gördüyüm günlər mənim.

k-021.2841
Ay elim, obam mənim,
Xan nənəm, babam mənim.
Qəfil getdi əlimdən
Tamam əqrəbam mənim.

k-021.2842
Uduluya yol gəlməz,
Qar-yağışı bol gəlməz.
Dön, qayıt, ay Əzrayıl,
Adam elə zol gəlməz.

k-021.2843
Bağdan alma almışam,
Qəfil yerə salmışam.
Ah çəkib, yaş tökməkdən
Quru qəfəs qalmışam.

k-021.2844
Bürünmüşdüm keçəyə,
Buğda verdim beçəyə.
Dərdi alan olsaydı,
Satardım heç neçəyə.

k-021.2845
Göydə gedən qaz imiş,
Sayı yüzdən az imiş.
Az ağla, yanmış dilim,
Bu dərd hələ az imiş.

k-021.2846
Bu yerdə Padar ağlar,
İtirib madar ağlar.
Sürüsü talan olub,
Ah çəkib çovdar ağlar.

k-021.2847
Şəkidə talan olmaz,
Talandan qalan olmaz.
Tamam dünya yığılsa,
Bu dərdi alan olmaz.

k-021.2848
Dağlar başı dumandı,
Ovçu orda pünhandı.
Gəl bir görüm üzünü,
Mənim halım yamandı.

k-021.2849
Yaxşı xara almışam,
Ancaq qara almışam.
Köhnə yaram çox idi,
Təzə yara almışam.

k-021.2850
On bafa bir dərz olar,
Sözüm sənə ərz olar,
Yardan aralı düşsəm,
Ölüm mənə fərz olar.

k-021.2851
Anam yasına gəlsin,
Dağın başına gəlsin.
Belə dərdi-müsibət
Düşmən başına gəlsin.

k-021.2852
Çilənin qarı gəldi,
Gecənin yeri gəldi.
Bəxtəvərdi o gözəl,
Qayıtdı yarı gəldi.

k-021.2853
Pencərənin mili yox,
Pərdəsinin gülü yox.
Anam dərddən lal olub,
Söz deməyə dili yox.

k-021.2854
Dağlara binə gəldi,
Adamlar dinə gəldi.
Yar bivəfa deyilmiş,
Qayıtdı yenə gəldi.

k-021.2855
Uzaqdan gələnim yox,
Göz yaşım silənim yox.
Hamı məndən gen gəzir,
Dərdimi bilənim yox.

k-021.2856
Yerim üç oldu mənə,
Ucdan uc oldu mənə.
Yarın belə getməyi
Yaman güc oldu mənə.

k-021.2857
Yəhər boz at üstədi,
Yolu Fərat üstədi.
Rəhm elə, qanlı fələk,
Balam murad üstədi.

k-021.2858
Yaylığı ağ saxladım,
Yumadım, ağ saxladım.
Yar bir günlük gəlmişdi,
Bir ay qonaq saxladım.

k-021.2859
Qoyunun yüzü gəlsin,
Kababın közü gəlsin.
Yar məktubun neynirəm,
Durmasın, özü gəlsin.

k-021.2860
Dağ döşü qarağandı,
Yovşandı, qarağandı.
Dərdin-qəmin əlindən
Ürəyim qara qandı.

k-021.2861
Dağlar o dağlardımı?
Dövrəsi bağlardımı?
Yar ağlar mal-dövlətçün,
Mən ölsəm ağlardımı?

k-021.2862
Çoban, sənə sözüm var,
Hər bir dərdə dözüm var,
Sənin iki qızıvın
Kiçiyində gözüm var.

k-021.2863
Mənim bacım, az ağla,
Payız ağla, yaz ağla.
Mənim umman dərdimi,
Bir dəftərə yaz, ağla.

k-021.2864
Dağlarım alasıynan,
Gülüynən lalasıynan.
Yarın qadasın alım,
Dərdiynən, bəlasıynan.

k-021.2865
Bu əlif, bu be imiş,
Bu ayın, bu teyimiş.
Yar sevdim, dadın gördüm,
Yar nə şirin şey imiş.

k-021.2866
Yük üstə sarı alma,
Ağlama, sarı alma.
Alırsan canımı al,
Əlimdən yarı alma.

k-021.2867
Ay burda oturanlar,
Söz-sözə yetirənlər.
Hamı bir mənim kimi,
Qatarın itirənlər.

k-021.2868
Maral gəzən dağ üstə,
Quşlar oxur bağ üstə.
Gözəllərdə qaydadı,
Dağı çəkər dağ üstə.

k-021.2869
Məscidin əzən yeri,
Dur, geyin, bəzən, yeri.
Mənə qiblə olaydı
Yarımın gəzən yeri.

k-021.2870
Tiflis böyük şəhərdi,
Dörd bir yanı çəpərdi.
Çoxdan qoyub getmisən,
Gəl, gör yar nə təhərdi.

k-021.2871
Pətəkdə balım mənim,
Yaşılım, alım mənim.
Kor olasız, gözlərim,
Gördüz bu halım mənim.

k-021.2872
El köçər, binə ağlar,
Qalar pis günə, ağlar.
On il ağlayan gözüm
Gəlməsən, yenə ağlar.

k-003.1.
Mən aşiq gəmi gəldi,
Kür gəldi, gəmi gəldi.
Gəlsənə bir görüşək,
Ayrılıq dəmi gəldi.

k-003.2
Mən aşığam qalasız,
Şəhər olmaz qalasız.
Mən ki gedəri oldum,
Siz sağlıqnan qalasız.

k-003.3
Kərbalanın yolları,
Qannı tikan kolları.
Bilsəydim sən gəlirsən,
Döşədərdim yolları.

k-003.4
Bir atım var zil qara,
Minginən get ilqara.
Sən ilqardan gəlincən,
Mən geyərəm zil qara.

k-003.5
Bu yol Maşad olsun,
Aşsın başa dolsun.
Səni məndən edəni
Nə gülsün, nə şad olsun.

k-003.6
Göy üzü damar-damar,
Göydən yerə nur damar.
Könül var ki şüşədi,
Sınsa onu kim yamar?!

k-003.7
Gəmi gəlir, yan gəlir,
Içində bir can gəlir.
Vətən həsrəti çəkməkdən
Gözlərimə qan gəlir.

k-003.8
Mən aşiqəm oyandım,
Dərdə-qəmə boyandım.
Yaşasaydım partlardım,
Torpaq oldum, dayandım.

k-003.9
Mən aşiqəm, ay mələr,
Ülkər mələr, ay mələr.
Qoç bir quzu doğubdur,
Süddən ötrü ay mələr.

k-003.10
Mən aşiqəm, ağlama,
Ağ alma, qızıl alma.
Babalım boynuna olsun,
Kasıbın qızın alma.

k-003.11.
Qarabağın yolları,
Qaratikan kolları.
Bilsəm ki, sən gəlirsən
Döşətdirrəm yolları.

k-003.12
Əzizinəm, Həsən, gəl,
Həsən bağrın kəsən gəl.
Dəli könlümə düşmüsən,
Ya mən gəlim, ya sən gəl.

k-003.13
Qızılgül dən-dən oldu,
Dərmədim, dəndən oldu.
Mən səndən ayrılmazdım,
Ayrılıq səndən oldu.

k-003.14
Göyərçinəm, uşdum, gəl,
Dost bağına düşdüm, gəl.
Yaxşı günün dostluğu
Yaman günə düşdü, gəl.

k-003.15
Əzizim, yüz il məni,
Yerində vur ilməni.
Vəfalı yar olsaydın,
Gözlərdin yüz il məni.

k-003.16
Dağlara dolu düşər,
Qar yağar, dolu düşər.
Qəbrimi yaxında qaz,
Yar gələr, yolu düşər.

k-003.17
Yaylığın miçə-miçə,
Xəbər allam halın necə.
On iki qurban demişəm,
Sən bizə gələn gecə.

k-003.18
Mixək əkdim ləyəndə,
Mixək boynun əyəndə
Ölü olsam dirilləm,
Əlin əlimə dəyəndə.

k-003.20
Oturmuşdum dalanda,
Dalan kölgə salanda.
Siliçini vurdular
Günortaya qalanda.

k-003.21.
Bir balaca qoçam mən,
Haram var ki, qaçam mən.
Qarnım söfrə deyil ki,
Hər yetənə açam mən.

k-003.22
İpək çarxa dolandım,
Qalxa-qalxa dolandım.
Qərib el, yad ölkə,
Qorxa-qorxa dolandım.

k-003.23.
Dağlara qar düşübdür,
Gör nə hamar düşübdür.
Dağılasan, ay şəhər,
Yar yadıma düşübdür.

k-003.24.
Bağında inci mənəm,
Gəzərəm, incimərəm.
Başını qoy üzün üstə,
Can versəm incimərəm.

k-003.25.
Yaylığının gülü yansın,
Od tutsun, gülü yansın.
Səni məndən ayıranın
Ağzında dili yansın.

k-003.26.
Əzizim, ağlamazdım,
Gülərdim, ağlamazdım.
Bilsəydim vəfan budur,
Sənə bel bağlamazdım.

k-003.27.
Qara qaşın qarasından,
Meh gəlir arasından.
Ayaq saxla, bir söz deyim,
İkimizin arasında...

k-003.28.
Mən aşiq, qıza bənzər,
Boyun şahbaza bənzər.
Bir gün əlimə düşsən,
Qış günü yaza bənzər.

k-003.29.
Mən aşiq qaza qurban,
Ördəyə-qaza qurban.
Bilsəydim sən gəlirsən,
Kəsərəm təzə qurban.

k-003.30.
Şamaxı bazar idi,
Mollalar yazar idi.
Nə duman var, nə çiskin,
Yar-yardan azar idi.

k-003.31.
Şirvanın yastı yolu,
Su gəldi, basdı yolu.
Gəlirdim sənə dəyəm
Namərdlər basdı yolu.

k-003.32.
Məni bir quş apardı,
Şirvana tuş apardı.
Dağılasan, ay Şirvan,
Ayağımı daş apardı.

k-003.33.
Mən aşıq, üzə düşdü,
Ay doğdu, üzə düşdü.
Hamı yarıynan gəzir.
Ayrılıq bizə düşdü.

k-003.34.
Su gələr, axar, gedər,
Evləri yıxar, gedər.
Bu dünya pəncərədir,
Hər gələn baxar, gedər.

k-003.35.
Gedirəm, yolum dağdı,
Altım meyvəli bağdı.
Çəkərəm yar qəhrini,
Nə qədər canım sağdı.

k-003.36.
Gedirəm yollar ilə,
Fikri xəyallar ilə.
Gəl bir qol-boyun olaq,
Tamarzı qollar ilə.

k-003.37.
Bir topa qağdan idim,
Meh vurub dağdan idim.
Bostançıdan xəbər al,
Yaralı tağdan idim.

k-003.38.
Mənim uca dərdim var,
Ucdan-uca dərdim var.
Açıb deyə bilmərəm,
Bir gizlincə sözüm var.

k-003.39.
Qarabağ bağ məkanı,
Ağ üzə xan məkəni.
Qoy dağılsın sıra dağlar,
Görüksün yar məkəni.

k-003.40.
Qaşların qibləgahdı,
Ucun əymə, günahdı.
Dağlara bir çən gəlir,
O da mən çəkən ahdı.

k-003.41.
Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirib xəbər alsan,
Yaman çağımdı mənim.

k-003.42.
Bir quş gəlir Ağdaşdan,
Xəbər verir qardaşdan.
Yağış yağıb yer doysa
Bacı doymaz qardaşdan.

k-003.43.
Əzizim, sizə gələm,
Sürməli gözə gələm.
Yüz il qazamat çəksəm,
Qutarıb sizə gəlləm.

k-003.44.
Mən aşiq, o gün ayılar,
Günbatmış gün ayılar.
Yar öz yarını görsə,
Bayramın o gün eylər.

k-003.45
Ölürəm səndən ötrü,
Dumandan, çəndən ötrü.
Mən buraya gəlmirdim,
Gəlmişəm səndən ötrü.

k-003.48
Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Ya dərdimə şərik ol,
Ya dərmanı al göndər.

k-003.49
Dağlar, səni əndərim,
Meylim bəri döndərim.
Atım yox, adamım yox,
Səni kimə göndərim.

k-003.50
Yaralarım dəysin qoy,
Təbib boynun əysin qoy.
Canı olsun canımın,
Cəfasıdı çəksin qoy.

k-003.51
Mən aşiqəm, közər, gəl,
Kabab üstdən közər, gəl.
El bayram ayın gözlər,
Gözüm səni gözlər, gəl.

k-003.52
Evləri yaxın yarın,
Boynuna baxın yarın.
Gözəldi, göz götürməz,
Hekalın (Heykəlin) taxın yarın.

k-003.53
Hündür eyvandan baxan,
Qırmızı bir kaltaxan.
Allah evini yıxsın,
Mənim evimi yıxan.

k-003.56
Başım ağrır nədəndi,
Bağrım zədən-zədəndi.
Hər yana gedən gəldi,
Sən gəlmirsən nədəndi.

k-003.58
Bu yola yol salaydım,
Karvanım bol salaydım.
Ölməyəydim, qalaydım,
Boynuva qol salaydım.

k-003.59
Aşıq illər ayrısı,
Bülbül güllər ayrısı.
Bir günüvə dözməzdim,
Oldum illər ayrısı.

k-003.60
Mən səni el bilirdim,
Başımda tel bilirdim.
Uca dağlar başında
Qurumaz göl bilirdim.

k-003.61
Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Vətəndən ayrı düşsə,
Ürəyində yağ olmaz.

k-003.62
Başım ağrır, ov salar,
Başa dərmin qoysalar.
Əlivi əlimə versələr,
Vətən deyib qovsalar.

k-003.62a
Ovçular ova gedər,
Ov edər, ova gedər.
Hayıf sənin canından,
Hamısı yola gedər.

k-003.63
Mən aşiq kaman ayrı,
Qaş ayrı, kaman ayrı.
Gəl bir halallaşaq,
Gəzək bir zaman ayrı.

k-003.64
Yaralandım yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Sənsiz yaram sağalmaz,
Həkim gəlsə yüz yerdən.

k-003.65
Mən aşiqəm, dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərd bilən özü gəlsin,
Dərd bilməzə demə, gəl.

k-003.66
Mən aşığam, gözdər, gəl,
Kabab üstdən gözdər, gəl.
El bayram ayın gözdər,
Gözüm səni gözdər, gəl.

k-003.67
Çırağın yüz il yansın,
Piltə çək yüz il yansın.
Yarı yardan ayıran
Dünyada yüz il yansın.

k-003.68
Mən öldüm ağlamaqdan,
Ağa göy bağlamaqdan.
Bağda xəzəl qalmadı,
Yarama bağlamaqdan.

k-003.69
Yaralıyam həzinəm,
Yaram ağrır həzinəm.
Qoymayır çərxi fələk
Bir gün duram gəzinəm.

k-003.70
Kağıza qaranı yaz,
Ağa bax, qaranı yaz.
Əzəl məktub başına
Mən bəxti qaranı yaz.

k-003.72
Əlində ləngəri dur,
Gəlidur, lən gəridur.
Sənə gələn qadanı
Mən alım, sən geri dur.

k-003.73
Əzizim yarım alma,
Bütün var yarım olma.
Alırsan, canımı al,
Əlimdən yarım alma.

k-003.75
Mixək əkdim, dərz oldu,
Sözüm xana ərz oldu.
Mən sevdim, xalq apardı,
Ölüm mənə fərz oldu.

k-003.77
Könlüm, nə bulanırsan,
Nə yeyib bulanırsan.
Hansı yerin quşusan,
Nə yerdə dolanırsan.

k-003.78
Əzizim sini-sini,
Doldur ver sini-sini.
Mənə öz yarım gərək,
Neynirəm özgəsini.

k-003.80
Qəribəm, ağrır başım,
Yastığa damar yaşım.
Mənə qərib deməyin,
İndi gələr qardaşım.

k-003.81
Əzginəm niynən olam,
Əlfini beynən alam.
Küsdürüb yola saldım,
Könlünü neynən alam.

k-003.82
Əzizim, kimi gözdər,
Tar çalan simi gözlər.
Qaşın kimi qaş olmaz,
Gözlərin kimi gözlər.

k-003.83
Yaşım üzə dayandı,
Axdı üzə dayandı.
Dərdim əllidən azdı,
İndi yüzə dayandı.

k-003.84
Apardı ataş məni,
Kor elədi yaş məni.
Bir yana çıxarmadı,
Bu namərd yoldaş məni.

k-003.85
Apar bazara məni,
Saldun azara məni.
Aç belindən qurşağın,
Salla məzara məni.

k-003.86
Savalan altı göllər,
Sallanıb əldən əllər.
Gənə yadıma düşdü
Uzun boy, incə bellər.

k-003.87
Könlüm bir əppəy istər,
Bir su, bir əppəy istər.
Gərdən səndən, qol məndən,
Üzündən öpməy istər.

k-003.88
Durum gedim suva mən,
Kimdən alım duva mən.
Quşlarcan olmadım,
Heç tikmədim yuva mən.

k-003.89
Gözdərim balxı-balxı,
Gözlərin kötan arxı.
Vədə verdin gəlmədin,
Məətəl qoydun xalxı.

k-003.90
Yatanda yanım ağrır,
Duranda canım ağrır.
Süz yadıma düşəndə
Tamam əndamım ağrır.

k-003.91
Oba köçdü çaxnaqdan,
Sular doymaz axmaqdan.
Gözlərimə qan damdı,
Yollarına baxmaqdan.

k-003.92
Əzginəm, küçdi məndən,
Kür gəldi, keçdi məndən.
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

k-003.93
Qarabağ vətənimiz,
Sürüldü kotanımız.
Əl-ələ verdi getdi,
Dili söz tutanımız.

k-003.94
Bülbül hələ yoldadı,
Səkib hələ yoldadı.
Gözümü yığmamışam,
Gözüm hələ yoldadı.

k-003.95
Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Anadan yetim olanın
Ürəyində yağ olmaz.

k-003.96
Xəstə mənəm, xəstə mən,
Xub düşdüm şikəstə mən.
Yükləndim qəm yükünə,
Çəkim asta-asta mən.

k-003.97
Dəvə gəlir kallahı,
Osarı yox kallahı.
Sən əskərə gedəndə
Mən çağırım Allahı.

k-003.98
Ürəyimdə yara var,
Üstə xalvara var.
Gəl aç sinəmin üstün,
Gör yanmamış hara var.

k-003.99
Əlin əllərdə sənin,
Şalın bellərdə sənin.
O halın necə keçdi,
Qərib ellərdə sənin.

k-003.100
Apardı qızar məni,
Yanı yalquzdar məni.
Aldı bağrına basdı,
Yovşanlı düzdər məni.

k-003.103
Qızılgül vağam oldu,
Dərmədim, vağam oldu.
Gör nə günə qalmışam,
Nökərim ağam oldu.

k-003.104
Qızılgül xal-xalam,
Göydə qənəd çalxaram.
Eşitsəm yarım gəlir,
Meyid olsam qalxaram.

k-003.105a
Ayrıldım yalan-yalan,
Ömrümə düşdü talan.
Ayrılsın, yovuşmasın
Bizi ayrılıq salan.

k-003.106
Təbrizin boz dağları,
Tutubdu toz dağları.
Haqdan fərman olaydı,
Aşaydın toz dağları.

k-003.107
Təbriz mənəm, qoymaram,
Didarından doymaram.
Əyər əlimə düşsən,
Bir də əldən qoymaram.

k-003.108
Qarabağdan gəlirəm,
Sovqatım yox, zəliləm.
Bir nimdər qoy, bir yastıq,
Əcəl gəlib, ölürəm.

k-003.109
Aşiq ellər yeridi,
Başda tellər yeridi.
Aləmə yağış yağdı,
Bizdə sellər yeridi.

k-003.110
Su səni suda səni,
Saxlasın Xuda səni.
Əlacım ona qalıb,
Görəm yuxuda səni.

k-003.111
Dəryada gəmim qaldı,
Biçmədim, zəmim qaldı.
Kəmi göysündə fələyin
Necə ki mənim qaldı.

k-003.112
Əzizinəm Səlyana,
Dara zülfün, sal yana.
Gəl sənə bir ah çəkim,
Kür qovuşa, sal yana.

k-003.113
Bizim yerdə qız ağlar,
Dodağ səyrir, göz ağlar.
Dindirmə yaralını,
Yaralıdır, tez ağlar.

k-003.114
Mən aşiqəm, bir də mən,
Bir sən çağır, bir də mən.
İldə qurban bir gəlsə,
Qurbanuvam bir də mən.

k-003.115
Bülbül mənəm, bilmənəm,
Bülbül dili bilmənəm.
Bir ildə iki bayram,
Heç birində gülmərəm.

k-003.116
Gecəm keçdi qərardan,
Seçilmirsən maraldan.
Nə dərdim var, nə sərim,
Sənsən məni saraldan.

k-003.117
Yaşıldır başun, ördəy,
Xoşdur qumaşun, ördəy.
Həmişə cüt gəzirdin,
Hanı yoldaşun, ördəy.

k-003.119
Əzizinəm, oyan, gül,
Oyan, bülbül, oyan, gül.
Tez açıldın, tez soldun,
Bizi mağmın qoyan gül.

k-003.120
Qızılgül həşəm oldu,
Dərmədim, həşəm oldu.
Sən məndən ayrılalı,
Ağlamaq peşəm oldu.

k-003.121
Könlümü sarı, qardaş,
Dəvəm osarı qardaş.
Aç belindən qurşağı,
Mafəmi sarı, qardaş.

k-003.123
Aman naşı əlindən,
Atmır daşı əlindən.
Yastığım şikayətçidi,
Gözüm yaşı əlindən.

k-003.124
Əzginəm gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Xəzəl olsa gül bağda.

k-003.125
Əzizinəm gül incir,
Bülbül incir, gül incir.
Yad bağban bağa girsə
Xəzəl düşər, gül incir.

k-003.126
Əzizinəm gül əllər,
Ağ biləklər, gül əllər.
Dünyaycan ağlın olsa,
Yoxsul olsan güləllər.

k-003.127
Çağırıram Həsən gəl,
Həsən bağrım kəsən, gəl.
Könlüm səni istəyir,
Ya mən gedim, ya sən gəl.

k-003.128
Çağır ha çağır oldu,
Hərə bir bağır oldu.
Qəm yükü daşımaqdan
Yüküm nə ağır oldu.

k-003.129
Çağırıram, quşum, gəl,
Qanadı gümüşüm, gəl.
Aləm ölü ayrımı,
Diri ayrılmışım, gəl.

k-003.130
Dağlarda dağlarım var,
Çiskinli bağlarım var.
Siz allah, qoyun gedin,
Dalımcan ağlarım var.

k-003.132
Mən aşiq, öz aranda,
Oxuyub yazaram da.
Bir neçə sözüm qaldı
Səniynən öz aramda.

k-003.133
Mən aşığam nəyim var,
Əlif üstdən beyim var.
Sən məni atdın getdin,
Səndən başqa nəyim var.

k-003.134
Ölürəm səndən ötrü,
Dumanam çəndən ötrü.
İşim bura qədərmiş,
Gəlmişəm səndən ötrü.

k-003.135
Əzginəm, gedər, qalmaz,
Axar su gedər, qalmaz.
Vəfalıya can qurban,
Bivəfa gedər, qalmaz.

k-003.136
Qaşdarın qarasından,
Meh gəlir arasından.
Təzə cavan olmuşam
Məhəbbət barasından.

k-004.1
Dağlarda geyin məni,
Buynuzu böyür məni.
Bir belə ki dərdim var,
Nə yaxşı döyükmərəm.

k-004.2
Ay gedən, səniynənəm,
Gəl getmə, səniynənəm.
Bülbül güliynən olsa,
Mən elə səniynənəm.

k-004.3
Nöşün getdin suva sən,
Sudan oldun dua sən.
Bir quşcan olmadın,
Bağlamadın yuva sən.

k-004.6
Dağlar səni əndərim,
Yönün bəri döndərim.
Müşgül işim düşübdür,
Sənə kimi göndərim.

k-004.7
Dağların hünüsü var,
Eli var, ulusu var.
Göydə parça buludun,
Nə yaman dolusu var.

k-004.8
Üzülmüşəm, üzülmüş,
Xumar gözlər süzülmüş.
Hanı bir mənim kimi
Əli əldən üzülmüş.

k-004.10
Qəribəm, ağrır başım,
Yastığa damar yaşım.
Çıxarlar, çağırarlar,
Qərib gəldi qardaşım.

k-004.14
Götürün köndələni,
Gözüm görsün gələni.
Qəbrə necə qoyarlar,
Bu dərd ilən öləni.

k-004.16
Mən aşıq neynim sənə,
Düşübdür meylim sənə.
Qızıldan qiymətlisən,
Düşmüsən neynim sənə.

k-004.17
Bu çaya çay demərəm,
Axmasa çay demərəm.
Mən dünyaya, ay bala,
Heç sənə “vay” demərəm.

k-004.18
Qardaşım birdi mənim,
Gözümə nurdu mənim.
Sənə qardaş demərəm,
Taleyim kürdü mənim .

k-004.19
Gözümnən gilə gəldi,
Yaş gəldi, gilə gəldi.
Bacı-qardaş deməkdən,
Sümüyüm dilə gəldi.

k-004.20
Göydə gedən sonalar,
Bir-birinə yan alar.
Sənin qurbanın olsun,
Oğlu ölən analar.

k-004.22
Mən aşıq girdə şirin,
Yeməyə girdə şirin.
Sənin kimi qardaşnan
Danışam bir də şirin.

k-004.23
Mən aşığam boyanan,
Dəstə dərdim oyana.
Çəkərəm pünhan-pünhan,
Verməm dərdim bəyana.

k-004.24
Mən aşıq səmək olmaz,
Səməki yemək olmaz.
Dərdün başdan aşsa da,
Hər yerdə demək olmaz.

k-004.25
Dərdimin hansın deyim,
Oxuyum, yarsın deyim.
Hamısın deyə bilməm,
Barı qoy yarsın deyim.

k-004.27
Məni vurub talx ilan,
Vur başuvu çalx ilan,
Mənə Allah eləyib,
Nə işim var xalx ilan.

k-004.28
Vurubdur talxa məni,
Yüz gölə çalxa məni.
Ahun canımdan getməz,
Yüz gölə çalxa məni.

k-004.31
Mən ölürəm çiçəkdən,
Üzüm qoru milçəkdən.
Yad ağlar, yanlış ağlar,
Anam ağlar gərçəkdən.

k-004.34
Verən sənsən, alan sən,
Heç demədin yalan sən.
Kimini ağbaxt etdin,
Kimə saldun talan sən.

k-004.35
Mən ağıq, dərmə-dərmə,
Xallarun dərmə-dərmə,
Yetişməmiş bostandı,
Çağırram dərmə-dərmə.

k-004.38
Mən ağıq gül ambarı,
Bağlanıb gül anbarı.
Fələk məni qoymadı
Doyunca güləm barı.

k-004.39
Əziziyəm, yüz məndən,
Əlli məndən, yüz məndən.
O qədər ağlayıram,
İnciyir üz məndən.

k-004.41
Mən ağığam sağdan gəl,
Soldan gəlmə, sağdan gəl.
Könlüm səni istəyir,
Bir dumanlı dağdan gəl.

k-004.45
Yetim mənəm, yetim mən,
Yetim əlin tutum mən.
Dərdi bazara çəkdim,
Alan olsa satım mən.

k-004.48
Əzizim daldasına,
Dal verib daldasına.
Əlüvü dalda elə,
Mən girim daldasına,

k-004.49
Arxalığun qola sal,
Qoldan götür, qola sal.
Əziz qonağun gəlib,
Dur oları yola sal.

k-004.50
Oba köçdü çaxnağdan,
Sular doymaz axmağdan.
Gözdərimə tor gəldi,
Yollarıva baxmaqdan.

k-004.52
Bağa girdim üzümə.
Tikan batdı dizimə.
Əgildim çıxartmağa,
Sən görükdün gözümə.

k-004.54
Qaraçının köçündə,
Bir gözəl var içində.
Namərd dostun üzündən
Rüsvayam el içində.

k-004.56
Sağdarı gülləsənə,
Gül vurub gülləsənə.
Sən igid balasısan,
Dəgməz heç güllə sənə.

k-004.59
Quzumun rəngi ağdı,
Quyruğu dolu yağdı.
Çəkəcəyəm cəfanı,
Nə qədər canım sağdı.

k-004.60
Əzrayıl, üz görmüsən,
Yönüvü düz görmüsən.
Gedirsən, qayıdırsan,
Məni yalqız görmüsən.

k-004.62
Şirvan üstü meşədi,
Meşə tey bənövşədi.
Ah çəkib qan ağlamaq
Mən yazığa peşədi.

k-004.63
Bu qoyun haranındı,
Ağlıdı, qaranındı,
Xanın, bəgin əlindən
Ürəgim yaralıdı.

k-004.65
Əzizim ağır ağla,
Fağırdan fağır ağla.
Mən yaduva düşəndə
Çıx çöldə çağır ağla.

k-004.67
Gözüm səni axtarır,
Sözüm səni axtarır.
Əzrahıl sinəm üstə,
İzim səni axtarır.

k-007.2
Əzizim gözlə məni,
Kabab tək közlə məni.
Mən gül olub dayanam,
Bülbül ol, gözlə məni.

k-007.4
Əzizim yaz bəri gəl,
Eləmə naz bəri gəl.
Qışım qürbət keçibdir,
Gələndə yaz, bəri gəl.

k-007.5
Əzizim yar içərdə,
Yar bağrımı yar içərdə.
Gözüm qaldı içərdə,
Çıxmadı yar içərdə.

k-007.7
Dağlara qar düşübdür,
Gör nə hamar düşübdür.
Qoymayır fələk səni,
Könlüvə yar düşübdür.

k-007.10
Əzizinəm gülənaz,
Bülbül eylər gülə naz.
Dünya qəm dünyasıdır,
Ağlıyan çox, gülən az.

k-007.14
Əzizim qala məndə,
Bürc məndə, qala məndə.
Sənlə keçən günlərin
Əsəri qalıb məndə.

k-007.18
Əzizinəm hər aylar,
Hər ulduzlar, hər aylar.
Başım cəllad əlində,
Dilim səni haraylar.

k-007.19
Ağ dəvə düzdə qaldı,
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı,
Dərmanı qızda qaldı.

k-007.20
Bu yol karvansız olmaz,
Karvan sarvansız olmaz.
Gedək həkim yanına,
Həkim dərmansız olmaz.

k-007.23
Gedəsən, gəlməyəsən,
İlqar ver dönməyəsən.
Səni kimilər qaçaqdır,
Evində ölməyəsən?!

k-007.24
Yağaram yağış kimi,
Əsərəm qamış kimi.
İyi burnuma gəlir,
Nübar bir yemiş kimi.

k-007.25
Əzizinəm, gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Xəzəl olsa gül bağda.

k-007.26
Bu dağlar olmasaydı,
Saralıb solmasaydı.
Bir ölüm, bir ayrılıq,
Hər ikisi olmasaydı.

k-007.27
Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar,
Dindirirəm dinməyir,
Dönəsən daşa dağlar.

k-007.28
Bu gələn alim imiş
Oxuyub alim imiş.
Tez tutdu, tez apardı,
Dərdim nə zalım imiş.

k-008.1
Əzizinəm bir ay var,
Bir ulduz var, bir ay var.
Gündə gördüyüm yarı
Görmədiyim bir ay var.

k-008.3
Mən aşığam tağıyar,
Bostanı yar, tağı yar.
Bostanım sənə qurban,
Ayaqlama tağı, yar.

k-008.4
Aşıq dalda ağacı,
Xalın dalda ağacı.
Aşığın səndən başqa
Yoxdu dalda ağacı.

k-008.8
Əzizim nə bağışlar,
Yar-yara nə bağışlar.
Başım cəllad əlində,
Nə kəsər, nə bağışlar.

k-008.9
Əzizinəm baxtı kəm,
Bağbanı kəm, baxtı kəm.
Mən fələyə neylədim,
Fələk mənə baxdı kəm.

k-008.17
Süfrənizə bal düzüb,
Dəymiş qalıb kal düzüb,
Yarım özgəsin sevib,
Ürəyinə xal düzüb.

k-008.18
Oğul, kəsmə səsini,
Səsini, nəfəsini.
Sonsuz ata-ananın
Kim bağlar çənəsini.

k-008.20
Ay qız, adın Xanımdır,
Sənin yerin yanımdır.
Özün mənim gözümsən,
Bacın din-imanımdır.

k-008.23
Oğlan, adın Paşadır,
Eviniz baş-başadır.
Mən gedirəm o yara,
Üzükləri qoşadır.

k-008.24
Ocağam, tüstümə gəl,
Durmusan qəsdimə gəl.
Dərdindən od tutmuşam,
Yanıram, üstümə gəl.

k-009.1
Mən aşiq vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Qürbət yer cənnət olsa,
Yenə də vətən yaxşı.

k-009.4
Barmağım beşdi mənim,
Yaşım on beşdi mənim,
Zəhmət çəkdim yar sevdim,
Axırım heşdi mənim.

k-009.5
Mən aşiqəm xan gələr,
Paşa gələr, xan gələr.
Gəlsən mənim üstümə,
Meyid olsam can gələr.

k-009.7
Mən aşıq, lampa məndə,
Şam məndə, lampa məndə.
Nə bir dövlət, nə bir can,
Qoymadı hana məndə.

k-009.8
Bakının yolu fərman,
Torpağı gözə dərman.
İldə bir namən gəlsə,
Götürrəm gözə dərman.

k-009.9
Bakının badamı var,
Püstəsi, badamı var.
Barı gəl qəbrim üstə,
Desinlər adamı var.

k-009.10
Sarı köynəyim sarı,
Zərxaradı astarı.
Bakının xatunları,
Saxlama zendən yarı.

k-009.11
Oturmuşdum səkidə,
Ürəyim səksəkədə,
Karvançı xəbər verdi,
Yarın qaldı Bəkidə.

k-009.12
Bakıda üzüm qaldı,
Dərmədim, üzüm qaldı.
Yarı yada verdilər,
Dalınca gözüm qaldı.

k-009.15
Üzgünü, ay üzgünü,
Gözəl neylər güzgünü.
Yüz il ömür elədim,
Bir görmədim düz günü.

k-009.16
Lığı gətir düz belə,
Dizin üstə əz belə.
Xırda Burma gəz belə,
Çəmən ilə, düz ilə.

k-009.17
Həsirim dürməlidi,
Qırağı bürməlidi.
Bizim bu bağ, bu bağat
Yamanca görməlidi.

k-009.18
Dolayı gəz, dolayı,
Həsirdi bu darayı.
Tikdirmişəm sarayı,
Yoxdu cahanda tayı.

k-012.1
Mən aşiq üzə düşdü,
Sürmələr gözə düşdü.
Hamı vüsala yetdi,
Ayrılıq bizə düşdü.

k-012.3
Maral çıxdı o gözdən,
O gədikdən, o gözdən.
Gözün çıxsın, ay ovçu,
Necə vurdun o gözdən.

k-012.4
Mən aşıq, qala yerdə,
Su durar çala yerdə.
Qorxuram cavan öləm,
Həsrətim qala yerdə.

k-012.5
Quşum uşdu tüləkdən,
Qolum düşdü biləkdən.
Biziyçün belə gəlib
Çarxı dönmuş fələkdən.

k-012.6
Əzizinəm tikan gülə,
Sarmaşıb tikan gülə.
Heç kəs gözün tikməsin
Mən gözümü tikən gülə.

k-012.7
Əzziyəm[1] balabanı,
Asta çal balabanı.
Hamının balası yanında,
Bəs mənim balam hanı.

k-012.8
Dağlar başı tütündü,
Ürək başı bütündü.
Gəl bir söhbət eləyək,
Dünya ölüm-itimdi.

k-012.10
Əzizim binə gələrəm,
Gedərəm, yenə gələrəm.
Bilsəm sən gələcəksən,
İmana-dinə gələrəm.

k-012.11
Mən aşığam, gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Xəzər olsa gül bağda.

k-012.13
Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm
Danışmadım doyunca.

k-012.15
Bu dağda maral azdı,
Ovçu çox, maral azdı.
Ana, çəkmə cəfamı,
Ölmərəm, yaram azdı.

k-012.16
Əzziyəm binə qaldı,
Məhəmməd dinə qaldı.
Bir də səni görməyim
Qiyamət günə qaldı.

k-012.17
Bostanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Ölənəcən ağlaram,
Sonra torpağım ağlar.

k-012.19
Əzzinəm sarayımdan,
Xan gəzər sarayımda.
Gündə bir kərpic düşür
Ömrümün sarayından.

k-012.20
Bu yola yol saleydim,
Karvanın bol saleydim.
Bilseydim ayrılacaqsan,
Boynuva qol salaydım.

[1] Əzziyəm – Əziziyəm
(Şirvan dialektində “i” düşür.

k-012.21
Göyərçinəm, uçdum, gəl,
Dost bağına düşdüm, gəl.
Yaxşı günün yoldaşı
Yaman günə düşdü, gəl.

k-012.22
Ağlaram el gələnə,
Çaylara sel gələnə.
Bir kolgəlik salmadub
El gələ, kölgələnə,

k-012.23
Dağda bir quzu gördüm,
Tükü qırmızı gördüm.
Aşdım cənnət qapısın,
Sevdiyim qızı gördüm.
k-012.24
Əziziyəm yastı dağlar,
Duman, sis basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz ay yaslı dağlar.

k-012.25
Aşıq nəşəli yerdə,
Gül, bənövşəli yerdə.
Sənin gözəl bədənin
Qaldı döşəli yerdə.

k-012.27
Ama-aman oldu, gəl,
Halım yaman oldu, gəl.
Bir də səni görəydim,
Axır zaman oldu, gəl.

k-012.28
Buxarı qurum olar,
Od yanar, qurum olar.
Oğlu ölən anaya
Çox zaman zulum olar.

k-012.29
Əzizinəm tikə-tikə,
Kəs bağrım tikə-tikə.
Qoy məni yar ağlasın
Kəfənim tikə-tikə.

k-012.30
Əzizinəm nələr keçər,
Ahular mələr keçər.
Oğulsuz anaların
Ürəyindən nələr keçər.

k-012.31
Xoruz dan verəndə gəl,
Yaram qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı, can verəndə gəl.

k-012.32
Əzizim o gün eylər
Dərd ürəkdə düyün eylər.
İki həsrətli qovuşsa,
Bayramın o gün eylər.

k-012.34
Əzizinəm, qulam mən,
Ağa sənsən, qulam mənəm.

Qoymayırlar danışam,
Deyirlər ki, qulam mən.

k-012.35
Əzizinəm, dalda gəzər,
Gün gedər, dalda gəzər.
Mərdlər qabağı gözlər,
Namərdlər dalda gəzər.

k-013.57
Mən aşiqəm, yaz göndər,
Payız göndər, yaz göndər.
Əyər kağız olmasa,
Yarpaq üstə yaz göndər.

k-012.37
Mən aşiqəm, yüz mənnən,
Əlli mənnən, yüz mənnən.
Gözüm yaşı axmaqdan,
İnciməyib üz mənnən.

k-012.39
Qızıl iynənin sapı,
Görünür sizin qapı.
Səni məndən eyləyən
Dilənsin qapı-qapı.

k-012.40
Su gəlib kəndə dəydi,
Gəlib kəməndə dəydi.
Burda bir qız sevmişəm,
Eyliyi kəndə dəydi.

k-012.41
Əzizim sizə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Yüz il qazmat çəksəm,
Qurtarıb sizə gəlləm.

k-012.42
Şirvanın küçələri,
Bannaşır beçələri.
Sən yatdun yuxun aldın,
Mən gəzdim küçələri.

k-012.43
Əzizim inci məndən,
Dürr məndən, inci məndən.
Mən dedim dost olarıq,
Demədim inci məndən.

k-012.44
Gözdəkin göz dərmanı,
Kababa göz dərmanı.
Ayağı dəyən yerdən
Götürdüm göz dərmanı.

k-012.45
Dağları gəzdim gəldim,
Ağ gülü üzdüm gəldim.
Yarı bivəfa gördüm,
Əlimi üzdüm gəldim.

k-013.1
Çay mənim, çeşmə mənim,
Çayımnan keçmə mənim.
Dərdim başımdan aşır,
Dərdimi deşmə mənim.

k-013.2
Dağları qəcəl aldı,
Qar yağdı, qəcəl aldı.

Bir yanım qərib ölkə,
Bir yanım əcəl aldı.

k-013.4
Dağlar başı ala qar,
Ala duman, ala qar.
Həmişə qar yağmışdı,
Yağmamışdı belə qar.

k-013.5
Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz.
Anadan yetim qalan
Ürəyində yağ olmaz.

k-013.6
Fələyin qəhri mənə,
Qəzəbi, qəhri mənə.
Doldurub qəm piyaləsin,
İçirdir zəhri mənə.

k-013.7
Dağısdanın dağı var,
Çölə çıxma, yağı var.
Gəl mənə dəymə, fələk,
Məndə hicran dağı var.

k-013.8
Yaşım üzə dayandı.
Axdı, üzə dayandı.
Əllidən artdı dərdim,
Axrı yüzə dayandı.

k-013.9
Ürəyimdə yaram var,
Üstdə xalxal qaram var.
Aç ürəyimin başın,
Gör yanmamış haram var.

k-013.11
Əzziyəm, çən gəlincən,
Dumanam, çən gəlincən.
Düşmənə fürsət verməm,
Köməyə sən gəlincə.

k-013.12
Əzziyəm çən gəlincə.
Dumanam çən gəlincən.
Əzrayıla can verməm,
Üstümə sən gəlincə.

k-013.13
Əzziyəm bağda dara,
Zülfünü bağda dara.
Bülbülü güldən ötrü
Çəkiblər bağda dara.

k-013.14
Əziziyəm çin olar,
Çil kəkliklər çil olar.
Tərlan dəydi gözümə,
Ərşə çıxdı çilolar.

k-013.15
Əzziyəm illər ayrısı,
Bülbüləm, gül ayrısı.
Dərdə dözməyən canım
Düşmüşəm illər ayrısı.

k-013.17
Əzziyəm haraycı mən,
Ovçu mən, haraycı mən,

Toqquşaydı iki məmə,
Arasında harayçı mən.

k-013.18
Əzizim əzələ bax,
Ağacda xəzələ bax.
Baş açıq, ayaq yalın,
Bu keçən gözələ bax!

k-013.21
Əziziyəm, oyan, gül,
Bu yan bülbül, o yan gül.
Vədə verdin, gəlmədin,
Gözümü yolda qoyan gül.

k-013.26
Əziziyəm gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olsa,
Qurbanınam gündə mən.

k-013.27
Bu qala daşdı qala,
Torpağı daşdı qala.
Qorxuram düşəm öləm,
Yar gözü yaşdı qala.

k-013.28
Əzziyəm duz kimidi,
Göydə ulduz kimidi.
Sənsiz necə tək yatım,
Yorğanın buz kimidir.

k-013.29
Sən gedən maşad olsun,
Hac olsun, maşad olsun
Səni məndən ayıran
Nə gülsün, nə şad olsun.

k-013.30
Su gəlir pərli-pərli,
Qoşası qoşa nərli.
Gireydim yar qoynuna,
Çıxeydım tərli-tərli.

k-013.31
Əzizim gül məkanda,
Gül əkdim gül məkanda.
Sən güldün, mən də güldüm,
Mən handa, gülmək handa.

k-013.34
Əziziyəm, ağam, gəl,
Ölməmişəm, sağam, gəl.
Boyumda qəm zinciri,
Yolunda dustağam mən.

k-013.35
Əzizim nöşün ağlar,
İtirmiş quşun ağlar.
Qəfil mənlə vurulub,
Kirəkeş nöşün ağlar.

k-013.36
Bağça məndə, bar məndə,
Heyva məndə, nar məndə.
Sinəm qəm oylağıdır,
Nə dərd desən var məndə.

k-013.37
Əzizinəm gilən gəz,
Süsən-sünbül gilən gəz.

Yad evdə xan olunca,
Öz evində dilən, gəz.

k-013.38
Mən aşiq qarğamışa,
Tap öylü qarğamışa.
Yüz min loğman neynəsin,
Bir Allah qarğamışa.

k-013.39
Kərgədan, ay kərgədan,
Ölsün səni öyrədən.
Fələk bir iş işlədi,
Çıxdım ceydən-cərgədən.

k-013.40
Mən aşiq el gələnə,
Başında tel gələnə,
Burda bir bağ salmışam,
Yar gəlib kölgələnə.

k-013.42
Köynəyin zərri oğul,
Yaxası pərri oğul.
Bəs necə fərsiz çıxdın,
Hamıdan fərri oğul?!

k-013.43
Evləri həsir bacı,
Gör nə tələsir bacı.
Sevgilim əsgər gedib,
Ürəyim əsir, bacı.

k-013.44
Mən aşiq gözdəməm var,
Kababa közdəməm var.
Əzrayıl, canımı alma,
Uzaqda gözdəməm var.

k-013.49
Musa gəzdi tavada,
Günü keçdi davada.
Külək bir eşq dəlisi,
Olarmı mən havada.

k-013.52
Mən aşiq balıq səni,
Bal səni, balıq səni.
Budur haqdan istəyim,
Saxlasın xalıq səni.

k-013.53
Quzumu saxlayaram,
Bəslərəm, saxlayaram.
Qəbir evində olasan,
Gələrəm yoxlayaram.

k-013.54
Maşın gəlir köndələn,
Qolum yoxdu döndərəm.
Adresini bilmirəm,
Məktub yazıb göndərəm.

k-013.56
Başmağı, ay başmağı,
Bilmirəm söz qoşmağı.
Sən dünya gözəlisən,
Neynirsən bu yaşmağı.

k-013.58
Əzziyəm, sizə gəlləm,
Sürmə çək gözə, gəlləm.

Yüz il qazamat çəksəm,
Qurtarsam sizə gələm.

k-013.59
Mən aşiq xalda nə var,
Min alin xaldanə var.
Əməlli dil-dodaqdı,
Buxaqda, xalda nə var.

k-013.60
Mən aşiqəm yüz il gəz,
Yüz il dolan, yüz il gəz.
Vəfalının yolunda,
Dayanmadan yüz il gəz.

k-015.1
Aşıq su deyib ağlar,
Sünbül su deyib ağlar.
Yarım bir gül dəribdir,
O da su deyib ağlar.

k-015.2
Mən aşiq daş bulağa,
Ayaq götür, aş bulağa.
Mən dərdli, sən yaralı,
Tökək qan-yaş bulağa.

k-015.7
Əziziyəm xəstə mən,
Düşmüşəm şikəstə mən.
Öy-eşiyim dağılıb,
Qalmışam yol üstə mən.

k-015.9
Dağları gəzən mənəm,
Əhdim var, bəzənmənəm.
Qoşunu basğına verib,
Hər dərdə dözən mənəm.

k-015.10
Əzizim Saray mənə,
Zığ mənə, Saray mənə.
Yardan aralı düşdüm,
Olmadı haray mənə.

k-015.11
Mən aşiq sarıları,
Alları, sarıları.
Canım yara mən verdim,
Özgəyə nə zəralı.

k-015.14
Mən aşıq qızıldanam,
Gümüş yox, qızıldanam.
Ayaqlara düşmüşəm,
Sübhü-şam sızıldaram.

k-015.15
Əzzinəm dalda yeri,
Dalda dur, dalda yeri.
İki könül bir olsa,
Tez tapar dalda yeri.

k-016.2
Əzzinəm yada gələm,
Sirr vermə yada, gələm.
Ağlama, xumar gözlüm,
Ya öləm, ya da gələm.

k-016.3
Əzzinəm, dara gəlsin,
Zülf üzə dara gəlsin.

Sənsiz bayram eyləsəm,
Bayramın qara gəlsin.

k-016.4
Əzizinəm, düzə düşdü,
Düzəltdi, düzə düşdü.
Hamı öz yerində qaldı,
Ayrılıq bizə düşdü.

k-016.5
Əzizinəm qara gözlər,
Sürməli qara gözlər.
Atamın evin yıxdı,
Səndəki qara gözlər.

k-016.6
Əzizinəm göy bağlar,
Yaşıl bağlar, göy bağlar.
Gözəllərdə qaydadır,
Ağ buxağa göy bağlar.

k-016.7
Əzizinəm, bax səmaya,
Qaş-gözün bax səmayə.
Zərrəncən görsəm üzün,
Kafirəm bax səmayə.

k-016.8
Əzizinəm, sən gələsən,
Ömrümə şən gələsən.
Əziz gün, əziz bayram,
Qonağım sən gələsən.

k-016.9
Əzizinəm, göz dərmanı,
Kababa göz dərmanı.
Ayağun dəyən yerdə
Götürrəm göz dərmanı.

k-016.10
Əzzinəm, buda məni,
Xəncəl al, buda məni.
Gör nə günə qalmışam,
Bəyənmir bu da məni.

k-016.11
Əzzinəm, səndən ötrü,
Dumanam çəndən ötrü.
Mən bura gəlməzdim,
Gəlmişəm səndən ötrü.

k-016.12
Əzizim, neylim sənə,
Düşübdü meylim sənə.
Mən dönsəm üzüm dönsün,
Sən dönsən neylim sənə.

k-016.13
Əzizinəm, yaz bağda,
Al qələmi, yaz bağda.
Sənə mehman olaydım,
Qış otaqda, yaz bağda.

k-016.14
Əzizinəm odu getdi,
Balyanın xodu getdi.
Gözün çıxsın, ay ovçu,
Sonalar odu getdi.

k-016.15
Kolanı oğru olar,
Düz olmaz, oğru olar.

Yar dərdindən ölübdür
Desələr doğru olar.

k-016.16
Əzizim nə zamandır,
Nə dövran, nə zamandır.
Sən ki məni görmədin,
Bilirsən nə zamandır.

k-016.17
Aşıq aşnalar mənim,
Şəbi teşnələr mənim,
Qohum varsa əlimdən,
Tutar aşnalar mənim.

k-016.18
Qardaş, acın deyiləm,
Başda tacın deyiləm.
Özümü öldürsəm də,
Doğma bacın deyiləm.

k-016.19
Əzizim, dağlar səni,
Zəncirə bağlar səni.
Nə tez aldı qoynuna,
Bu gədə dağlar səni.

k-017.2
Bulağın başı sənsən,
Dibinin daşı sənsən.
Dünya gözələ dönsə,
Hamısının başı sənsən.

k-017.3
Dağlara qar düşübdü,
Gör nə hamar düşübdü.
Qoymur fələk səni,
Könlünə yar düşübdür.

k-017.4
Əzizinəm dil yara,
Dodaq yara, dil yara.
Gəl oturaq üzbəüz,
Söz yetirim dildara.

k-017.5
Əzzinəm, keçdi məndən,
Ox dəydi, keçdi məndən.
Mərdlərə körpü oldu,
Namərdlər keçdi məndən.

k-017.7
Əzizinəm, bahara mən,
Qışa mən, bahara mən.
Güzəranım pis keçir,
Çəkilirəm dara mən.

k-017.8
Mən aşiq ada qaldı,
Su getdi, ada qaldı.
Zəhmət çəkdim, ev tikdim,
O da ki, yada qaldı.

k-018.1
Qəribəm bu vətəndə,
Qərib burdan ötəndə.
Qəriblik çox yamandı,
Baş yastığa yetəndə.

k-018.5
Əzizim bular imiş,
İçməyə sular imiş.

Əzrayıl yalan oldu,
Can alan bular imiş.

k-018.6
Əzizim kətən sarı,
Geyməyə kətən sarı.
Bəxtəvər olsun başın,
Gedirsən vətən sarı.

k-018.7
Mən aşıq, dərir bir-bir,
Kölgəyə sərir bir-bir.
Əzrayıl oğru olub,
Meyvəmi dərir bir-bir.

k-018.11
Ocaqda qar olmazmış,
Od sönər, qar olmazmış.
Belə qan ağlayan göz
Bəs niyə kor olmazmış?!

k-018.12
Bura Şivan dedilər,
Dosta düşman dedilər.
Yarım gəzən torpağı
Mənə dərman dedilər.

k-018.14
Mən aşığam Mərəndə,
Miyanədi mərəndə.
Arzum budur öləydim
Qoynundan nar dərəndə.

k-018.20
Qızılgülü aldım, gəl,
Qəfil yerdə saldım, gəl.
Sən görən yaxşı gündü,
Yaman günə qaldım mən.

k-018.21
Ceyranım çaya qoyduz,
Dərdlərim saya qoyduz.
Çağırıram dost-qardaşı,
Oğlumu hara qoyduz?

k-018.21a
Ceyranım çaya gəlməz,
Dərdlərim saya gəlməz.
Çağırram dost-qardaşı,
Heç biri haya gəlməz!

k-018.23
Yığaram boyaq səni,
Görmədim oyaq səni.
Dərd əlindən bezaram,
Çağırram dayaq səni.

k-018.24
Yaralıyam, ölmərəm,
Sağalmağı bilmərəm.
Sən getdin, gülmək getdi,
Ömrüm boyu gülmərəm.

k-018.27
Karvan maya getdi,
Sel gəldi, qaya getdi,
Mən qazar gözləyirdim
Əlimdən mayam getdi.

k-018.29
Bu sürü hara gedər,
Baş alar, hara gedər.

Deyingən dul arvadlar
Axtarar kara gedər.
k-018.32
Araz üstə bənd oldu,
Şəhər oldu, kənd oldu.
Yarın acı kəlməsi
Öz yarına qənd oldu.

k-018.34
Təbriz üstü Miyana,
Bülbül gülə dayana.
Oxu bülbülüm, oxu,
Bəlkə yarım oyana.

k-018.35
Saray bağı bağ deyil,
Üzümləri ağ deyil.
Qırılıb qohum-qardaş,
Bircəsi də sağ deyil.

k-018.36
Əzizim qara çəkər,
Başdarın qara çəkər.
Yar məndən küsüb getsə,
Qolbaşı dara çəkər.

k-018.37
Ceyranım düzə gələr,
Düzdə üz-üzə gələr.
Yar bəzənib çıxıbdı,
İnşallah, bizə gələr.

k-018.38
Araz başından şil gəlir,
Dəstə-dəstə gül gəlir.
Nelərəm elə yarı
Ayda, ildə bir gəlir.
k-018.39
Yerişin qaza bənzər,
Boyun şahbaza bənzər.
Bir də üzün görəsən,
Gülüşü yaza bənzər.

k-018.41
Su gələr bəndə dəyər,
Kəklik kəməndə dəyər.
Səndəki bu gözəllik
Bir abad kəndə dəyər.

k-018.42
Su gələr, daşa dəyər,
Kipriklər qoşa gələr.
Yarın bir cüt öpüşü
Qohum-qardaşa dəyər.

k-018.43
Dərya dərinkən üzər,
Suyu sərinkən üzər.
Bir vəfalı yar olsa,
Ondan gəmi kimi üzər.

k-018.44
Kəklik daşda nə gəzər,
Tökəm aşda nə gəzər.
Sən tək yarı almışam,
Ağıl başda nə gəzər.

k-018.45
Bulaqda şanar gəzər,
Günlərim sonar gəzər.

Mən yara neylədim ki,
Yar məndən kənar gəzər.

k-018.46
Zülf töküb üzə dilbər,
Çıxıbdı düzə dilbər.
Duvaq salın üzünə,
Gəlməsin gözə dilbər.

k-018.47
Zülfün tök belə, dilbər,
Gülün çək telə, dilbər.
Yetər intizar qoydun,
Dolan gəl belə dilbər.

k-018.48
Ceyranlar qoşa gedər,
Gözlə ox başa gedər.
Yar ilqara düz olsa,
Ömür-gün xoşa gedər.

k-018.49
Quş uçar, dəstə gedər,
Hərə bir səsdə gedər.
Səni görən zamanı
Evinə xəstə gedər.

k-018.50
Qızılgülü seçərlər,
Budağından biçərlər.
Vəfalı yar yolunda
Candan, başdan keçərlər.

k-018.51
Gəl təkəm qanda işlər,
Quş uçar, qanda işlər.
İzin ver ağ buxaqda
Qoy batsın qana dişlər.

k-018.52
Mən aşıq qəm gülbəsər,
Bağda bitər gülbəsər.
Yar baxar gəlməsə,
Bülbül içir gülbəsər.

k-018.53
Əziziyəm yarı tər,
Yarı qonaq, yarı tər.
Kiprik qırpmaz gözlərim,
Kölgə salan yar istər.

k-019.1
Bu dağlar qoşa qağlar,
Verib baş-başa dağlar.
Səndə tərlanım qalıb,
Dönəsən daşa, dağlar.

k-019.2
Sənə yaralı qurban,
Bağrı qaralı qurban.
Sənin təzə yarana
Köhnə yaralı qurban.

k-019.4
Xoruz ban verən yerdə,
Yaram qan verən yerdə,
Ana gəlsin yetişsin,
Oğul can verən yerdə.

k-019.9
Əzizim şana-şana,
Arı qonmaz bu şana.

İgidin oğlu gərək,
Qızdan olmaz nişanə.

k-019.10
Narıncı oyub getmə,
Qabığını soyub getmə,
Mən yazığı bir düşün,
İntizar qoyub getmə.

k-019.11
Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə.
Qəribə əsər eylər,
Tənəli söz yetəndə.

k-019.12
Qubaya qoşun getdi,
Bilmədim nöşün getdi.
Aləmnən bir-bir getsə,
Bizdən bir qoşun getdi.

k-019.20
Sənə qızıl aldım, gəl,
Qəfil yerdən saldım, gəl.
Sən görən yaxşı gündü,
Yaman günə qaldım gəl.

k-019.24
Mən aşiq üzə düşdü,
Sürmələr gözə düşdü,
Hər kəs öz işindədir,
Ayrılıq bizə düşdü.

k-019.25
Mən aşıq qaşad olsun,
Sürmə çək qaşad olsun.
Səni məndən edəni
Nə gülsün, nə şad olsun.

k-020.1
Biçin biçdim, dərz oldu,
Sözüm xana ərz oldu.
Mən sevdim yad apardı,
Ölüm mənə fərz oldu.

k-020.2
Əzizinəm ləgəndə,
Ləgən boynun əgəndə.
İki qurban demişəm,
Əlim-əlüvə dəgəndə.

k-020.3
Əzizinəm qalasız,
Şəhər olmaz qalasız,
Mən ki, getməli oldum,
Siz sağlıqnan qalasız.

k-020.5
Yaylığının gülü yansın,
Od düşsün, gülü yansın,
Səni məndən edənin
Ağzında dili yansın.

k-020.9
Əzzinəm[1] gülə-gülə,
Gül əkdim gülə-gülə.
Düşmən evimi yıxdı,
Üzümə gülə-gülə.

---

[1] Əzinəm – Əzizinəm (dialektdə belə işlənir).

k-020.10
Mən aşiq yazan oldu,
Yazını yazan oldu.
Sən deyən səndə qaldı,
İlahi yazan oldu.

AX-007.2
Əzzinəm gülən naz,
Bülbülə naz, gülə naz.
Bu dünya bey bahadır,
Ağlıyan çox, gülən az.

AX-007.3
Savalan biz bağladı,
Dibi qarpız bağladı.
Gəlin məni oxladı,
Yaramı qız bağladı.

AX-007.4
Sovetskini buruldum,
Burulmamış vuruldum,
Sevgilimin şirin dilinə
Elə yaman vuruldum.

AX-007.6
Qızdırma tutdu məni,
Tutdu, qurutdu məni.
Mənim istəkli balam
Nə tez unutdu məni.

AX-007.7
Əzizim sən gəlincə,
Dağlara çən gəlincə.
Həsrətlə yolunu gözlərəm,
Qayıdıb sən gəlincə.

AX-007 .12
Əziziyəm at məni,
Kənizlərə qat məni.
Apar qul bazarına
Vətənimə sat məni.

AX-007 .16
Qəribəm, yoxdur arxam,
Qanadım yoxdur çalxam.
Qonam uca dağlara,
Vətənə doğru baxam.

AX-007.19
Meşəmiz söyüd verər,
Şam verər, söyüd verər.
Ata çörək verəndir,
Müəllim öyüd verər.

AX-007.24
Tutdu bir atdı məni,
Zərli qanadlı məni.
Bir namərdə dost oldu,
Bir gündə atdı məni.

AX-007.26
Pis oğul ata bilməz,
Yaxşıya çata bilməz.
Yüz min namərd yığıla,
Bir mərdə çata bilməz.

AX-007.29
Əzizinəm el səni,
Yana səni, tel səni.
Seçmə namərd körpüsün,
Qoy apasın sel səni.

AX-123.1
Mən öldüm ağlamaqdan,
Ağa göy bağlamaqdan.
Bağda xəzəl qalmadı,
Yarama bağlamaqdan.

AX-123.2
Mən aşıq göz dərmanı,
Kababa köz dərmanı.
Ayağun dəyən yerdə,
Götürrəm göz dərmanı.

AX-123.3
Əzziyəm sizə gəlləm,
Sürmə çək gözə, gəlləm.
Bir nadana söz verdim,
Yada yox, sizə gəlləm.

AX-123.4
Sabahın mehi əsdi,
Doğradı mehi əsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

AX-123.5
Dağların başı kömürdən,
Keçən günlər ömürdən.
Fələyin bir quşu var,
Dırnağı da dəmirdən.

AX-123.7
Dağlarda əkin olmaz,
Əkməsən əkin olmaz.
Ana bala qoynunda,
Yatmasa sakin olmaz.

AX-123.8
Dağların nə qaradı,
Nə səbri, nə qaralı.
Canıma bir od vurub,
Nə sönür, nə qaralır.

AX-123.9
Oba köçdü çaxmaqdan,
Sular doymaz axmaqdan.
Gözlərimə qan düşdü,
Yollaruva baxmaqdan.

AX-123.12
Mən aşiq balam hanı,
Çal görüm balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı.

AX-123.17
Dağların sarı gülü,
Ağ gülü, sarı gülü.
Biz fələyə neylədük,
Görmədük Tarı günü.

AX-123.18
Mən aşıqəm çal quzu,
Çal qoyunam, çal quzu.
Duman getdi, itirdim,
Duman getdi, gəl, quzum.

AX-123.20
Oydum, yaramı oydum,
Yarama məlhəm qoydum.
Qaysağ tutan yaradı,
Dərdimi elə yaydım.

AX-123.21
Mən aşığam, dua sən,
Sudan aldım duasan.
Bir quş qədər yox idün,
Bağlamadun yuva sən.

AX-123.22
Tüfəngimin pası var,
Atmamışam, pası var.
Sənin kimi igidin
İllərcən yası var.

AX-123.23
Gedərəm gedən olsa,
Yolun ərzədən olsa.
Kağız yazıb yollaram,
Yanuva gedən olsa.

AX-123.24
Mən aşığam oyan, gül,
Oyan, bülbül, oyan, gül.
Tez açıldun, tez soldun,
Məni mağmun qoyan gül.

AX-123.26
Mən aşıq canun üstə,
Quş qondu canun üstə.
Yeddi il zəhmət çəkdim
Bir şirin canun üstə.

AX-123.27
Dəryada çıraq yanar,
Çıraq nə iraq yanar?
Eşitsəm sən gəlirsən,
Ürəyimdə od yanar.

AX-123.28
Əlin xınalı getdi,
Ürəyin yaralı getdi.
Yaruvun ürəyində
Qarası bağlı getdi.

AX-123.30
Sözüvün safı vardı,
Ölməsə yadı vardı.
Dünyanın gözü səndə,
Yaman nöxsanı vardı.

AX-123.31
Mən aşıq, yaman ağlar,
Ölməsəm yaman ağlar.
Bağda güllər, bülbüllər
Xanı zadələr ağlar.

AX-123.33
Tatara bax, tatara,
Düzdü bizi qatara.
Xuda, bir igid yetir,
Gəlib eli qurtara.

AX-123.37
Arxalığın qola sal,
Qoldan götür, qola sal.
Əziz qonağun gəlib,
Dur onları yola sal.

AX-123.39
Quşum uçdu tüləkdən,
Qolum sındı biləkdən.
Bizimki belə gəlib,
Çarxı dönmüş fələkdən.

AX-123.41
Dağlara binə gəlləm,
Gedərəm, yenə gəlləm.
Bir də üzünü görsəm
İmana-dinə gəlləm.

AX-123.43
Dağlar başı tütündü,
Kimin bağrı bütündü.
Dur gəl üzüvü görüm,
Dünya ölüm-itimdi.

AX-123.44
Ay gedən, səniynənəm,
Gəl, getmə, səniynənəm.
Aləm özgeynən olsa,
Mən elə səniynənəm.

AX-123.47
Payız gedər, yaz gələr,
Ördək gedər, qaz gələr.
Belə addı igidlər
Dünyaya az-az gələr.

AX-123.48
Əzziyəm qala səndə,
Bürc səndə, qala səndə.
Qorxuram düşəm öləm,
İstəgim qala səndə.

AX-123.50
Göyərçinəm, uçdum, gəl,
Dost bağına düşdüm, gəl.
Yaxşı günün aşnası,
Yaman günə düşdüm, gəl!

AX-123.51
Bulağın başı ilə,
Dibinin daşı ilə.
Sənə namə göndərdim
Gözümün yaşı ilə.

AX-123.52
Araz axar lil ilə,
Dəstə-dəstə gül ilə.
Yarımı görseydim
Danışardım dil ilə.

AX-123.54
Əzzinəm keçdi məndən,
Kölgələr keçdi məndən.
Bir mərdə körpü oldum,
Namərdlər keçdi məndən.

AX-168.2
Əzizim kətan yaxşı,
Geyməyə kətan yaxşı.
Qürbət elə zindandı,
Yenə də vətən yaxşı.

AX-168.3
Burda yolum oldu tən,
Varmı bu yoldan ötən.
Dünyada ən şirin şey,
Bir anadır, bir vətən.

AX-168.4
Aparım yay qoyum,
İçinə biyan qoyum.
Vətənə kəm baxanın
Ürəyinə qan qoyum.

AX-168.5
Qolunda var qüvvətün,
Qoy var olsun hörmətün.
El yoluna baş qoyan
Qazanar el hörmətin.

AX-168.6
Bostan əkdün gözə bar,
Götür beli arxalan.
Səsinə səs verməyə
Sakini var, arzum var.

AX-168.8
Çapar gedər, toz eylər,
Ocaq yanar, köz eylər.
Əzəldən adət budur,
Yar yarına naz eylər.

AX-168.18
Əzizinəm bir də mən,
Doldur içim bir də mən.
Baş ağarıb, bel bükük,
Cavan olmam bir də mən.

AX-168.21
Əzizim sürən olmaz,
Bir xoş gün sürən olmaz.
Şahın zülmü yüz olar,
Rəhmini görən olmaz.

AX-168.22
Mən aşiq ahu-zarda,
Canım dərddə, azarda.
O gündən ki, qul oldum,
Satırlar hər bazarda.

AX-168.23
Əzizinəm, dilən gəz,
Bağda gülə dilən gəz.
Qürbətdə xan olunca,
Vətənində dilən gəz.

AX-168.24
Əzizim kasad olmaz,
Mərd əli kasad olmaz.
Yüz namərdin çörəyin
Doğrasan kasa dolmaz.

AX-168.26
Əziziyəm xan eylər,
Xan divanın xan eylər.
Bir başa iki yumruq,
Onu nahaq xan eylər.

AX-168.27
Qərib öldü, götürün,
Dar küçədən ötürün.
Qəribin vay xəbərin
Anasına yetirin.

AX-168.28
Əzizim sərin ayaz,
Göy bulud, sərin ayaz.
Dosta gələn qadanı
Düşmənin şərinə yaz.

AX-168.29
Axşamlar, ay axşamlar,
Şamlar yanar axşamlar.
Evli evinə gedər,
Yetim harda axşamlar?

AX-168.30
Ay zamana, zamana,
Oxu qoydum kamana.
Eşşəklər arpa yeyir,
At həsrətdir samana.

AX-168.31
Bu dərdlər oyar məni,
Al qana boyar məni.
Ögeydən ana olmaz,
Sərgərdan qoyar məni.

AX-168.32
Qardaş, gəl köməyimsən,
Arzumsan, diləyimsən.
Başqa gündə gəlməsən,
Bu gün gəl, köməyimsən.

AX-168.33
Ay çıxdı peşman-peşman,
Gün doğdu ona düşman.
Gəlirsən elə gəl get,
Nə dost görsün, nə düşman.

AX-168.34
Hanı o dərdi yazan,
Dərdindən oldum ozan.
Yeyən Gülcahan olsun,
Bu zəhmətlə pul qazan.

AX-168.35
Daxmalarda axşamlar,
Şamlar yanar axşamlar.
Evli evinə gedər
Yetim harda axşamlar?

AX-168.36
Dağ başı qala yeri,
Gəz-dolan qala yeri.
Yüz candan yanan olsa
Heç verməz ana yeri.

AX-168.37
Səbr elə ona səbri,
Mərd gərək qana səbri.
Hər bir səbr tükənsə,
Tükənməz ana səbri.

AX-168.38
Ay qız, kimin qızısan,
Almadan qırmızısan.
Atan-anan bəsləmiş,
Böyüyəndə bizimsən.

AX-168.39
Dağlarda gəzən ceyran,
Çölləri bəzə, ceyran.
Tərlan çox ovlamısan,
Görünmür gözə, ceyran.

AX-168.40
Aşıq doymaz sözündən,
Qan-yaş tökmə gözündən.
Ər adını çəkməyin,
Gəlin gedər özündən.

AX-168.41
Bu dağlar oyar məni,
Al qana boyar məni.
Ögeydən ana olmaz,
Sərgərdan qoyar məni.

AX-168.43
Əzizim yazığam mən,
Əl vurma, yazığam mən.
Mən ölsəm sənə qurban,
Sən ölmə, yazığam mən.

AX-168.44
Quzular mələr, gələr,
Dağlardan enər, gələr.
Namərdə tuş olanın
Başına nələr gələr.

AX-168.45
Bağda can alması var,
Kəsir, can alması var.
Gözlərin nə oynayır,
Yoxsa can alması var?

AX-168.46
Əzizim, gül üşüdü,
Şeh düşdü, gül üşüdü.
Güldün, ağlım apardın
Bu necə gülüş idi?!

AX-168.48
Əzizim, kəs yaranı,
Doldur, ver, kəs aranı.
Olursan yaxın dost ol,
Olmursan gəz aralı.

AX-168.54
Əzizim, dərdi qovun,
Bostanda dərdi qovun.
Yığılın, dərd qovanlar,
Üstümdən dərdi qovun.

AX-168.55
Mən aşıq şəkər canım,
Hər dərdi çəkər canım.
Nə haqqım var, nə muzdum,
Bəylərə nökər canım.

AX-168.56
El mənə dil əzbəri,
Bülbülün gül əzbəri,
Ay vəfasız, izin ver,
Qoy gəlim bir az bəri.

AX-168.57
Evimizdə barama,
Əl qoy sinə yarama.
Könlüm səni çox istəyir,
Rəqib girib arama.

AX-168.58
Güləm, gülü neylərəm,
Gülə xidmət eylərəm.
Öz gülümü versələr
Özgə gülü neylərəm.

AX-168.59
Uca dağlar, ay dağlar,
Səs verirəm vay dağlar.
Siz də mənə səs verin,
Hər dərdimə tay dağlar.

AX-168.60
Ah ölərəm o birdən,
Xəbər tutar qəflətən.
Qurtararam mən dərddən,
O gözü yaşlı qalar.

AX-168.61
Ayaz başdan mil gəlir,
Dost demə bir gül gəlir.
Neynirəm belə gülü,
Ayda, ildə bir gəlir.

AX-168.62
Gün getdi yatan yerə,
Ay getdi batan yerə.
Sinəm nişanə qoyun,
O oxun atan yerə.

AX-168.63
Aman, dəyirmançı, aman,
Ürəyimi eləmə qan.
Növbəm çatıb, burax məni,
İnsafa gəl, üyüt dəni.

AX-168.64
Olmaz, xanım olmaz,
Su gəlib nova dolmaz,
Hamıya növbə olsa,
Gəlinə növbə olmaz.

AX-168.65
Günüm o gün olaydı,
Zülfə dügün olaydı.
Sənlə keçirdiyim gün
Biri bu gün olaydı.

AX-168.68
Gecələr yüzbaşıyam,
Qızıl üzük qaşıyam.
Hər kəs mənə gəl desə,
Onun da qardaşıyam.

**G) Laylalar**

k-015. Laylalar.
k-015.3
Laylay, əməyim bala,
Düzüm-çörəyim, bala.
Gözləyirəm böyü sən,
Görüm köməyin, bala.

k-015.4
Lalylay dedim, ağlama,
Ürəyimi dağlama.
Böyü, bir qoç igid ol,
Mənə ümid bağlama.

k-015.5
Balam yatır beşikdə,
Bülbül oxur eşikdə.
Sən yat, yuxun alginan,
Mən durmuşam keşikdə.

k-015.6
Bala, ömrün çox olsun,
Könlün gözün tox olsun.
Sənə layla çağırım,
Düşmənlərin yox olsun.

k-008.11
Balam yatıb beşikdə,
Bülbül oxur yeşikdə.
Sən yatıb yuxunu al,
Mən durmuşam keşikdə.

k-008.12
Bala, ömrün çox olsun,
Könlün sözün tox olsun,
Sənə layla çağırım,
Düşmanların yox olsun.

k-008.13
Laylay çalım ellərdən,
Yuxun gəlir göllərdən.
Tanrı səni qorusun
Gələn ağır illərdən.

k-008.14
Qurbanın ildə mən,

Quzum lay-lay
Bülbüldə mən güldə mən,
Lay quzum lay-lay.
İldə qurban bir olsa,
Qurbanınam gündə mən.

k-008.15
Lay-lay laylanın bəndi,
Lay-lay quzum, ay laylay,
Laylan bürüyüb kəndi,
Lay-lay quzum, ay laylay.

# ATALAR SÖZLƏRİ

k-007. Atalar sözü.

1. Saxla samanı, gələr zamanı.
2. Qonşuya ümid olan, gecə şamsız yatar.
3. Yaxında gəz, uzağı gözlə.
4. Ata nəsihətin unutma.
5. Yağışdan çıxduq, yağmıra düşdük.
6. Gedən gələr, oturan yol verər.
8. Öz sirrini yaxın dostuna da vermə.
9. Hərcayi sözün hərcayi də cavabı olar.
10. Bu günün işini sabah qoyma.
11. Ulu sözünə baxmayan ulaya-ulaya qalar.
12. Ağ pulu qara günçün yığarlar.
13. Ağır yükün zəhmətini qatır bilər.
14. Bir söz 32 dişin arasından çıxdı, daha onu saxlamaq olmaz.
15. Elə iş tut ki, nə şiş yansın, nə kabab.
16. Ağsaqqal evin yaraşığıdır.
17. Yayda çəkən zəhməti qışda görər.
18. İşləyən dəmir pas atmaz.
19. Böyüyün sözünə baxmayan zərər çəkər.

k-008. Atalar sözü.

1. Kamil ovçu güllə atmaz boşuna.
2. Bugünki işivi sabah qoyma.
3. Əli ələ vurarsan səs çıxar.
4. Yoldaşını mənə göstər, sənin kim olduğunu deyim.
5. İşlənən dəmir pas tutmaz.
6. Molla halvanı gördü, Quran yadınnan çıxdı.
7. Nə doğrasan aşına, o da çıxar qaşığına.
8. Kor nə istər iki göz, biri əyri biri düz.

k-009. Atalar sözü

Dost gərək: 1. Sözə inanmaya, 2. Əmanətə xəyanət eləməyə. 3. Tez hirslənib özündən çıxmaya.

k-013. Atalar sözləri

Cəhənnəmə gedən yoldaşın çox istər.
Xeyrimə yarımayan oğulun vayına girim.
Daş nədir, baş nədir, tüpürmə üzümə, tüpürməyim üzünə.
Axşamın xeyrindən sabahın şəri yaxşıdır.
Uzağı buğdasından, yaxının arpası yaxşıdır.
Məclisdə elə otur ki, burdan durub orda otur deməsinlər.
Yaxında otdayıb uzağı gözləmək lazımdır.
Bu günün işini sabaha qoyma.
Molla al molladır, ver molla deyil.
Nökər nədi bekar nədi.
Yeddi dəfə ölç, bir dəfə biç.
Keçəl çarə qılsa öz başına qılar.
Bazara pulsuz gedən, qəbrə kəfənsiz gedər.
Dostun qəlbinə dəysə ağla, düşmənin səni incitsə gül.
Qurd əti qurda haramdır.

k-015. Atalar sözü.

Gəyişikli don gen olar.
Könülsüz iş baş tutmaz.
İlanın ağına da lənət, qarasna da.
Həyalı qızarar, həyasız ağarər.
Tənbələ iş buyur, sənə ağıl öyrətsin.
At tapıldı, yəhər tapılmadı.
Bir dəfə görmək, iki dəfə eşitməkdən yaxşıdır.
Yüz sənəti pis bilməkdən bir sənəti yaxşı bilmək yaxşıdır.

Eli ürküz, axsasın al.
Tərli-tərli su içmə, dəli at üstə minmə, qanlı çaydan keçmə.

İşin canın iş alar.
Yüz sənəti pis bilsən də, bir sənəti yaxşı bil.
Yaxşılıq elə, minnət qoyma.
Qoç döyüşünə qoç dözər.
Dost min isə azdır, düşmən bir isə çoxdur.
Sən haqlı ol, haqq həmişə səninlədir.
Biri ölməsə, biri dirilməz.
Dəyirman nabatuvu özgəyə vermə.
Kim bilir ki, kim qazana, kim yeyə.
İşləyərsən.dişləyərsən.
Qurd qarıyanda köpəyin gülüncü olar.
Hər fəslin bir meyvəsi olar,
Hər gülün bir ətri olar.
Yazda çəkər zəhməti, qışda görər ləzzəti.
Yaxşı yoldaş yaman gündə bilinər.
Hər şeyin öz vaxtı var.

k-016. Atalar sözləri.

1. İş adamı safa sıxardar.
2. İş adamın cövhəridir.
3. Zəhmət çəkməyən bal yeməz.
4. Qoca evin sütünudur.
5. Qorxan gözə çöp düşər.

k-017. Atalar sözü.

1. Yolnan gedən yorulmaz
2. Yola çıxanda yoldaşını evdən götür.
3. Ehtiyat igidin yaraşığıdır.

4. Malın yiyəsi oğlu da yox atası.
5. Qudurasan qurbağa, başlıyasan adam tutmağa.
6. Evini təmiz saxla, qəfil qonağın gələr.

k-018. Atalar sözləri.

Birlik harda dirilik də orda.
Bitmiş isdən gül iyi gələr.
Qocaya hörmət elə, sən də qocalacaqsan.
Qoca evin sütunudur.
Dost pis gündə tanınar.
Mərd döyüşdə tanınar.
Mis ya düşər, ya da cingildəyər.

k-019. Atalar sözləri.

1. Öküz bilir kotan nə çəkir.
2. Fətirin oğrusunu su tapar.
3. İşini etibarlı tut,
Qonşunu oğru görmə.
4. Nə əkərsən, onu da biçərsən.
5. Elə ye, həmişə ye.
6. Palaza bürün, elnən sürün.
7. Əldən qalan əlli il qalar.
8. Qurban olum zərgara,
Səni salıb pərkara.
AX-168. Atalar sözü.

Çox danışmaq gümüşdüsə, az danışmaq qızıldır.
Hər oxuyan Molla Pənah olmaz.

Öküzü batana yol göstərən çox olar.
Dama-dama göl olar, dağa-dola çən olar.
Hər fəsilin bir navəki var.
Savadsız adam –qanadsız quşdur.
Yolçu yolda gərək.
Yüz dəfə ol, bir dəfə bil.

# TƏRƏKƏMƏLİYƏ AİD ATALAR SÖZLƏRİ

## A) Qoyun-keçi

1. Qoyun deyib: məni sür xarabalığa, abadanlığa çıxartmasam, kəs başımı.
2. Qoyun deyib: qarnımı doldur, qara basdır məni,
Keçi deyib: qarnımı doldur, qara basdır məni.
3. İki qoçun başı bir qazanda qaynamaz.
4. Qoçun buynuzu qoça ağırlıq eləməz.
5. Buynuzsuz qoçun qisası, buynuzlu qoçda qalmaz.
6. Çobanı özündən olanın qoyunu ekiz doğar.
7. Keçinin əcəli çatanda buynuzun çobanın çomağına sürtər.
8. Keçinin qoturu bulağın gözündən su içər.
9. Çobanın könlü olsa təkədən pendir tutar.
10. Sürüdən ayrı düşən qoyunu qurd yeyər.
11. Qoyun gördüm ağ evli.
12. Pulunu ver qoyuna, başını sal oyuna.
13. Qoyunum var, oyunum var.
14. Çox qoyunu canavar yedi, yunu mənim kimi çöllərə dağılan olmadı.

## B) Qaramal

1. Öküzü batan güclü olar.
2. Ev buzovundan öküz olmaz.
3. Qonşunu iki inəkli istə ki, özün bir inəkli olasan.

4. Mal yiyəsinə oxşamasa, haramdır.
5. Hər inək balasını istər, ala inək gödənəyin çıxardar.
6. Özgə buzovunu bağlayanın çatısı əlində qalar.
7. Öküz öldü – ortaq ayrıldı.
8. Gomuş balağı, quyruğu ağ.
9. Qəmiş ola, gomuş ola, o da görməmiş ola.
10. Bir dana bir naxırın adını korlar.
11. Yatan öküzün başına duran öküz çıxar.

12. Yatanın gomuşu erkək, duranınkı dişi doğar.

## C) Minik heyvanları

1. Eşşək eşşəyi borc qaşıyar.
2. Eşşəyə minmək bir ayıb, düşmək iki ayıb.
3. Eşşəyin ölüb başı qızıldan.
4. Özün olasan xər, çulun məxmər.
5. Qoduq dədəsini tanımasaydı, özünü xanzadə bilərdi.
6. Eşşəyə dedilər mərifətini göstər, getdi küllükdə ağanadı.
7. İriz eşşəyindir, fel gəlinin.
8. Eşşək nə bilir zəfəran nədir.
9. Deyirsən İsfahanda eşşək nərdivana çıxır. İsfahan uzaqdır: bu eşşək, bu nərdivan.
10. Xiyar pulu ilə alınan eşşəyin ölümü suda olar.
11. Əlli ilin ulağı dəyirmanın yolunu tanımır.
12. Atlının qaydası piyadaya gülməkdir.
13. Axsaq atın kor nalbəndi olar.
14. Atı at yanına bağlarsan, həmrəng olmaz, həmxasiyyət olar.
15. Ağ at arpa yemir?
16. Minməyə səmənd madyan, zal-quyruğu ağ olmasa.
17. Atlı atın çapar, dayçalı deyər mən də varam.
18. Yegin at özünə qırmanc vurdurmaz.
19. Atın dörd ayağı var, o da büdrəyir.
20. At tapıldı, yəhər tapılmadı.
21. At minən atdan yegin gərək.
22. Sən atlı olmusan, mən piyada.
23. Dəvə dəlləklik edir köhnə hamam içində.
24. Sənin üzün – dəvənin dizi.
25. Dəvə gördün, heç qığını da görmədim.
26. Dəvədən yıxılan pambıq üstünə, eşşəkdən yıxılan dəmir üstünə, atdan yıxılan daş üstünə yıxılar.
27. Dəvə nə qədər ölü olsa, dərisi bir eşşəyə yükdür.
28. Nə dəvənin südünü istəmirəm, nə ərəbin üzünü.
29. Dəvədən böyük fil var.

30. Dəvə vurub dizinə, indi gəlib özünə.
31. Eşşək eşşəkliyilə bir dəfə batdığı yerdən bir də keçmir.
32. Xasiyyətini bilmədiyin atın dalına keçmə.
33. Qatır cinsi doğub törəməz.

**Ç) İt-pişik**

1. İtdən çox çarıq oğurlayan yoxdur, yenə ayağı yalındır.
2. İtə ataram, yada vermərəm.
3. İt deyib: ağamın 7 oğlu olsun, hərəsi mənə bir tikə çörək versə, doyaram.

Pişik deyib: Ağamın 7 kor qızı olsun, hərəsinin əlindən bir tikə çörək alsam, doyaram.

4. İt hürər, karvan keçər.
5. İtə dedilər: niyə hürürsən?

Dedi: Canavarı qorxuduram.

– Bəs quyruğunu niyə qısırsan?

– Canavardan qorxuram.

6. İtin dişi, tülkünün dərisi.
7. İt itin ayağına basmaz.
8. İtimiz də var, kütümüz də.
9. İt əl çəkər, motal əl çəkməz.
10. Elə bil iti kirəyə qoşublar.
11. İtə hörmət elərlər, yiyəsinin xatirinə.
12. Məscidin qapısı açıq oldu, itin həyasına nə gəlib?

13. İt itlə qapışdı, yolçuya girəvə düşdü.
14. Ağılsız köpək ulduza hürər.
15. İtin əbləhi qaysavadan pay umar.
16. At öldü, itin bayramıdır.
17. Qudurmuş it yiyəsini tutar.
18. İtin abırı olsaydı, səhərəcən hürməzdi.
19. İtdən də bir əppək borcludur.
20. Onun günü – itin günü.
21. Pişiyin başını tumarlarsan, qayıdıb üzünü cırmaqlayar.

22. Pişiyə dedilər: atan yaxşıdır, ya anan? Dedi: Nə o, nə o.
23. Pişiyin əlinə ət düşdü, dedi: çiydir.
24. Ey ciyərə qane olmayan pişik, asıl qənarədən.
25. Pişiyi döyür, gəlini qorxudur.

**D) Vəhşi heyvanlar**

1. Qurddan qorxan qoyun saxlamaz.
2. Qurdun qonaqlığına get, köpəyi də yanında apar.
3. Qurda nə qədər yemək verəsən, elə gözü meşəyə sarı baxacaq.
4. Çaqqal var baş kəsir, qurdun adı bədnamdır.
5. Ayının 72 oyunu var, hamısı bir armudun üstündə.
6. Qurddan törəyən qurd olar.
7. İlanın ağına da lənət, qarasına da.
8. Koramal əyyamda bir vurar, əlacı tapılmaz.
9. İlanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb, basdırmayana lənət.
10. Dərə xəlvət, tülkü bəy.
11. İlan vuran ala çatıdan da qorxar.
12. İlan ulduz görməsə ölməz.
13. Yemişin yaxşısını çaqqal yeyər.
14. Tülkü tülkülüyünü sübut edincə, dərisi boğazından çıxar.
15. Tülkünün meydanda nə işi var ki, dərisinə qiymət qoyula.
16. Xarmana girən porsuq şana-yabanı qəbul eləyər.

17. İlanın yarpızdan acığı gələr, o da yuvasının ağzında bitər.
18. Su meymunun boğazına çıxanda balasını ayağının altına alar.

**E) Quşlar**

1. Quşu quşla tutarlar.
2. Quş var ətini yeyərlər, quş var ət yedirərlər.
3. Qırqovul başını soxdu kola, quyruğundan xəbəri olmadı.

4. Cücəni payızda sayarlar.
5. Toyuq deyib: Allah qoysa da uçacağam, qoymasa da.
6. Qarğa durdu qaz yerişi yeriməyə, öz yerişini də yadırğadı.
7. Tovus quşu ayağına baxanda xor olur.
8. İndiyəcən xoruz yox idi sabah açılmırdı?
9. Bildirçinin bəyliyi darı sovuluncandır.
10. Dam verirsən sərçəyə ver, qaranquş gəldi-gedərdi.
11. Çox bilən quş dimdiyindən tora düşər.

**Ə) Müxtəlif şeylər**

1. Məni aranda tutdan elədi, yaylaqda qurutdan.
2. Dağ dağa qovuşmaz, adam adama qovuşar.
3. Yağ-yağa qovuşar, yarmalar yavan qalar.
4. Əvvəl boğazı bağla, sonra su aç.
5. Dəyirman bildiyin elər, çaxçax baş ağrıdar.
6. Palaza bürün, elnən sürün.
7. Karvanı malıynan yeyir, sarvanı şalıynan.
8. Ocağ altından göz, adam altından söz.
9. Tapan tapanın olsa, dağda çoban xan olar.
10. Örkən nə qədər uzun olsa, yenə gəlib doğanaqdan keçəcək.
11. Yulğunun gözü-kasıbın sözü.
12. Keçən yurdun qədrini düşən yurdda bilərlər.
13. Mən gəlmişəm ayran içməyə, gəlməmişəm ara açmağa.

14. Oddan kül törəyər.
15. Ağın adı, qaranın dadı.
16. Yada yalağ – qohuma dalağ.
17. Gəlin – qoz dağarıdır, əl vurarsan səslənər.
18. Xalq qız verib quda qazandı.
Biz qız verib qada qazandıq.
19. Həyalı qızarar, həzasız ağarar.
20. Dedilər: ay daş, niyə daş oldun?
Dedi: daşı gördüm daş oldum.
21. Əmcək əmcəklə toxunur, o ki, adam ola.
22. İpək elə xar oldu, eşşəyə çidar oldu?

23. Ağ ipi hansı rəngə salsan tutar.
24. Paslı dəmirdən qılınc olmaz.
25. Çürük taxta mıx tutmaz.
26. Oba içində eşşək quyruğu da kəsmə. Kimisi uzun deyəcək, kimisi qısa.
27. Onu elə bil tatar çapıb, bir çürük qozla da gəlib
adamı ayamaz.
28. Qonşunun qızı – ellərin sözü.
Yad yerin qızı – hamının gözü.

# MƏRASİM MAHNILARI

1. Gəlin üçün toyqabağı paltar aldıranda qızın adamları deyərdi:

Gəlin üç köynək istəyir,
Bu mahalda tək istəyir.
Gəlin beş tuman istəyir,
Şaldan, kimxadan istəyir.
Gəlin bir örpək istəyir,
Tək güllü, xoşrəng istəyir.
Gəlin bir başmaq istəyir,
Tirmədən yaşmaq istəyir.
Gəlin arxalıq istəyir,
Bir güllü yaylıq istəyir.
Nə versəz öz adınıza,
Gətirin baxaq dadınıza.

2. Toy vaxtına vədələşəndə qız adamı deyərdi:

Ana – Mən gəlinin anasıyam,
Axar sular sonasıyam.
Süd pulunu kəm eyləsəz,
Od tutuban yanasıyam.
Ata – Mən gəlinin atasıyam,
Qızıl gülün butasıyam.
İpək köynək gətirməsəz,
Sizi itə atasıyam.
Xala – Mən gəlinin xalasıyam,
Bu dağların lalasıyam.
Hacımənəbax gətirməsəz,
Sizi qana salasıyam.
Əmi – Mən əmiyəm, yeyəm gərək,
Sirr sözümü deyəm gərək.
Toy zamanı siz gətirən

Arxalığı geyəm gərək.
Bibi – Mən bibiyəm can eylərəm,
Can sizə qurban eylərəm.
İynəbatmaz gətirməsəz,
Toy zamanı qan eylərəm.

3. Oğlan adamı qız qapısında oxuyardı:

Çörəyimiz qılçıqlıdır,
Qapımız palçıqlıdır.
Verin aparaq gəlinimizi,
Aparmayın zəhləmizi.
Palazımız dardadır,
Oğlan intizardadır.
Verin qızı, köpək uşağı,
Kəsin sözü, köpək uşağı.
Xəmirimiz əllərdədir,
Sözümüz dillərdədir.
Verin bizim gəlinimizi,
Aparmayın zəhləmizi.

4. Toy zamanı qız adamı oxuyardı:

Ay qız alan, evin abadan olsun,
Üstü dəmir, yanları daşdan olsun.
Düzülübdür qız evində qonaqlar,
Oğlan evində yığılıb xonçalar.
Qız anası yükləri alçaq eylər,
Oğlan anası keyfini çağ eylər.
Ay qız anası əli qoynundadır,
Oğlan anası dəvə boynundadır.

5. Gəlib qapıdan çıxanda oğlan adamı oxuyardı:

Gəlin çıxdı hasardan; Allah-Allah;
Qurtardıq intizardan, Allah-Allah.
Gəlin mindi yəhərə, Allah-Allah,

Xəbər getsin şəhərə, Allah-Allah.
Gəlin getdi öyünə, Allah-Allah.
Başlayaq toy-düyünə, Allah-Allah.

6. Toy günü bəyin üz-başını qırxanda adətən bəzi tay-tuşu dəlləyin ehtiyatını gizlədərdi və dəllək deyərdi:
(Şey götürən də xələt verərdi).

Çağırın gəlsin Qasımı,
Götürsün gəlsin tasımı.
Çağırın gəlsin Abını,
Götürsün gəlsin sabını.
Çağırın gəlsin ləzgini
Götürsün gəlsin güzgünü.
Çağırın gəlsin o ləci,
Götürsün gəlsin ülgücü.

7. Qurban bayramında oxuyardılar:

Qurban kəsdik quzunu,
Çox elədik duzunu.
Qurban kəsdik qoyunu,
Mənə düşdü boyunu.
Qurban kəsdik keçini,
Pişik yedi içini.
Qurban kəsdik öküzü,
Aləm qınadı bizi.
Budun qazı apardı,
Qolun koxa qopardı.
Seyid aldı döşünü,
Molla aldı başını
Qabırğanı bəy yedi,
Bağırsağı səy yedi.
Bizə qaldı dərisi,
Quyruğuyla gerisi.

8. Novruz bayramında oxuyardılar:

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməni, can səməni,
Sənə qurban, səməni.
Atıl-batıl, səməni,
Vedrə-satıl, səməni.
Tamam cadı-pitilər,
Olsun batıl, səməni.
Əhvalımız çağ olsun,
Yedizimiz yağ olsun.
Azar-bezar çəkənlər,
Şəfa tapsın, sağ olsun.
Yerdən təndir çapılsın,
Çırpma yuxa yapılsın.
Qovuşsun ayrılanlar,
İtən şeylər tapılsın,
Səməni, can səməni,
Sənə qurban səməni.

# TAPMACALAR

1. Atdım atana,
Dəydi kotana,
Dəryada balığa,
Düzdə ceyrana (ildırım).

2. Dağdan gəlir dağ kimi,
Qolları budağ kimi.
Əyildi su içməyə,
Bəyirdi oğlağ kimi (Dəyirman), (Cəhrə).

3. Səndən bir bud ət istərəm;
Nə yayı görsün, nə qışı,
Nə erkək olsun, nə dişi (göbələk).

4. Bir balaca hid daşı
Yandırır dağı daşı (istiot).

5. Sarı-sarı sandıqlar,
İçi dolu fındıqlar (boranı).

6. Bir çil toyuğum var,
Başın kəssən qanı çıxmaz. (palaz).

7. Dağdan gəlir dağarçığım,
İçində güllü mınçığım (xaş-xaş).

8. Uzun qız evlər gəzər (oxlov).

9. Təptəzə qabdı,
Deşik-deşikdi (aşsüzən).

10. İçi qırmızı, bayrı yaşıl,
Özünə şahlıq yaraşır (qarpız).

11. Əvvəl-əvvəl nırıldayır,
    Sonralığcan guruldayır.
    Başın aşağı eləsən,
    Bulağ kimi şırıldayır (nehrə).

12. Babamın bir donu var, qatlamaq olmaz,
    Üstü dolu yumru şayı.
    Sanamaq olmaz (Göy və ulduzlar).

13. Qaradadır, qarğa deyil,
    Qanadlıdır, quş deyil.
    İy bilir, tula deyil (dozan qurdu).

14. Atası misli qoca (üzümün kötüyü).
    Anası yayma xatın (üzüm yarpağı).
    Qızı ellər gözəli (üzüm salxımı).
    Oğlu ellər dəlisi (şərab).

15. Gedən leylək, gələn leylək,
    Bir qıç üstə duran leylək (qapı).

16. Yük üstdə para kömbə (ay).

17. Körpü altda dörd güyüm (inək əmcəyi).
18. Dam üstə dana dingildər (qovurğa).

19. Bir qoca kişi
    Dağdan bir ilxı at endirir (baş qırxmaq).

20. Araba gedir irzi yox,
    Yulğun yanır gözü yox.
    Zirzəmidə işləyir –
    Dimdiyi var, gözü yox (soxulcan).

21. Mən gedirəm, o qalır (ləpir).

22. Tap-tappaca, gül abbaca, Əmir Qasım, bu boydaca.
(lampa).

23. Göydən düşdü, yerə yapışdı (ad).

24. Adamdan hündür, pişikdən alçaq (papaq).

25. Odda yanmaz, suda batmaz (buz).

26. İki sini qapaq-qapaq,
Birini de, birini tapaq (yer və göy).

27. O yanı daş, bu yanı daş,
İçində 40-50 baş (hamam).

28. Balaca kişi quyu qazar (damcı).

29. Suya girər yığılar,
Sudan çıxar dağılar (at quyruğu).

30. Bir ağacın iki meyvəsi var:
Biri ağ, biri qara (gecə-gündüz).

31. Bir təndirim var, iki çörək tutur (qoz).

32. Bir öküzüm var:
Quyruğundan tutmasan
Dama girməz (qaşıq).

33. Anası yerdə qalmış,
Balası ellər gəzmiş (üzüm).

34. Mənim maral inəyim,
Qarnı xaral inəyim.
Tüfrügü üstündə yatar
Çəpər yaran inəyim (bal arısı).

35. Üzü qırışmış qarı –
Bəyləri atdan salır (qaymaq).

36. Ağ atı atda gördüm,
Culun suvatda gördüm.
İyirmi dörd ulduzu
Bir ayın altda gördüm (nal-mıx).

37. Dəmirdən qatı,
Qılıncdan iti,
Allah qüdrəti,
Bəndə əlində (tüfəng).

38. Ulama, ay ulama,
Ucuna tük dolama.
Gündüz gedər dağlara
Gecə gələr salama (orucluq).

39. Alçaraq evdən qar yağar (ələk və un).

40. Araba gedər, izi yox,
Yulğun yanar, gözü yox.
Yovuğ düşsə qan sorar,
Dərisi var, tükü yox (zəli).

41. Donu dərziyə getməz,
Unu dəyirmana getməz,
Ağacı xarrata getməz (iydə).

42. Hacılar haca gedər,
    Cəhd elər, gecə gedər.
    Bir yumurtanın içində
    Əlli min cücə gedər (nar).

43. Qalın qamış içində
    Böyrü ala quş yatıb (göz).

44. Dağdan hündür, yovşandan alçaq (yol).

45. Bel sapı, balta sapı,
    Bir budağı, beş yarpağı (əl).

46. Qul atım qulunnasa kim bilər?
    Yeddi yaşar qul üstündə qulunnasa kim bilər (balıq).

47. Tupruğu, ay tupruğu,
    Neyləyirsən tupruğu?
    Gəzdim bütün meşəni
    Tapmadım düa tupruğu (keçi buynuzu).

48. Bir quşum var
    Ağacda zəng çalır (buxov).

49. Ağa Nəzər, ay ağa Nəzər,
    Küləkdən iti gəzər.
    Üstü sarı, altı boz
    Adı dağları bəzər (ceyran).

50. Yügürdüm yola,
    Dağıldı kola (nəfəs).

51. Bir balaca məndərə
    İlxını dağdan əndərə (ülgüc).

52. Qara toyuğ, qarnı yarıq (ocaq).

53. Tapdım, tapana[1] sancdım (qaşıq).

54. Bir öküzüm var,
Çullaram-çulun tökər,
Çullamaram qabırğaları görünər (qarakeçə).

55. Səndən bir at istərəm,
Nə erkək olsun, nə dişi (qatır).
Səndən bir corab istərəm
Olmasın culfa işi (iydə).

56. Bir atım var:
Çullayıram çulun salır,
Çullamıram qulun salır (sac).

57. Səkkiz-səkkiz sədrəcəm (it əmcəyi),
İki xurma (qoyun əmcəyi),
Dörd mərcan (inək əmcəyi).

58. Qaya içində
Ağ atlı oğlan
Atını çapar (nehrə).

59. Ağ quş suya töküldü (düyü).

60. Altı daş-daş deyil,
Üstü daş-daş deyil.
Malnan gedir, malnan gəlir,
Heç malla yoldaş deyil (malın kölgəsi).

---

[1] Tapan – alaçıqlarda qaşıq-bıçaq qoymaq üçün parçadan tikilmiş gözcükləri olan torbadır.

61. Atası evlənməmiş
Oğlu bazara gedir (odun yanmamış tüstü qalxar).

62. Hessəbanı-hüssəbanı.
Altı ayağı, bir kürəyi,
İki dabanı (tərəzi).

AX-007
Həz zağanı, hüz zağanı,
Altı ayağı, iki dabanı (tərəzi).

k-019
3. Sələmə səlli, qırx doqquz əlli,
Altı ayağı, iki dabanı (tərəzi).

63. Biri deyir: Gəl gedək (su).
Biri deyir: nöş gedək (torpaq),
Biri də başın bulayır (qamış).

64. Mən qalıram
O gedir (səs).

65. Araba gedir arzi yox,
Yulğun yanır gözü yox (ulduz).

66. Daşdandı, dəmirdəndi,
Xörəyi xəmirdəndi.
Aləmə çörək verir,
Amma özü yeməyir (dəyirman).

67. Bir atım var – minmək olmaz (külək).
Bir örkənim var – dolamaq olmaz (yol).
Bir qırmancım var – vurmaq olmaz (ilan).

68. Nə yerdədi, nə göydə,
Cümlə cahan içində (Ana bətnindəki uşaq və ya güzgü).

69. Göydən gəlmiş dərvişlər,
Kürkün yerə sərmişlər.
O qədər oynamışlar,
Xurd-xəşilə dönmüşlər (əriştə aşı).

70. Bağçamızda bir arvad var,
Qat-qat paltar geynib (kələm).

71. Ağac başında sarı yumaq (heyva).

72. Uzun boy, əyri ayaq.
Gəzər yastı-yapalaq (dəvə).

73. Yastı qız evlər gəzər (dördayaq).
74. Sarıdır – saman deyil,
Yazılıdır – quran deyil. (sırğa).
75. – Əyri-üyrü hara gedirsən? (tüstü).
– Təpəsi deşik, sən nə deyirsən? (baca).

76. Göy öküz kola bağlı (qarpız).

77. İki teşt ağız-ağıza (yerlə-göy).

78. Adlı atam var mənim,
Güllü xatam var mənim.
Dörd anadan olmuşam,
Doxsan atam var mənim (Hana)

79. Zalım oğlu yekəpər,
Tikan yeyər, qoz tökər (dəvə qığı).

80. Tüksüz baş,
Misli aş (səməni).

81. Həp dedim, hüp dedim,
Get, bucaqda köp dedim. (süpürgə).

82. Zər-zərdən yapışdı,
Zər qapıya yapışdı.
Zərci baba gəlincə
Zər qapıdan qopmadı (açar-qıfıl).

83. Habaz, hubaz,
Yerə dəyər, sınmaz (yarpaq).

84. Qara öküz yatar qalar,
Qızıl öküz gedər gəlməz (od və kül).

85. Qaz qaqqıldar, belin bükər,
Yumurta tökər (cəhrə).

86. Min milid, ağzı kilid (qəbir).

87. Qızıl bardaq, ağzı yox (boranı).

88. Uzun uzun qayışlar,
Ucu Gəncəyə işlər (yol).

89. Qara atlaz, iynə batmaz (saç).

90. Ağac başından baxar,
Cümlə cahanı yıxar. (tüfəng).

91. Əzizim qəssab ağlar,
Sarı don qəssab ağlar.
Ölən qoyun ağlamaz,
Öldürən qəssab ağlar (soğan).

92. Qara atı yağladım,
    Ev dalına bağladım (saç).

93. Evimizdə bir kişi var:
    Nə işləyir, nə gövşəyir (xoruz).

94. Vıy-vıyıldar, vıy-sızıldar,
    Vıy iliksiz, vıy sümüksüz (külək).

95. Həpini ay Həpini,
    Bıçaq kəsməz köpüni (su).

96. Göy öküz koldan baxar (qarpız).

97. Yaz budağı, yay toxumu, qış kökü (qanğal).

98. Dərya arasında od yanar (samavar).

99. İçi qırmızı bayırı boz,
    Nə nar deyil, nə də qoz (şəftəli).

100. Uzun uzun uzanmış (qollar),
    Uzanmışa dayanmış (əllər),
    Dayanmışa qar yağmış (dırnaq).

101. Bir damın bir dirəyi (göbələk),
    İki damın bir dirəyi (burun).

102. Ağac başında kiprikli göz (əzgil).

103. Tərəzim, tüfəngim var.
    Hər rəngdən irəngim var (palaz).

104. Bir öküzüm var, qum yüklü (küncüt).

105. Qapıbir qonşudurlar, ancaq bir-birini görmürlər (göz).

106. Bir damım var: bir çəncə ot tutmur;
Milyon-milyon qoşun tutur (qarışqa yuvası).

107. Torpaq deyil, daş deyil,
Quru deyil, yaş deyil,
Buynuzu var, qoç deyil,
Qanadlıdır, quş deyil (çəyirtgə), (kəpənək).

108. Kəsirsən, uzanır,
Yonursan, genəlir (quyu).

AX-007. Tapmaca

Haca vurum, kosa vurum,
Gəh-gəh qılın vurum,
Gəh-gəh qılın qırxım (xalça).

Alçaq damdan qar yağar (ələk).

Ibişgeynən (spiçkaynan) yandırmasam,
Ağzıma qoya bilmərəm (papiros).

Yol üstə sarı yaylıq (at sidiyi).

Araba gedir yazı yox, yulğun yanır, közü yox (ulduz).

k-007.Tapmaca

1. Ağ çala, qara toxum.
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm (yazı).

2. Ağaca çıxar adamla,
Bir nəlbəki badamla.
Nə dili var, nə ağzı,

Hey danışır adamla (kitab).

3. O nədir qənədsizdir,
Bülbüldü qəfəssizdir.
Uçanda quş tək uçur,
Canı yox-nəfəssizdir (təyyarə).

4. Çağırıram hündürdən,
Səsim gəlir təndirdən (telefon).

5. Bir sehirli fənərəm,
Kibritsiz də yanaram (elektrik).

6. Bir quyum var,
İki rəng suyu var (yumurta).

7. Bir şeyim var, hamını bəzir,
Özü qalıb yalavac (iynə).

8. Sarıdı zəfəran deyil,
Yazılıdır Quran deyil (qızıl).

9. Dam üstə dana dingildər (qovurğa).

10. Burdan vurdum qılıncı,
Fələkdə oynar ucu (ildırım).

11. Uzun-uzun qayışdar,
Ucu Gəncədə işdər (yol).

12. Yol üstə qazan qaynar (qarğıdalı).

13. Uzun-uzun uzanar,
Özünə köynək qazanar (qarğı).

14.Tapdım, tapanı sancdım (biz).

15. Biz-bizidik, yüz qızidik,
Bizi bizələr ipə düzələr (çətən).

16. Bir balaca mərd dağı
Yandırdı dağı-daşı (isot).

17. Qara köpək qapıda yatar (açar).

k-008.Tapmaca

1. O nədir ki, öz-özünə danışır (radio).
2. Qanadı var, uça bilmir, quruda da qaça bilmir (balıq)
3. Nağaraçı nağara çalır, nə nağarası var, nə də çöpü (ağacdələn).
4. Sağsağan səkər, quyruğun bükər, qaz qaqqıldar, yumurta tökər (dükcə).
5. Uzun qız uzanır, özünə köynək qazanır ( yol).
6. Qulaqları şək olur, əlləri gödək olur (dovşan).
7. Bizdə bir kişi var, xor-xor yatışı var (pişik).
8. Yük üstə yarım fətir, bacarırsan tut gətir (ay).
9. Qaya altında dörd düdük (inək əmcəyi).
10. Bir təndirimiz var, dörd çörək tutur (qaz).
11. O nədir ki, göydən yerə sallanır,
O nədir ki, hər nə versən allanır (yüyrük və uşaq).

k-009.Tapmacalar

2. Bir qırmancım var, götürə bilmirəm (ilan).
3. Bir balaca boyu var, dam dolusu toyu var (lampa).
4. Altı bulaq içərlər, üstü zəmi biçərlər (qoyun).
5. Səhər-səhər durdum sənə dirədim (göz).
6. Qaya altda qaz gedir, yeddi il boğaz gedir (zümrüd quşu).

7. O nədir ki, dağdan ilxı endirir (maşın).
8. Dam üstə dana dingildər (qovurğa).
9. Burdan vurdum qılıncı,
Şamaxıda oynar ucu (ildırım).
10. Səkkiz-səkkiz səhrican, dördü muğan, ikisi xan (it, inək, keçi).
11. Ağamın bir donu var qtdamaq olmaz, üstü şayı abbası sanamaq olmaz (göy, ulduz).
12. Yol üstə qazan qaynar (qarışqa).
13. Bizdə bir kişi var, qırx dişi var (həvə).
14. Qaraca qız evləri gəzər (sac).
15. Bir damım var içi dolu talaşa (diş).
16. Altı qıçı var, iki ayağı (tərəzi).
17. Mən gedirəm o qalır (ləpir).
18. Mən burda, o getdi (səs).

k-012.Tapmacalar

Holalar ay holalar,
Çöldə dovşan balalar
Ayağından su içər
Dimdiyindən balalar (sünbül).

Bir quşum var alanı
Gəzər cümlə cahanı.
Götürrəm öldürməyə
Nə əti var, nə qanı (fikir).

O nədir ki, göydən düşər özü tərtəmiz budaqsız, yalar dilsiz damaqsız (qar və gün).

k-013.Tapmacalar.

Yaz budağı, yay toxumu, qışkökü (qanqal).
Dərya arasında od (samavar).

Ağac başında hovuz, onu tapmayan donuz (quş yuvası).
Göy öküzüm koldan baxır (qarpız).
Uzun-uzun uzanmış (qol)
Uzanmışa dayanmış (əl)
Dayanmışdan qar yağmış (dırnaq).
Alaylar, ay alaylar, çöldə dovşan balalar,
Ayağından su içər, dimdiyindən balalar (sünbül).
Burdan vurdum qılıncı, misirdə oynar ucu (şimşək).
Qayaltı qaz gedər,
Qaqqıldaşar qaz gedər,
O necə şeydir ki,
Yeddi il boğaz gedər (zümrüd quşu).
Dağda yatmış daş gördüm (camış)
Duzsuz bişmiş aş gördüm (halva),
Dağda damman gördüm (canavar),
Suda Süleyman gördüm (balıq).

k-015.Tapmacalar.

1. Ağa nəzərdi ağa nəzər, başında ağac gəzər (maral)
2. Aləmi bəzər, özü yalavac gəzər (iynə).
3. Sarı saman, üstündə quran (sırğa).
4. Cahanı götürürəm öldürməyə, nə əti var, nə qanı (fikir).
5. Uzun boy, qısa ayaq, gəzər yastı yapalaq (dəvə).
6. Saqqalı uzun sallanar, özü dağa-daşa tullanar (keçi).
7. Ərsin ayaq, bənövşə bulaq (ördək).
8. Yaşdı qurumaz, nəmdi çürüməz (dil).
9. Evimizdə bir kişi var, dörd dişi var (bucaq).
10. Bir oküzüm var, quyruğundan titmasan dama girməz (qaşıq).
11. Bir atım var minmək olmaz,
Bir qırmancım var tutmaq olmaz (ilan və tısbağa).
12. Rəngi qardanda ağdır,
İpək kimi yumşaqdır, yığılır tay-tay yolanır fabrikaya (pambıq).

k-016.Tapmacalar.

1. Sağsağan səkər, quyruğun bükər, qaz qaqqıldar, yumurta tökər (dükcə).
2. Əzizim qəssab ağlar, sarı don qəssab ağlar, ölən qoyun ağlamaz, öldürən qəssab ağlar (soğan).
3. Gedən leyley, gələn leyley bir qıç üstə duran leyley (qapı).
4. Ağ çala qara toxum, əlim ilə əkərəm, dilim ilə biçərəm (yazı).
5. Bir sürü atlar, çəməndə otlar, vaxtı gələndə dərin çatlar (pambıq).
6. Günəşlə gülər, axşam mürgülər (günəbaxan).
7. Atdanar düşər, susuz bişər (qovurğa).
8. Babamın bir yaşı var sanamaq olmur (ulduz).
9. Səkkiz-səkkiz səyrican ikisi muğan, ikisi xan (inək əmcəyi).
10. Biz qız idik, yüz qız idik, bizi sapa düzdülər (diş).
11. Oyanı qaya, buyanı qaya, içində ağca maya (qatıq).
12. Burdan vurdum baltanı, ordan vurdum baltanı,
Yerdən bir oğlan çıxdı, yerin göyün sultanı.
13. Bir atım var, minə bilmirəm, bir qırmancım var, götürə bilmirəm (külək və insan).
15. Hürür, hürür burnu ilişir (iy).
16. Qolunda yaş, əlində quş (namaz).

k-017.Tapmacalar.

1. Dağa-daşa atdıq sınmadı,
Suya atdıq sındı (kağız).
2. Kəbədə bir daş var
Daşa zəng deyərlər,
Tapmıyana yezid süfürək deyərlər (həvə).
3. Dam üstə dana dingildər (qovurğa).
4. Yastı qız evlər gəzər (dördayaq).
5. Mən baxıram, o da baxır (qulaq).
6. Dədəvin sallananı,
Anava gərək olar (cib).

7. Biri deyir gəl gedək (su),
Biri deyir nöş gedək (palçıq).
8. Hapışdırım, hupuşdurum,
Qırtağuva yapışdırım (yamaq).
9. Suya girir daşılır,
Sudan çıxır yığılır (at quyruğu).
10. Tatı su içər dana köpər (boranı).
11. Qıllı girdi qılsıza (qıyıq).
12. Yük üstə para fətir (ay).
13. Min bir minarə bir mismarə bənd ola (dərman).
14. Dörd dərviş bir quyuya daş atdı (inək əmcəyi).
15. Bir qoca kişi dağdan qara ilxı əndirir (baş qırxmaq).
16. Dağda darı iman (buğda).
17. Çayda süleyman (camış).
18. Meşədə tappıldar (balta)
19. Çayda şappıldar (balıq).
20. Əzizim eldən yuxarı
Şana teldən yuxarı
Aşıq bir şey görüb
Dizi beldən yuxarı (çəyirtgə)
21. Üstü lığdır biçirəm,
Altı sudur içirəm (qoyun).
22. Günəşlə gülər,
Axşam mürgülər (günəbaxan).
23. Bir sehirli fanaram,
Kibritsiz də yanarm (elektrik lampası).
24. Danışıram hündürdən,
Səsim gəlir kəndirdən (telefon).
25. Bir tabaq almaz,
Sabaha qalmaz (ulduz).
26. Əlhəm ətir
Süfrə gətir, varsa gətir,
Yoxsa götür (çörək).
27. Allah əkib, Allah da biçəcək (adam).
28. Bir evdə dörd əpəpkə (hana ).

29. Qaya arsında dörd barmaq (əmcək).
30. Həməyim həməyüvə,
Barmağım dəməyüvə (oymaq).
31. Başı şabalıd, quyruğu qayçı (qaranquş).
32. Bir qamçım var götürə bilmirəm (şan).
33. Bir atım var, minə bilmirəm (külək).
34. Göydən düşdü, yerə yapışdı (ad).
35. Yaşdır qurumaz.nəmdir qurumaz (dil).
36. Nağaraçı nağara çalar (ağacdələn).

k-017.Tapmacalar.

1. Dənizi var, suyu yox,
Şəhəri var evi yox (xəritə).
2. Yol üstə yoğun arvad (təndir).
3. Bir balaca mət daşı, yandırır dağı daşı (istiot).
4. Ağac başında sarı yumaq (heyva).
5. Ətindən kabab olmaz,
Qanından kasa dolmaz (nar).
6. Mən gedirəm o qalır (ləpir).
7. Qaraca qız evlər gəzər (sac).
8. Uzun-uzun uzanmış,
Uzanmışa dayanmış
Dayanmışa beş qamış
Hər qamışa qar yağmış (əl).
9. Əvvəli dörd ayaqlı (uşaq)
Sonra iki ayaqlı (cavan),
Ay dolaşıb il keçir,
Dolaşır üç ayaqlı (qoca).
10. Hacılar haca gedər,
Cəhd edər gecə gedər,
Bir yumurta içində
Sayısız cücə gedər (ulduz).
11. Tap-tapmaca, güllabaca,
Əbliqasım bu boydaca (lampa).

k-018.Tapmacalar.

1. Tapdım, tapana sancdım (biz).
2. Çiçəkləyir gül deyil,
Ağdır, amma qar deyil,
İstisi var, yun deyil (pambıq).

3. Pişik kimi dırmaşır,
İlan kimi sürünür (kərtənkələ).

4. Ay doğdu laxtalandı,
Qapılar taxtalandı,
Bazara bir nər gəldi,
Qırx yerdən noxtalandı (gəmi).

k-019.Tapmacalar.

1. O nədir içində od yanır,
ətrafı sudur? (samovar).
2. Dörd ayağı, bir tası (stol).

3. Bir dirəyi var, bir damı (göbələk).

4. Oyanı daş, bu yanı daş,
İçində saysız baş (hamam).
5. Qoyun kəsdim, şor çıxdı (motal).

k-020. Tapmacalar.

İçində qışdır, çölündə bahar.

İpək kimi yumşaqdır,
Yığılır taya-taya,
Yollanır fabriklərə (pambıq).

Qanadı var uçmağa,
İynəsi var sancmağa,
Sevir işi zəhməti,
Odur ki var hörməti (arı).

Ayağı yoxdur qaçır,
Qanadı yoxdur uçur.

Yatanda yumru yatır,
Ətinə dərman qatır.
Ağa nəzərdir, ağa nəzər,
Başında ağac gəzər (maral).

# YANILTMACLAR

1. Sağ qız axsaq qıza ağ saqqız verdi.

2. Tüfəngi çaxmaqlayırsan, çaxmaqla,
Çaxmaqlamırsan, çaxmaqlayım.

3. Yetmiş yeşik yetişmiş yemiş yemişik.
4. Bu mis nə pis mis imiş,
Bu mis Kaşan misiymiş.

5. Girdim təndirə; sildim, süpürdüm, silkindim çıxdım.

6. Anam silkdi, silkələdi çobanı,
Çoban silkdi, silkələdi anamı.

7. Tək cüt dükcə, cüt cüt dükcə, üç cüt dükcə.

8. O tayda vardı beş-beş, boz ala, boz qaşqa, boz tüklü, bez yüklü porsuq.

9. Əyşi qumu toxmaqlama,
Qum səni toxmaqlasa,
Sən qumu toxmaqlama.

10. Qonşudan bizə beş basma tas aş gəldi.
Pişik vurdu çaladı.
Vaxsey o beş basma tas aş!
Şaxsey o beş basma tas aş!
11. Neynim, neceləyim, 12 çöpü necə götürüm.

12. Dəyirmana girdi köpək, dəyirmançı vurdu kötək,
Kəpək yedi köpdü köpək, kötək yedi köpdü köpək?
13. Yeddi qara, qaşqa, təpəl, səkil çəpiş törəmiş.
14. Eşşək tərəkəmələnmə.

15. Ay qılquyruq qırqovul,
Gəl bu kola gir, qılquyruq qırqovul.
16. Kəklik, kəpənək, kölkəliyə gəlin gedək.

# DÜZGÜLƏR

1.
Xiy, xiy, Xiyanda
Üzüyüm itib bu yanda.
Üzüyün suyun içərlər
Xalxaladan keçərlər
Xalxala mənim olsun
Kətan köynəyim olsun.
Kotançı getdi, gəlmədi,
Yaylığım aldı, vermədi.
Yaylığımın ucu qara,
Peykamı göndərdim yara.
Xanbalanı öldürdü,
Düşmanımı güldürdü.

2.
İynə, iynə, ucu düymə,
Şam ağacı, şatır keçi,
Qoz ağacı, qotur keçi.
Göy quşum, göyərçinim,
Ağ quşum, ağarcınım.
Əzmə tikan, Əmirqulu,
Vur nağara, çıx qırağa.

3.
Motal, motal, tərsə motal
Yağ atar, qaymaq tutar...
happan, huppan,
Yırıl, yırtıl,
Su iç, qurtul.

4.
Həsən bəyin neyi var,

Çaqqır-çuqqur şeyi var,
Göy muncuqlu iti var.
Göyə çıxan atı var.
Evində bir lotu var,
Ayağında botu var.

5.
Nehrəm ol, ol, ol.
Yağım bol ol, ol.
Yağı bəylər aşıycan,
Ayranı göz yaşıycan.
Evimə qonaq gəlibdir,
Aşım yavan qalıbdır.

Əlimi bıçaq kəsibdir.
Yağ gətirin, yağlayaq,
Dəsmal verin, bağlayaq.
Dəsmal dəvə boynunda
Dəvə Şirvan yolunda.
Şirvan yolu gül bağlar,
Qonça bağlar, gül baqlar.
O gülün birin üzəydim
Saçbağıma düzəydim.
Saçbağım gülə batıb,
Qardaşım üstə yatıb.
Qardaş, hophopun olsun,
Qardaş, gül topun olsun.

6.
Digiriqoz, ay digiriqoz
Biri kəhər, biri boz.
Mindim kəhər boynuna,
Sürdüm Şirvan yoluna.
Şirvan yolu min bazar,
İçində meymun gəzər.

Meymunun balaları
Məni görcək ağladı
İstədi qaçsın getsin
Yiyəsi tutub bağladı.

7.
Ələm, ələm, qarqu dələm,
Çil əppəyim, çil çörəyim,
Sarı yağım, sarmısağım,
Ağa mənə bir zu!

8.
Əkil, bəkil quş idi,
Divara qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi,
Meydana salmış idi.
Meydanın ağacları,
Bar gətirib ucları.
Çəpər çəkdim, yol açdım,
Qızıl gülə dolaşdım.
Bir dastə gül dərməmiş
Nənəsi gəldi, mən qaçdım.

9.
Yağış gəlir yağa-yağa,
Dolu düşür bizim bağa.
Əmim oğlu Soltan ağa,
Dur gəl, gedək oynamağa.
Oynamağın vaxtı gəlib,
Qızıl gülün taxtı gəlib.

10.
İki xoruz, bir fərə,
Fatmanı verdik ərə.

Allah yağış yağaydı,
Fatma inək sağaydı.
Fatma buğa, mən buğa,
Gəlin gedək pambığa.
Pambığ alağ olubdur,
Qoyun dabağ olubdur.
Bu zamananın qızları,
Kəbin kəsir özləri.

11.
Tülkü toyuq apardı,
Sabaha yovuq apardı.
Çıxdım çölə,
Girdim evə,
Əlimi soyuq apardı.

12.
A teşti, teşti, teşti
Vurdum Gilanı keçdi.
İki xoruz savaşdı,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan göyərçin uçdu.
Qan dedi: batım üstə,
Qəmərim qaşım üstə.
Qəmər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil, qəmişdir,
Beş barmağım gümüşdür.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.

Qapıçı qapı toxur,
İçində bülbül oxur.
Məndən kiçik qardaşım
Həqqin kəlamın oxur.
Əcəb elədim,
Əlimin içindən gəlib,
Xətcə biçindən gəlib,
Sayad bulağdan gəlib,
Orucalı dağdan gəlib,
Xanalı odundan gəlib.

13.
Keçələ keçəl, tazı keçəl,
Hər gecə pərvazı keçəl.
Keçib qonar göl başına,
Gah da çıxar yol başına.
Sağsağana göz eylər,
Hər bir işi söz eylər.

14.
Fətir, ay fətir,
Məni mənzilə yetir.
Təndir çörəyi,
Evimin dirəyi.

Bozdamac, ay bozdamac,
Əlim xəmir, qarnım ac.

Yayma, ay yayma,
Məni ac qoyma.

15.
Tülkü,  tülkü, tünbəki,
Quyruq üstə nəlbəki,
Ayı axmaq, donuz toxmaq,

Qurd qulovuş,
Çaqqal, çovuş,
Bağa başmaqçı,
İlan qamçı, xoruz bançı.

k-007.Düzgü
Tülkü-tülkü tünbəki,
Quyruq üstə lənbəki,
– Tülkü hardan gəlirsən?
– Dayımgildən gəlirəm.
– Dayıngilin evi hardadı?
– Güllü təpənin o üzündə.

16.
Qızım qızıl parçası,
Yerə düşər parıldar.
Oğlan köpək balası
Qapıda durar mırıldar.

17.
Tanrı bir adam yaradıb,
Balnan badam yaradıb,
Atası zirdən-zibildən,
Balasın adam yaradıb.

18.
Qəvəli çala-çala getdim bağa,
Bağdakı qızlar ilə oynamağa.
Əl atdım böyük qızın sinəsinə,
Kiçik qız dad elədi nənəsinə.
Nənəsi bir daş atdı təpəsinə,
Qazı da çıxdı evdən lov səsinə:
– Atıma kişmiş tökün, kişnəməsin,
İtimə sümük verin, sinsiməsin.

Altıma qəlib sərin, su keçməsin,
Üstümə çadır qurun, gün düşməsin.
Qonaq eləyin halvaya,
Sonra baxım davaya.
(Saqqızım düşüb təndirə,
Qorxuram arvad öldürə).

19.
Ay Allah, bundan üç dənə ver,
Üç dənə vermə, beş dənə ver,
Göydə gedən quşlara ver,
Çaladakı gomuşlara ver,
Həsrətin çəkmişlərə ver,
Dərdindən ölmüşlərə ver,
Tamarzı qalmışlara ver.

20.
Cəhrə deyir: əyir məni
Üstümə sal dəyirmanı.
Kişi deyər: şalvar hanı?
Arvad. deyər: boşa məni.
21.
Əşi, mənə bir cəhrə al, bər-bər bəyirdim,
İldə kələf, ayda şoqqa, gündə bir sap əyirdim.
Əşi, vallah, bədnəzərə gəlmişəm.
Get naxıra, bir dana təzdir, gətir,
Mollaya ver, bir dua yazdır, gətir,
Əyşi, vallah, bədnəzərə gəlmişəm.

22.
Şum, şum şum içində,
Quyruqu qan içində.
Getdim qanın silməyə,
Qaldım biyan içində.
Biyan olub lap uca,
Altında yatıb xoca,

Salam verdim, almadı,
Məni saya salmadı.

23.
Ləzgi dığır, dığırdı,
Ləzgi odun yığırdı.
Ləzgi çıxdı taxçaya,
Xod verdi tapançaya.
Ləzgi qardaş, dur oyna!
—Vallah, billah, bilmirəm,
Bilsəm də oynamıram.

24.
Keçələ keçəl banıya,
Mindi qulaybanıya,
Getdi həkimxanaya.
Həkimxana bağlıdır,
Keçəlin başı yağlıdır.

25.
Bişirə-bişirə beşin yedi,
Bişirdi on beşin yedi,
Səgridi, səkkizin yedi,
Doğradı, doqquzun yedi.

26.
Tülkü, tülkü tüməyə,
Tülkü girdi dəməyə.
– Tülkü, hara gedirsən?
– Zümrüd quşu yeməyə.
– Zümrüd quşu hardadır?
– Harda olsa burdadır.
Başı cənnət içində,
Ayaqları burdadır.
Ayaqları ikidir,
Əlində tənbəkidir.

27.
O tay, bu tay bədxana,
Qolları bədbədxana.
Yazın kağız yollayın,
Bakılı Məmməd xana.
Məmməd xanın qoşunu,
Aldı bulaq başını.
Bulaq suyu duruldu,
Üstə meydan quruldu.
Yeddi yaşar qız üstə,
Min bir igid qırıldı.

28.
Lələ öldü acından:
Kül töküldü saçından.
Lələ bir ev tikmişdi
Əvəlik ağacından.
Lələ öldü, bez gətir,
Gətirirsən, tez gətir.
Nə qonşuya söz apar,
Nə qonşudan söz gətir.

29.
Üşüdüm, ay üşüdüm.
Dağdan alma daşıdım.
Almacığımı aldılar,
Mənə cürüm verdilər.
Mən cürümdən bezaram,
Dərin quyu qazaram.
Ala quzu, beş keçi,
Hanı bunun erkəci?
Erkəc qazanda qaynar,
Küçük yanında oynar.
– Küçük, sənə nə gərək?

– Alnı qaşğa at gərək.
– Qaşqa atım fil-fili,
Gəl oxu bizim dili,
Bizim dil urum dili.
Ürumdan gələn atlar,
Ağzında yüyən çatdar.

30.
Hamam, hamam içində,
Suları cam içində.
Dəvə dəlləklik eylər
Köhnə hamam içində.
Öküz başın qırxdırır,
Pişik bığın tutdurur.
Boyaqçı küpün açdı,
Boyadı əməlatı.

31.
Bu dərə yulğun piri,
Yandırdıq qaldı külü.
Kül zanar, dəmir qızar,
Çalada ördək üzər.
Ördəyi bağlamağa ipək gərək.
Yar ilə danışmağa ürək gərək.
Yar mənə alma verib, almamışam.
Yeddi gün, yeddi gecə ağlamışam.
Atımı gen dərədə saxlamışam,
İtimi şor dərədə bağlamışam.
Atıma arpa verin, kişnəməsin.
İtimə sümük verin, sinsiməsin.
Nə yaman öyrətmisiz bu bülbülü,
Gecələr alıb qaçır qızıl gülü. (varaiant)

32.
Qəvəli çalalı gedim bağa,

Bağdakı qızlarla oynamağa.
Bir daş atdım böyük qızın sinəsinə,
Dad elədi nənəsinə.
Nənəsi bir daş vurdu sinəsinə,
Sinəsin çəkə-çəkə getdi haca,
Hac dedi ördək üzər
Hac mənə alma verib almamışam,
Yeddi gün, yeddi gecə ağlamışam,
Atıma kişmiş verin kişnəməsin,
Itimə sümük verin sinsiməsin.

33.
Əyşi, hardan gəlirsən?
– Qaqqılı qayasından
– Atın nöşün arıqdır?
– Minməyin barasından.
– Azağın nöşün qaradır?
– Qara çaylar keçmişəm.
– Qara çay dərindimi?
– Sel alarav görmüşəm.
– Ağzın neşün yağlıdır?
– Bildirçincə yemişəm.
– Bildirçincə kökdürmü?
– Qanadların görmüşəm.
– Başın niyə unludur?
– Dəyirmandan gəlmişəm.
– Dəyirman suvaqdırmı?
– Çaxçaxını görmüşəm.

Nığır-nığır, Gülpəri,
Damda çığır, Gülpəri.
Gündəni it apardı,
Bir də yoğur, Gülpəri.

34.

Həkatı, ay hekatı,
Molla yığar zəkatı,
Boyaqçı küpün açdı,
Boyadı əməlatı.
Təmiz qabı murdar elər boyaqçı,
Murdar qabı təmiz elər qalayçı.
35.
– Qız biş-düşlə necədir?
– Od-yalovun parası!
– İş-gücnən necədir?
– Onu demə, xalası!
Cırığın elə düyünlər,
Yamaqdan artıq.
Qabın elə yalayar,
Yumaqdan artıq.

36.
İki bacılar yan-yana
Gedirdilər Səlyana.
Səlyan suyu sərindir,
İki bacılar gəlindir.
Gəlinə bax, gəlinə,
Əlin qoyub belinə.
Gəlinə söz deməyin,
Gedər deyər ərinə.
Əri minər maşına,
Sürər dağın başına.
Oğlanlar əsgər gedib,
Kül qızların başına.

37.
Sirrini verme arvada,
Əsgik olmaz səndən qada,
Arvad deyər çarığına,
Çarığı deyər şirisinə,

Şirisi deyər birisinə,
Xəbər çatar qazıya,
Adın düşər yazıya.

38.
**Sanama**
Bir-iki, bizimki.
Üç-dörd, qapını ört.
Beş-altı, daş altı.
Yeddi-səkkiz, qırx səkkiz.
Doqquz-on, qırmızı don.

39.
Baş barmaq, başala barmaq
Uzun hacı, gül hoppacı, balaca bacı.

40.
Əkdim noxud, bitdi söyüd,
Yarpağıdır şabalıd.

41.
İynə, iynə ucu düymə,
Səhər səkkiz, durna doqquz.
Durna gəldi, durul çıx,
Tülkü gəldi, burul çıx.
Bəli, bəli, bal ağacı,
Qotur keçi, şam ağacı.
Əmim oğlu həllə dedi,
Əmim qızı hüllə dedi.
Əmim gəldi eşitdi
Vuraram güllə, dedi.

42.
Bağdan baxdı mişalagöz,
Biri kəhər, biri boz.

Mindim kəhər boynuna,
Sürdüm Dərbənd yoluna.
Yolda qolum qırıldı,
Arxalığım çırıldı.
Yerdən bir oğlağ çıxdı,
Oğlağı vurdum yerə.
Yer mənə yemlik verdi.
Yemliyi verdim tata.
Tat da mənə tat dedi,
Yüyür atına çat dedi.

43.
Ağabalanın bıçağı,
Gümüşdəndir saçağı.
Vurun sandıq açılsın,
İncil-mərcan seçilsin.
İncil-mincil fil-fili
Gəl oxu bizim dili.
Bizim dil urum dili,
Çox çətin curum dili.
Urumdan gələn atlar,
Ağzında yüyən çatlar.
Yeri, yeri, yetim oğlan.
Qolundan tutum, oğlan.

44.
Fatma xala nazanda,
Aşı bişirər qazanda.
Özü yeyər nimçədə,
Ərinə verər çömçədə.

45.
Şayı, şayı, şamama.
Şayı gedir hamama.
– Şayı, hara gedirsən?

– Qarabağa gedirəm.
– Qarabağda nəyin var?
– Uçuq-uçuq evim var.

46.
Oturmuşdum səkidə,
Pay gəldi nəlbəkidə.
Karvançı xəbər verdi
Yarım qalıb Şəkidə.
Allah, səlamət eylə,
Allah, səlamət eylə.

47.
Ətəkliyin piləkdir,
Çıxma çölə, küləkdir.
Salam verdim, almadı,
Qaş-ğabağın salladı.

# UDULUDA YER ADLARI

k-007. Yer adları.

1. Haramı dağında oğru qırx dənə olduğu üçün, ona haramı dağı adı qoyulmuşdu.
2. Dəmirçi dağı yeri bərk olduğu üçün ona Dəmirçi dağı adı qoyulmuşdu, onun adını Hacıdadaş qoymuşdu.
3. Dərə qışdağ iki dərənin arasında olduğu üçün ona Dərəqışlaq deyilir.Onun adını Mikayıl qoymuşdu.
4. Güngörməz dağı gün görmədiyi üçün adı elə idi. Onun adını Mirzalı qoymuşdu.
5. Əhmədağanın adını Məmmədəli qoymuşdu.
6. Xoşəməd-oranın havası xoş olduğuna görə elə qoyulmuşdu. Hacı Rahman qoymuşdu.
7. Mayıl dərəsinın adını Mayıl qoyduğuna görə elə adlanırdı.
8. Axtarma-orda oğru gizlənib onu axtarıblar ona görə adını Kəlbayı Xəlil qoyub.

# UDULUDA İŞLƏNƏN BƏZİ ŞİVƏ SÖZLƏRİNİN LÜĞƏTİ

AX-153.

A.
Alaşa – cinsi pis olan at
Bu ki lap alaşadı.
Ağartı – süd məhsulu
Kişi ağartını xoşlamayır.
Anqud – çox yeyən
Uşaq lap anquddur.
Abdal – qanmaz, yekəpər
Abdalın biridir.
Ayamaq – axtarmaq
Qohum olsaydın, bir gəlib bizi ayeyıb axtarardun.
Atdırım – bir növ həyasızlıq
Aman onun atdırım üzündən.
Alxaseyib – qızdırıb
Qızın üzü alxaseyib.

B.
Bələ – nə uzun, nə də görk olmayan qoyun qulağı
Bir bələ quzumuz itib.
Barantay – bərabər, eyni
O mənə barantay deyil.
Bəlgə – əsas
İndi bunu əlinə bəlgə tutub.
Bozdamac – acımış xamırdan sac üstünd uzunsov bişirilən çörək
Gedib bozdamac bişirdim.
Birouz – borc
Gedib qonşudan birouz alıb geydim.
Boz – utanmaz
Qonşum çox boz adamdı.
Bədrəg – tünd, anlaşılmaz rəng

Palaz çox bədrəgdi.

V.
Vaya – xeyir
Kişinin malı vayasız oldu.
Vər – yer, hissə
Öz vərimi biçim, sonra sənə kömək edərəm.

Q.
Qanqurud – hər şeyin tükənməsi (ağartı barədə)
Bu yayı qanqurud qaldır.
Qanazdığ – bir əşya üçün ağızdıq, qapı
Hinin qanazdığı hanı?
Qaz-qaz olmaq – topa-topa olub durmaq
Camaat qaz-qaz olub durub.
Qaraçı – noxtanın bir növü
Atın başına qaraçı keçirtdim.
Qaraquzay – soyuq
Bura yaman qaraquzay yerdi.
Qablama – 2 litr su tutan iri mis qab.
Bir bir qablama süd gətirdi.
Qındırğa – bərk şey
Çörək lap qındırğa kimidir.

D.
Dadamal – öyrəşmək
İnək bostana dadamal olub.
Darılmaq – paxıllıq çəkmək
Qonşu həmişə bizə darıyır.
Dodduxan – yelbeyin
Adam deyil ki, dəli-dodduxanın biridir.
Dola – quşu cəlb etmək üçün gəzdirilən aldadıcı pərdə
Ovçu indi dola gəzdirir.
Dəngəsər etmək – başını ağrıtmaq
Sən allah, məni dəngəsər etmə.

Damanda – möhtac
Allah heç bəndəsini damanda qoymasın.

E.
Eyzan – büsbütün
Ət eyzan yağdır.
Eynağ – keyf
Heç bu gedənin eynağı açılmır.
Eyninə düşmək – yada düşmək
Elə eynimə düşüb ki, istiyirəm gecəynən duram gedəm dədəmgilə.

Ə.
Əfəl – gücsüz
Uşaq yaman əfəlləyib.
Əməzik – zəif, key
Bu lap əməzikmiş ki...
Ərincək – tənbəl.
Gəlin bir ərincək şeydir ki, tayı bərabəri yoxdur.
Əppəg – çörək
Bizə bir əppəg verün.

Z.
Zombaldağ – palçıq lopası
Ayağım zombaldağ tutub
Zağar – tərs
Çox zağar adamdır.
Zol – həmişə
Elə zol borc istəyir.
Çoban bir zol gön apardı.
Zağana – az, iyli, çirkli su
Zağanadı, adam ondan su içər.

İ.
İstılığ – duru xörək
Gədə sudan gəlib, ona bir istılığ bişir ver.

İlmanqı – ilıq
Bu su lap ilmanqıdır.

Y.
Yencilmək – nazilmək, üzülmək
İp yaman yencilib.
Yapı – paltar
Uşağın yapısı nazikdir.
Yelli – yüngül (adam)
Çox yelli adamdır.
Yalanqu – sudan doymamaq
Əkin yenə yalanqu oldu.
Yovuncu – minnətçi
Ona-buna yavuncu olmuşam.

K.
Kapal – bir qədər, xeyli
Bir kapal qoyunu var.
Kisb – hissə, qazanc
Mənim kisbim az olur.
Karıxmaq – çaşmaq
Elə karıxdım ki, heç salam verə bilmədim.
Kahal – qulaq asmayan
Yaman kahal uşaqdır.
Gədəlbə – acgöz
Çox gədəlbə qızdır.

G.
Gallah – dəvə otaran
Gallah dəvəni gətirdi.
(bir topa dəvə mənasında işlənir).
Güdaza getmək – birisinin səbəbinə dolaşmaq
Balam arvadın güdazına getdi.
Girəvə – mümkün, imkan
Onun girəvəsi olsa, baş kəsər.

L.
Lonq oldu – boş çıxdı
O iş lonq oldu (ləğv).
Latayır – ədəbsiz söz
Uşaq yaman latayır danışır.
Lərvərə – alayarımçıq doğulmuş
Quzu ləvərədir.
Lopu – nəzakət gözləmədən, kəndlicəsinə
Mən ona lorusu dedim, o da incidi.

M.
Mor – yaxşı tutmayan rəng
İp mor gəlib.
Miyana – ortabab
Bir miyana arvaddır.
Mərgi – xəstəlik adı
Ona mərgi dəyib.
Mazatı çıxmaq – dəb olmaq
İndi ipəyin mazatı çıxıb.
Marıtdamaq – xəlvətcə diqqətlə baxmaq
Nə belə marıtdayırsan?

N.
Nazanı – gicbəsər
Onun qızı nazanıdır.
Nataraz – çox böyük
Qabağıma bir nataraz ilan çıxdı.
Nədrəbaz – düzgün olmayan
Nə nədrəbaz iş var mənə rast gəlir.

O.
Oğursağ – balasız sağılan qoyun

O oğursağ qoyun azarreyıb.
Oan olmaq – çox danışmaq.
Arvad ozan olub gedib, heç ara vermir.

Ö.
Öraz – kömək
Onlar evi öraznak tikdilər.
Önə – nahar vaxtı
İşçılər önəyə çıxıblar.
Öləndə – qalın sarımyıl ağ parça
Mənə öləndərdən bir tumannığ almışdı.

P.
Pöşələnmək – istidən sıxılmaq
İstidən ürəyim pöşələndi.
Papərtəya düşmək – çaxnaşmaq, əl-ayağa düşmək, tutatut
Adamların işi papırtıya düşdü.
Piştağ – təzə, duzsuz pendir
Uşağa bir az piştağ ver.
Pərovuş – ölçü, fənd
Özünə bir pərovuş götürdü.

S.
Sapıtqa – boyun qaçırmaq
Gedə helə sapıtqa verir.
Sovulğar – gur olmayan
Toy çox soulğar keçdi.
Sülöysün – yırtıcı heyvan
Qəbristanlıqdan keçəndə bir sülösün gördüm.
Soqqur – arığ olub.
Yazığın lap soqquru çıxıb.
Sərgisar – avara
Məni sərgisar eliyib.
Sayrı – xəstə

Heç kim sağ canın sayrı istəməz.

T.
Tırıqqa – vaxt, məqam
İş tırıqqaya minib.
Tamır – niyət, könül
Deyəsən tamırından keçir.
Tayqulp – su qabı
Bir tayqulp mənə su ver.
Tırım – lovğa
Toya bir tırımlı arvad gəlib.

U.
Udumunda olmaq – nəslində o işi bacarmaq, əlindən gəlmək
Boğaz basmaq onların udumunda var.
Uluşmaq – tutmaq
Süd hələ uluşmeyib.
Ulamaq – quraşdırmaq, bitişdirmək
Bunları bir-birnə uleyim, görüm nə əmələ gəlir.

Ü.
Üşəəmək – iki ipi üz-üzə vermək
İpi üşələyib qurtardım.
Ünnə – səslə
Quşumu ünnə gəlsin.
Üttürüm – sürtük
Yaman üttürüm uşaqdı.
Ürkə – erkək at
Dədəmin bir göy ürgəsi vardı.

F.
Fərəzə – guya
Fərəzə sən mənə kömək eliyəcəkdin.
Fərli – yaxşı
Ondan fərli iş çıxmaz.

Fırıtdamaq – birisinə bir iş tutmaq, sövq etmək
Kişi qızıl qırmızı qonşunu üstümüsə fırıtdeyir.

X.
Xıtıl – çox xırda
Xitilin biridi, özünü adam bilir.
Xımı – bic, hiyləgər
Yaxşı xımı şeydir.
Xayamal – xəbərsiz
Bu işdən mən xayamal olmuşam.
Xaşa – böyük kisə
Bizə bir xaşa saman verin.
Xoruş – bəhs, həvəs
Onun bir işi yoxdur, elə xoruşa düşüb.

Ç.
Çamxır – çal ilə boz arasında bir növ rəng, tərs adama verilən sifət
Yaman çamxır adamdır.
Çahar – bənəş ilə qomral arasında bir növ rəng (qoyuna aiddir)
Mənim bir çahar qoyunum var.
Çəpəndaz – çəpinə
Çəpəndaz iş görmək sənin adətindir.

C.
Culaz – kasıb
Qonağım çox culazdır.
Caydağ – hündür
Quzum çox caydağdır.
Çılxa – tamamilə
Xörək cılxa yağdır.
Coğa – dəstə

Qəfərilər coğa bağlıyıb gəlirlər bunların üstünə.
Cəngəri – pozuq yaşıl rəng
Bu lap cəngəridir.
Calamaq – dağıtmaq
Pişik südü caladı.

H.
Hoputmaq – marçıltı ilə yemək
Arvad elə hopudur ki, elə bil aclıqdan çıxıb.
Həngam – suvarma
Nəbi həngama gedir.

Ş.
Şelli – yüngül (adam)
Şellinin biridi.
Şinnik – kef, yemək.
Əligildə yaman şinnig var.
Şoynağ – yüngül (adam)
Çox şoynağ adamdır.
Çalatdı – təmiz iş görməyən
Onun qızı çox şalatdıdı.
Şalamaq – iri tikələrlə yemək
Çoban əppəyi elə şalladı ki, məəttəl qaldım.

Q.
Qıyımsız – xəsis
Bu kişi yaman qıyımsızdı.

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

k-003. Əli Bayramlı rayonu Udulu sovetliyi Tağılı kənd sakinləri Məlikova Mədinə (42 yaş) və Allahverdiyeva Pəricahan (78 yaş) söyləyiblər, Allahverdiyev Məhəmməd (30 yaş) və Rəhimov Gülağa (14 yaş) yazıblar. 16. 06. 1931 (25 oktyabr 1960-cı ildə köçürülüb.)

k-004. Tava kənd sakini 72 yaşlı Səmidova Gülnobat söyləyib, Ağayev Kamil (15 yaşlı) yazıb.

k-006. Buradakı ağıları Tava kəndində 1962-ci ilin yazında yas yerində ağlaşma gedə-gedə (Cəfərov Ələbbas öləndə) müxtəlif qadınlardan (Tava, Tağılı, Cəngən, Şorbaçı, Cındırlı) Əhməd Cəfərzdə yazıb.

k-007. Paşalı kənd sakini Əsgərov Kərbəlayı Almas Əsgər oğlu (110 yaşlı) deyib, Əsgərov Əmiraslan (13 yaşlı) yazıb.

k-008. Paşalı kənd sakini Rəcəbov Misirxan (62 yaşlı) deyib, Rəcəbov Həsənxan (14 yaşlı) yazıb.

k-009. Paşalı kənd sakini Musayev Əlisa (35 yaşlı) deyib, Musayev Ağamusa (14 yaş) yazıb.

k-012. Tava kənd sakini Həsənova Mənsimə (38yaş) deyib, 5-ci sinif şagirdi Həsənova Bənövşə yazıb. 10-14 dekabr 1966

k-013. Söyləyəni Həsənov Nəsir, yazanı Babayeva Hamayıl.

k-014 1958-ci ildə 14 yaşlı Zeynalov Kamran Tava kəndində valideyinlərindən və baba-nənəsində soruşub yazıb.

k-015. Tava kənd sakini Əzizova Gülxanım (75 yaşlı) söyləyib, Mirzəyeva Minurə və Cəfərzadə Əhməd yazıb. 6-10/11-1965

k-016. Şorbaçı kənd sakini Şahkərəmov Haqiqət söyləyib. Şamaxı rayon şorbaçı kənd 8 illik məktəbinin 5-ci sinif şagirdi Şahkərəmov Məzahir yazıb.

k-017. Paşalı kənd sakini Əsgərov Kərbəlayi Almas (110 yaşlı), Əsgərov Səfər (40 yaşlı) və Əsgərov Gülabbas (28 yaşlı) deyiblər.

k-018. Şorbaçı kənd sakinləri Mehrəliyev Əbülfəz (42 yaşlı), Zəminə (65 yaşlı), Əsli (21 yaşlı), Əliş (110 yaşlı) deyib.

k-019. Paşalı kənd sakini Əsgərova X.

k-020. Şikarova B

AX-007. Yazanı Əliyev Tahir. 1 fevral 1964.

AX-123. Tava kənd sakini Məhərrəmova Salı (78 yaş) söyləyib, Məhərrəmov Abbas (14 yaşlı) yazıb. 25.01.1964

AX-168. Tağılı kənd sakini Hüseynova Sürəyya (34 yaşlı) deyib, Hüseynov Məzahir (12 yaş) yazıb. 3/11-1964

# SON SÖZ

Cəfərzadələr ailəsi sənəti, peşəsindən asılı olmayaraq folklora çox bağlı olmuş, folklor nümunələrinin toplanmasına, istifadə və təbliğinə böyük əmək sərf etmişlər. Bu, yəqin ki, folklor vurğunu və daşıyıcısı nənəm Böyükxanım Cəfərzadənin sayəsində baş verib. Onun dediyi bayatı və nağıllar övladları tərəfindən toplanıb çap edilmiş və əsərlərində istifadə edilmişdir. Nənəmin danışdığı və mənim 1973-cü ildə lentə aldığım "Arzu-Qəmbər" dastanını isə mərhum professor Sədnik Paşayev çap edirib.

Anam, Xalq yazıçısı, professor Əzizə Cəfərzadənin uşaqlıqdan folklora marağı, əsərlərində istifadəsi onu ömrünün son illərində Bakı Dövlət Universitetinin Folklor kafedrasına bağlamışdır. Onun folklorla bağlı apardığı tədqiqatları 2020-ci ildə keçmiş aspirantı, BDU-nun dosenti Kəmalə İslamzadə ilə birlikdə "Folklor araşdırmaları" kitabında çap etdirməyə müvəffəq olmuşuq. Əlbəttə, bu ancaq dəryadan bir damladır. Əzizə ananın folklor toplularını bəlkə də bir neçə cild çap etdirməli olacağıq.

Professor Məmməd Cəfərzadə isə dilçi alim idi. İxtisasına baxmayaraq, onun da folklorla bağlı yazıları və xeyli toplusu vardır. Bunları biz dosent Afaq Ramazanova ilə birlikdə 2020-ci ildə "Dənizdən damlalar" kitabında dərc etdirmişik.

Elmlər doktoru Əhməd Cəfərzadə ixtisasca rus dili müəllimi idi, elmi işləri isə rus dilinin tədrisinə həsr edilib. Onun da zəngin folklor toplusu mövcuddur. Bəzilərini öz sağlığında mərhum professor Seyfəddin Qəniyevlə birgə çap etdirib. Əhməd və Əzizə Cəfərzadənin birgə topladıqları Amasiya-Oxçoğlu folklorunu, yəni "Nanaylar" kitabını 2020-ci ildə dərc etdirməyə müvəffəq olmuşuq.

2022-2023-cü illərdə ailəmizin folklor toplularının nəşrini folklorçu-alim, dosent Tacir Səmimi ilə birgə əməkdaşlığımız çərçivəsində davam etdirmşik. Bunun nəticəsində Əhməd Cəfərzadənin topladığı "Ataların özü ölsə də, sözü ölməyib" kitabı 2022-ci çap edildi. Bundan sonra Tacir Səmimi Cəfərzadələrin folklorşü-

naslığa, eləcə də digər sahələrə aid materiallarını "Üç müdrik" kitabına daxil edərək 2022-ci ildə nəşr etdirdi. Qarşınızdakı bu "Ağbaba və Şirvan folklor örnəkləri" kitabı isə Tacir Səmimi ilə birgə fəaliyyətimizin yeni nəticəsidir. O, kitabı professional folklorşünas kimi tərtib etməklə və geniş ön söz yazmaqla bir xeyirxah iş görmüşdür. Ona bu xeyirxah işinə görə Cəfərzadələr ailəsi və oxucular adından təşəkkür edirəm. Eləcə də bu kitabın materiallarını təqdim edən Aydın Cəfərzadəyə (Əhməd Cəfərzadənin oğlu), yığılmasında və texniki redaktəsində yardım edən Aygül Cəfərzadəyə (Əhməd Cəfərzadənin nəvəsi), kitabın yığılmasında və korrektəsində iştirak edən Vüsal Abiyevə öz minnətdarlığımı bildirirəm.

**Turan İbrahimov**

# KİTABIN İÇİNDƏKİLƏR

Ön söz (Tacir Səmimi)........................................................3

## AĞBABA FOLKLOR ÖRNƏKLƏRİ

Nanaylar (Əhməd Cəfərzadə)..............................................29
Qarapapaq tayfası..................................................................91

## ŞİRVAN-UDULU FOLKLOR ÖRNƏKLƏRİ

Ovsunlar...........................................................................106
Sayaçı sözləri ...................................................................108
Bayatılar...........................................................................115
Atalar sözləri.....................................................................272
Mərasim mahnıları ...........................................................282
Tapmacalar.......................................................................286
Yanıltmaclar.....................................................................306
Düzgülər...........................................................................308
Uduluda yer adları............................................................323
Uduluda işlənən bəzi şivə sözlərinin lüğəti.......................324
Söyləyicilər haqqında məlumat..........................................333
Son söz (Turan İbrahimov) ...............................................335

Qeyd üçün

Qeyd üçün

# AĞBABA VƏ ŞİRVAN FOLKLOR ÖRNƏKLƏRİ

Kompüter və dizayn: Vüsal Abiyev
Texniki redaktor: Ayğün Cəfərzadə
Korrektor: Vüsal Abıyev

Yığılmağa verilmişdir: 12.08.2023
Çapa imzalanmışdır: 30.08.2023
Şərti çap vərəqi: 21.5
Tirajı: 200

SkyE NPM-də hazır diapozitivlərdən çap olunmuşdur

# AĞBABA VƏ ŞİRVAN FOLKLOR ÖRNƏKLƏRİ